# Müstəqillik Günü və Qurban bayramınız mübarək!


# Xalq qəzeti

Xalqın qəzeti!

№ 93 (31062) 27 may 2026-cı il, çərşənbə

Gündəlik ictimai-siyasi qəzet

1919-cu ildən çıxır

Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsi


## Prezident İlham Əliyevin sosial media hesablarında Qurban bayramı ilə bağlı paylaşım edilib

**Azərbaycan Prezidenti İlham Əliyevin sosial media hesablarında Qurban bayramı münasibətilə paylaşım edilib.**




## Azərbaycan Respublikası 1918-ci ildə yaradılmış Xalq Cümhuriyyətinin varisidir



***Azərbaycan Xalq Cümhuriyyətinin yaradılması tarixi hadisədir. İlk dəfə olaraq müsəlman aləmində demokratik respublika yaradılmışdır. Biz haqlı olaraq fəxr edirik ki, bu respublikanı Azərbaycan xalqı yaradıbdır. Bu, bir daha onu göstərir ki, Azərbaycan xalqı böyük xalqdır, Azərbaycan xalqı azadlıqsevər, mütərəqqi xalqdır.***

***Azərbaycan xalqı və dövləti Azərbaycan Xalq Cümhuriyyətinin qurucularının xatirəsinə böyük hörmətlə yanaşır. Bakının mərkəzində "İstiqlal bəyannaməsi"ni imzalayan şəxslərin şərəfinə abidə ucaldılmışdır. Bugünkü müstəqil Azərbaycan Azərbaycan Xalq Cümhuriyyətinin varisidir.***

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

## Qurban bayramı münasibətilə Azərbaycan xalqına təbrik

**Hörmətli həmvətənlər!**

Sizi və Azərbaycanın hüdudlarından kənarda yaşayan bütün soydaşlarımızı müqəddəs Qurban bayramı münasibətilə ürəkdən təbrik edir, hər birinizə ən səmimi arzularımı yetirirəm.

İslamın sonuncu səmavi din və mənəvi-əxlaqi qurtuluş yolu olaraq bəşəriyyətə göndərilməsini təcəssüm etdirən Qurban bayramı günlərində milyonlarla müsəlman Həcc ziyarətində bir araya gəlir, birlik və bərabərliyin, nəcib amallar uğrunda hər cür fədakarlığa hazır olmanın qürur və sevincini yaşayır.

Hər il ölkəmizdə ümumxalq bayramı kimi qeyd olunan Qurban mərasimləri insanlar arasında həmrəylik, humanizm və mərhəmət duyğularını daha da gücləndirir, cəmiyyətimizdə milli-mənəvi dəyərlərə bağlılığın, xeyirxah əməllərin təntənəsinə çevrilir.

Əziz bacı və qardaşlarım!

Bu mübarək günlərdə şəhidlərimizin ölməz xatirəsini bir daha minnətdarlıqla yad edir, xalqımızın və dövlətimizin əmin-amanlığı naminə etdiyiniz duaların Tanrı dərgahında qəbul olunması diləyi ilə ailələrinizə xoşbəxtlik, süfrələrinizə bol ruzi və bərəkət arzulayıram.

**Qurban bayramınız mübarək olsun!**

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 26 may 2026-cı il**

## Azərbaycanın istiqlal savaşı



Səhifə ⇨ 9

## Xəzərdən Avropaya mötəbər enerji körpüsü

*Cənub Qaz Dəhlizinin istismara verilməsindən 8 il ötür*



**Xəzərin Azərbaycan sektorunda yerləşən "Şahdəniz" yatağından hasil edilən təbii qazı Avropaya çatdıran Cənub Qaz Dəhlizi etibarlı enerji marşrutudur. Avropanın enerji xəritəsinin zənginləşdirilməsinə, ölkəmizin iqtisadi qüdrətinin və beynəlxalq nüfuzunun artmasına xidmət edən bu nəhəng enerji infrastrukturu 2018-ci il mayın 29-da tam gücü ilə işə düşüb. Həmin gün Azərbaycan Prezidenti İlham Əliyevin iştirakı ilə Səngəçal terminalında Cənub Qaz Dəhlizinin rəsmi açılış mərasimi keçirilib.**

**(ardı 7-ci səhifədə)**

## Su torpağı cana gətirən həyat iksiridir

Səhifə ⇨ 12

## Bakı və Pekinin xarici siyasətində çoxqütblü dünyaya baxış



Səhifə ⇨ 4

## Osvald Şpenqlerdən İrakli Kobaxidzeyədək



Səhifə ⇨ 5

## Moskva–Bakı dialoqunun gündəliyi zənginləşir



Səhifə ⇨ 5

## Aqrar sektorda subsidiya islahatları



Səhifə ⇨ 7

## Koçaryan "inqilab" kartını açır



Səhifə ⇨ 10

# Azərbaycan Respublikasının Prezidenti Zati-aliləri cənab İlham Əliyevə

**Hörmətli Prezident Əliyev!**

Müstəqillik Gününüz münasibətilə Sizi və əziz Azərbaycan xalqını təbrik etmək istəyirəm.

2025-ci ilin avqust ayında Vaşinqtonda keçirilmiş tarixi sülh sammitindən bəri biz münasibətlərimizi yenidən canlandırmaq üçün birlikdə çalışmışıq və bunun nəticəsi olaraq Vitse-prezident Vens 2026-cı il fevralın 10-da Bakıda Sizinlə Strateji Tərəfdaşlıq Xartiyamızı imzalamışdır. Biz regional əlaqələr, iqtisadi münasibətlər və təhlükəsizlik sahəsində əməkdaşlıq üzrə tərəfdaşlığımızı daha da dərinləşdiririk və bu istiqamətlərdə, həmçinin digər sahələrdə əməkdaşlığımızı davam etdirməyi səbirsizliklə gözləyirik.

Birləşmiş Ştatlar Azərbaycan və Ermənistan arasındakı dayanıqlı sülhü dəstəkləməyə davam edir. Ötən ilin avqust ayında parafladığınız sülh sazişinin irəlilədilməsi istiqamətində Azərbaycanın göstərdiyi səylər, həmçinin sərhədlərin delimitasiyası üzrə davam edən proses, 2026-cı ilin yanvar ayında dörd erməni məhbusun azad olunması, Ermənistana yanacaq tədarükü və hər iki ölkənin vətəndaş cəmiyyətlərini bir araya gətirən "Sülh Körpüsü" təşəbbüsü bizi ruhlandırır.

Biz strateji tərəfdaşlığımızı gələcək illərdə və onilliklərdə daha da möhkəmləndirməyi səbirsizliklə gözləyirik.

Sizə və Azərbaycan xalqına ən xoş arzularımı çatdırıram.

**Hörmətlə,**

***Donald TRAMP,***
***Amerika Birləşmiş Ştatlarının Prezidenti***

***

**Cənab Prezident, əziz İlham!**

Azərbaycan Respublikasının milli bayramı münasibətilə Sizə və Azərbaycan xalqına sülh və firavanlıq arzulayıram.

Ötən il oktyabrın 2-də Kopenhagendə görüşümüzdən və bu il mayın 21-də son telefon danışığımızdan sonra, - istər regional məsələlər üzrə dialoqumuz, istərsə də iqtisadiyyat, mədəniyyət və təhsil sahələrində əməkdaşlığımız olsun, - bütün sahələrdə ikitərəfli münasibətlərimizin tam potensialından istifadə etmək üçün onları normallaşdırmaq istiqamətində işləməyə davam etmək niyyətimi bir daha bildirmək istərdim.

Bu baxımdan, bu il 10 illiyini qeyd edən Fransız-Azərbaycan Universiteti ilə bağlı əməkdaşlığımızın nümunəvi xarakterini xüsusi vurğulamaq istəyirəm.

Ümid edirəm ki, tərəfdaşlıq ruhunda ikitərəfli münasibətlərimizin inkişafına mane olan son çətinliklərin öhdəsindən gələ biləcəyik.

Həmçinin fürsətdən istifadə edərək, regionun bütün xalqlarının rifahı naminə yeni bir səhifə açmağa imkan verəcək Ermənistan və Azərbaycan arasında sülh prosesinin davam etdirilməsinə və başa çatdırılmasına Fransanın tam dəstəyini bir daha vurğulamaq istərdim.

Cənab Prezident, yüksək ehtiramımı qəbul etməyinizi xahiş edirəm.

**Hörmətlə,**

***Emmanuel MAKRON,***
***Fransa Respublikasının Prezidenti***

***

**Cənab Prezident!**

28 May - Müstəqillik Günü münasibətilə Sizə və Azərbaycan xalqına səmimi təbriklərimi çatdırıram.

Bir neçə həftə əvvəl telefon danışığımız zamanı qeyd etdiyim kimi, Almaniya ikitərəfli münasibətləri daha da genişləndirməkdə olduqca maraqlıdır. Çoxsaylı həll olunmamış münaqişələr, getdikcə sürətlənən iqlim dəyişikliyi və yeni geosiyasi gərginliklərlə səciyyələnən bu dövrdə biz birlikdə mühüm çağırışlarla üzləşirik.

Bu baxımdan Azərbaycan və Ermənistan arasında münasibətlərin normallaşdırılması istiqamətində əldə olunan irəliləyiş xüsusilə ruhlandırıcıdır. Sizin regionda qalıcı sülhün bərqərar olması yolundakı səylərinizin tezliklə davamlı uğur qazanmasını arzu edirəm.

Azərbaycan xalqını milli bayram münasibətilə ürəkdən təbrik edir, Sizə və ailənizə ən səmimi arzularımı çatdırıram.

***Frank-Valter ŞTAYNMAYER,***
***Almaniya Federativ Respublikasının Prezidenti***

***

**Zati-aliləri cənab Prezident!**

Ölkənizin milli bayramı münasibətilə Sizə və bütün Azərbaycan xalqına İtaliya xalqı adından və şəxsən öz adımdan ən səmimi təbriklərimi çatdırıram.

Dostluğun və səmərəli əməkdaşlığın çoxsaylı nümunələri, o cümlədən son zamanlardakı əlaqələrimiz Bakı ilə Roma arasında strateji tərəfdaşlığa olduqca konkret və müstəsna dəyər qazandırır. Bu tərəfdaşlıq son illərdə davamlı şəkildə inkişaf edib və başda enerji sahəsi olmaqla, qarşılıqlı maraq doğuran bir çox istiqamətləri əhatə edib.

Beynəlxalq vəziyyətin mürəkkəb çağırışlarının konstruktiv şəkildə həlli üçün dövlətlər arasında dialoqun və dinc əməkdaşlığın əhəmiyyətinə qətiyyətlə inanan və bunun vacib olduğunu hesab edən İtaliya Azərbaycan, Avropa İttifaqı və region ölkələri arasında sabitliyin, mehriban qonşuluq münasibətlərinin və qarşılıqlı etimadın təşviqinə yönəlmiş bütün təşəbbüsləri dəstəkləməyə davam edir.

Cənab Prezident, ölkənizə son səfərimi və əvvəlki görüşlərimizi böyük məmnuniyyətlə xatırlayaraq, Sizə, ailənizə, dost Azərbaycan xalqına rifah və firavanlıq arzularımı bir daha çatdırıram.

**Hörmətlə,**

***Sercio MATTARELLA,***
***İtaliya Respublikasının Prezidenti***

***

**Hörmətli cənab Prezident!**

Azərbaycan Respublikasının milli bayramı münasibətilə Sizə ən səmimi təbriklərimi çatdırmaqdan böyük məmnunluq duyuram.

Azərbaycan ilə Avstriya arasında əla ikitərəfli münasibətlər mövcuddur. Azərbaycan və Ermənistan arasında hər iki ölkənin xalqlarının qarşılıqlı rifahı naminə davamlı sülh və təhlükəsizlik perspektivləri reallaşmağa yaxınlaşdıqca gələcək əməkdaşlıq imkanları artmaqda davam edəcək.

Çoxtərəfli kontekstdə, icazə verin, 2027-2028-ci illərdə BMT Təhlükəsizlik Şurasına üzvlük üçün Avstriyanın namizədliyinin Azərbaycan tərəfindən dəstəklənməsinə görə minnətdarlığımı bildirim.

Fürsətdən istifadə edərək, Sizə və ailənizə rifah diləyir, həmçinin Azərbaycan xalqının dinc və xoşbəxt gələcəyi ilə bağlı ən xoş arzularımı çatdırıram.

**Hörmətlə,**

***Aleksander Van der BELLEN,***
***Avstriya Respublikasının Federal Prezidenti***

***

**Hörmətli cənab Prezident, Əziz Dostum!**

Serbiya Respublikası vətəndaşları adından və şəxsən öz adımdan Azərbaycan Respublikasının Müstəqillik Günü münasibətilə Sizi ürəkdən təbrik edir, ölkənizin və onun vətəndaşlarının gələcək rifahı, tərəqqisi, firavanlığı ilə bağlı ən xoş arzularımı bildirirəm.

Fürsətdən istifadə edərək Serbiya Respublikası ilə Azərbaycan Respublikası arasında qarşılıqlı etimad, həmrəylik və strateji tərəfdaşlıqla xarakterizə olunan münasibətlərin inkişaf tempindən böyük məmnunluğumu ifadə edirəm.

Ümumdünya Şəhərsalma Forumunun Bakıda keçirilən 13-cü Sessiyasında iştirakım zamanı görüşümüzü xüsusi məmnunluq və minnətdarlıqla xatırlayıram. Yüksək qonaqpərvərlik və səmərəli müzakirələr ölkələrimiz arasında enerji, infrastruktur, investisiyalar və ümumi iqtisadi əlaqələr kimi əhəmiyyətli sahələrdə qarşılıqlı əməkdaşlığı daha da genişləndirmək üçün birgə səylərimizi bir daha təsdiqlədi.

Eyni zamanda, ölkələrimiz arasında qarşılıqlı anlaşmanın və beynəlxalq hüquqa riayət olunmasının təsdiqi kimi yüksək qiymətləndirdiyimiz Serbiya Respublikasının suverenliyinin və ərazi bütövlüyünün qorunmasına verdiyi prinsipial və ardıcıl dəstəyə görə Azərbaycan Respublikasına səmimi təşəkkürümü bildirirəm. Serbiya Azərbaycanın suverenliyinə və ərazi bütövlüyünə hörmət etməyə tam şəkildə sadiq qalır.

Hörmətli cənab Prezident, ən yüksək ehtiramımı qəbul etməyinizi xahiş edirəm.

***Aleksandar VUÇİÇ,***
***Serbiya Respublikasının Prezidenti***

***

**Möhtərəm İlham Heydər oğlu!**
**Əziz Qardaşım!**

Zati-alinizi və qardaş Azərbaycan xalqını ölkənizin milli bayramı - Müstəqillik Günü münasibətilə səmimi-qəlbdən təbrik etməkdən və ən xoş arzularımı bildirməkdən böyük məmnunluq duyuram.

Xüsusilə qeyd etmək istərdim ki, Sizin müdrik rəhbərliyinizlə Azərbaycanda bütün sahələrdə mühüm dəyişikliklər və genişmiqyaslı islahatlar həyata keçirilir, xalqın rifahı və həyat səviyyəsi yüksəlir, regionlarda böyük quruculuq və abadlıq işləri aparılır.

Bu yaxınlarda məhz Sizin təşəbbüsünüzlə gözəl və bənzərsiz Bakı şəhərində Ümumdünya Şəhərsalma Forumunun 13-cü Sessiyası olduqca yüksək səviyyədə və uğurla təşkil edildi. Bu, Azərbaycanın beynəlxalq aləmdə nüfuz və mövqeyinin getdikcə daha da möhkəmləndiyinin növbəti parlaq göstəricisidir.

Əlbəttə, son illərdə birgə və qətiyyətli səylərimiz nəticəsində ölkələrimiz arasında siyasi, iqtisadi-ticari, mədəni-humanitar və digər prioritet sahələrdə əməkdaşlığın sürətlə inkişaf etməsi, strateji tərəfdaşlıq və müttəfiqlik münasibətlərinin tamamilə yeni mərhələyə yüksəlməsi bizə böyük məmnunluq bəxş edir.

Sizinlə müntəzəm olaraq keçirdiyimiz səmərəli görüşlər və qarşılıqlı dialoq nəticəsində əldə edilən mühüm razılaşmaların tam şəkildə icra olunmasının çoxşaxəli əlaqələrimizin daha da möhkəmlənməsinə xidmət edəcəyinə əminəm.

Möhtərəm İlham Heydər oğlu, bu xoş fürsətdən istifadə edərək Sizə uzun ömür, möhkəm cansağlığı, ailə səadəti və yüksək məsuliyyət tələb edən ali dövləti fəaliyyətinizdə böyük uğurlar, qardaş Azərbaycan xalqına isə daim əmin-amanlıq, rifah və tərəqqi arzulayıram.

**Səmimi ehtiramla,**

***Şavkat MİRZİYOYEV,***
***Özbəkistan Respublikasının Prezidenti***

***

**Hörmətli cənab Prezident!**

Azərbaycan Respublikasının Müstəqillik Günü münasibətilə təbriklərimi və ən xoş arzularımı qəbul etməyinizi xahiş edirəm.

Bu xoş fürsətdən istifadə edərək, Ümumdünya Şəhərsalma Forumunun Bakıda keçirilən 13-cü Sessiyası zamanı mənə və nümayəndə heyətimə göstərilən səmimi qonaqpərvərliyə görə minnətdarlığımı bildirirəm. Bolqarıstan bələdiyyələrinin 10-dan çox meri, həmçinin Bolqarıstanın ali təhsil müəssisələrinin nümayəndələrinin iştirak etdikləri Sessiya ilə bağlı bizdə olduqca xoş təəssüratlar yarandı. Eyni zamanda, üç ay ərzində Sizinlə keçirilən ikinci ikitərəfli görüşdən məmnunluğumu vurğulayıram. Bu, ölkələrimiz arasında ən yüksək səviyyədə intensiv siyasi dialoqun sübutudur.

Münasibətlərimizdəki müsbət siyasi dinamikanın hər iki tərəf üçün faydalı əməli nəticələrə və layihələrə çevrilməli olduğu fikrinizi tamamilə bölüşürəm. Hesab edirəm ki, enerji sahəsində əməkdaşlıqla bağlı danışıqlarımız zamanı əldə edilən razılaşmaların həyata keçirilməsi, Bolqarıstan şirkətlərinə Azərbaycanın təbii qazının tədarükünün artırılması, həmçinin Azərbaycan, Gürcüstan, Türkiyə və Bolqarıstan arasında "yaşıl enerji"nin quru yolla ötürülməsi üçün ikinci enerji dəhlizinin müzakirə olunan potensialı münaqişələr və qeyri-sabitlik səbəbindən sarsılmış bugünkü dünyada zəruri investisiyalardır. Sənaye zonaları və texnoloji parklar sahəsində tərəfdaşlıq münasibətlərinin intensivləşdirilməsi, eyni zamanda, xalqlarımız arasında təhsil və mədəniyyət sahələrində əlaqələrin genişləndirilməsi də Bolqarıstan üçün vacib prioritet sahələrdir.

Sizi Bolqarıstanda qonağımız kimi qəbul etmək, Veliko Tırnovo şəhərində "Şuşa Parkı"nın dostluq münasibətlərimizin parlaq rəmzi olaraq birgə açılışını etmək mənim üçün şərəf olardı.

Yaxın gələcəkdə Zati-alinizi Bolqarıstanda salamlamaq imkanımın olacağı ümidi ilə Sizə və ailənizə cansağlığı, ali dövləti fəaliyyətinizdə daha böyük uğurlar arzulayıram.

**Hörmətlə,**

***İliyana YOTOVA,***
***Bolqarıstan Respublikasının Prezidenti***

***

**Zati-aliləri!**

Pakistan İslam Respublikasının Hökuməti və xalqı adından, həmçinin şəxsən öz adımdan Zati-alinizə, Azərbaycan Respublikasının Hökumətinə və qardaş xalqına Müstəqillik Günü münasibətilə ən səmimi təbriklərimi və xoş arzularımı çatdırıram.

Pakistan və Azərbaycan ortaq dini etiqadımız, zəngin mədəni irsimiz və ümumi dəyərlərimizdən güc alan dərin qardaşlıq münasibətləri ilə bir-birinə bağlıdır. İllər ərzində ikitərəfli əlaqələrimiz qarşılıqlı etimad, anlaşma və bir-birimizin əsas milli maraqlarına dair məsələlərdə qətiyyətli dəstəyə əsaslanan möhkəm və davamlı tərəfdaşlığa yüksəlmişdir.

Pakistan xalqı Zati-alinizin müdrik və uzaqgörən rəhbərliyi ilə Azərbaycan Respublikasının əldə etdiyi mühüm sosial-iqtisadi tərəqqi və rifaha ürəkdən sevinir. Qardaş xalqlarımızın qarşılıqlı maraqları naminə, xüsusən ikitərəfli ticarət, enerji bağlantıları, müdafiə və insanlararası əlaqələr sahələrində çoxtərəfli əməkdaşlığımızı daha da dərinləşdirməyə və şaxələndirməyə qətiyyətlə sadiqik.

Fürsətdən istifadə edərək Zati-alinizə möhkəm cansağlığı və xoşbəxtlik, qardaş Azərbaycan xalqına isə davamlı sülh, tərəqqi və rifah arzulayıram.

Zati-aliləri, ən yüksək ehtiramımı qəbul etməyinizi xahiş edirəm.

***Asif Əli ZƏRDARİ,***
***Pakistan İslam Respublikasının Prezidenti***

***

**Zati-aliləri!**

İsrail Dövləti və vətəndaşları adından Azərbaycan Respublikasının Müstəqillik Günü münasibətilə Sizə ən xoş arzularımı çatdırmaqdan məmnunluq duyuram. Qoy qürur duyduğumuz bu bayram günü dövlətiniz və xalqınız üçün daha bir sülh, rifah ilinin başlanğıcı olsun!

Azərbaycanla strateji cəhətdən həyati əhəmiyyətli və fəal inkişaf edən əlaqələrimiz İsraildə yüksək dəyərləndirilir. Bu, təkcə siyasətlə məhdudlaşmır, xalqlarımız arasında səmimi dostluq münasibətləri də mövcuddur.

Sizi dost adlandırmaq mənim üçün xüsusi şərəfdir və mən açıq, səmimi dialoqumuza böyük dəyər verirəm. İlin əvvəlində Davosda Sizi görmək fürsətini səmimi-qəlbdən qiymətləndirirəm.

Ortaq bölgəmizdə bir çox çətinliklər var və Azərbaycan ilə İsrail bu mürəkkəb mühitdə sabitliyin iki lövbəri rolunu oynayır. Bundan başqa, mən qəti şəkildə inanıram ki, sıx, ikitərəfli əlaqələrimiz Avrasiyada bir çox digər iştirakçılara müsbət təsir göstərir.

Bu baxımdan, iqtisadi əməkdaşlığımızda, xüsusilə də enerji sahəsində nail olduğumuz əhəmiyyətli irəliləyişlər barədə məlumat əldə etməkdən çox məmnun oldum. Ümid edirəm ki, əlaqələrimiz növbəti ildə də möhkəmlənməyə davam edəcək.

Qoy qarşıdan gələn il böyük Azərbaycan dövləti və onun xalqı üçün davamlı uğurlar və tərəqqi ili olsun!

**Hörmətlə və ən xoş arzularla,**

***İsxak HERSOQ,***
***İsrail Dövlətinin Prezidenti***

***

**Cənab Prezident!**

Azərbaycan Respublikasının milli bayramı – Müstəqillik Günü münasibətilə Zati-alinizə İspaniya Hökuməti və xalqı adından ən səmimi təbriklərimi çatdırıram.

Cənab Prezident, Sizə cansağlığı, sevimli Azərbaycan xalqına sülh, firavanlıq və tərəqqi arzulayıram.

**Dərin hörmət və ehtiramla,**

***VI FELİPE,***
***İspaniyanın Kralı***

***

**Zati-aliləri!**

İsveçrə Federal Şurası və İsveçrə xalqı adından Azərbaycan Respublikasının Müstəqillik Günü münasibətilə Sizə və xalqınıza səmimi təbriklərimi çatdırıram. Həmçinin ölkənizin və xalqınızın xoşbəxt, uğurlu gələcəyi ilə bağlı ən xoş arzularımı bildirirəm.

Azərbaycan və İsveçrə möhkəm ikitərəfli əlaqələrə malikdir. Əminəm ki, Cənubi Qafqazda müsbət dəyişiklikləri nəzərə alaraq, bu əlaqələrimiz qarşıdakı illərdə də konstruktiv şəkildə inkişaf edəcəkdir.

Zati-aliləri, Sizə olan yüksək ehtiramımı qəbul etməyinizi xahiş edirəm.

***Gi PARMELİN,***
***İsveçrə Konfederasiyasının Prezidenti***

***

**Zati-aliləri!**

İndoneziya Respublikasının Hökuməti və xalqı adından, həmçinin şəxsən öz adımdan Azərbaycan Respublikasının Müstəqillik Gününün 108-ci ildönümü münasibətilə Zati-alinizə və xalqınıza ən səmimi təbriklərimi çatdırmaqdan böyük şərəf duyuram.

Dərin və mürəkkəb geosiyasi dəyişikliklərlə səciyyələnən müasir dövrdə Azərbaycan özünü sabitliyin və tərəqqinin mühüm sütunlarından biri kimi uğurla təsdiq etmişdir. Avropa ilə Asiyanın strateji kəsişməsində yerləşən Azərbaycanın təşəbbüskar diplomatiyası, transmilli əlaqələrin inkişafında mühüm rolu və qlobal enerji təhlükəsizliyinə verdiyi əhəmiyyətli töhfə ölkənizin müasir beynəlxalq arenada əvəzolunmaz əhəmiyyətini nümayiş etdirir.

İndoneziya Azərbaycanı yalnız dost ölkə kimi deyil, həm də qlobal reallıqların idarə olunmasında mühüm tərəfdaş kimi qiymətləndirir. Ortaq dəyərlərimizi və qarşılıqlı maraqlarımızı nəzərə alaraq, İndoneziya ikitərəfli münasibətlərimizin daha da inkişaf etdirilməsinə sadiqdir. Ticarət, enerji və sosial-mədəni əlaqələr kimi əsas sahələrdə yeni əməkdaşlıq imkanlarının genişləndirilməsini səbirsizliklə gözləyirik. Əminəm ki, həm ikitərəfli kontekstdə, həm də çoxtərəfli platformalarda sıx əməkdaşlığımızı davam etdirməklə ölkələrimiz yalnız xalqlarımız üçün daha böyük faydalar yaratmayacaq, eyni zamanda, qlobal sülhə və davamlı inkişafa mühüm töhfələr verəcəklər.

Zati-alinizə möhkəm cansağlığı və davamlı müvəffəqiyyət, Azərbaycan xalqına isə sülh, rifah və firavanlıq arzularımı səmimiyyətlə çatdırıram.

Ən yüksək ehtiramımı qəbul etməyinizi xahiş edirəm.

***Prabovo SUBİANTO,***
***İndoneziya Respublikasının Prezidenti***

***

**Zati-aliləri!**

Əlamətdar bayram – ölkənizin müstəqilliyinin 108-ci ildönümü münasibətilə Zati-alinizə və hörmətli Azərbaycan xalqına səmimi təbriklərimi və xoş arzularımı çatdırıram.

Bu il Malayziya ilə Azərbaycan arasında diplomatik münasibətlərin qurulmasının 33-cü ildönümünü qeyd edirik. İkitərəfli münasibətlərimizin inkişafından məmnunam və əminəm ki, bu əməkdaşlıq ruhu hər zaman xalqlarımızın rifahı üçün faydalı olacaqdır. Malayziya ikitərəfli əlaqələrimizi daha da möhkəmləndirməyə və inkişaf etdirməyə sadiq qaldığını bir daha təsdiqləyir.

Zati-aliləri, Sizə möhkəm cansağlığı və rifah, Azərbaycan vətəndaşlarına sülh və firavanlıq arzularımı qəbul etməyinizi xahiş edirəm.

**Hörmətlə,**

***Əlahəzrət Sultan İBRAHİM,***
***Malayziyanın Kralı***

***

**Hörmətli cənab Prezident!**

İcazə verin, Azərbaycanın Müstəqillik Günü münasibətilə BMT-nin Ərzaq və Kənd Təsərrüfatı Təşkilatı adından və şəxsən öz adımdan Zati-alinizi təbrik edim. Sizə möhkəm cansağlığı və xoşbəxtlik arzulayıram. Qoy, xalqınız həmişə sülh və firavanlıq içində yaşasın.

**Ən yüksək ehtiramla,**

***Qu DONQYU,***
***BMT-nin Ərzaq və Kənd***
***Təsərrüfatı Təşkilatının Baş direktoru***

***

**Hörmətli cənab Prezident!**

Ölkənizin Müstəqillik Günü münasibətilə Sizə ən səmimi təbriklərimi çatdırmaqdan məmnunluq duyuram. Sizə cansağlığı, xoşbəxtlik və müvəffəqiyyət, qardaş Azərbaycan xalqına və hökumətinizə daha böyük tərəqqi, firavanlıq arzulayıram.

Dəyər verdiyimiz ikitərəfli münasibətlərimizin daha da inkişaf etməsi və möhkəmlənməsi ilə bağlı səmimi istəyimi bir daha ifadə edir, Fələstin məsələsində Azərbaycanın mövqeyini yüksək qiymətləndirdiyimi bildirirəm.

Sizi və xalqınızı, həmçinin müqəddəs Qurban bayramı münasibətilə təbrik edir və ən xoş salamlarımı qəbul etməyinizi xahiş edirəm.

***Mahmud ABBAS,***
***Fələstin Dövlətinin Prezidenti, Fələstin Azadlıq***
***Təşkilatı İcraiyyə Komitəsinin sədri***

***

**Hörmətli Prezident!**

Azərbaycan Respublikasının Müstəqillik Günü münasibətilə Sizə və xalqınıza Xorvatiya Respublikasının Hökuməti adından və şəxsən öz adımdan təbriklərimi çatdırıram.

Xorvatiya Respublikası dialoq, qarşılıqlı hörmət və əməkdaşlıq yolu ilə müxtəlif sahələrdə ikitərəfli əlaqələrimizin daha da möhkəmləndirilməsinə böyük əhəmiyyət verir. Əminəm ki, Xorvatiya ilə Azərbaycan arasındakı dostluq və strateji tərəfdaşlıq xalqlarımızın rifahı naminə birgə səylərimizlə daha da dərinləşəcək.

Xorvatiya Respublikası ümumi əməkdaşlığımızı xüsusən də ticarət və enerji təhlükəsizliyi sahələrində daha da gücləndirməkdə maraqlıdır. İqtisadi əlaqələrimiz böyük əhəmiyyət kəsb edir, xüsusilə Xorvatiya və Azərbaycan şirkətləri arasında daha sıx əməkdaşlığı təşviq etmək və qarşılıqlı investisiyaları artırmaqla mühüm inkişaf potensialına malikdir.

Cənab Prezident, bayram münasibətilə Sizə ən xoş arzularımı bir daha çatdırır, ən yüksək ehtiramımı qəbul etməyinizi xahiş edirəm.

***Andrey PLENKOVİÇ,***
***Xorvatiya Respublikasının Baş naziri***

***

**Möhtərəm İlham Heydər oğlu!**

Azərbaycan Respublikasının Müstəqillik Günü münasibətilə səmimi təbriklərimi qəbul etməyinizi xahiş edirəm.

Bu tarixi gün Azərbaycan xalqının müstəqillik və suveren inkişafla bağlı sarsılmaz iradəsinin rəmzinə çevrilib.

Bu gün Azərbaycan dinamik tərəqqi yolunda inamla irəliləyir, iqtisadi, sosial sahələrdə böyük uğurlar qazanır və beynəlxalq arenada öz nüfuzunu möhkəmləndirir.

Əminəm ki, Sizin ali dövləti vəzifənizdə fəaliyyətiniz Azərbaycan Respublikasının daha da inkişafına və Müstəqil Dövlətlər Birliyi çərçivəsində çoxplanlı səmərəli əməkdaşlığın möhkəmlənməsinə xidmət edəcək.

Möhtərəm İlham Heydər oğlu, Sizə möhkəm cansağlığı, rifah, Azərbaycan xalqına isə sülh və tərəqqi arzulayıram.

**Dərin hörmətlə,**

***Sergey LEBEDEV,***
***Müstəqil Dövlətlər Birliyinin Baş katibi***

***

**Möhtərəm cənab Prezident!**

Türk Mədəniyyəti və İrsi Fondu adından və şəxsən öz adımdan Zati-alinizi və Azərbaycan xalqını 28 May - Müstəqillik Günü münasibətilə ürəkdən təbrik etməkdən dərin məmnunluq duyuram. Sizə ali dövləti fəaliyyətinizdə müvəffəqiyyətlər, Azərbaycan xalqına daim tərəqqi və firavanlıq arzu edirəm.

Bu əlamətdar gün Azərbaycan xalqının şanlı tarixinin, güclü iradəsinin və müstəqilliyə olan sarsılmaz inamının rəmzidir. Bu gün Azərbaycanın müstəqilliyi Sizin rəhbərliyinizlə daha da möhkəmlənib. Azərbaycan hazırda beynəlxalq arenada öz sözünü demiş bir dövlət kimi layiqli yerini tutur.

Təşəbbüsünüzlə yaradılmış Türk Mədəniyyəti və İrsi Fondu Türk dünyasının birliyini, ortaq mədəni irsimizin qorunmasını və gələcək nəsillərə ötürülməsini qürurla həyata keçirir. Azərbaycan bu böyük Türk ailəsinin iftixar qaynağı, mədəniyyəti, dili və tarixi ilə Türk dünyasının möhkəm sütunlarından biridir. Zati-aliniz tərəfindən Azərbaycan mədəniyyətinin, ədəbiyyatının, dilinin, mədəni irsinin qorunması sahəsində görülən işlər Türk dünyasının tərəqqisinə əvəzsiz töhfədir.

Bu münasibətlə xüsusilə qeyd etmək istərdim ki, 1926-cı ildə Bakıda təşkil olunmuş Birinci Türkoloji Qurultayın 100 illik yubileyinin keçirilməsi haqqında Sərəncamınız son dərəcə tarixi əhəmiyyət daşıyır. Həmin Sərəncam türk xalqlarının intellektual birliyinin, ortaq elminin, mədəniyyətinin və dilinin dərin köklərini dünyaya bir daha nümayiş etdirən mühüm siyasi iradənin ifadəsidir. Fond olaraq biz də bu tarixi hadisənin layiqincə qeyd edilməsi üçün öz töhfəmizi verməyə hazırıq və bu istiqamətdə müvafiq işlər aparırıq.

Hörmətli cənab Prezident, fürsətdən istifadə edərək, Sizi və Azərbaycan xalqını Qurban bayramı münasibətilə də ürəkdən təbrik edir, Zati-alinizə möhkəm cansağlığı, bütün dualarınızın və qurbanlarınızın qəbul olunmasını arzulayıram.

**Dərin hörmət və ehtiramla,**

***Aktotı RAİMKULOVA,***
***Türk Mədəniyyəti və İrsi Fondunun prezidenti***

***

**Hörmətli cənab Prezident!**

bp şirkəti adından Sizi və Azərbaycan xalqını 28 May - Müstəqillik Günü münasibətilə səmimi-qəlbdən təbrik edirəm.

Azərbaycanda dünya miqyaslı enerji layihələrini təhlükəsiz, səmərəli və etibarlı şəkildə həyata keçirməkdən qürur duyuruq. Bu layihələrin uğurlu icrasında Sizin davamlı dəstəyiniz, həmçinin SOCAR və Azərbaycan Hökuməti ilə qurulmuş etibarlı və strateji tərəfdaşlıq münasibətləri mühüm rol oynayır.

Biz SOCAR ilə uzunmüddətli tərəfdaşlığımızın qarşıdakı onilliklər ərzində daha da genişlənərək həm Xəzər regionunda, həm də onun hüdudlarından kənarda yeni əməkdaşlıq imkanları yaradacağına əminik.

bp olaraq, Azərbaycanın enerji təhlükəsizliyinə, dayanıqlı inkişafına və regional əməkdaşlığın möhkəmləndirilməsinə bundan sonra da töhfə vermək öhdəliyimizə sadiq qalırıq.

Bu əlamətdar gün münasibətilə Sizi bir daha ürəkdən təbrik edir, Sizə möhkəm cansağlığı və uğurlar, Azərbaycan xalqına isə sülh, firavanlıq və tərəqqi arzulayıram.

**Hörmətlə,**

***Cio KRİSTOFOLİ,***
***bp-nin Azərbaycan, Gürcüstan və Türkiyə üzrə***
***regional prezidenti***

# Azərbaycan və İran prezidentlərinin telefon danışığı

**Mayın 26-da Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevlə İran İslam Respublikasının Prezidenti Məsud Pezeşkian arasında telefon danışığı olub.**

Dövlət başçıları müqəddəs Qurban bayramı münasibətilə bir-birilərinə təbriklərini çatdırıb, Azərbaycan və İran xalqlarına firavanlıq və ruzi-bərəkət arzulayıblar.

İran İslam Respublikasının Prezidenti ölkəsinin üzləşdiyi ağır günlərdə Azərbaycanın göstərdiyi humanitar yardımlara görə bir daha təşəkkürünü bildirib.

Prezident İlham Əliyev öz növbəsində qeyd edib ki, Azərbaycan və İran yaxşı günlərdə də, ağır günlərdə də hər zaman bir-birinin yanındadır.

Telefon söhbəti zamanı ikitərəfli əlaqələrin inkişafı və perspektivləri barədə fikir mübadiləsi aparılıb.

***Prezidentin Mətbuat Xidməti***

# Gürcüstanın Prezidenti Zati-aliləri cənab Mixeil Kavelaşviliyə

**Hörmətli cənab Prezident!**

Gürcüstanın milli bayramı – Müstəqillik Günü münasibətilə Sizi və dost Gürcüstan xalqını öz adımdan və Azərbaycan xalqı adından səmimi-qəlbdən təbrik edirəm.

Azərbaycan-Gürcüstan dostluq əlaqələrinin bugünkü yüksək səviyyəsi qonşu xalqlarımızın əsrlər boyu bir-birinə bəslədiyi dərin rəğbət, hörmət və etimaddan güc alır. Hazırda dövlətlərarası münasibətlərimizin dinamik və hərtərəfli inkişafı məmnunluq doğurur.

Keçən ay dost ölkənizə həyata keçirdiyim dövlət səfərinin nəticələrini, səfər zamanı göstərdiyiniz qonaqpərvərliyi və əsl dost münasibətini yüksək qiymətləndirir, qarşılıqlı anlaşma və səmimiyyət şəraitində keçən məhsuldar görüşümüzü, apardığımız fikir mübadiləsini ən xoş təəssüratlarla xatırlayıram.

Siyasi əlaqələrimizin intensivliyi və ali səviyyədə fəal dialoqun mövcudluğu bütün sahələrdə əməkdaşlığımızın daha da dərinləşdirilməsi üçün əlverişli imkan yaradır.

İnanıram ki, dövlətlərimizin maraqları, xalqlarımızın mənafeyi və regionumuzun rifahı naminə sağlam təməllər üzərində qurulmuş və xoş ənənələrə əsaslanan Azərbaycan-Gürcüstan strateji tərəfdaşlığı birgə səylərimizlə bundan sonra da möhkəmlənməyə və genişlənməyə davam edəcəkdir.

Bu bayram günündə Sizə möhkəm cansağlığı, xoşbəxtlik, işlərinizdə uğurlar, dost və qardaş Gürcüstan xalqına daim əmin-amanlıq və firavanlıq arzulayıram.

Hörmətlə,

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 22 may 2026-cı il**

# 2026-cı il üçün Azərbaycan Respublikasının elm və mədəniyyət sahələrində Dövlət Mükafatlarının verilməsi haqqında

## *Azərbaycan Respublikası Prezidentinin Sərəncamı*

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, Azərbaycan Respublikasının Elm, texnologiya, memarlıq, mədəniyyət və ədəbiyyat üzrə Dövlət Mükafatları Komissiyasının təklifinə əsasən **qərara alıram:**

2026-cı il üçün Azərbaycan Respublikasının elm və mədəniyyət sahələrində Dövlət Mükafatları aşağıdakı şəxslərə verilsin:

**Elm sahəsi üzrə**

Asəf Hacı oğlu Hacıyev – "Çoxölçülü reqressiya analizi və süni intellekt" kitabına görə

Tarix Meyrut oğlu Dostiyev – Orta əsr Gəncə və Şəmkir şəhər yerlərində aparılan arxeoloji qazıntılar əsasında əldə etdiyi fundamental elmi nəticələrə görə

**Mədəniyyət sahəsi üzrə**

Eldar Hidayət oğlu Mikayılzadə – "Azərbaycan xalçası – ilmələrin rəqsi", "Xəmsə" silsilələri və "Səmavi dinlər" triptixinə görə.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 26 may 2026-cı il**

# R.A.Əliyevin 2-ci dərəcəli "Vətənə xidmətə görə" ordeni ilə təltif edilməsi haqqında

## *Azərbaycan Respublikası Prezidentinin Sərəncamı*

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 23-cü bəndini rəhbər tutaraq **qərara alıram:**

Azərbaycan Respublikasının ictimai həyatında uzunmüddətli səmərəli fəaliyyətinə görə Rauf Asif oğlu Əliyev 2-ci dərəcəli "Vətənə xidmətə görə" ordeni ilə təltif edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 26 may 2026-cı il**

# Apellyasiya məhkəmələri sədrlərinin, məhkəmə kollegiyası sədrinin, birinci instansiya məhkəmələri sədrlərinin və hakimlərinin təyin edilməsi ilə bağlı bəzi məsələlər haqqında

## *Azərbaycan Respublikası Prezidentinin Sərəncamı*

Məhkəmə-Hüquq Şurasının təkliflərini nəzərə alaraq, Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 9-cu və 32-ci bəndlərini rəhbər tutaraq **qərara alıram:**

**1** "Məhkəmələr və hakimlər haqqında" Azərbaycan Respublikası Qanununun 94-cü maddəsinə uyğun olaraq,

**apellyasiya məhkəmələri üzrə:**

1.1. aşağıdakı hakimlər apellyasiya məhkəmələrinin sədrləri təyin edilsinlər:

Əkbərov Mübariz Dosməmməd oğlu – Bakı Apellyasiya Məhkəməsinin sədri

Paşayev Tofiq Temir oğlu – Sumqayıt Apellyasiya Məhkəməsinin sədri

Quliyev Nuru Nadir oğlu – Şəki Apellyasiya Məhkəməsinin sədri

Abdullayev Vəli Əsgər oğlu – Şirvan Apellyasiya Məhkəməsinin sədri;

**ağır cinayətlər məhkəmələri üzrə:**

1.2. Rəşad Şəmşir oğlu Əliyev Sumqayıt Ağır Cinayətlər Məhkəməsinin sədri təyin edilsin;

1.3. Rafail Əyyub oğlu Əliyev Şəki Ağır Cinayətlər Məhkəməsinin sədri təyin edilsin.

**2** "Məhkəmələr və hakimlər haqqında" Azərbaycan Respublikası Qanununun 94-cü maddəsinə və 97-ci maddəsinin ikinci hissəsinə uyğun olaraq,

**apellyasiya məhkəmələri üzrə:**

2.1. Fikrət Cilingir oğlu Hüseynov Şirvan Apellyasiya Məhkəməsinin İnzibati Kollegiyasının sədri təyin edilsin;

**ağır cinayətlər məhkəmələri üzrə:**

2.2. Zaur Arif oğlu Hacıyev Bakı Hərbi Məhkəməsinin hakimi vəzifəsindən azad edilərək Bakı Ağır Cinayətlər Məhkəməsinin hakimi təyin edilsin;

2.3. Günel Kamil qızı Səmədova Bakı Hərbi Məhkəməsinin hakimi vəzifəsindən azad edilərək Bakı Ağır Cinayətlər Məhkəməsinin hakimi təyin edilsin;

2.4. Azər Ramiz oğlu Tağıyev Bakı şəhəri Səbail Rayon Məhkəməsinin hakimi vəzifəsindən azad edilərək Sumqayıt Ağır Cinayətlər Məhkəməsinin hakimi təyin edilsin;

**hərbi məhkəmələr üzrə:**

2.5. Taleh Məhəmmədəli oğlu Mustafayev Goranboy Rayon Məhkəməsinin hakimi vəzifəsindən azad edilərək Gəncə Hərbi Məhkəməsinin hakimi təyin edilsin;

**kommersiya məhkəmələri üzrə:**

2.6. Gündüz Əhməd oğlu Şirinov Samux Rayon Məhkəməsinin hakimi və sədri vəzifələrindən azad edilərək Gəncə Kommersiya Məhkəməsinin hakimi və sədri təyin edilsin;

**Bakı şəhərinin rayon məhkəmələri üzrə:**

2.7. Vahid Nəriman oğlu Sadıqov Bakı şəhəri Xətai Rayon Məhkəməsinin hakimi və sədri təyin edilsin;

**rayon (şəhər) məhkəmələri üzrə:**

2.8. Tərlan Vaqif oğlu Nüsrətov Cəbrayıl Rayon Məhkəməsinin hakimi və sədri vəzifələrindən azad edilərək Xankəndi Şəhər Məhkəməsinin hakimi və sədri təyin edilsin;

2.9. Şəhriyar İbrahim oğlu Əliyev Bakı şəhəri Xətai Rayon Məhkəməsinin hakimi vəzifəsindən azad edilərək Kürdəmir Rayon Məhkəməsinin hakimi və sədri təyin edilsin;

2.10. Nural Turab oğlu Əliyev Samux Rayon Məhkəməsinin hakimi və sədri təyin edilsin.

**3** Bu Sərəncam imzalandığı gündən qüvvəyə minir.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 26 may 2026-cı il**

# Azərbaycan Respublikasının Birinci vitse-prezidenti xanım Mehriban Əliyevaya 28 May Müstəqillik Günü münasibətilə təbrik

**Zati-aliləri!**

Azərbaycan Respublikasının Müstəqillik Gününün 108-ci ildönümü münasibətilə Sizə və Azərbaycan xalqına ən səmimi təbriklərimi çatdırmaqdan şərəf duyuram. İndoneziya bu mühüm milli bayram münasibətilə Azərbaycan xalqının sevincinə qoşulur və ölkənizin milli inkişafın, rifahın və regional sabitliyin möhkəmləndirilməsi istiqamətində əldə etdiyi davamlı nailiyyətləri yüksək qiymətləndirir.

Dəyişən qlobal geosiyasi dinamika dövründə Azərbaycan regionları birləşdirən körpü və regional bağların, enerji əməkdaşlığının, dialoqun təşviqində konstruktiv tərəfdaş kimi strateji əhəmiyyətini nümayiş etdirməkdə davam edir. İndoneziya Azərbaycanın regional və beynəlxalq səviyyədə sabitliyin və əməkdaşlığın təşviqində artan rolunu yüksək dəyərləndirir.

İndoneziya ilə Azərbaycan arasında qarşılıqlı hörmətə, ortaq maraqlara, sülhə və inkişafa sadiqliyə əsaslanan səmimi dostluq münasibləri var. Hesab edirəm ki, ticarət və investisiya, təhsil, mədəniyyət, turizm və xalqlarımız arasında birbaşa təmaslar, həmçinin regional və çoxtərəfli platformalarda əməkdaşlıq daxil olmaqla, ölkələrimiz arasında müxtəlif sahələrdə əlaqələrin daha da möhkəmləndirilməsi üçün mühüm potensial mövcuddur.

Zati-alinizə möhkəm cansağlığı və yeni uğurlar, Azərbaycan xalqına isə davamlı sülh, rifah və firavanlıq arzulayıram.

**Ən yüksək ehtiramımı qəbul etməyinizi xahiş edirəm.**

***Gibran Rakabuminq RAKA,***
***İndoneziya Respublikasının vitse-prezidenti***

# Dövlət mülkiyyətində olan və paylarının (səhmlərinin) nəzarət zərfi dövlətə məxsus olan hüquqi şəxslərin və dövlət adından yaradılan publik hüquqi şəxslərin müşahidə şuralarında (himayəçilik və ya direktorlar şuralarında) Azərbaycan Respublikası Maliyyə Nazirliyinin nümayəndəsinin təmsilçiliyi ilə bağlı bir sıra məsələlərin tənzimlənməsi və bununla əlaqədar Azərbaycan Respublikası Prezidentinin bəzi fərmanlarında və sərəncamlarında dəyişiklik edilməsi, bəzi sərəncamlarının ləğv edilməsi haqqında

## *Azərbaycan Respublikası Prezidentinin Fərmanı*

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, "Dövlət mülkiyyətində olan və paylarının (səhmlərinin) nəzarət zərfi dövlətə məxsus olan hüquqi şəxslərin və publik hüquqi şəxslərin illik və ortamüddətli dövr üzrə büdcə layihələrinin və proqnozlarının, habelə gəlir və xərc smetalarının icra vəziyyətinin monitorinqi və icra göstəricilərinin təhlili Qaydaları"nın və "Dövlət mülkiyyətində olan və paylarının (səhmlərinin) nəzarət zərfi dövlətə məxsus olan hüquqi şəxslərin və publik hüquqi şəxslərin xalis mənfəətinin bölüşdürülməsinə və dividend siyasətinin ümumi parametrlərinə dair Qaydalar"ın təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2025-ci il 29 dekabr tarixli 570 nömrəli Fərmanının icrası ilə əlaqədar **qərara alıram:**

**1** Azərbaycan Respublikasının Nazirlər Kabineti:

1.1. Azərbaycan Respublikası Müdafiə Sənayesi Nazirliyinin tabeliyində "Azərsilah" Müdafiə Sənayesi Holdinqi" Qapalı Səhmdar Cəmiyyətinin və "Azərxalça" Açıq Səhmdar Cəmiyyətinin müşahidə şuralarında Azərbaycan Respublikası Maliyyə Nazirliyinin nümayəndəsinin təmsil olunmasının təmin edilməsi məqsədilə bir ay müddətində zəruri tədbirlər görüb Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

1.2. bu Fərmandan irəli gələn digər məsələləri həll etsin.

**2** Aşağıdakı dövlət orqanları (qurumları) dövlət mülkiyyətində olan və paylarının (səhmlərinin) nəzarət zərfi dövlətə məxsus olan hüquqi şəxslərin və dövlət adından yaradılan publik hüquqi şəxslərin (bundan sonra – dövlət müəssisələri) müşahidə şuralarında (himayəçilik şuralarında və ya direktorlar şuralarında) Azərbaycan Respublikası Maliyyə Nazirliyinin nümayəndəsinin təmsil olunması məqsədilə bir ay müddətində zəruri tədbirlər görüb Azərbaycan Respublikasının Prezidentinə məlumat versinlər:

2.1. tabeliyində ali təhsil müəssisələri olan dövlət orqanları (qurumları) həmin ali təhsil müəssisələrinin himayəçilər şuralarına münasibətdə;

2.2. Azərbaycan Nəqliyyat və Kommunikasiya Holdinqi (AZCON) və Azərbaycan İnvestisiya Holdinqi idarəetməsinə verilmiş dövlət müəssisələrinin müşahidə şuralarına münasibətdə.

**3** "Sənaye parklarının, sənaye məhəllələrinin və aqroparkların idarə edilməsinin təkmilləşdirilməsi ilə bağlı tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin 2021-ci il 22 yanvar tarixli 1257 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2021, № 1, maddə 27 (Cild I); 2025, № 4 (I kitab), maddə 330, № 6, maddə 541) 2.4-cü bəndində aşağıdakı dəyişikliklər edilsin:

3.1. birinci abzasda "4 (dörd)" sözləri "3 (üç)" sözləri ilə, "3 (üç)" sözləri "4 (dörd)" sözləri ilə əvəz edilsin;

3.2. aşağıdakı məzmunda 2.4.1-1-ci yarımbənd əlavə edilsin:

"2.4.1-1. Azərbaycan Respublikasının Maliyyə Nazirliyi;".

**4** Azərbaycan Respublikası Prezidentinin 2021-ci il 21 dekabr tarixli 1506 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2021, № 12, maddə 1371 (Cild I); 2024, № 6 (I kitab), maddə 665; 2025, № 4 (I kitab), maddə 330, № 6, maddə 541) ilə təsdiq edilmiş "İqtisadi Zonaların İnkişafı Agentliyinin Nizamnaməsi"nin 4.4-cü bəndinin birinci cümləsində "4 (dörd)" sözləri "3 (üç)" sözləri ilə, "3 (üç) üzvü" sözləri "4 (dörd) üzvü Azərbaycan Respublikası Maliyyə Nazirliyinin," sözləri ilə əvəz edilsin.

**5** "Azərbaycan Hava Yolları" Qapalı Səhmdar Cəmiyyətinin yaradılması haqqında" Azərbaycan Respublikası Prezidentinin 2008-ci il 16 aprel tarixli 2761 nömrəli Sərəncamının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2008, № 4, maddə 278 (Cild I) 2.1.2-ci yarımbəndi aşağıdakı redaksiyada verilsin:

"2.1.2. Cəmiyyətin icra orqanı rəhbərinin və üzvlərinin vəzifəyə təyin və vəzifədən azad edilməsi;".

**6** "Tullantılarla bağlı idarəetmənin təkmilləşdirilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2008-ci il 6 avqust tarixli 2983 nömrəli Sərəncamının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2008, № 8, maddə 750 (Cild I); 2025, № 8, maddə 777) 6-1.1-ci bəndində "3 (üç)" sözləri "4 (dörd)" sözləri ilə əvəz edilsin.

**7** "Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" Qapalı Səhmdar Cəmiyyətinin fəaliyyətinin təşkili haqqında" Azərbaycan Respublikası Prezidentinin 2014-cü il 10 yanvar tarixli 213 nömrəli Sərəncamının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2014, № 1, maddə 26 (Cild I) 2.1.2-ci yarımbəndi aşağıdakı redaksiyada verilsin:

"2.1.2. Cəmiyyətin icra orqanı rəhbərinin və üzvlərinin vəzifəyə təyin və vəzifədən azad edilməsi;".

**8** "Təmiz Şəhər" Açıq Səhmdar Cəmiyyətinin Azərbaycan İnvestisiya Holdinqinin idarəetməsinə verilməsi və bundan irəli gələn bir sıra məsələlərin tənzimlənməsi, "Məişət tullantıları ilə bağlı idarəetmənin təkmilləşdirilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2008-ci il 6 avqust tarixli 2983 nömrəli Sərəncamında dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2021-ci il 22 sentyabr tarixli 2908 nömrəli Sərəncamının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2021, № 9, maddə 1022 (Cild I); 2026, № 3, maddə 246) 2-ci hissəsinə "Səməd Bəşirli – Azərbaycan Respublikası iqtisadiyyat nazirinin müavini" abzasından sonra aşağıdakı məzmunda yeni abzas əlavə edilsin:

"Fərid Baxşıyev – Azərbaycan Respublikasının Maliyyə Nazirliyi yanında Dövlət Müəssisələrinin Monitorinqi Agentliyinin direktoru".

**9** "Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" Qapalı Səhmdar Cəmiyyətinin Müşahidə Şurasının tərkibinin təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2021-ci il 22 fevral tarixli 2516 nömrəli Sərəncamı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2021, № 2, maddə 181 (Cild I) ləğv edilsin.

**10** "Azərbaycan Dəmir Yolları" Qapalı Səhmdar Cəmiyyətinin Müşahidə Şurasının tərkibinin təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2021-ci il 30 mart tarixli 2552 nömrəli Sərəncamı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2021, № 3, maddə 257 (Cild I) ləğv edilsin.

**11.** "Azərbaycan Hava Yolları" Qapalı Səhmdar Cəmiyyətinin Müşahidə Şurasının tərkibinin təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2021-ci il 30 mart tarixli 2555 nömrəli Sərəncamı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2021, № 3, maddə 260 (Cild I) ləğv edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 26 may 2026-cı il**

# "Azərbaycan Respublikasında maliyyə inklüzivliyinin genişləndirilməsinə dair 2027–2030-cu illər üçün Dövlət Proqramı"nın təsdiq edilməsi haqqında

## Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, "Azərbaycan Respublikasının 2022–2026-cı illərdə sosial-iqtisadi inkişaf Strategiyası"nın təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2022-ci il 22 iyul tarixli 3378 nömrəli Sərəncamının icrası ilə əlaqədar **qərara alıram:**

**1** "Azərbaycan Respublikasında maliyyə inklüzivliyinin genişləndirilməsinə dair 2027–2030-cu illər üçün Dövlət Proqramı" (bundan sonra – Dövlət Proqramı) təsdiq edilsin *(əlavə olunur)*.

**2** Azərbaycan Respublikasının Mərkəzi Bankına tövsiyə edilsin ki:

2.1. Dövlət Proqramında nəzərdə tutulmuş tədbirlərin əlaqələndirilməsini və icrasına nəzarəti həyata keçirsin;

2.2. Dövlət Proqramının həyata keçirilməsi ilə bağlı görülən işlər, o cümlədən Dövlət Proqramında nəzərdə tutulmuş tədbirlərin icra vəziyyəti barədə ildə bir dəfə Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

2.3. bu Sərəncamdan irəli gələn digər məsələləri həll etsin.

**3** Dövlət Proqramında nəzərdə tutulmuş tədbirlərin icrasının monitorinqini və qiymətləndirilməsini Azərbaycan Respublikası Mərkəzi Bankının sifarişi əsasında İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzi həyata keçirsin.

**4** Azərbaycan Respublikasının Maliyyə Nazirliyi Azərbaycan Respublikasının Mərkəzi Bankı ilə birlikdə Dövlət Proqramında dövlət büdcəsinin vəsaiti hesabına maliyyələşdirilməsi nəzərdə tutulmuş tədbirlərin icrası üçün tələb olunan vəsaitin dövlət büdcəsinin 2027–2030-cu illər üzrə proqnozlarında nəzərdə tutulması ilə bağlı zəruri tədbirlər görsün.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 26 may 2026-cı il**

# “Ümid” körpüsündən Şuşa Bəyannaməsinə gələn yol

## *34 il öncə açılan bu körpü qardaşlığın sarsılmazlığını təcəssüm etdirir*

**Türkiyənin İğdır vilayətinin Dilucu məntəqəsi ilə Azərbaycanın Sədərək rayonundakı sərhəd-keçid məntəqəsini birləşdirən “Ümid” körpüsü indi Respublika Gününü – 28 Mayı ikiqat bayrama çevirən, xalqımız üçün unudulmaz tarixi hadisələr sırasında dayanır.**





### Qardaşlığın davamını ümidləndirən körpü

Bu körpüdən başlanan yol təkcə Türkiyə ilə Azərbaycan birləşdirmir, həm də Türk dünyasının coğrafi bütünlüyünü təmin edir. Tam əminliklə deyə bilərik ki, milli-mənəvi cəhətdən bu qədər dəyərli, qürurlu, açılışı bayrama çevrilən ikinci bir körpü dünyanın heç bir yerində yoxdur. Bəli, 34 il əvvəl həmin gün Azərbaycan–Türkiyə sərhədində, Araz çayı üzərində salınan “Ümid” körpüsü dara düşən qardaşa qardaş köməyi olmaqla yanaşı, iki xalqı bir-birinə qovuşduran, yurddan-yurda, könüldən-könülə körpü salan ümidlərin başlanğıcı kimi də yaddaşlara həkk olunub.

“Ümid” körpüsü, əslində, 70 il bir-birindən ayrı salınmış, eyni etnosun, dilin, mədəniyyətin, milli-mənəvi dəyərlərin daşıyıcısı olan qardaş xalqlar arasında XXI əsrdə münasibətlərin bərpası və əlaqələrin inkişaf simvoluna çevrildi.

**ARAYIŞ:** *“Ümid” körpüsü Azərbaycan–Türkiyə sərhədində, Araz çayı üzərində inşa edilən, uzunluğu 286, eni 12 metr olan tağlı körpüdür. Körpü Türkiyənin İğdır vilayətinin Dilucu və Azərbaycanın Sədərək rayonunda yerləşən sərhəd-keçid məntəqələrini birləşdirir. “Ümid” körpüsünün tikinti işləri 1991-1992-ci illərdə aparılıb, 28 may 1992-ci ildə istifadəyə verilib.*

Türk dünyası üçün strateji əhəmiyyət kəsb edən, Şərqlə Qərbin qovuşuğunda, Böyük İpək Yolunun üzərində yerləşən Naxçıvan tarix boyu düşmən hədəfində olub. XX əsrin sonlarında ölkəmiz yenidən müstəqilliyini qazandığı bir vaxtda işğalçı Ermənistan Naxçıvanı blokadaya salıb, bu qədim Azərbaycan torpağını da ələ keçirmək üçün məkrli planlar hazırlayırdı. Belə bir ağır dönəmdə Heydər Əliyevin Naxçıvana gəlməsi, Ali Məclisin Sədri kimi burada siyasi fəaliyyətə başlaması muxtar respublikanı işğaldan qorudu. Onun bu məqsədlə həyata keçirdiyi tədbirlərdə dost və qardaş ölkə Türkiyə ilə əlaqələrin qurulması xüsusi yer tutur. Azərbaycanın Naxçıvan Muxtar Respublikası ilə Türkiyə Respublikası arasında əlaqələrin əsası 1992-ci ilin martında qoyulub. Məhz həmin dövrdə Naxçıvanda “Bir millət, iki dövlət” anlayışının reallığa çevrilməsi mərhələsi başlanıb. Görkəmli dövlət xadimi 1992-ci ildə qonşu Türkiyə Cümhuriyyətinə və İran İslam Respublikasına səfərlər etdi, həmin görüşlərdə iqtisadi sahədə əməkdaşlığa dair protokollar imzalandı, hər iki dövlətlə bir çox sahələr üzrə qarşılıqlı münasibətlər quruldu. Həmin il mayın 28-də iki ölkə arasında iqtisadi, mədəni, sosial, siyasi əlaqələrin rəmzi sayılan Araz çayı üzərində inşa edilən Sədərək–Dilucu körpüsü istifadəyə verildi. Körpünün açılışında Türkiyənin o zamankı Baş naziri Süleyman Dəmirəl və qardaş ölkənin digər yüksək səviyyəli hökumət nümayəndələri iştirak edirdilər.

### Həsrət sona çatdı, Ulu öndərin arzusu gerçəkləşdi

“Ümid” körpüsünün inşası tarixi zərurətdən irəli gəlirdi. Onun istifadəyə verilməsi ilə Naxçıvanda blokadanın ağır fəsadları tədricən aradan qaldırıldı, əhalinin rifah halı yaxşılaşdı. Eyni zamanda, bu körpü Türkiyənin şərq vilayətlərinin inkişafına təkan verdi, nəqliyyat əlaqələri bərpa etdi, beynəlxalq daşımalar üçün yeni istiqamət müəyyənləşdirdi. Heydər Əliyev sonralar körpünün açılışı zərurətini belə xarakterizə edirdi: “Belə bir körpü tikmək bir azərbaycanlı kimi, şəxsən mənim on illərlə qəlbimdə olan arzu idi. Bu fikir mənim qəlbimdə on illərlə yaşayırdı. 70 il bir-birimizlə görüşmək, əlaqə saxlamaq üçün həsrət çəkmişik. Mən özümü xoşbəxt hesab edirəm ki, gördüyüm bütün başqa işlərlə bərabər, o ümid, həsrət körpüsünün qısa müddətdə tikilməsinin, yaranmasının təşəbbüskarı oldum”.

Bəli, qeyd etdiyimiz kimi, qardaş xalqların yaddaşına əbədi həkk olunan bu tarixi hadisə XXI yüzilliyin əvvəllərindən etibarən Türkiyə–Azərbaycan əlaqələrinin bugünkü səviyyəyə çatmasına, Türk dünyasının birlik və bütövlük ideyalarının gerçəkləşdirilməsinə real zəmin yaratmış oldu. Məhz bu baxımdan, Sədərək–Dilucu körpüsü Azərbaycan–Türkiyə əlaqələrinin inkişafının, ikitərəfli manasibətlərin yeni mərhələsinin başlanğıc nöqtəsinə çevrildi. Ötən 34 ildə qardaş ölkənin yaxın vilayətləri ilə muxtar respublika arasında iqtisadi-ticarət və humanitar əlaqələrin inkişafı davamlı xarakter aldı.

### Məhz o gün TDT-nin təməli qoyuldu

“Ümid” körpüsünün açılışında iştirak etmək üçün Naxçıvana gələn Türkiyənin Baş naziri Süleyman Dəmirəlin hava limanında dediyi sözlər Türkiyə–Azərbaycan arasında qardaşlıq bağlarının sarsılmazlığının dünyaya nümayişi idi: “Azərbaycan özünün ədalətli mübarizəsində tək deyildir. Biz dünyanın Azərbaycan haqqında həqiqətləri bilməsi üçün özümüzdən asılı olan hər şeyi edirik və edəcəyik. Sizi əmin etmək istəyirəm ki, Türkiyə həmişə Azərbaycanla birlikdə olub və olacaq. Biz kədəri və sevinci birlikdə bölüşəcəyik. Bu körpü, sadəcə, Türkiyə və Azərbaycanı deyil, iki ayrı dünyanı, Avropayla Asiyanı, Avropayla Qafqazları – hamısını bir-birinə bağlayacaqdır”.



2009-cu ildə təməli Naxçıvanda qoyulmuş və artıq dünyanın geosiyasi güc mərkəzlərindən birinə çevrilmiş Türk Dövlətləri Təşkilatının “xeyir-duası”nın da məhz “Ümid” körpüsünün salınması ilə verildiyini əminliklə yaza bilərik. Fikrimizcə, onu dəyərli edən ən önəmli amillərdən biri də budur.

“Ümid” körpüsü sonrakı illərdə Ankara–Bakı əlaqələrini intensivləşdirərək, “Bir millət, iki dövlət” prinsipinin tam reallaşmasına vəsilə oldu. 2020-ci il fevralın 25-də Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğanın Azərbaycana səfəri və həmin gün Bakıda hər iki ölkə liderinin rəhbərliyi ilə keçirilən Azərbaycan–Türkiyə Yüksək Səviyyəli Strateji Əməkdaşlıq Şurasının VIII iclası təkcə Azərbaycan və Türkiyə üçün deyil, ümumiyyətlə, regionun gələcək inkişafı baxımından əhəmiyyətli idi. İclasda Türkiyənin Qars şəhəri ilə Naxçıvan arasında dəmir yolu nəqliyyat xəttinin və İğdır–Naxçıvan qaz kəmərinin çəkilməsi barədə imzalanan sənədlər bir sıra mühüm iqtisadi və siyasi tərəfləri ilə yanaşı, Naxçıvanın geosiyasi əhəmiyyətini daha da artırmaq baxımından böyük əhəmiyyət kəsb edirdi. Hazırda Azərbaycanın Naxçıvan Muxtar Respublikası ilə Türkiyə arasındakı əlaqələr bir çox istiqamətlər üzrə uğurla inkişaf edir. Xüsusilə iqtisadi-ticari, təhsil, səhiyyə, mədəniyyət və digər sahələrdə əlaqələrin daha da genişlənməsi məmnunluq doğurur. Türkiyə hökumətinin qəbul etdiyi tənzimləmə qərarına görə, Naxçıvandakı istehsal müəssisələrinin Türkiyəyə məhsul ixracına güzəştlər tətbiq olunması və muxtar respublikaya sərbəst ticarət imkanı verilməsi isə ikitərəfli münasibətlərin uğurlu inkişafının nəticəsidir. Azərbaycanın Naxçıvan Muxtar Respublikası ilə Türkiyə arasında ordu quruculuğu sahəsindəki əməkdaşlıq da ilbəil genişləndirilir.

Üstündən 34 il keçəndən sonra yaza bilərik ki, “Ümid” körpüsü təkcə Türkiyə ilə Azərbaycanı yox, eyni zamanda, Türk dünyasını birləşdirən körpü kimi tarixi missiyanı yerinə yetirdi. Məhz “Ümid” körpüsünün davamı olaraq Naxçıvanla Türkiyə arasında hava nəqliyyatının fəaliyyətə başlaması, Bakı–Tbilisi–Ceyhan neft kəmərinin, Bakı–Tbilisi–Ərzurum qaz boru xəttinin, Bakı–Tbilisi–Qars–Naxçıvan dəmir yolunun inşası reallaşdı.

### Şuşa Bəyannaməsini möhürləyən lent...

“Ümid” körpüsü Türkiyə–Azərbaycan əlaqələrinin qurulması, inkişafı və dərinləşməsi istiqamətində atılan taleyüklü addım oldu. Bu körpü təkcə Türkiyə ilə Azərbaycanı yox, eyni zamanda, Türk dünyasını birləşdirən strateji bağ kimi mühüm əhəmiyyətə malikdir. 27 il sonrakı Böyük Zəfəri müjdələyən körpünün açılış lenti 2021-ci il iyunun 15-də Şuşada Azərbaycan və Türkiyə arasında müttəfiqlik münasibətləri haqqında Şuşa Bəyannaməsinin möhürünə çevrildi. İndi bu yola TRIPP layihəsi (Zəngəzur dəhlizi) kimi transmilli logistika qovşağı dəstək verir. Bu layihəyə dünyanın super gücü – Amerika Birləşmiş Ştatlarının dəstək verməsi isə Azərbaycanın daha böyük uğurlara imza atacağına ümidləri möhkəmləndirir. Azərbaycan Prezidenti İlham Əliyevin dediyi kimi, “Şərqi Zəngəzur bölgəsində yerləşən Zəngilanı qədim torpağımız olan Qərbi Zəngəzurla, ondan sonra Ordubad vasitəsilə Naxçıvanla və Türkiyə ilə birləşdirmək bizim növbəti tarixi nailiyyətimiz olacaq”.

***XQ-nin Analitik Mərkəzi***

# Bakı və Pekinin xarici siyasətində çoxqütblü dünyaya baxış

## *Cənubi Qafqazın təhlükəsizlik memarlığında Asiya amili*



**Asiya qitəsinin mütləq lideri sayılan Çin Xalq Respublikası ilə Cənubi Qafqazın həm siyasi, həm də coğrafi baxımdan mühüm dövləti hesab edilən Azərbaycan Respublikası arasındakı əlaqələrin dərinləşməsi transformasiyanın qanunauyğun nəticəsidir. Tərəflər arasında formalaşan strateji tərəfdaşlıq formatı qlobal miqyaslı daimi siyasi koordinasiya prosesinə çevrilir. Münasibətlərin mahiyyətinə geosiyasi prizmadan yanaşdıqda aydın görmək mümkündür ki, rəsmi Bakı Asiya-Sakit okean hövzəsi istiqamətində yürütdüyü xarici siyasət xəttini dəqiq hesablanmış dövlət maraqları üzərində qurub.**

Eyni zamanda, rəsmi Pekinin Cənubi Qafqaz regionuna yönəlik artan diqqəti də təsadüfi xarakter daşımır, əksinə, məlum uzaqgörən geostrategiyanın tərkib hissəsidir. Avrasiya materikinin mərkəzində dayanıqlı sabitlik axtaran qlobal ölkə məhz respublikamızı ən etibarlı, müstəqil iradəyə sahib strateji tərəfdaş qismində qəbul edir. Hər iki dövlətin beynəlxalq hüququn təməl prinsiplərinə, xüsusilə suverenlik, ərazi bütövlüyü, daxili işlərə qarışmamaq qaydalarına şərtsiz hörmət bəsləməsi əlaqələrin sarsılmaz ideoloji bünövrəsini təşkil edir.

İkitərəfli əlaqələrin kəmiyyət dinamikasına nəzər saldıqda mövcud rəqəmlərin arxasında dayanan proseslər diqqəti cəlb edir. Ticarət dövriyyəsinin 2024-cü ilin yekunlarında 21 faiz artaraq 3,7 milyard dollara, 2025-ci ildə isə 30,2 faiz artımla rekord həddə – 4,87 milyard dollara yüksəlməsi heç də quru statistika deyil. Yüksək göstəricilər dövlət rəhbərləri arasında qurulan davamlı qarşılıqlı etimadın, siyasi anlaşmanın bilavasitə nəticəsidir. Mövcud kütləvi maliyyə həcmləri dövlətlərin xarici siyasətində tərəfdaşlara yaradılan münbit şəraitin, qanunvericilik səviyyəsində təmin edilən institusional zəmanətlərin dəqiq ölçüsünü ifadə edir. Azərbaycan Dövlət Gömrük Komitəsinin məlumatına əsasən, 2026-cı ilin 1-ci rübündə qarşılıqlı ticarətin 7,3 faiz genişlənərək 1,103 milyard dolları keçməsi yürüdülən strateji kursun nə qədər dayanıqlı olduğunu təsdiqləyir. Əlavə olaraq, cari ilin əvvəlində respublikamızdan qarşı tərəfə ixrac edilən məhsulların həcminin 25,2 faiz artması rəsmi Bakının Asiya məkanında təsir imkanlarının genişləndiyini sübuta yetirir.

*

Tərəflərin Müştərək İnvestisiya Fondu yaratmaq ətrafında apardığı dərin müzakirələr ali səviyyəli siyasi-strateji qərardır. Suveren vəsaitlərin vahid mərkəzdən diqqətlə idarə edilməsi, ortaq qlobal təhlükəsizlik, inkişaf hədəflərinə yönəldilməsi, sadəcə, qazanc maraqları çərçivəsində izah edilə bilməz. Belə irimiqyaslı təşəbbüslər dövlətlərarası inteqrasiyadan, tərəflərin uzunmüddətli geoiqtisadi vizyonundan xəbər verir. Xarici investisiya qərarları hər zaman mərkəzi dövlətin bütöv regional doktrinası ilə üzvi şəkildə sıx bağlıdır.

2025-ci ildə dövlətimizin nəhəng Asiya qitəsinə yatırdığı irimiqyaslı vəsaitlərin həcminin 3,6 dəfə artması milli geostrategiyanın yeni genişlənmə mərhələsidir. Qeyd olunan irihəcmli investisiyalar vasitəsilə respublikamız qitənin hüdudlarından kənarda, beynəlxalq qərarların müəyyənləşdirildiyi mərkəzlərdə fəal, səlahiyyətli iştirakçı statusu qazanır. Sərmayələrin qlobal mərkəzlərə məqsədyönlü şəkildə yönləndirilməsi diplomatik təsir dairəsinin real coğrafi genişlənməsidir. Maliyyə alətlərindən diplomatik məqsədlər naminə məharətlə istifadə edən ölkəmiz mövqeyini qlobal rəqabət meydanında gücləndirərək həm dost, həm də rəqib qüvvələrə mesaj göndərir.

Müxtəlif mühüm platformalar çərçivəsində, xüsusən “Invest in Azerbaijan” xətti vasitəsilə fasiləsiz tərəfdaş axtarışlarının aparılması məqsədyönlü siyasi, iqtisadi fəaliyyət sayılır. Xarici partiya elitasında dövlətimizin sabit inkişaf potensialı barədə formalaşan müsbət rəy bilavasitə siyasi rəğbətə, diplomatik dəstəyə çevrilir. Hazırda Tsinqdao, Çendu, Sian, Çjantszyatsze, həmçinin 2024-cü ilin may ayından etibarən qədim paytaxt Nankin şəhərlərində Ticarət Evlərinin fəaliyyətə başlaması yerli icraedici hakimiyyət orqanları ilə birbaşa mütəmadi təmasların qurulması baxımından son dərəcə faydalıdır. Şanxay, Harbin, Tsinan, Uhan kimi meqapolis şəhərlərdə nümayəndəliklərin açılması, əlavə olaraq uzaq Urumçi, Şanxay şəhərlərində 3 müxtəlif şərab evinin yaradılması ölkəmizin daxili qitə mərkəzlərində çoxşaxəli şəbəkələşmə, nüfuz dairəsini genişləndirmə siyasətini aydın göstərir.

Asiya qitəsinin qapalı siyasi mədəniyyətində yerli aparıcı elitalarla, mühüm, təsirli region rəhbərləri ilə mütəmadi təmasların incəliklə qorunması uzunmüddətli qırılmaz əlaqələrin etibarlı qarantı sayılır. Yerli dairələrdə, qubernatorluqlarda əldə edilən rəsmi simpatiya mərkəzi partiya rəhbərliyinin qəbul etdiyi ali siyasi qərarlara bilavasitə ciddi təsir göstərir. Çin dövlətinin sərt iyerarxik daxili arxitekturasında güclü əyalət partiya komitələrinin dəstəkləyici mövqeyi paytaxt qərargahı üçün həlledici indikator olaraq dəyərləndirilir. Buna görə də azərbaycanlı diplomatların regional mərkəzlərdəki aktiv mövcudluğu regional siyasi arxitekturada dayanıqlı bünövrə nöqtələri yaradır. Qeyd olunan xarici nümayəndəliklər informasiya mübadiləsinin daimi mərkəzi, siyasi araşdırmaların, strateji hesabatların hazırlandığı bazalar, həmçinin ikitərəfli regional gündəliyin planlı şəkildə dizayn edildiyi operativ beyin mərkəzləridir.

Ölkəmizin rəsmi ticarət nümayəndəsi Teymur Nədiroğlunun həmin forumda iştirakı, işgüzar mühit, əlverişli investisiya şərtləri barədə çıxışı xüsusi əhəmiyyət kəsb edən amildir. Forumun ali hədəfi yazılı rəsmi sənədlərdə ixracın həcminin genişləndirilməsi, malların tanıdılması kimi verilsə də, arxa planda asimmetrik siyasi təsir mexanizmlərinin, uzunmüddətli, qırılmaz asılılıq vektorlarının təməlinin qoyulması və reallaşdırılması qərarlaşır. Tədbir çərçivəsində Pekində fəaliyyət göstərən Ticarət Evinin əsas operatoru qismində çıxış edən “Çin-Xarici İqtisadi Əməkdaşlıq Elm və Ticarət” şirkətinin rəhbəri Van Veyveyin azərbaycanlı diplomatlarla bərabər apardığı geniş məsləhətləşmələr məhz sistemli siyasi fəaliyyətin qanunauyğun nəticəsidir. Məhsullarımızın nəhəng xarici bazarlarda daimi satış kanallarının genişlənməsi, rəflərdə yer alması yerli cəmiyyət, milyonlarla istehlakçı arasında respublikamızın pozitiv və etibarlı qlobal tərəfdaş imicinin yaranmasına bilavasitə xidmət edir.

Uzaq bölgələrdən başlayaraq ən yüksək dövlət səviyyəsinə qədər qurulan çoxşaxəli siyasi və iqtisadi əlaqələr Azərbaycanın geosiyasi dayanıqlılığını gücləndirən mühüm platforma rolu kimi fəaliyyət göstərir. Xaricdə daha çox iqtisadi əməkdaşlıq və investisiya proqramı kimi təqdim olunan bu məsələ, əslində, ölkənin milli təhlükəsizliyinin və strateji maraqlarının qorunmasına xidmət edir. Bunun nəticəsində Azərbaycan regionun yeni geosiyasi nizamının formalaşmasında mühüm rol oynayan dövlətə çevrilir. Çoxvektorlu və praqmatik xarici siyasət kursu ölkənin suverenliyini daha da möhkəmləndirir, onu beynəlxalq risklərdən qoruyan etibarlı diplomatik və siyasi qalxan yaradır.

***Yusif ŞƏRİFZADƏ***
***XQ***

# Osvald Şpenqlerdən İrakli Kobaxidzeyədək




**Alman filosofu, kulturoloq və yazıçı, mühafizəkar mədəni tənqidin məşhur simalarından biri Osvald Şpenqler "Qərbin süqutu" əsərində Avropa sivilizasiyasının daxildən tənəzzülə uğradığını və öz tarixi enerjisini itirdiyini yazırdı. Şpenqler hətta bir qədər ifrata vararaq bildirirdi ki, əgər Birinci Dünya müharibəsi olmasaydı, indiki Avropanın dəyərlər sistemi tamamilə sıradan çıxardı. Yəni savaş və onun gətirdiyi çətinliklər sistemin qorunması istiqamətində müqavimət formalaşdırdı. Amma məsələ yalnız bunda deyil və Şpenqlerin baxışlarına sonda qayıdacağıq.**

Dahi Corc Oruel məşhur "1984" romanında demokratik şüarların arxasında nəzarət, manipulyasiya və fikir azadlığının məhdudlaşdırılmasını təsvir edir və dəyərlərin formal xarakter alması motivini qabardırdı. Digər ingilis yazıçısı və tənqidçisi Oldos Haksli 1932-ci ildə nəşr olunan "Cəsur yeni dünya" antiutopik romanında texnokratik və istehlakçı cəmiyyətin insani yanaşmaları aşındırmasının təsvirini verirdi. Onun əsəri texnoloji inkişafın, dövlət nəzarətinin və fərdi azadlığın itirilməsinin təhlükələrini tənqidi şəkildə araşdırır və bu baxımdan XX əsr ədəbiyyatının ən təsirli distopiyalarından biri sayılır.

Belə nümunələrin sayını artırmaq mümkündür, amma buna lüzum görmürük. Mövzumuz isə Gürcüstanın Baş naziri İrakli Kobaxidzenin Avropa strukturlarının rəhbərlərinə – Avropa Komissiyasının rəhbəri Ursula fon der Lyayenə, Avropa İttifaqı Şurasının Prezidenti Antoniu Koştaya və Avropa Parlamentinin rəhbəri Roberta Metsola ünvanladığı açıq məktubdur. O məktub ki, orada əksini tapmış fikirlər əvvəldə əsərlərini diqqətə çatdırdığımız müəlliflərin mövqeləri ilə səsləşir. Tam əminliklə demək olar ki, cənab Kobaxidzenin açıqladığı məqamlar özündə antiutopik ədəbiyyat və Qərbin dəyərlər böhranı mövzusunda yazılmış siyasi-fəlsəfi publisistika ovqatını daşıyır.

*

Beləliklə, İ.Kobaxidzenin məktubunun ümumi məğzi və məqsədi budur: Brüssel ikili standartlardan və Tbilisiyə təzyiq cəhdlərindən əl çəkməlidir. Obrazlı desək, öz gözündə tiri görməyənlər başqasının gözündə çöp axtarmamalıdır. Baş nazir son dərəcə haqlıdır. Əslində, o, haqlı cəhətləri açıqlamaq məcburiyyətindədir və bunu məktubunda bildirir. Çünki Qərbin Gürcüstan hakimiyyətinə qarşı qeyri-obyektiv mövqe tutduğu danılmazdır.

Əlqərəz, cənab Kobaxidze məktubunda bildirib ki, mədəni, tarixi və dəyərlər baxımından Gürcüstan Avropa məkanının bir hissəsidir, həmçinin Avropa İttifaqına üzvlüyə namizəd ölkədir və Avropa ailəsinin tamhüquqlu üzvünə çevrilməyə çalışır: "Təəssüf ki, Avropa bürokratiyasının Gürcüstana münasibətdə qəbul etdiyi qərar nəticəsində, sizin təşəbbüsünüzlə ölkəmizlə siyasi dialoq birtərəfli qaydada dayandırılıb. Bundan sonra isə bizim təklif etdiyimiz müzakirə və əməkdaşlıq formatları dəfələrlə rədd edilib".

Gürcüstanın Baş nazirin bildirdiyinə görə, ölkəsinin Avropa İttifaqına qoşulmaq istəyi formal inteqrasiya arzusu ilə bağlı deyil və bu məqam dəfələrlə açıqlanıb: "Bizim xalq üçün Avropa, ilk növbədə, dəyərlər məkanı, əcdadlarımızın xristian əxlaqına, azadlığa, bərabərliyə, insan hüquqlarına hörmətə və demokratik prinsiplərə əsaslanan sivilizasiya seçimidir. Bizim üçün Avropa İttifaqı ümumi Avropa sivilizasiya məkanıdır, hansısa konkret siyasi xadimə, Avropa liderinə və ya avrobürokrata deyil, xalqlara, o cümlədən gürcü xalqına məxsus birlikdir".

İ.Kobaxidze, eyni zamanda, yazıb ki, Avropa sivilizasiyasının bir hissəsi və Aİ-yə namizəd ölkə kimi Gürcüstanın Danimarkanın paytaxtı Kopenhagendə baş vermiş və "nə Avropa, nə də Avropa dəyərləri ilə heç bir əlaqəsi olmayan" narahatedici hadisələrlə bağlı sualları var. "Xanım Ursula, cənab Antoniu, xanım Roberta, sizə Avropa İttifaqının ali institutlarının nümayəndələri kimi müraciət edərək soruşuruq – Danimarkanın paytaxtı Kopenhagendə baş verən zorakılığı necə qiymətləndirirsiniz? Orada dinc nümayiş iştirakçıları əvvəlcə dəyənəklərlə döyülüb, sonra isə onlara qarşı itlərdən istifadə olunub. Polisin dinc nümayişçiləri amansızcasına dağıtdığını göstərən ağır görüntülər beynəlxalq ictimaiyyətə reallığı açıq şəkildə nümayiş etdirdi. Əgər uzun illər Avropa demokratiyanın, insan hüquqlarının, söz və fikir azadlığının, eləcə də digər fundamental dəyərlərin etalonu hesab olunurdusa, bu gün getdikcə daha aydın şəkildə əks tendensiya özünü göstərir.



Mövcud vəziyyət Avropanın bu dəyərlərin qorunması deyil, onların görməzdən gəlinməsi və kobud şəkildə pozulması nümunəsinə çevrilməsi təhlükəsini yaradır".

Gürcü Baş nazir vurğulayıb ki, Gürcüstan, eləcə də demokratik dəyərlərə sadiq istənilən ölkə üçün "həm Kopenhagendəki zorakılıq, həm də Avropa İttifaqının artıq əsas prinsipləri qorumaması qətiyyən qəbuledilməzdir". O, bütün bunları nəzərə alaraq yeni suallar ünvanlayıb: "Bu cür zorakı hərəkətlər Aİ-nin daim vurğuladığı demokratiya və insan hüquqları standartlarına nə dərəcədə uyğundur? Avropa İttifaqının yüksəkvəzifəli rəsmiləri kimi, sizcə, demokratik geriləmə, iqtisadi durğunluq, miqrasiya böhranı, tarixi yaddaşın dəyərsizləşdirilməsi, milli və gender kimliyinin zəifləməsi, həmçinin ictimai özünəməxsusluğun dağıdılması ilə bağlı proseslər Avropanı hara aparır? İnkişafın, azadlığın və demokratiyanın nümunəsi sayılan Avropa necə oldu ki, bu qədər dərin dəyərlər böhranına düşdü və ümumiyyətlə, Avropa İttifaqı bu yolla hara gedir?".

İrakli Kobaxidze, həmçinin bildirib ki, "bu gün Avropa İttifaqının cəmiyyətin təbii, mədəni və tarixi əsaslarını tez-tez görməzdən gəlməsi" kədərli və narahatedici faktdır. "Belə təəssürat yaranır ki, Avropa məkanı onu bütün dünyada demokratiya və insan hüquqlarının müdafiəsi simvoluna çevirən prinsiplərdən tədricən uzaqlaşır. Avropa ölkəsi və Avropa İttifaqına namizəd dövlət olan Gürcüstan sizdən aydın cavab gözləyir — Avropa İttifaqının planı nədir, birlik daxilində hadisələr hansı istiqamətdə inkişaf edir və təkcə bizim deyil, digər Avropa ölkələrinin əhalisinin və siyasi liderlərinin də açıq şəkildə danışdığı bu narahatedici proseslərin son nəticəsi nə olacaq?" – deyə gürcü hökumət başçısının açıq məktubunda vurğulanıb.

*

Əslində, cənab Kobaxidzenin diqqətə çatdırdığı fikirlərə şərh vermək niyyətində deyilik. Yalnız bir məqamı vurğulayaq ki, onun toxunduğu məqamlar son dərəcə aktualdır. Çünki Azərbaycan da Gürcüstan kimi, Avropa "demokratizminin" tənələri ilə üzləşib və üzləşməkdədir. Ona görə ümid edək ki, gürcü Baş nazirin vurğuladığı məqamları nəzərdən keçirən Avropa liderləri düşünəcək və "köhnə qitə"nin müxtəlif xalqlar üçün klassik nümunə sayılan obrazının sıradan çıxmasının, dəyərlərin deqredasiya məkanına çevrilməsinin qarşısını almaq yolunda əməli addımlar atacaqlar.

Sonda onu da bildirək ki, yazımızın lap əvvəlində fikirlərinə istinad etdiyimiz Osvald Şpenqler haqqında söz açdığımız "Qərbin süqutu" əsərində Qərb mədəniyyətinin tənəzzülünü iddia edərkən, prosesin qarşısını almaq, ya da ən azından onu ləngitmək üçün mühafizəkar və avtoritar idarəetmə rejiminin labüdlüyünü əsaslandırmağa çalışırdı. O, mədəniyyətləri üzvi olaraq yaranan, yetkinləşib böyüyən və sonda mütləq süquta uğrayan bioloji orqanizmlərə bənzədir və biologizm çərçivəsində tarix fəlsəfi model qururdu. Antidemokrat elitizmi və açıq-aşkar diktatura təşviqatı ilə tanınmış yazıçı uzun müddət Hitleri qəbul etməsə də, alman nasional sosializminin intellektual atası sayılır.

O.Şpenqler 1936-cı ildə vəfat etdi. Onun ölümündən cəmi 3 il sonra İkinci Dünya müharibəsi başladı. Sözümüz ondadır ki, indiki Avropanın ictimai-siyasi industriyasının Kobaxidzenin təsvir etdiyi hərəkət və davranışları tarixin təkrarlanma ehtimalı barədə fikir yürütməyə əsas verir. "Köhnə qitə"nin liderləri həm də bunu düşünməli, ümumi şəkildə desək, boşluqları doldurmalıdırlar. Necə deyərlər, müqəddəs yerlər boş qalmır. Dünyaya isə yeni hitlerlər lazım deyil.

***Ə.CAHANGİROĞLU***
***XQ***

# Moskva–Bakı dialoqunun gündəliyi zənginləşir

## *Qaluzin–Mustafayev görüşü ortaq maraqları gündəmə gətirib*

**Son dövrlər Rusiya ilə Azərbaycan arasında münasibətlər yumşalma mərhələsinə qədəm qoyub. Hər iki ölkə siyasi dialoqun və yüksək səviyyəli təmasların davam etdirilməsinə xüsusi önəm verdiklərini nümayiş etdirir, ikitərəfli əməkdaşlığın müxtəlif istiqamətlər üzrə inkişaf perspektivlərini müzakirə edirlər.**

Bu çərçivədə Rusiya xarici işlər nazirinin müavini Mixail Qaluzinin mayın 25-də Azərbaycanın Moskvadakı fövqəladə və səlahiyyətli səfiri Rəhman Mustafayevlə görüşü diqqəti cəlb edir. Rusiya XİN-in bununla bağlı yaydığı məlumatda bildirilib ki, görüş zamanı Rusiya–Azərbaycan gündəliyinin aktual məsələləri ətrafında fikir mübadiləsi aparılıb. Qarşıdakı yüksək səviyyəli təmaslarla bağlı mövqelər dəqiqləşdirilib. İkitərəfli əməkdaşlığın mövcud vəziyyəti və perspektivləri, o cümlədən mədəni-humanitar əlaqələrin tam həcmdə bərpasının əhəmiyyəti ətraflı müzakirə olunub.

Tərəflərin Rusiya–Azərbaycan müttəfiqlik əməkdaşlığının çoxtərəfli və hərtərəfli şəkildə daha da möhkəmləndirilməsi, həmçinin Cənubi Qafqaz və Xəzər regionunda sülhün, sabitliyin və əməkdaşlığın dayaqlarının gücləndirilməsi məqsədilə birgə işi davam etdirmək niyyətində olduqları vurğulanıb.

Qeyd edək ki, 2024-cü il dekabrın 25-də Bakı–Qroznı marşrutu üzrə 8243 nömrəli sərnişin reysini həyata keçirən "Azərbaycan Hava Yolları"na məxsus "Embraer E190" təyyarəsinin Rusiya səmasında onun hava hücumundan müdafiə sistemlərinə məxsus raketlə vurulmasından sonra Azərbaycanla Rusiya arasında münasibətlərdə soyuqluq yaranmışdı. Ötən müddətdə Rusiya tərəfi münasibətləri qaydaya salmaq istiqamətində cəhdlər göstərib. Bu məqsədlə Rusiya XİN-in müavini M.Qaluzin bir neçə dəfə Bakıya səfər edib. Səfərlərin sonuncusu 2026-cı il aprelin 14-də baş tutub. Həmin gün Qaluzini xarici işlər naziri Ceyhun Bayramov qəbul etmişdi. Görüşlə bağlı Azərbaycan XİN-in yaydığı açıqlamada Bayramov və Qaluzinin Azərbaycan–Rusiya münasibətlərinin siyasi, iqtisadi-ticarət və humanitar aspektlərini, habelə qarşılıqlı maraq doğuran regional və beynəlxalq təhlükəsizlik məsələlərini müzakirə etdikləri qeyd olunmuşdu. Aprelin 15-də Azərbaycan və Rusiya XİN-lərinin birgə bəyanatında bildirilirdi: "Azərbaycan və Rusiya prezidentlərinin 2025-ci il oktyabrın 9-da Düşənbə şəhərində görüşü zamanı əldə olunmuş anlaşmaya uyğun olaraq, tərəflər 2024-cü il dekabrın 25-də Rusiya Federasiyasının hava məkanında hava hücumundan müdafiə sisteminin qeyri-ixtiyari fəaliyyəti nəticəsində "Azərbaycan Hava Yolları"na məxsus "Embraer 190" tipli təyyarənin Aktau şəhəri yaxınlığında qəzaya uğraması ilə əlaqədar kompensasiyanın ödənilməsi də daxil olmaqla, qəzadan irəli gələn məsələlərin müvafiq şəkildə həlli barədə razılığa gəliblər. Atılan addımlar müttəfiqlik qarşılıqlı fəaliyyəti çərçivəsində faydalı əməkdaşlığın inkişaf etdirilməsi istiqamətində tərəflərin ortaq səylərini nümayiş etdirir". Qeyd edilmişdi ki, Azərbaycan–Rusiya münasibətlərinin qarşılıqlı hörmət, etimad və tərəflərin maraqlarının nəzərə alınması əsasında davamlı inkişafı bundan sonra da mehriban qonşuluq münasibətlərinin möhkəmlənməsinə və iki ölkənin xalqlarının mənafeyi naminə əməkdaşlığın genişlənməsinə töhfə verəcək.



Bəyanatın yayımlanmasından bir sutka keçməmiş – Zəngilan şəhərində Azərbaycan və Rusiya arasında iqtisadi əməkdaşlıq məsələləri üzrə Hökumətlərarası Dövlət Komissiyasının 24-cü iclası keçirilmiş, dövlət komissiyasının həmsədrləri – Rusiya Baş nazirinin müavini Aleksey Overçuk və onun azərbaycanlı həmkarı Şahin Mustafayevin sədrliyi ilə Rusiya və Azərbaycan arasında praktiki qarşılıqlı fəaliyyətin bütün aktual məsələlər kompleksi müzakirə edilmişdi.

*

İndi isə M.Qaluzinin R.Mustafayevlə görüşü göstərir ki, tərəflər son aylarda intensivləşən diplomatik təmasların davam etdirilməsində və münasibətlərin daha sabit məcraya qaytarılmasında maraqlıdırlar. Görüşün məhz Moskva ilə Bakı arasında münasibətlərin mərhələli şəkildə normallaşdırılması fonunda keçirilməsi diqqət çəkir. Son dövrlər həm siyasi kanallar, həm də iqtisadi və humanitar platformalar üzrə qarşılıqlı əlaqələrin aktivləşməsi iki ölkənin mövcud problemləri dialoq və koordinasiya vasitəsilə həll etməyə çalışdığını göstərir.

Rusiya XİN-in yaydığı məlumata əsasən, görüş zamanı ilk növbədə "Rusiya–Azərbaycan gündəliyinin aktual məsələləri ətrafında" fikir mübadiləsi aparılıb. Bu ifadə praktik olaraq tərəflərin münasibətlərdə həssas hesab olunan mövzuları da müzakirəsinə işarə edir. Bura təhlükəsizlik məsələləri, regional proseslər, iqtisadi əməkdaşlıq, enerji və nəqliyyat layihələri, həmçinin son dövrdə münasibətlərdə müəyyən gərginlik yaradan məsələlərin daxil olduğu ehtimal edilir. Xüsusilə Cənubi Qafqazda dəyişən geosiyasi vəziyyət fonunda Moskva və Bakı arasında koordinasiyanın qorunması hər iki tərəf üçün əhəmiyyətlidir. Görüşdə "qarşıdakı yüksək səviyyəli təmaslarla bağlı mövqelərin dəqiqləşdirilməsi" ifadəsi ayrıca qeyd olunub. Bu, yaxın dövrdə prezidentlər, hökumət üzvləri və ya digər yüksək vəzifəli şəxslər səviyyəsində yeni görüşlərin mümkünlüyünü göstərən diplomatik mesaj kimi qiymətləndirilə bilər. Adətən belə formullar tərəflərin siyasi dialoqu davam etdirmək niyyətində olduğunu və münasibətlərin yalnız texniki səviyyədə deyil, strateji müstəvidə də müzakirə olunduğunu göstərir.

Müzakirələrin mühüm hissəsini ikitərəfli əməkdaşlığın mövcud vəziyyəti və perspektivləri təşkil edib. Son illərdə Azərbaycan və Rusiya arasında ticarət dövriyyəsi, logistika marşrutları və enerji sahəsində əməkdaşlıq münasibətlərin əsas istiqamətlərindən biri olaraq qalır. Şimal–Cənub nəqliyyat dəhlizi, regional tranzit imkanları və qarşılıqlı investisiya layihələri tərəflərin gündəmində xüsusi yer tutur. Bu baxımdan görüşdə iqtisadi münasibətlərin gələcək inkişaf perspektivlərinin də nəzərdən keçirildiyi aydın görünür.

Rusiya XİN-in açıqlamasında mədəni-humanitar əlaqələrin tam həcmdə bərpasının vacibliyinə xüsusi diqqət yetirilməsi də təsadüfi deyil. Son vaxtlar siyasi münasibətlərdə yaşanan gərginlik humanitar sahədəki təmaslara da müəyyən təsir göstərmişdi. Tərəflərin bu istiqaməti ayrıca vurğulaması təhsil, elm, mədəniyyət və ictimai platformalar üzrə əməkdaşlığın yenidən aktivləşdirilməsinin prioritet hesab olunduğunu göstərir. Bununla yanaşı, görüşdə Cənubi Qafqaz və Xəzər regionunda sülh, sabitlik və əməkdaşlıq məsələlərinin qabardılması Moskva ilə Bakının regional təhlükəsizlik məsələlərində dialoqu davam etdirmək niyyətini nümayiş etdirir. Xüsusilə regionda yeni siyasi və iqtisadi balansın formalaşdığı bir dövrdə tərəflərin qarşılıqlı təmasları qorumağa çalışması diqqətçəkən məqamlardan biri kimi qiymətləndirilir.

**Siyasi şərhçi Ramiyə Məmmədova XQ-yə açıqlamasında bildirdi ki,** M.Qaluzinlə R.Mustafayev arasında keçirilən görüş Bakı və Moskvanın münasibətlərdə yaranmış soyuqluğun tədricən istiləşməsində maraqlı olduğunu göstərir. Onun sözlərinə görə, tərəflər son aylarda praktik əməkdaşlıq mövzularına üstünlük verməyə çalışırlar: "Görüşdə həm yüksək səviyyəli təmasların müzakirəsi, həm də humanitar əlaqələrin bərpasına xüsusi diqqət ayrılması münasibətlərin tədricən normallaşdırılması xəttinin davam etdiyini göstərir. Burada əsas məqamlardan biri odur ki, tərəflər problemlərin mövcudluğunu inkar etmirlər, əksinə, onları siyasi dialoq vasitəsilə idarə etməyə çalışırlar. Regional təhlükəsizlik, logistika və iqtisadi əməkdaşlıq kimi sahələr isə münasibətlərin tam pozulmasının qarşısını alan əsas amillər olaraq qalır".



***Səxavət HƏMİD***
***XQ***

**Mayın 26-da Milli Məclisin Sədri Sahibə Qafarovanın sədrliyi ilə parlamentin yaz sessiyasının son iclası keçirildi. İclası açan spiker əvvəlcə Bakının ev sahibliyi etdiyi BMT-nin Ümumdünya Şəhərsalma Forumunun 13-cü Sessiyasının (WUF13) əhəmiyyətini vurğuladı. O, 2026-cı ilin ölkəmizdə "Şəhərsalma və Memarlıq İli" elan olunduğunu xatırladaraq Prezident İlham Əliyevin rəhbərliyi ilə azad edilmiş ərazilərdə aparılan bərpa-quruculuq işlərinin müstəsna əhəmiyyət daşıdığını qeyd etdi.**

# Milli Məclisin yaz sessiyası başa çatdı

*Gender hesabatı dinlənildi, yeni hakimlər təyin olundu*



Yaz sessiyasının qanunvericilik yekunlarına toxunan Milli Məclis Sədri hesabat dövründə parlamentin 15 iclasının keçirildiyini, 57 qanun və 19 qərarın qəbul edildiyini bildirdi. Sədr parlament ilə hökumət arasında qurulan konstruktiv iş birliyini, komitələr tərəfindən müxtəlif aktual mövzularda, o cümlədən kənd təsərrüfatında süni intellektin tətbiqi və gender bərabərliyi barədə təşkil edilən 4 mühüm ictimai dinləməni xüsusi qeyd edib. Eyni zamanda, sessiya ərzində nəzarət funksiyası çərçivəsində müvafiq dövlət qurumlarının hesabatlarının dinlənildiyi və 10 minə yaxın vətəndaş müraciətinə baxıldığı vurğulandı. Parlamentin beynəlxalq fəaliyyətinin də dinamik keçdiyini deyən S.Qafarova son 4 ayda deputatların 29 ölkəyə 110 səfər etdiyini, Milli Məclisin rəhbərliyi ilə İstanbulda Qoşulmama Hərəkatı Parlament Şəbəkəsinin 5-ci konfransının təşkil olunduğu və qurumun mənzil-qərargahının Bakıda yerləşdirilməsi barədə qərarın qəbul edildiyini diqqətə çatdırdı.

* * *

Daha sonra gündəlikdəki məsələlərin müzakirəsinə keçid edildi. İlk olaraq gender bərabərliyinin təmin edilməsinə nəzarəti həyata keçirən Ailə, Qadın və Uşaq Problemləri Komitəsinin 2025-ci ildə fəaliyyəti haqqında məlumat dinlənildi. Məlumatı komitənin sədri Bahar Muradova səsləndirdi. B.Muradova bildirdi ki, 2025-ci ildə Daxili İşlər Nazirliyi tərəfindən 90 erkən evliliyə cəhd faktı müəyyən edilərək 28 nəfər cinayət məsuliyyətinə cəlb olunub, həmçinin 5 valideyn və 41 aidiyyəti şəxs barəsində inzibati tənbeh tədbiri tətbiq edilib, daha 57 şəxslə isə profilaktik iş aparılıb. Hesabat dövründə 15 qızqaçırma faktı üzrə Cinayət Məcəlləsinin adam oğurluğu maddəsi ilə cinayət işi başlanılaraq 32 şəxs barəsində müvafiq məsuliyyət tədbirləri görülüb.

Komitə sədrinin hesabatında cəmiyyəti narahat edən məişət zorakılığı və aliment öhdəliklərindən yayınma halları ilə bağlı konkret statistika da öz əksini tapdı. Hesabata əsasən, Azərbaycanda qohum nikahları rəsmən qadağan olunana, yəni 2025-ci il iyulun 1-nə qədər ölkə üzrə 1412 belə fakt qeydə alınıb ki, bu da 2024-cü ildəki 2058 faktla müqayisədə ciddi azalma deməkdir. Ötən il qohum nikahların ən yüksək göstəricisi yenə də Bakı şəhərinin (360 fakt) payına düşüb. Ümumilikdə, 2025-ci il ərzində respublikada 48 min 546 rəsmi nikaha daxilolma və 20 min 675 boşanma halı qeydiyyata alınıb. Ötən illərin statistikası ilə müqayisədə müsbət tendensiya kimi, həm rəsmi nikahların, həm də boşanmaların əmsalında müəyyən azalmalar müşahidə olunub.

Sonra Ailə, qadın və uşaq məsələləri komitəsinin sədri Hicran Hüseynova çıxışında gender məsələsində son dövrlərdə ölkədə inkişafın olduğunu, amma bəzi sahələrdə hələ də çətinliyin müşahidə edildiyini bildirdi: "Azərbaycanda doğulan qız və oğlan uşaqları arasındakı fərq azalsa da, ana və uşaq ölümü göstəriciləri artıb. Hazırda cinsi nisbət hər 100 qıza 113 oğlan təşkil edir. Halbuki bioloji norma hər 100 qıza 105-107 oğlandır. Digər tərəfdən ana və uşaq ölümü göstəricilərində artım müşahidə olunur. Əgər 2020-ci ildə hər 100 min diri doğulana 15,8 ana ölümü düşürdüsə, 2025-ci ildə bu göstərici 27,1 olub. Hər 1000 nəfər diri doğulan uşaqlar arasında 1 yaşadək ölən uşaqların sayı isə 2020-ci ildə 9,8, 2025-ci ildə isə 13,7 təşkil edib".

Parlamentin İnsan hüquqları komitəsinin sədri Zahid Oruc çıxışında Milli Məclisin iki il öncə qəbul etdiyi qanunun öz bəhrəsini verdiyini və ölkədə qohum nikahlarının sayının azaldığını diqqətə çatdırdı: "2022-ci ildə 2542 olan qohum nikahlarının sayı 2024-cü ildə 2058-ə, 2025-ci ildə isə 1412-yə düşüb. Müsbət dinamikaya baxmayaraq, problem tam aradan qalxmayıb. 2025-ci ildə bu sahədə ən yüksək göstəricilər Bakı (360 nəfər) və Lənkəran-Astara (223 nəfər) bölgələrinin payına düşüb. Fikrimcə, qohum nikahları təkcə hüquqi qadağalarla həll oluna bilməz, eyni zamanda, cəmiyyətdə davranış dəyişikliyi formalaşmalı, maarifləndirmə dalğası, tibbi-genetik məsləhətlər və məktəblərdə sistemli işin artması vacibdir".

Çıxışında digər ciddi və narahatedici məqam kimi ana və uşaq ölümü göstəricilərinə toxunan Zahid Oruc 2025-ci ildə hər 100 min diri doğulana ana ölümü sayının 26 nəfər təşkil etdiyini diqqətə çatdırdı. Şəhər yerlərində müvafiq göstəricinin 2024-cü ildəki 12,2 faizdən 2025-ci ildə kəskin artaraq 22,1 faizə yüksəlməsini xüsusi narahatlıq doğuran fakt sayan komitə sədri kənd yerlərində müəyyən azalma müşahidə olunsa da, ümumi rəqəmlərin hələ də yüksək qaldığını söylədi: "2025-ci ildə 1 yaşadək 1312 uşaq həyatını itirib və hər 1000 diri doğulana uşaq ölümü əmsalı 13,7 faiz təşkil edib. Ölkədə əhalinin demoqrafik artımına ehtiyac duyulan bir dövrdə "Ailə planlaşdırılması və reproduktiv sağlamlıq haqqında" yeni qanun layihəsinin parlament tərəfindən dəstəklənəcəyinə ümid edirəm. Sonda onu bildirmək istəyirəm ki, qızların təhsildən yayınması sonradan zəncirvari reaksiya kimi erkən nikaha, iqtisadi asılılığa, məişət zorakılığına qarşı müdafiəsizliyə və nəticədə sosial təcridə birbaşa yol açır".

* * *

Çıxışlardan sonra hesabat səsverməyə qoyularaq qəbul edildi. Daha sonra gündəlikdə yer alan digər məsələlərin müzakirəsinə başlanıldı. Bu çərçivədə parlament Azərbaycan Respublikası Ali Məhkəməsinə yeni hakimlərin təyin edilməsi barədə təqdimatları təsdiqlədi. Naxçıvan Muxtar Respublikası Ali Məhkəməsinin hakimi Sənan Məmməd oğlu Qarayev və Xankəndi Şəhər Məhkəməsinin sədri İlkin Qismət oğlu Abdullayev tutduqları vəzifələrdən azad edilərək Azərbaycan Respublikası Ali Məhkəməsinin hakimi təyin olundular. Bununla yanaşı, deputatlar Bakı, Sumqayıt, Gəncə və ölkənin digər şəhərləri üzrə müvafiq instansiya məhkəmələrinə də hakimlərin təyin edilməsi ilə bağlı qərarları səsə qoyaraq qəbul etdilər.

Gündəlikdəki digər məsələrin müzakirəsindən sonra çıxış edən MM-in Sədri Sahibə Qafarova qarşıdan gələn Qurban bayramı və 28 May Müstəqillik Günü münasibətilə parlament adından Prezident İlham Əliyevə və Birinci vitse-prezident Mehriban xanım Əliyevaya təbrik məktublarının ünvanlanmasını təklif etdi. Deputatlar bu təklifi yüksək qarşıladılar. Ulu öndər Heydər Əliyevin dövlətçilik xidmətlərini və Prezident İlham Əliyevin uzaqgörən siyasəti sayəsində qazanılan tarixi zəfərləri xatırladan spiker deputatları, xalqımızı və media nümayəndələrini bayramlar münasibətilə səmimi-qəlbdən təbrik edərək Milli Məclisin yaz sessiyasını bağlı elan etdi.

***Tacir SADIQOV***
***XQ***

## Azərbaycan Respublikası Ali Məhkəməsi hakimlərinin təyin edilməsi haqqında

### *Azərbaycan Respublikası Milli Məclisinin Qərarı*

Azərbaycan Respublikası Konstitusiyasının 95-ci maddəsinin I hissəsinin 10-cu bəndinə, "Məhkəmələr və hakimlər haqqında" Azərbaycan Respublikası Qanununun 94-cü maddəsinin ikinci hissəsinə və 97-ci maddəsinin ikinci hissəsinə uyğun olaraq, Azərbaycan Respublikası Prezidentinin təqdimatına əsasən Azərbaycan Respublikasının Milli Məclisi **qərara alır:**

**1.** Aşağıdakı hakimlər vəzifələri dəyişdirilərək Azərbaycan Respublikası Ali Məhkəməsinin hakimləri təyin edilsinlər:

Abdullayev İlkin Qismət oğlu,
Qarayev Sənan Məmməd oğlu.

**2.** Bu Qərar imzalandığı gündən qüvvəyə minir.

***Sahibə QAFAROVA,***
***Azərbaycan Respublikası Milli Məclisinin Sədri***

**Bakı şəhəri, 26 may 2026-cı il**

## Bakı Apellyasiya Məhkəməsi hakimlərinin təyin və vəzifədən azad edilməsi haqqında

### *Azərbaycan Respublikası Milli Məclisinin Qərarı*

Azərbaycan Respublikası Konstitusiyasının 95-ci maddəsinin I hissəsinin 10-cu bəndinə və III hissəsinə, "Məhkəmələr və hakimlər haqqında" Azərbaycan Respublikası Qanununun 94-cü maddəsinin ikinci hissəsinə və 97-ci maddəsinin ikinci hissəsinə uyğun olaraq, Azərbaycan Respublikası Prezidentinin təqdimatına əsasən Azərbaycan Respublikasının Milli Məclisi **qərara alır:**

**1.** Aşağıdakı hakimlər vəzifələri dəyişdirilərək Bakı Apellyasiya Məhkəməsinin hakimləri təyin edilsinlər:

Abdullayev Elşən Uğur oğlu,
Əliyeva Aytən Heydər qızı,
Hüseynov Elməddin Mirpaşa oğlu,
Hüseynov Telman Qulaməli oğlu,
İsmayılzadə Fərid Sabir oğlu,
Qafarova Rəna Nazim qızı,
Nuriyev Elnur Aləm oğlu.

**2.** Sadıqov Vahid Nəriman oğlu vəzifəsinin dəyişdirilməsi ilə əlaqədar Bakı Apellyasiya Məhkəməsinin hakimi vəzifəsindən azad edilsin.

**3.** Bu Qərar imzalandığı gündən qüvvəyə minir.

***Sahibə QAFAROVA,***
***Azərbaycan Respublikası Milli Məclisinin Sədri***

**Bakı şəhəri, 26 may 2026-cı il**

## N.T.Əliyevin Gəncə Apellyasiya Məhkəməsinin hakimi vəzifəsindən azad edilməsi haqqında

### *Azərbaycan Respublikası Milli Məclisinin Qərarı*

Azərbaycan Respublikası Konstitusiyasının 95-ci maddəsinin III hissəsinə və "Məhkəmələr və hakimlər haqqında" Azərbaycan Respublikası Qanununun 97-ci maddəsinin ikinci hissəsinə uyğun olaraq, Azərbaycan Respublikası Prezidentinin təqdimatına əsasən Azərbaycan Respublikasının Milli Məclisi **qərara alır:**

**1.** Nural Turab oğlu Əliyev vəzifəsinin dəyişdirilməsi ilə əlaqədar Gəncə Apellyasiya Məhkəməsinin hakimi vəzifəsindən azad edilsin.

**2.** Bu Qərar imzalandığı gündən qüvvəyə minir.

***Sahibə QAFAROVA,***
***Azərbaycan Respublikası Milli Məclisinin Sədri***

**Bakı şəhəri, 26 may 2026-cı il**

## B.M.Məmmədovun Sumqayıt Apellyasiya Məhkəməsinin hakimi təyin edilməsi haqqında

### *Azərbaycan Respublikası Milli Məclisinin Qərarı*

Azərbaycan Respublikası Konstitusiyasının 95-ci maddəsinin I hissəsinin 10-cu bəndinə, "Məhkəmələr və hakimlər haqqında" Azərbaycan Respublikası Qanununun 94-cü maddəsinin ikinci hissəsinə və 97-ci maddəsinin ikinci hissəsinə uyğun olaraq, Azərbaycan Respublikası Prezidentinin təqdimatına əsasən Azərbaycan Respublikasının Milli Məclisi **qərara alır:**

**1.** Bilal Mahir oğlu Məmmədov vəzifəsi dəyişdirilərək Sumqayıt Apellyasiya Məhkəməsinin hakimi təyin edilsin.

**2.** Bu Qərar imzalandığı gündən qüvvəyə minir.

***Sahibə QAFAROVA,***
***Azərbaycan Respublikası Milli Məclisinin Sədri***

**Bakı şəhəri, 26 may 2026-cı il**

## Şəki Apellyasiya Məhkəməsi hakimlərinin təyin edilməsi haqqında

### *Azərbaycan Respublikası Milli Məclisinin Qərarı*

Azərbaycan Respublikası Konstitusiyasının 95-ci maddəsinin I hissəsinin 10-cu bəndinə, "Məhkəmələr və hakimlər haqqında" Azərbaycan Respublikası Qanununun 94-cü maddəsinin ikinci hissəsinə və 97-ci maddəsinin ikinci hissəsinə uyğun olaraq, Azərbaycan Respublikası Prezidentinin təqdimatına əsasən Azərbaycan Respublikasının Milli Məclisi **qərara alır:**

**1.** Aşağıdakı hakimlər vəzifələri dəyişdirilərək Şəki Apellyasiya Məhkəməsinin hakimləri təyin edilsinlər:

Əsgərov Anar Əlifağa oğlu,
Mustafayev Etibar Mustafa oğlu.

**2.** Bu Qərar imzalandığı gündən qüvvəyə minir.

***Sahibə QAFAROVA,***
***Azərbaycan Respublikası Milli Məclisinin Sədri***

**Bakı şəhəri, 26 may 2026-cı il**

## Şirvan Apellyasiya Məhkəməsi hakimlərinin təyin edilməsi haqqında

### *Azərbaycan Respublikası Milli Məclisinin Qərarı*

Azərbaycan Respublikası Konstitusiyasının 95-ci maddəsinin I hissəsinin 10-cu bəndinə, "Məhkəmələr və hakimlər haqqında" Azərbaycan Respublikası Qanununun 94-cü maddəsinin ikinci hissəsinə və 97-ci maddəsinin ikinci hissəsinə uyğun olaraq, Azərbaycan Respublikası Prezidentinin təqdimatına əsasən Azərbaycan Respublikasının Milli Məclisi **qərara alır:**

**1.** Aşağıdakı hakimlər vəzifələri dəyişdirilərək Şirvan Apellyasiya Məhkəməsinin hakimləri təyin edilsinlər:

Ağabəyov Nicat Rauf oğlu,
Hacızadə Fəxri Hümmət oğlu.

**2.** Bu Qərar imzalandığı gündən qüvvəyə minir.

***Sahibə QAFAROVA,***
***Azərbaycan Respublikası Milli Məclisinin Sədri***

**Bakı şəhəri, 26 may 2026-cı il**

# Aktauda Müstəqillik Günü məclisi



**Azərbaycanın Aktaudakı Baş konsulluğunda 28 May Müstəqillik Gününə həsr olunmuş rəsmi qəbul təşkil olunub.**

Baş konsul Ayxan Süleymanlı çıxışında müsəlman Şərqində ilk demokratik, dünyəvi respublikanın 108 il əvvəl Azərbaycanda yarandığını diqqətə çatdıraraq Xalq Cümhuriyyətinin 23 ay ərzində gördüyü işlər barədə iştirakçılara ətraflı məlumat verib.

Aktau şəhərinin meri Abilkair Baypakov öz hökuməti adından Azərbaycan xalqını milli bayram münasibətilə təbrik edib və ən xoş arzularını bildirib. Azərbaycan ilə Qazaxıstan arasında münasibətlərin böyük tarixi olduğunu qeyd edən A.Baypakov ölkəsinin Azərbaycanın uğurlarına sevindiyini bildirib, hazırda Azərbaycan ilə Qazaxıstan arasında olan strateji əlaqələrin ölkələrimizin rəhbərlərinin dəstəyi ilə daha da inkişaf etdiyini söyləyib.

Aktau və Atırau şəhərlərində fəaliyyət göstərən "Dostluq" və "Novruz" Etnomədəni Birliklərin sədrləri Şəmsəddin Hüseynov və Eldar Əhmədov öz çıxışlarında bayram münasibətilə xalqımızı təbrik edib, xaricdə yaşayan azərbaycanlılara göstərilən qayğıya görə dövlətimizə təşəkkürlərini bildiriblər.

Ziyafət zamanı həmçinin kitab sərgisi olub, işğaldan azad edilən ərazilərdə Azərbaycanın mədəni irs abidələrinin ermənilər tərəfindən dağıdılması ilə bağlı görüntüləri özündə əks etdirən filmlər nümayiş etdirilib, Azərbaycanın və Qazaxıstanın milli rəqsləri ifa olunub və Aktauda yaşayan azərbaycanlı incəsənət xadimlərinin iştirakı ilə konsert proqramı təşkil edilib.

***Qulu KƏNGƏRLİ,***
***XQ-nin Türküstan üzrə xüsusi müxbiri***

**Aktau**

# Azərbaycan və Rusiya Hökumət başçılarının telefon danışığı



**Mayın 26-da Azərbaycan Respublikasının Baş naziri Əli Əsədov ilə Rusiya Federasiyası Hökumətinin sədri Mixail Mişustin arasında telefon danışığı olub.**

Hökumət başçıları Azərbaycan-Rusiya qarşılıqlı fəaliyyətinin əsas istiqamətləri və bir sıra sahələrdə birgə təşəbbüslərin təşviqi məsələləri ətrafında ətraflı fikir mübadiləsi aparıblar.

Tərəflər geniş istiqamətlər üzrə ikitərəfli əməkdaşlığın ardıcıl inkişafında qarşılıqlı maraqlı olduqlarını təsdiq ediblər.

*XQ*

# Pakistanda Azərbaycanın Müstəqillik Günü şənliyi



**Azərbaycanın Pakistandakı səfirliyi 28 May - Müstəqillik Günü münasibətilə rəsmi qəbul təşkil edib.**

İki ölkənin Dövlət himnləri səsləndirildikdən sonra çıxış edən səfir Xəzər Fərhadov 108-ci ildönümü qeyd olunan Azərbaycan Demokratik Respublikasının (ADR) keçdiyi müstəqillik yolu haqqında məlumat verib. Diplomat qeyd edib ki, cəmi 23 ay mövcud olmasına baxmayaraq, parlament, hökumət, dövlət atributları formalaşdırılıb, dövlət quruculuğu sahəsində əhəmiyyətli addımlar atılıb, həmçinin Azərbaycanın milli dövlətçilik tarixində demokratik ənənələrin əsası qoyulub.

Səfir əlavə edib ki, Azərbaycan Xalq Cümhuriyyətinin hüquqi varisi olan müstəqil Azərbaycan Respublikası 1991-ci ildə müstəqilliyini bərpa etsə də, Azərbaycan xalqı və dövləti qarşısında müstəsna xidmətləri olan ulu öndər Heydər Əliyevin sayəsində öz suverenliyini qoruyub saxlaya bilib. Həmin siyasət hazırda Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilir.

Pakistanın kommunikasiya üzrə federal naziri Abdul Aleem Xan Müstəqillik Günü münasibətilə Azərbaycan hökumətini və xalqını Baş nazir Məhəmməd Şahbaz Şərif, Pakistan hökuməti və şəxsən öz adından ürəkdən təbrik edib. İki ölkə arasındakı qardaşlıq münasibətləri barədə danışan federal nazir bu əlaqələrin sarsılmaz təməllərə söykəndiyini bildirib.

Pakistan Senatının sədri Seyid Yusuf Rza Gilani də Azərbaycan hökuməti və xalqını Müstəqillik Gününün 108-ci ildönümü münasibətilə təbrik edib. Azərbaycan-Pakistan parlamentlərarası əməkdaşlığının yüksək səviyyədə inkişaf etdiyini bildirən Senat sədri iki ölkə arasında mövcud olan qarşılıqlı anlaşma və həmrəyliyin diqqətəlayiq olduğunu vurğulayıb.

*XQ*

# Aqrar sektorda subsidiya islahatları

## *Regionlar və məhsullar üzrə yeni model*

**Mayın 25-də Prezident İlham Əliyevin sədrliyi ilə kənd təsərrüfatına həsr olunmuş müşavirə aqrar sahənin inkişafının Azərbaycanda dövlət siyasətinin əsas prioritetlərindən biri olduğunu göstərdi. Səsləndirilən fikirlər, qarşıya qoyulan tapşırıqlar və verilən mesajlar onu deməyə əsas verir ki, kənd təsərrüfatı ölkənin iqtisadi sabitliyinin gücləndirilməsi, ərzaq təminatının möhkəmləndirilməsi və regionların sosial-iqtisadi tərəqqisinin sürətləndirilməsi baxımından strateji əhəmiyyət daşıyan sahə kimi diqqət mərkəzində saxlanılır.**



Dövlət başçısının vurğuladığı kimi, aqrar sahənin inkişafında subsidiya mexanizmləri xüsusi rol oynayır. Azərbaycanda kənd təsərrüfatının tərəqqisi məqsədilə tətbiq edilən dəstək proqramları fermerlərin fəaliyyət imkanlarını genişləndirir, istehsalın həcminin artırılmasına və məhsuldarlığın yüksəlməsinə şərait yaradır. Məlumdur ki, Azərbaycan genişmiqyaslı və çoxşaxəli subsidiya mexanizmlərini tətbiq edən nadir ölkələrdən biridir ki, bu da aqrar sahəyə dövlət dəstəyinin ardıcıl və sistemli xarakter daşıdığını göstərir.

Diqqətçəkən əsas məqamlardan biri də kənd təsərrüfatı infrastrukturunun gücləndirilməsinə xüsusi önəm verilməsidir. İntensiv bağçılığın genişləndirilməsi, istixana təsərrüfatlarının inkişafı, müasir suvarma texnologiyalarının tətbiqi və suvarma şəbəkələrinin əhatə dairəsinin artırılması istiqamətində həyata keçiriləcək layihələr uzunmüddətli perspektivə hesablanıb. Bu tədbirlərin təsirinin 2030-cu ildən sonrakı dövrdə də aqrar sektorun inkişafına mühüm töhfə verəcəyi gözlənilir.

Digər tərəfdən, subsidiyaların verilməsi məsələsində də çeviklik amili ön planda olmalıdır. Dövlət başçısı vurğulayıb ki, subsidiya siyasəti müəyyən edilərkən əsas diqqət daxili bazarın tələbatının ödənilməsinə və ixrac potensialının genişləndirilməsinə yönəldilməlidir. Bu baxımdan subsidiya mexanizmlərinin çevik və dövrün tələblərinə uyğun şəkildə tənzimlənməsi xüsusi əhəmiyyət daşıyır. Prezident daha sonra bildirib ki, subsidiyaların həcmi və istiqamətləri həm regionlar, həm də istehsal olunan məhsul növləri üzrə mütəmadi şəkildə yenidən qiymətləndirilməlidir: "Ancaq hər halda bizim ixracımız bazarlara bağlı olmalıdır. Ona görə subsidiyalar veriləndə, əlbəttə, bu amillər nəzərə alınmalıdır - daxili tələbatın bağlanması və ixrac imkanlarının genişləndirilməsi. Yəni ona görə subsidiyalar da çox çevik olmalıdır. Bəlkə də hər il yenidən baxılmalıdır - həm rayonlar üzrə, həm yetişdirilən məhsul üzrə. Yəni bir dəfə bu məhsula bu qədər subsidiya veririk və 10 il bu davam edir, belə olmaz".

Xüsusi yenilik kimi vurğulanmalıdır ki, ölkədə ilk dəfə olaraq balıqçılıq sahəsində də subsidiya və dövlət güzəştlərinin tətbiqi nəzərdə tutulur. Bu addım vasitəsilə sektorun inkişafının sürətləndirilməsi, istehsal imkanlarının genişləndirilməsi və daxili tələbatın daha səmərəli şəkildə qarşılanması hədəflənir. Eyni zamanda, proqram çərçivəsində yeni balıqartırma zavodlarının tikintisinin həyata keçirilməsi də planlaşdırılır.

Ümumiyyətlə, işğaldan azad edilmiş ərazilərimiz üçün də subsidiya imkanları olduqca əlçatandır. Belə ki, Böyük Qayıdış çərçivəsində məskunlaşan əhali 50 faizdən artıq subsidiya əldə edirlər. Bununla yanaşı, müəyyən şərtlər daxilində hər hektara görə Cəbrayıl, Qubadlı, Xocalı, Xocavənd və Zəngilan rayonlarının işğaldan azad edilmiş ərazilərində şabalıd bağlarına 3250 manat, super-intensiv gilas bağlarına 16250 manat, şaftalı (nektarin) və ərik bağlarına 15500 manat, qoz bağlarına 4200 manat, fındıq bağlarına 4400 manat əkin subsidiyaları verilir.

Qeyd edək ki, qarşıdakı 5 il ərzində kənd təsərrüfatı sahəsinə ümumilikdə 5,9 milyard manat həcmində investisiyanın yönəldilməsi planlaşdırılır. Həmin vəsaitin 2,2 milyard manatının dövlət dəstəyi hesabına qarşılanacağı, 3,7 milyard manatının isə özəl sektor tərəfindən yatırılacağı nəzərdə tutulur. Proqramın icrası nəticəsində aqrar sektorda mühüm iqtisadi nəticələrin əldə olunacağı proqnozlaşdırılır. Hesablamalara əsasən, 2030-cu ilədək kənd təsərrüfatı istehsalında artım tempinin 2 faizdən yüksək olacağı, ixrac göstəricilərinin isə 6 faizdən çox artacağı gözlənilir.

*Nurlan ABDALOV*
*XQ*

### *Ekspert rəyi*



**Eldəniz ƏMİROV,**
**iqtisadçı**

Cənab Prezidentin kənd təsərrüfatı məsələlərinə həsr olunmuş müşavirəsində səslənən fikirlərdən sonra əsas məsələ artıq zənnimcə, statistik hesabat yox, strateji nəticə çıxarmaqdır. Müşavirədə açıq görünən əsas məqam budur ki, son illərdə aqrar sahədə mühüm nəticələr əldə olunsa da, səslənən rəqəmlər bəzi istiqamətlər üzrə əlavə addımlara və yeni yanaşmalara ehtiyac olduğunu göstərir.

Ən diqqətçəkən nümunə buğda məsələsidir. Azərbaycan buğda ilə özünü cəmi 55 faiz təmin edir. Belə ki, 1 milyon 573 min ton daxili istehsala qarşılıq 1 milyon 267 min ton idxal həyata keçirilir. Bu göstəricilər aqrar siyasətdə növbəti mərhələdə əsas diqqətin artıq sadəcə istehsal həcminə deyil, məhsuldarlığın və səmərəliliyin artırılmasına yönələcəyini göstərir.

Müşavirədə açıq şəkildə bildirildi ki, illərlə dəyişməyən subsidiya modeli effektiv deyil. Subsidiyalar bazar tələbi, ixrac potensialı və məhsuldarlığa uyğun çevik dəyişməlidir. Üçüncüsü, aqrar emaldır. Azərbaycan bir çox hallarda xammal ixrac edir, emal məhsulu idxal edir. Bu isə əlavə dəyərin ölkə daxilində formalaşmaması deməkdir. Pambıq üzrə "mahlıc yox, hazır məhsul" mesajı məhz buna hesablanıb. Ümumiyyətlə, mən aqrar emalı kənd təsərrüfatının ən birinci dəstəkləyici istiqaməti hesab edirəm. Yeni yaradılan dəyər bir çox istiqamətlərə ciddi effektlər verər.

Müşavirədə səsləndirilən "şəhərdən kəndə qayıdış" fikri əslində iqtisadi model mesajıdır. Əgər kənddə gəlir, xidmət, logistika və sosial infrastruktur rəqabətli olmazsa, urbanizasiya dayanmayacaq. Odur ki, yeni proqram kəndlərdə gəlir imkanlarının, xidmətlərin, logistikanın və sosial infrastrukturun daha rəqabətli səviyyəyə çatdırılmasına yönəlməlidir. Beşincisi, texnologiya məsələsidir. Torpaq pasportlaşdırılması, süni intellekt, peyk məlumatları, rəqəmsal analizlərin vurğulanması göstərir ki, aqrar sektor artıq ənənəvi idarəetmədən texnologiya əsaslı idarəetməyə keçir.

Ümumilikdə, WUF13-dən dərhal sonra kəndlərin iqtisadi dayanıqlılığı, regionlarda həyat və məşğulluq imkanları, Bakının artan yükünün balanslaşdırılması fonunda belə müşavirənin keçirilməsi olduqca vacib və zamanında atılmış addımdır. Prezident İlham Əliyevin müşavirədə qarşıya qoyduğu konkret hədəflər və verdiyi tapşırıqlar isə aqrar siyasətdə növbəti mərhələnin əsas istiqamətlərini aydın şəkildə göstərdi.

# Xəzərdən Avropaya mötəbər enerji körpüsü

(əvvəli 1-ci səhifədə)

Azərbaycan qazını dünya və Avropa bazarına ixrac edən Cənub Qaz Dəhlizinin ideya müəllifi və memarı ulu öndər Heydər Əliyevdir. Belə ki, 1999-cu il iyulun 12-də "Şahdəniz" yatağında əldə edilmiş nəticələrin təqdimatına həsr olunmuş mərasimdə Ümummilli lider ölkəmiz üçün ən əlverişli qaz bazarı kimi qardaş Türkiyəni nişan verməsi XXI əsrin yeni enerji dəhlizinin, bir növ, anonsu idi. Ulu öndər Heydər Əliyevin Azərbaycan qazının Türkiyəyə ixracını nəzərdə tutan boru kəməri ilə bağlı mülahizəsi sonradan Avropaya nəhəng bir enerji dəhlizinin açılmasına vəsilə oldu. Bu, Prezident İlham Əliyevin iştirakı və xeyir-duası ilə 2014-cü il sentyabrın 20-də təməli qoyulmuş Cənub Qaz Dəhlizi idi.

"Cənub Qaz Dəhlizi" layihəsinin ilk seqmenti "Şahdəniz" yatağının ikinci işlənmə mərhələsi ilə bağlıdır. Azərbaycan qazını Avropa və Türkiyəyə çatdıran bu nəhəng enerji layihəsi "Şahdəniz" yatağının birinci işlənmə mərhələsi çərçivəsində hasil olunan illik 10 milyard kubmetrdən əlavə daha 16 milyard kubmetr qaz hasilatını nəzərdə tutur. 2006-cı ilin sonlarında istismara verilmiş "Şahdəniz" yatağının ilkin balans ehtiyatı 1 trilyon kubmetrdən artıq təbii qaz və 2 milyard bareldən artıq kondensat həcmində qiymətləndirilib. Artıq uzun illərdir ki, "Şahdəniz-2" layihəsi bir sıra Avropa ölkələrinin qaz təchizatına mühüm töhfələr verir.




Cənub Qaz Dəhlizi isə 3 müxtəlif magistral qaz kəmərinin birləşməsindən ibarətdir. Başlanğıcını Xəzər dənizinin sahilində yerləşən Səngəçal terminalından götürən bu qaz ixracı dəhlizi İtaliyanın cənubuna doğru Adriatik dənizinin dibindən keçməklə 3500 kilometr məsafə qət edir. Layihənin məqsədi Xəzərin Azərbaycan sektorunda yerləşən "Şahdəniz" yatağının 1-ci və 2-ci mərhələri çərçivəsində hasil edilən təbii qazın Türkiyə və Avropa bazarlarına çatdırılmasını təmin etməkdir.

Bu nəhəng enerji dəhlizinin ilk hissəsini Cənubi Qafqaz Boru Kəməri təşkil edir. Uzunluğu 692 kilometr olan bu kəmər "Şahdəniz" yatağından hasil edilən qazı Gürcüstan – Türkiyə sərhədinə nəql etmək məqsədilə inşa edilib. Başlanğıcını Səngəçal terminalından götürən bu boru kəməri Türkiyə sərhədinədək Azərbaycanda və Gürcüstanda Bakı – Tbilisi – Ceyhan neft kəməri ilə eyni dəhlizdə çəkilib. Boru kəməri 2007-ci ilin əvvəllərində istismara verilib.

2011-ci ildə Avropa Komissiyası və Azərbaycan Xəzərdən Avropaya birbaşa qaz nəql edən marşrutların yaradılmasını dəstəkləyən Birgə Bəyanat imzalayıblar. Sözügedən sənəd TANAP və TAP-la bağlı hökumətlərarası sazişlərlə birlikdə uzunmüddətli qaz satış müqavilələri üçün zəmin yaradıb. Bir il sonra isə Azərbaycan və Türkiyənin dövlət başçıları Trans-Anadolu Qaz Boru Kəməri ilə bağlı müqaviləyə imza atıblar.

Sonrakı illərdə imzalanmış mühüm sənədlər, qəbul edilmiş bir sıra vacib qərarlar Xəzər regionunu Avropa ilə birləşdirən Cənub Qaz Dəhlizi kimi meqa layihənin ərsəyə gəlməsi ilə nəticələnib. Beləliklə, 2014-cü il sentyabrın 20-də Bakıda Azərbaycan Prezidenti İlham Əliyevin iştirakı ilə Cənub Qaz Dəhlizinin təməli qoyulub. Cənub Qaz Dəhlizinin əsas seqmentlərini isə "Şahdəniz" qaz-kondensat yatağının tammiqyaslı işlənilməsi, Cənubi Qafqaz Boru Kəmərinin genişləndirilməsi, Trans-Anadolu Boru Kəməri və Trans-Adriatik Boru Kəməri layihələri təşkil edir.

Cənub Qaz Dəhlizinin yaradılması, ilk növbədə, 2006-cı ilin sonlarında istifadəyə verilmiş Cənubi Qafqaz Boru Kəmərinin genişləndirilməsi zərurətini yaradıb. Bu məqsədlə marşrutun Azərbaycan ərazisindən keçən hissəsində yeni boru kəməri inşa olunub. Bununla da, illik ötürmə qabiliyyəti 7,4 milyard kubmetr təşkil edən Cənubi Qafqaz Boru Kəmərinin gücü 24 milyard kubmetrə çatdırılıb. Gələcəkdə isə lazım gəldiyi təqdirdə kəmərin illik ötürmə qabiliyyəti 34 milyard kubmetrə çatdırıla bilər.

"Şahdəniz" qazını Türkiyənin dərinliklərinə nəqlini həyata keçirən TANAP-ın təməlqoyma mərasimi 2015-ci il martın 17-də Türkiyənin Qars şəhərində keçirilib. Bununla da, boru kəmərinin inşasına start verilib. 2018-ci il iyunun 12-də isə Əskişəhərdə Cənub Qaz Dəhlizinin mühüm hissəsi olan Trans-Anadolu Boru Kəmərinin açılışı olub. Həmin ayın 30-da ilk kommersiya qazının bu kəmərlə Türkiyəyə nəqlinə başlanılıb.

Noyabrın 30-da isə TANAP-ın Avropa ilə birləşən hissəsinin açılış mərasimi keçirilib. Uzunluğu 1850 kilometr olan TANAP-ın illik ötürmə gücü hazırda 16,2 milyard kubmetr təşkil edir. Azərbaycanın zəngin qaz ehtiyatları, eləcə də Avropada "mavi yanacağa" tələbatın artması ilə əlaqədar gələcəkdə sözügedən kəmərin illik ötürmə qabiliyyətinin 30,7 milyard kubmetrədək artırılması gözlənilir.

Cənub Qaz Dəhlizinin son seqmenti olan Trans-Adriatik Boru Kəməri Xəzər regionunun qazını Avropaya nəql etmək məqsədilə inşa edilib. Adıçəkilən kəmərin təməlqoyma mərasimi 2016-cı il mayın 17-də Yunanıstanın Saloniki şəhərində keçirilib və tikinti işlərinə başlanılıb. Qeyd edək ki, uzunluğu 880,8 kilometr olan kəmərin 551,5 kilometri Yunanıstan, 215,9 kilometri Albaniya, 105 kilometri Adriatik dənizi, 8,4 kilometri isə İtaliya ərazisindən keçir. Hazırda kəmərlə il ərzində 10 milyard kubmetr qaz nəql olunur. Lakin yaxın illərdə Avropaya qaz tədarükünün artması ilə əlaqədar olaraq bu həcmin 20 milyard kubmetrə çatdırılması nəzərdə tutulur.

TAP kəməri 2020-ci il noyabrın 15-də istismara verilib və kommersiya fəaliyyətinə başlamağa hazır vəziyyətə gətirilib. Həmin il dekabrın 31-də isə Azərbaycan qazının TAP vasitəsilə Avropaya tədarükünə başlanılıb. Bununla da ölkəmiz Cənub Qaz Dəhlizi kimi nəhəng enerji marşrutu vasitəsilə Avropanın mühüm qaz tədarükçülərindən birinə çevrilib.

Artıq 8 ildir ki, Azərbaycanın enerji resurslarının şaxələndirilməsinə xidmət edən Cənub Qaz Dəhlizi Avropanın təbii qaza olan tələbatının ödənilməsinə mühüm töhfələr verir. Ötən müddətdə bu əvəzolunmaz layihə ölkəmizi mühüm enerji müttəfiqinə və strateji tərəfdaşa çevirib. Təsadüfi deyil ki, Azərbaycan qazını mühüm mənbə kimi səciyyələndirən Prezident İlham Əliyev Cənub Qaz Dəhlizini yeni enerji damarı, Avropanın enerji xəritəsini yenidən tərtib edən layihə adlandırıb.

Hazırda Azərbaycan Türkiyə və Gürcüstan da daxil olmaqla 16 ölkəyə "mavi yanacaq" ixrac edir. Bunun da 12-si Avropa ölkəsidir. 2007-ci ilin əvvəlindən etibarən 2026-cı ilin birinci rübünün sonunadək Cənub Qaz Dəhlizi vasitəsilə 196,5 milyard kubmetr "mavi yanacaq" ixrac olunub. Bunun da 58 milyard kubmetri Avropa bazarlarına çatdırılıb. Bununla belə "köhnə qitə"də təbii qaza ciddi ehtiyac duyulduğu indiki şəraitdə Azərbaycandan "mavi yanacaq" alan Avropa ölkələrinin sayının daha da artacağı gözlənilir.

Bütövlükdə isə, Cənub Qaz Dəhlizi kimi nəhəng enerji layihəsi ölkəmizin XXI əsrdə nail olduğu bir uğur hekayəsi idi. Məhz bu hekayənin reallaşması istiqamətində atılan addımlar insanlarda gələcəyə inam yaradıb. Müqavilənin reallaşması müxtəlif ölkələrdən olan insanları bir araya gətirib. Layihə iştirakçılarının gərgin əməyi sayəsində Xəzər kimi qapalı bir hövzə Avropanın böyük qaz bazarları ilə birləşdirilib. Bu isə təkcə enerjinin zəfəri deyildi, ölkənin qarşıdakı böyük uğurlarının başlanğıcı və ulu öndər Heydər Əliyevin yaradıcısı olduğu Azərbaycanın neft-qaz strategiyasının təntənəsi idi.

*Mirbağır YAQUBZADƏ*
*XQ*

# Milli dövlətçiliyin bərpasından demokratik cəmiyyətə gələn yol

**28 May Müstəqillik Günü Azərbaycan xalqının dövlətçilik təqvimində mühüm siyasi bayram olmaqla yanaşı, milli iradənin, azadlıq ideyasının və müasir dövlətçilik düşüncəsinin hüquqi-siyasi ifadəsini özündə əks etdirən əlamətdar tarixdir. Bu gün yalnız müstəqil dövlətin yaradılmasını xatırladan tarix kimi qiymətləndirilmir. Onun mahiyyətində xalqın öz müqəddəratını müəyyən etmək hüququnun həyata keçirilməsi, demokratik idarəçilik prinsiplərinin formalaşdırılması və insan hüquq və azadlıqlarına əsaslanan dövlət modelinin təməlinin qoyulması dayanır.**

1918-ci ildə Azərbaycan Xalq Cümhuriyyətinin yaradılması ilə milli dövlətçilik düşüncəsi yeni siyasi məzmun qazanmış, xalq hakimiyyəti, hüquq bərabərliyi və demokratik idarəetmə prinsiplərinə əsaslanan dövlət modelinin formalaşdırılması istiqamətində mühüm addımlar atılmışdır. Sonrakı dövrlərdə tarixi və siyasi proseslərin təsiri ilə dövlətçilik ənənələrinin inkişaf trayektoriyası dəyişsə də, müstəqillik ideyası xalqın ictimai-siyasi düşüncəsində öz əhəmiyyətini qoruyub saxlamışdır.

XX əsrin sonlarında dövlət müstəqilliyinin bərpası ilə Azərbaycan yeni inkişaf mərhələsinə qədəm qoymuş, hüquqi dövlət quruculuğu, demokratik institutların möhkəmləndirilməsi və insan hüquqlarının müdafiəsinin institusional əsaslarının yaradılması istiqamətində ardıcıl tədbirlər həyata keçirilmişdir. Müasir mərhələdə insan hüquqlarının təmin olunması dövlət siyasətinin prioritet sahələrindən birinə çevrilmiş, hüquqi mexanizmlərin təkmilləşdirilməsi və müstəqil institutların fəaliyyətinin gücləndirilməsi daim diqqət mərkəzində saxlanılmışdır.

## AXC: demokratik dövlətçilik və insan haqları ənənəsi

1918-ci il mayın 28-də Azərbaycan Xalq Cümhuriyyətinin yaradılması xalqımızın dövlətçilik tarixində yeni mərhələnin başlanğıcı olmuşdur. Bu tarixi hadisə yalnız müstəqil dövlətin qurulması ilə məhdudlaşmamış, milli siyasi düşüncənin, xalq hakimiyyəti ideyasının və müasir dövlətçilik prinsiplərinin real siyasi-hüquqi müstəviyə keçməsinin mühüm göstəricisinə çevrilmişdir. Uzun müddət davam edən mürəkkəb ictimai-siyasi proseslərdən sonra Azərbaycan xalqı öz müqəddəratını müstəqil şəkildə müəyyən etmək imkanı qazanmış, dövlət hakimiyyətinin təşkili, hüquqi idarəçilik və vətəndaş cəmiyyəti münasibətlərinə dair yeni yanaşma ortaya qoymuşdur.

Azərbaycan Xalq Cümhuriyyətinin yaranması yalnız region miqyasında deyil, bütövlükdə dünya siyasi tarixində mühüm hadisələrdən biri kimi dəyərləndirilir. Şərqdə və müsəlman dünyasında ilk parlamentli respublikanın qurulması həmin dövr üçün mütərəqqi siyasi qərar olmaqla yanaşı, demokratik dövlətçilik modelinin gerçəkləşdirilməsi baxımından da mühüm addım idi. Cümhuriyyət qurucuları dövlət idarəçiliyini müasir hüquqi və siyasi prinsiplər əsasında formalaşdırmağa çalışır, hakimiyyətin legitimliyini xalq iradəsi ilə bağlayırdılar.

Azərbaycan Milli Şurasının qəbul etdiyi "İstiqlal bəyannaməsi" dövlət quruculuğunun hüquqi və siyasi əsaslarını müəyyən edən fundamental sənəd kimi xüsusi əhəmiyyət daşıyırdı. Bu sənəddə dövlət hakimiyyətinin xalqa məxsusluğu, Azərbaycanın tamhüquqlu müstəqil dövlət kimi fəaliyyət göstərməsi, vətəndaşların hüquq bərabərliyinin təmin olunması və ölkə ərazisində yaşayan xalqların sərbəst inkişafı üçün şərait yaradılması kimi mühüm müddəalar təsbit edilmişdi. Həmin prinsiplərin yeni yaranmış respublikanın dövlət idarəçiliyi konsepsiyasında əsas yer tutması Azərbaycan dövlətçilik təfəkkürünün yetkinliyini və mütərəqqi mahiyyətini aydın şəkildə nümayiş etdirirdi.

"İstiqlal Bəyannaməsi"ndə ifadə olunan bu yanaşma AXC-nin sonrakı fəaliyyətində də özünü göstərmişdir. Vətəndaşların etnik mənsubiyyətindən, dini baxışlarından, sosial mövqeyindən və digər fərqləndirici xüsusiyyətlərindən asılı olmayaraq bərabər hüquqlara malik olması ideyası dövlət siyasətinin mühüm mənəvi-hüquqi dayaqlarından biri kimi qəbul edilirdi. Bu, Azərbaycan Xalq Cümhuriyyətinin yalnız milli istiqlal ideyasına əsaslanan siyasi model olmadığını, həm də insan ləyaqətinə, hüquqi bərabərliyə və ədalətli ictimai münasibətlərə söykənən dövlətçilik ənənəsi formalaşdırmağa çalışdığını göstərirdi.

Azərbaycan Xalq Cümhuriyyətinin dünya siyasi və hüquqi tarixində mühüm yer tutan qərarlarından biri qadınlara seçmək və seçilmək hüququnun verilməsi olmuşdur. Həmin dövrdə bir sıra inkişaf etmiş ölkələrdə qadınların siyasi hüquqları ilə bağlı məhdudiyyətlər mövcud olduğu halda, Azərbaycanda qadınların seçki hüququ qanunvericilik səviyyəsində tanınmışdı. Bu tarixi addım Cümhuriyyətin insan amilinə, hüquq bərabərliyi prinsipinə və cəmiyyətin demokratik inkişafına verdiyi yüksək dəyərin mühüm göstəricisi idi.

Milli hökumət dövründə dövlət institutlarının formalaşdırılması istiqamətində görülən işlər də xüsusi əhəmiyyət daşıyırdı. Parlamentin fəaliyyəti, çoxpartiyalı siyasi sistemin təşəkkülü, milli ordunun yaradılması, təhsil sahəsində islahatların aparılması və hüquqi idarəetmə mexanizmlərinin qurulması dövlət quruculuğunun əsas dayaqlarını təşkil edirdi. Cümhuriyyətin qısa fəaliyyət dövrü qarşıya qoyulmuş bütün məqsədlərin tam reallaşdırılmasına imkan verməsə də, həmin mərhələdə formalaşmış siyasi-hüquqi yanaşmalar milli dövlətçilik ənənələrinin sonrakı inkişafına mühüm təsir göstərmişdir.

Mürəkkəb beynəlxalq və regional siyasi şərait Azərbaycan Xalq Cümhuriyyətinin uzun müddət fəaliyyət göstərməsinə imkan vermədi. 1920-ci il aprelin 28-də AXC süquta uğradı və Azərbaycan sovet hakimiyyəti sisteminə daxil edildi. Sonrakı təxminən yetmiş il ərzində ölkə Sovet İttifaqının tərkibində olsa da, milli dövlətçilik ideyası xalqın tarixi yaddaşından silinmədi. Müstəqillik ənənələri, milli kimlik və dövlətçilik düşüncəsi müxtəlif formalarda qorunub saxlanıldı, XX əsrin sonlarında Azərbaycanın dövlət müstəqilliyini bərpa etməsi üçün mühüm mənəvi-siyasi zəmin yaratdı.

Bu tarixi varislik müstəqilliyin bərpasından sonra Azərbaycan dövlətçiliyinin yeni siyasi və hüquqi məzmun qazanmasında mühüm rol oynadı. Cümhuriyyət dövründə əsası qoyulmuş demokratik idarəçilik, xalq hakimiyyəti, hüquq bərabərliyi və insan ləyaqətinə hörmət kimi prinsiplər müasir Azərbaycan dövlətinin hüquqi dövlət quruculuğu xəttində yeni tarixi şəraitə uyğun şəkildə davam etdirildi.

## Müstəqilliyin bərpası və çağdaş Azərbaycan dövlətçiliyi

XX əsrin sonlarında beynəlxalq siyasi sistemdə baş verən ciddi dəyişikliklər Azərbaycan xalqının milli dövlətçilik iradəsinin yenidən gerçəkləşməsi üçün tarixi şərait yaratdı. 1991-ci il oktyabrın 18-də qəbul edilmiş "Azərbaycan Respublikasının dövlət müstəqilliyi haqqında" Konstitusiya Aktı ilə Azərbaycan dövlət müstəqilliyini bərpa edərək, özünü Azərbaycan Xalq Cümhuriyyətinin siyasi və hüquqi varisi elan etdi. Bununla milli dövlətçilik tarixində yeni mərhələnin əsası qoyuldu.

Lakin müstəqilliyin hüquqi sənədlərlə təsbit edilməsi onun real siyasi, iqtisadi və institusional məzmunla möhkəmləndirilməsini zəruri edirdi. İlk illərdə ölkə mürəkkəb ictimai-siyasi və iqtisadi proseslərlə üzləşmişdi. Ermənistanın hərbi təcavüzü, torpaqların işğalı, daxili siyasi qarşıdurmalar, iqtisadi tənəzzül və idarəetmə sistemində yaranmış problemlər dövlətçilik üçün ciddi çağırışlar doğururdu.

Dövlətçilik tariximizdə 15 İyun Milli Qurtuluş Günü xüsusi siyasi və tarixi əhəmiyyətə malikdir. Müstəqilliyin ilk illərində ölkədə yaranmış mürəkkəb ictimai-siyasi vəziyyət dövlət müstəqilliyinin gələcəyini ciddi sınaq qarşısında qoymuşdu. Ermənistanın hərbi təcavüzü, torpaqların işğalı, daxili siyasi qarşıdurmalar, iqtisadi tənəzzül və idarəetmə sahəsində müşahidə olunan problemlər yeni bərpa edilmiş dövlətçiliyin möhkəmləndirilməsini zəruri edirdi.

Belə bir şəraitdə ümummilli lider Heydər Əliyevin xalqın tələbi ilə siyasi hakimiyyətə qayıdışı milli dövlətçilik ənənələrinin qorunması, sabitliyin təmin edilməsi və ölkənin gələcək inkişaf strategiyasının müəyyənləşdirilməsi baxımından dönüş nöqtəsinə çevrildi. Həmin mərhələdə qarşıda duran əsas vəzifə yalnız siyasi böhranın aradan qaldırılması ilə məhdudlaşmırdı.

Dövlət hakimiyyətinin səmərəli fəaliyyətinin təmin edilməsi, ictimai etimadın bərpası, vətəndaşların təhlükəsizliyinin qorunması və hüquqi idarəçilik mexanizmlərinin işlək vəziyyətə gətirilməsi müstəqil dövlətin gələcək inkişafı üçün həyati əhəmiyyət daşıyırdı. Çünki hüquqi institutların zəif fəaliyyət göstərdiyi, idarəetmə mexanizmlərinin ardıcıl işləmədiyi şəraitdə insan hüquq və azadlıqlarının etibarlı təminatı da çətinləşir. Bu mənada 1993-cü ildən başlanan yeni siyasi mərhələ dövlət müstəqilliyinin real məzmunla möhkəmləndirilməsi baxımından həlledici təsirə malik oldu.



*Səbinə ƏLİYEVA,*
*Azərbaycan Respublikasının İnsan Hüquqları üzrə Müvəkkili (Ombudsman), hüquq üzrə fəlsəfə doktoru*

Ümummilli lider Heydər Əliyevin rəhbərliyi ilə ölkədə dövlət idarəçiliyinin təkmilləşdirilməsi, qanunçuluğun möhkəmləndirilməsi və hüquqi dövlət quruculuğu istiqamətində ardıcıl islahatlar həyata keçirildi. Dövlətçiliyin qorunması, milli maraqların müdafiəsi, hüquqi institutların inkişafı və vətəndaşların hüquqlarının təmin olunması həmin dövrün əsas prioritetləri sırasında yer aldı. Məhz bu mərhələdə müstəqil Azərbaycanın hüquqi və institusional əsasları daha sistemli şəkildə formalaşmağa başladı.

Bu proses hüquqi sistemin yenilənməsi və qanunvericilik bazasının müasir dövlətçilik prinsiplərinə uyğun qurulmasını da əhatə edirdi. Məhkəmə-hüquq islahatları, dövlət orqanlarının fəaliyyətinin təkmilləşdirilməsi, insan hüquqları sahəsində beynəlxalq standartların milli hüquq sisteminə inteqrasiyası və vətəndaşların hüquqlarının müdafiəsi mexanizmlərinin inkişaf etdirilməsi hüquqi dövlət modelinin formalaşmasına xidmət edən əsas amillərdən oldu. Bu islahatlar müstəqilliyin yalnız siyasi-hüquqi status kimi deyil, həm də işlək dövlət institutları, qanunun aliliyi və insan hüquqlarına əsaslanan idarəçilik sistemi kimi möhkəmlənməsinə şərait yaratdı.

Sonrakı mərhələdə ümummilli lider Heydər Əliyevin müəyyən etdiyi siyasi kurs Prezident İlham Əliyevin rəhbərliyi ilə yeni tarixi şəraitin tələblərinə uyğun şəkildə davam etdirildi. Bu siyasi varislik müasir Azərbaycan dövlətçiliyinin institusional inkişafını keyfiyyətcə yeni mərhələyə yüksəltdi. Sosial-iqtisadi islahatların dərinləşdirilməsi, dövlət xidmətlərinin müasirləşdirilməsi, idarəetmədə səmərəliliyin artırılması və insan hüquqlarının müdafiəsi mexanizmlərinin gücləndirilməsi dövlət siyasətinin prioritet istiqamətləri kimi daha sistemli məzmun qazandı.

Müstəqilliyin bərpasından sonrakı tarixi təcrübə göstərdi ki, hüquqi dövlətin formalaşması yalnız normativ hüquqi bazanın yaradılması ilə başa çatan proses deyildir. Bu, dövlət institutlarının səmərəli fəaliyyəti, ictimai etimadın möhkəmləndirilməsi, qanunun aliliyinin təmin edilməsi və insan hüquqlarının müdafiə mexanizmlərinin davamlı inkişafı ilə bağlı uzunmüddətli dövlətçilik strategiyasıdır. Azərbaycanın müasir inkişaf yolu da məhz müstəqillik, suverenlik, hüquqi dövlətçilik və insan hüquqları arasında üzvi əlaqənin qorunması üzərində qurulmuşdur.

## Konstitusiya və insan hüquqlarının təminatı

Müasir dövlətçilik sistemində konstitusiya dövlət hakimiyyətinin təşkili prinsiplərini müəyyən edən normativ sənəd olmaqla yanaşı, dövlətin siyasi-hüquqi fəlsəfəsini, insan və dövlət münasibətlərinin mahiyyətini, cəmiyyətin inkişaf istiqamətlərini əks etdirən ali hüquqi baza rolunu oynayır. Azərbaycan Respublikasında hüquqi dövlət quruculuğunun başlıca istiqamətləri də konstitusiyanın müəyyən etdiyi dəyərlər və prinsiplər əsasında formalaşmışdır.

1995-ci il noyabrın 12-də ümumxalq səsverməsi (referendum) yolu ilə qəbul edilmiş Azərbaycan Respublikasının Konstitusiyası müstəqil Azərbaycanın ilk Əsas Qanunu kimi ölkənin siyasi və hüquqi inkişafında mühüm mərhələ təşkil etmişdir. Onun qəbul edilməsi dövlət idarəçiliyinin konstitusion əsaslarını möhkəmləndirməklə yanaşı, insan hüquq və azadlıqlarının müdafiəsi üçün yeni institusional təminat sistemi yaratmışdır.

Konstitusiyanın ən mühüm xüsusiyyətlərindən biri insan hüquq və azadlıqlarının dövlətin ali məqsədi kimi müəyyən edilməsidir. Əsas Qanunda insan və vətəndaş hüquq və azadlıqlarının geniş dairəsi təsbit olunmuş, onların qorunması dövlətin əsas vəzifələrindən biri kimi müəyyən edilmişdir. Bu hüquqlar sırasında yaşamaq hüququ, azadlıq, şəxsi toxunulmazlıq və təhlükəsizlik hüququ, mənzil toxunulmazlığı, şəxsi və ailə həyatının sirrinin qorunması, şərəf və ləyaqətin müdafiəsi kimi şəxsi hüquqlar mühüm yer tutur.

Bununla yanaşı, fikir və söz azadlığı, vicdan azadlığı, sərbəst toplaşmaq, birləşmək və məlumat azadlığı kimi mülki və siyasi hüquqlar vətəndaşların dövlət və cəmiyyət həyatında fəal iştirakının hüquqi əsaslarını formalaşdırır. Konstitusiyada mülkiyyət hüququ, əmək hüququ, istirahət hüququ, sosial təminat hüququ, sağlamlığın qorunması, təhsil və mədəni həyatda iştirak hüququ kimi iqtisadi, sosial və mədəni hüquqların təsbit edilməsi isə insan amilinin dövlət siyasətinin mərkəzində dayandığını göstərir. Bu hüquqların konstitusiya səviyyəsində tanınması müstəqil Azərbaycan dövlətinin hüquqi dövlət quruculuğunu insan ləyaqəti, qanunun aliliyi və sosial ədalət prinsipləri üzərində inkişaf etdirmək iradəsini ifadə edir.

Azərbaycan Respublikasında hüquqi dövlət quruculuğunun inkişafı insan hüquq və azadlıqlarının müdafiəsi sahəsində aparılan ardıcıl islahatlarla müşayiət olunmuşdur. Bu məqsədlə qəbul edilmiş dövlət proqramları, strategiyalar, milli fəaliyyət planları, konsepsiyalar və digər strateji sənədlər insan hüquqlarının təminatı üzrə hüquqi və institusional imkanların genişləndirilməsinə xidmət etmişdir. İnsan hüquqlarının müdafiəsinə dövlət siyasətində xüsusi önəm verilməsi hüquq sisteminin humanist dəyərlər əsasında inkişafına mühüm təsir göstərmişdir.

Ölüm hökmünün ləğvi, əfvetmə institutunun bərpası və amnistiya aktlarının geniş tətbiqi, seçki sisteminin təkmilləşdirilməsi, mətbuat üzərində dövlət senzurasının aradan qaldırılması, söz, fikir və məlumat azadlığının hüquqi əsaslarının möhkəmləndirilməsi bu sahədə həyata keçirilmiş mühüm tədbirlər sırasında xüsusi yer tutur. Məhkəmə-hüquq sistemində aparılan islahatlar və beynəlxalq standartların milli qanunvericiliyə inteqrasiyası isə insan hüquqlarının müdafiəsi mexanizmlərinin inkişafına mühüm töhfə vermişdir.

Konstitusiyada dövlət hakimiyyətinin bölünməsi prinsipinin təsbit olunması hüquqi dövlət modelinin başlıca şərtlərindən biri kimi çıxış edir. Qanunvericilik, icra və məhkəmə hakimiyyətləri arasında səlahiyyət bölgüsünün müəyyən edilməsi dövlət hakimiyyətinin balanslı fəaliyyətinə, idarəetmədə hüquqi təminatların gücləndirilməsinə və vətəndaş hüquqlarının daha səmərəli qorunmasına şərait yaradır. Bu prinsip dövlətin fəaliyyətində qanunçuluğun, məsuliyyətin və institusional tarazlığın təmin olunması baxımından mühüm əhəmiyyət daşıyır.

Azərbaycan Respublikasının hüquq sisteminin inkişafında beynəlxalq hüququn ümumtanınmış prinsip və normaları da mühüm rola malikdir. İnsan hüquqları sahəsində beynəlxalq müqavilələrə qoşulma və onlardan irəli gələn öhdəliklərin milli səviyyədə icrası hüquq və azadlıqların müdafiəsini daha geniş təminat mexanizmləri üzərində qurmağa imkan yaratmışdır. Bu yanaşma beynəlxalq təcrübənin milli hüquqi mühitə uyğun şəkildə tətbiqinə, qanunvericiliyin müasir standartlarla uzlaşdırılmasına və insan hüquqlarının müdafiəsi sahəsində institusional imkanların gücləndirilməsinə xidmət etmişdir.

## Ombudsman təsisatı və insan hüquqlarının müdafiəsi

Ombudsman təsisatı insan və dövlət münasibətlərində hüquq və azadlıqların müdafiəsini həyata keçirən, insan hüquqları standartlarının tətbiqinə dəstək verən və hüquq pozuntularının qarşısının alınmasına yönəlmiş mühüm institusional mexanizm kimi çıxış edir. Azərbaycan Respublikası vətəndaşlarının, əcnəbilərin, vətəndaşlığı olmayan şəxslərin, habelə hüquqi şəxslərin insan hüquqlarının pozulmasına dair şikayətlərinə baxılması bu təsisatın müdafiə mexanizmi kimi praktik əhəmiyyətini daha aydın göstərir.

Bu yanaşma Azərbaycan Respublikasında hüquqi dövlət quruculuğu prosesində də öz əksini tapmışdır. Ombudsman institutunun yaradılması insan hüquqlarının müdafiəsi sahəsində həyata keçirilmiş mühüm institusional islahatlardan biri olmuşdur. Bu təsisatın formalaşdırılması ideyasını ümummilli lider Heydər Əliyev insan hüquq və azadlıqlarının təminatına yönəlmiş dövlət siyasətinin mühüm tərkib hissəsi kimi irəli sürmüşdür.

Ulu öndərin ölkə prezidenti kimi imzaladığı "İnsan və vətəndaş hüquqlarının və azadlıqlarının təmin edilməsi sahəsində tədbirlər haqqında" 1998-ci il 22 fevral tarixli fərmanında, həmin sənəddən irəli gələn məqsəd və vəzifələr nəzərə alınmaqla 1998-ci il 18 iyun tarixli sərəncamla təsdiq edilmiş ilk "İnsan hüquqlarının müdafiəsinə dair Dövlət Proqramı"nda Azərbaycanda insan hüquqları üzrə səlahiyyətli müvəkkil təsisatının yaradılması ilə bağlı müddəalar öz əksini tapmışdır.

Həmin strateji xəttin davamı olaraq "Azərbaycan Respublikasının İnsan hüquqları üzrə müvəkkili (ombudsman) haqqında" 2001-ci il 28 dekabr tarixli Konstitusiya Qanununun qəbul edilməsi ilə insan hüquqlarının müdafiəsinin müstəqil məhkəmədənkənar mexanizmi formalaşdırılmışdır. Ombudsmanın fəaliyyətinin Konstitusiya və Konstitusiya Qanunu səviyyəsində müəyyən edilməsi bu institutun hüquqi statusunun və müstəqillik təminatlarının mühüm göstəricilərindən hesab olunur.

Ombudsman öz səlahiyyətlərini müstəqil şəkildə həyata keçirir və yalnız Azərbaycan Respublikasının Konstitusiyasına və qanunlarına tabedir. Müvəkkilin müstəqilliyi onun dəyişilməzliyi, toxunulmazlığı, fəaliyyətinə dövlət orqanları, bələdiyyələr, digər qurumlar və onların vəzifəli şəxsləri tərəfindən müdaxilənin yolverilməzliyi, maddi və sosial təminatlarla qorunması kimi mühüm hüquqi zəmanətlər vasitəsilə təmin olunur.

Son illərdə Ombudsmanın səlahiyyətlərinin genişləndirilməsi insan hüquqlarının müdafiəsinin institusional əsaslarını daha da möhkəmləndirmişdir. 2023-cü il 9 iyun tarixli dəyişikliklərə əsasən, Ombudsman "Əlilliyi olan şəxslərin hüquqları haqqında" və "Uşaq hüquqları haqqında" konvensiyaların həyata keçirilməsinin, bərabərlik hüququnun təmin edilməsinin və ayrı-seçkiliyin qarşısının alınmasının monitorinqi və təşviqi üzrə müstəqil monitorinq mexanizminin funksiyalarını həyata keçirir.

Müasir dövrdə rəqəmsal transformasiya, informasiya təhlükəsizliyi, süni intellektin etik tətbiqi, sosial inklüzivlik və postmünaqişə reallıqları insan hüquqları sahəsində maarifləndirmə fəaliyyətinin əhatə dairəsini daha da genişləndirir. Ombudsman institutunun hüquqi maarifləndirmə, ictimai məlumatlandırma, vətəndaş cəmiyyəti ilə əməkdaşlıq və beynəlxalq təcrübənin öyrənilməsi istiqamətində fəaliyyəti insan hüquqlarının təşviqi, hüquqi biliklərin artırılması və cəmiyyətdə hüquq mədəniyyətinin möhkəmləndirilməsinə mühüm töhfə verir.

# Azərbaycanın istiqlal savaşı

## 1 əsrlik yolun Zəfər sonluğu

**1918-ci il mayın 28-də Tiflisdə Azərbaycan Milli Şurası ölkənin dövlət müstəqilliyi haqqında İstiqlal Bəyannaməsini qəbul etdi. Bu hüquqi və siyasi sənəddə müstəqil Azərbaycan dövlətinin yarandığı göstərilmiş, onun hakimiyyətinin şamil olduğu ərazinin hüdudları müəyyənləşdirilmiş, həmçinin suverenliyin əsas prinsipləri öz əksini tapmışdır.**

İstiqlal Bəyannaməsində demokratik dövlətə məxsus atributların – hakimiyyətin xalqa məxsusluğu, vətəndaşların mülki və siyasi hüquqlarının təminatı, bütün xalqların və hər bir kəsin milli, dini, sinfi və cinsi mənsubiyyətindən asılı olmayaraq, azad inkişafı üçün şərait yaradılması, ən nəhayət, hakimiyyətin bölünməsi prinsiplərinin dövlət fəaliyyətinin əsası kimi bəyan edilməsi Azərbaycan xalqının suveren, demokratik, hüquqi dövlət yaratmaq əzmində olduğu elan edildi. Azərbaycanın öz müstəqilliyini elan etməsi barədə dünyanın əsas siyasi mərkəzlərinə radio-teleqrafla məlumat verildi. Tarixdə Azərbaycan adında ilk müstəqil dövlət – Azərbaycan Xalq Cümhuriyyəti yaradıldı.

### 23 ayın fövqündə duran dövlət quruculuğu

Milli Şura Azərbaycan hökumətinin təşkilini bitərəf Fətəli xan Xoyskiyə tapşırdı. İlk hökuməti "Müsavat", Müsəlman Sosialist Bloku, "Hümmət", "İttihad" və bitərəflərdən ibarət 9 nazir təmsil edirdi. Bu dövrdə Azərbaycan Milli Şurasının və hökumətin Gəncəyə köçməsi ilə əlaqədar iyunun 17-də Gəncədə Fətəli xanın rəhbərlik etdiyi II hökumət təşkil olundu. İyunun 19-da isə Azərbaycanda yaranmış gərgin vəziyyət nəzərə alınaraq, bütün ölkə ərazisində hərbi vəziyyət elan edildi. İyunun 26-da Azərbaycan Milli Ordusunun yaradılması haqqında fərman verildi. Daha sonra isə Osmanlı dövlətinin 5-ci piyada diviziyası və general Ə.Şıxlinskinin başçılıq etdiyi müsəlman milli korpusu əsasında Qafqaz-İslam Ordusu yaradıldı. Nuru paşanın rəhbərlik etdiyi bu orduya osmanlı və azərbaycanlılardan ibarət 18 min əsgər və zabit daxil idi. Nəhayət, sentyabrın 15-də Qafqaz-İslam Ordusu Bakını azad etdi və Azərbaycan hökuməti öz hakimiyyətini bütün ölkəyə yaya bildi.

Cümhuriyyət gərgin və mürəkkəb ictimai-siyasi şəraitdə cəmi 23 ay fəaliyyət göstərsə də, sonrakı nəsillərin yaddaşında ən parlaq dövrlərdən biri kimi qalacaqdır. Demokratik dövlət quruculuğu, iqtisadiyyat, mədəniyyət, təhsil, səhiyyə, hərbi quruculuq sahələrində atdığı mühüm addımları başa çatdıra bilməsə də, onun qısa müddətdə həyata keçirdiyi tədbirlər xalqımızın tarixində silinməz iz buraxmış, milli dövlətçilik ənənələrimizin bərpası işində böyük rol oynamışdır.

Xalq Cümhuriyyəti tərəfindən dövlətin iqtisadi müstəqilliyinin təmin edilməsi üçün gömrük xidmətinin mühüm əhəmiyyəti nəzərə alınaraq bu sahədə də bir sıra qanunlar işlənib hazırlanmışdır. AXC məhsuldar işlədiyi dövrdə müstəqil respublikanın ədliyyə, məhkəmə, polis və prokurorluq orqanlarının yaradılmasına da xüsusi diqqət yetirmişdir. Xəlil bəy Xasməmmədov ilk ədliyyə naziri təyin olunmuşdur. Nazirlər Şurasının qərarı ilə 1918-ci il oktyabrın 1-də Bakı Dairə Məhkəməsinin və onun tərkibində prokurorluğun fəaliyyəti formalaşmışdır. Azərbaycan Xalq Cümhuriyyəti Nazirlər Şurasının 14 noyabr 1918-ci il tarixli qərarı ilə "Azərbaycan Məhkəmə Palatası haqqında Əsasnamə" təsdiq edilmişdir. Burada Azərbaycan Məhkəmə Palatası yanında prokuror və onun müavinləri vəzifələri təsis edilmişdir.

Mürəkkəb beynəlxalq şəraitdə fəaliyyət göstərməsinə baxmayaraq, xalqımızın milli oyanışını əbədi etməyə çalışan Cümhuriyyət hökuməti və parlamenti elmin, təhsilin və xalq maarifinin, eləcə də səhiyyənin inkişafını diqqət mərkəzində saxlayırdı. Ölkənin hər yerində müxtəlif məktəblər, gimnaziyalar, qız məktəbləri, kitabxanalar və xəstəxanaların açılması o dövrdə sosial-iqtisadi yönümlü islahatların həyata keçirilməsi istiqamətində atılan



mühüm addımlar idi. Bu baxımdan Azərbaycan Parlamentinin 1919-cu il sentyabrın 1-də Bakı Dövlət Universitetinin təsis olunması haqqında qəbul etdiyi qanun Cümhuriyyət xadimlərinin xalq qarşısında çox mühüm tarixi xidməti idi. Ölkədə elm və təhsilin inkişafına xüsusi diqqət yetirən AXC hökuməti və parlamenti bu sahədə milli kadrlar hazırlanmasının sürətləndirilməsinə xüsusi səy göstərirdi. Bu zaman hökumətin təklifinə əsasən Azərbaycan Parlamentinin 100 nəfər azərbaycanlı gəncin dövlət hesabına təhsil almaq üçün xarici ölkələrə göndərilməsi barədə qanun qəbul etməsi, heç şübhəsiz, elm və təhsilə göstərilən böyük diqqət idi.

Ümumiyyətlə, Cümhuriyyət dövründə Azərbaycanda parlamentçilik ənənələri getdikcə möhkəmlənir və inkişaf edir, ən müasir parlament mədəniyyəti formalaşırdı. Azərbaycan Xalq Cümhuriyyətinin mövcud olduğu dövrdə, ümumilikdə, 155 parlament iclası keçirilmişdir ki, bunun da 10-u Azərbaycan Milli Şurasının (27 may - 19 noyabr 1918-ci il), 145-i isə Azərbaycan Parlamentinin fəaliyyət göstərdiyi dövrdə (7 dekabr 1918-ci il - 27 aprel 1920-ci il) olmuşdur. Azərbaycan Parlamentinin və Cümhuriyyət hökumətinin fəaliyyətinin çox mühüm hissəsini daim özünə cəlb edən məsələlərdən biri də yaxın qonşularla münasibətlər və sərhəd məsələləri olmuşdur. Azərbaycan Xalq Cümhuriyyəti qurulduqdan sonra Fövqəladə Təhqiqat Komissiyası yaradılmış və ermənilərin törətdikləri cinayətlər araşdırılmağa başlanmışdır. Hökumətin qərarı ilə hər il (1919 və 1920-ci il martın 31-i iki dəfə Ümummilli Matəm Günü kimi qeyd edilmişdir) mart ayının 31-nin hüzn günü kimi qeyd edilməsi qərara alınmışdı. Lakin Azərbaycan Xalq Cümhuriyyətinin süqutu bu işi başa çatdırmağa imkan vermədi.

AXC 23 aylıq fəaliyyəti dövründə həyata keçirdiyi müstəqil dövlət quruculuğu, qəbul etdiyi yüksək səviyyəli qanunvericilik aktları və qərarları ilə Azərbaycan dövlətçiliyi tarixində, xüsusən də parlament mədəniyyəti tarixində dərin və zəngin iz qoymuşdur. Siyasi quruluşuna, həyata keçirdiyi demokratik dövlət quruculuğu tədbirlərinə, həmçinin qarşısına qoyduğu məqsəd və vəzifələrə görə də Avropanın demokratik respublikalarından daha irəli getmişdi.

### Paris Sülh Konfransındakı qələbə və bolşevik işğalı

Azərbaycan Xalq Cümhuriyyəti yaradılarkən regionda mövcud olan geosiyasi vəziyyət 1918-ci il mayın 29-da İrəvan şəhərinin ermənilərə siyasi mərkəz kimi verilməsinə səbəb oldu. Beləliklə, 1918-ci ildə Azərbaycan torpaqlarında – keçmiş İrəvan xanlığının ərazisində Ermənistan Respublikası yaradıldı. 1918-ci ildə Azərbaycan və Ermənistan respublikaları yaranan kimi Qarabağın dağlıq hissəsinə XIX əsrdə köçürülmüş ermənilər Azərbaycan Respublikasının hakimiyyətini tanımaqdan imtina etdilər. Qarabağ ermənilərinin 1918-ci ilin iyulunda keçirilən birinci qurultayı Dağlıq Qarabağı müstəqil elan etdi. Ermənistan (Ararat) Respublikasının tərkibinə daxil olmaq məsələsi hələ qaldırılmamışdı. Lakin ermənilərin ən böyük iddiası Qarabağ və Zəngəzuru ələ keçirmək idi. Ermənistan hökuməti işğal planlarını həyata keçirmək məqsədilə oraya silahlı qüvvələr göndərdi. Nəticədə Qarabağ torpaqlarını ələ keçirməyə can atan erməni silahlı qüvvələri yüzlərlə yaşayış məntəqəsini dağıtmış, minlərlə dinc azərbaycanlı əhalini qəddarcasına məhv etmişdilər. 1919-cu ilin yanvarında daşnak Ermənistan hökuməti Qarabağla əlaqədar Azərbaycana qarşı ərazi iddiası irəli sürdü. Bununla da Qarabağın dağlıq hissəsinin Ermənistana birləşdirilməsi üçün ilk rəsmi cəhd edildi. Problemi dinc vasitələrlə həll etmək üçün Azərbaycan hökuməti dəfələrlə təkliflərlə çıxış etsə də, daşnakların tutduğu mövqe bu təkliflərin həyata keçməsinə mane oldu. Ərazi bütövlüyünü qoruyub saxlamağı və öz vətəndaşlarının təhlükəsizliyin təminatını özünün başlıca vəzifəsi hesab edən Azərbaycan Xalq Cümhuriyyəti Ermənistan Respublikasının ərazi iddialarını qəti şəkildə rədd etdi. Azərbaycan Parlamenti Qarabağ məsələsini müzakirə edərək separatçılıq hərəkatının qarşısını almaq üçün əməli tədbirlər həyata keçirməyə başladı. Bu məqsədlə Azərbaycan hökuməti 1919-cu il yanvarın 15-də Şuşa, Cəbrayıl, Cavanşir və Zəngəzur qəzalarını Gəncə quberniyasından ayırıb, mərkəzi Şuşa şəhəri olmaqla həmin qəzalardan ibarət Qarabağ general-qubernatorluğunu yaratdı və Xosrov bəy Sultanov general-qubernator təyin edildi. Azərbaycan hökuməti ona tapşırdı ki, orada qayda-qanun yaratsın və yerli hakimiyyət təşkil etsin.

Tarix təkcə yarandığı günlərdə yox, sonrakı fəaliyyəti dövründə də Cümhuriyyəti ağır beynəlxalq sınaqlarla üz-üzə qoydu. Yenə qurucu babaların diplomatik fəhmi köməyə çatdı. Belə ki, Azərbaycan Xalq Cümhuriyyətinin təbii və demək olar ki, yeganə müttəfiqi olan Osmanlı dövləti 1918-ci ilin sonlarında başa çatan I Dünya müharibəsində, təəssüf ki, məğlub tərəfdə yer aldı. Bununla da imzalanan Mudros müqaviləsinə əsasən bütün digər bölgələrdən olduğu kimi, Osmanlı dövləti Cənubi Qafqazdan da çıxdı. Yerinə qalib dövlətlərdən gələnlər isə Xalq Cümhuriyyətini tanımaq istəmədilər. Bu mərhələdə Fətəli xan Xoyski başda olmaqla, Cümhuriyyət qurucularının müstəsna səyləri və diplomatik xidmətləri nəticəsində konsensus əldə edildi və dövlətin mövcudluğunu qorumaq mümkün oldu. Mövcud olduğu 23 ay ərzində Cümhuriyyət məhz güclü və uğurlu diplomatiyası sayəsində ayaqda qala bildi. Zamanla bir çox dövlətlə münasibətlər quran Azərbaycan həm xaricdə səfirliklər açdı, həm də xarici ölkələr Bakıda diplomatik nümayəndəliklər təsis etdilər.

Paris Sülh Konfransında – dünyanın taleyinin həll olunduğu mühüm tarixi tədbirdə təmsil olunmaq haqqı qazanan Azərbaycanın çətinliklərlə də olsa, nümayəndə heyətinin Fransaya gedib çatması, orada böyük siyasi və diplomatik fəaliyyəti də Xalq Cümhuriyyətinin xarici siyasətinin aktivinə yazılmalıdır. Təsadüfi deyil ki, məhz bu siyasətin nəticəsində 1920-ci il yanvar ayının 11-də Paris Sülh Konfransında müttəfiq dövlətlər birliyi tərəfindən Azərbaycanın müstəqilliyi tanındı. Fransada, İranda, Dağıstanda, Gürcüstanda və başqa ölkələrdə respublikanın siyasi nümayəndəliyi artıq fəaliyyət göstərirdi. Azərbaycan həqiqətləri ingilis, fransız, rus, alman və sair dillərə çevrilərək çap olunub yayılırdı.

Xalq Cümhuriyyətinin sülhsevər xarici siyasətinə baxmayaraq, onu münaqişələrə çəkmək istəyənlər də vardı. Məhz Rusiya Xarici İşlər komissarı Çiçerinin 1920-ci il yanvarın əvvəllərində Fətəli xana göndərdiyi teleqramda belə bir məqsəd güdülürdü. O, Azərbaycanı – ağqvardiyaçı general Denikinlə müharibəyə çağırırdı. Azərbaycan hökuməti isə sülh danışıqlarının aparılması üçün səy göstərirdi. Buna baxmayaraq, Rusiya işğalçı XI ordunu göndərərək 28 aprel 1920-ci ildə Azərbaycanı işğal etdi. Milli dövlətin yaradıcıları ölkəni tərk etmək məcburiyyətində qaldılar. Beləliklə, Azərbaycan Xalq Cümhuriyyətinin 701 günlük şərəfli ömrünə son qoyuldu. Türk dünyasının ilk müstəqil dövləti süquta uğradı.

### Xalqın İstiqlal sevdası: müstəqillik və suverenlik Zəfəri

Ruhu azad olan bir milləti heç kəs köləlikdə saxlaya bilməz. 1918-ci ilin mayından 70 il keçəndən sonra Azərbaycan xalqı yenidən ayağa qalxdı, öz haqqını-azadlığını, müstəqilliyini və bütövlüyünü tələb etdi. Bu yolda məhrumiyyətlərə düçar edildi, şəhidlər verdi, lakin yolundan dönmədi. 1991-ci ilin oktyabrında Azərbaycan xalqı XX əsrdə ikinci dəfə öz müstəqilliyini elan etdi. Müstəqilliyi və qanı bahasına alınmış azadlığı qorumaq yolunda xalqımız nə qədər təzyiqlərə məruz qaldı, torpaqlarımız qəsb olundu, taleyimizdən didərginliyin, əlilliyin, şəhidliyin qara naxışları keçib getdi. Əsrin əvvəllərində olduğu kimi, sonunda da müstəqil Azərbaycanın başı üstünü yenidən qara buludlar aldı. Vilsonun, Tomsonun həyata keçirə bilmədiyi və gözündə qalmış arzularını onların nəvə və nəticələri həyata keçirməyə cəhd etdilər. Məqsəd Azərbaycanda vətəndaş müharibəsi törədib bu ölkəni parçalamaq idi. Bu gərgin tarixi məqamda xalqın istəyi və tələbi ilə siyasi hakimiyyətə qayıdan Heydər Əliyev xalqın xilaskarlıq missiyasını öz üzərinə götürdü. Ulu öndərin söylədiyi kimi, müstəqilliyi qoruyub saxlamaq onu əldə etməkdən çətindir. Müstəqilliyin itirilməsi təhlükəsi yarananda xalqın çağırışı ilə ümummilli lider Heydər Əliyev ikinci dəfə hakimiyyətə gətirildi və Azərbaycan müstəqilliyinin yeni mərhələsinə qədəm qoydu. Çiçəklənmə, iqtisadi inkişaf dövrü başlandı. Azərbaycanın son otuz ildən artıq bir dövrünü əhatə edən tarix, bu illər ərzində xalqın həyatının bütün sahələrində baş verən dirçəliş müasir müstəqil Azərbaycan dövlətinin memarı, ulu öndər Heydər Əliyevin adı ilə bağlıdır. Azərbaycanı müstəqil dövlət quruculuğunun bərpasına aparan yol öz başlanğıcını əslində 1969-cu ildən-dahi rəhbərin hakimiyyətə gəldiyi vaxtdan götürmüşdü.

Azərbaycanın dövlət müstəqilliyinin bərpasından sonra Heydər Əliyevin yenidən ölkə rəhbərliyinə qayıdışı ilə Azərbaycanın ictimai-siyasi, sosial, iqtisadi, elmi-mədəni həyatında, beynəlxalq əlaqələrində əsl dönüş yaranmış, elmi əsaslara, beynəlxalq norma və prinsiplərə uyğun dövlət quruculuğu prosesi başlandı. Uzaqgörən liderin həyata keçirdiyi təxirəsalınmaz tədbirlərin nəticəsi kimi, bir tərəfdən Milli Ordunun formalaşdırılması, Azərbaycanın milli mənafelərini qorumağa qadir nizami silahlı qüvvələrin yaradılması, torpaqlarımızın müdafiə olunması ilə bağlı mühüm addımlar atıldı, digər tərəfdən bütün siyasi və diplomatik vasitələrin işə salınması ilə 1994-cü ilin mayında həyati əhəmiyyət kəsb edən atəşkəsə nail olundu.

Ölkə daxilində yaranmış nisbi sabitlikdən və beynəlxalq aləmdə Azərbaycana qarşı artan inam və maraqdan istifadə edərək, 1994-cü ilin sentyabrında "Əsrin müqaviləsi" adlanan ilk neft müqaviləsinin imzalanması və gerçəkləşdirilməsi Heydər Əliyev tərəfindən işlənib hazırlanmış və müstəqil Azərbaycanın iqtisadi inkişaf konsepsiyasını təşkil edən neft strategiyasının həyata keçirilməsinin parlaq təzahürüdür. Müasir müstəqil Azərbaycan dövlətinin qurucusu kimi milli dövlətçiliyimizin ideya əsasını məhz Heydər Əliyev yaradıb.

İndi Cənubi Qafqazın lider dövləti olan Azərbaycan beynəlxalq aləmin vacib aktorlarından biridir. Lakin həyat ulu öndərə vəfasızlıq etdi: o, dünyasını bir nisgillə başa vurdu – Qarabağ problemi həll olunmadı. Amma onun "Mənim yarımçıq qalmış işlərimi İlham Əliyev tamamlayacaq" inamı xalq etimadı ilə özünü doğrultdu. Belə ki, 30 il ərzində düşmənin işğal altında saxladığı Qarabağ əsarətdən müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə xilas edildi. Prezident İlham Əliyevin qeyd etdiyi kimi: "Azərbaycan Xalq Cümhuriyyətinin yaradılması tarixi hadisə idi. Çünki ilk dəfə olaraq müsəlman aləmində demokratik respublika yaradılmışdı. Biz haqlı olaraq fəxr edirik ki, məhz Azərbaycan xalqı müsəlman aləmində ilk demokratik respublikanın yaradılmasının müəllifi olmuşdur. "2021-ci il 15 oktyabr tarixdə "Müstəqillik günü haqqında" Azərbaycan Respublikasının qanunu ilə 28 may tarixinin Müstəqillik Günü, 18 oktyabr tarixinin isə Müstəqilliyin Bərpası Günü kimi təsbit olunması Azərbaycanın dövlət suverenliyinin məhz 1918-ci ildə bərqərar olunması faktına əsaslanır. Bu, ərazi bütövlüyünü bərpa etmiş müasir Azərbaycan 1918-ci ildə qurulmuş Azərbaycan Xalq Cümhuriyyətinin tamhüquqlu varisi olduğunu göstərir. Bəli, ötən illər ərzində bütün istiqamətlərdə qazanılan uğurların, əldə edilən nailiyyətlərin bir hədəfi var idi–Azərbaycanın bütün sərhədləri boyunca bayrağımızın dalğalanması. Azərbaycan Xalq Cümhuriyyətinin yadigarı kimi Azərbaycan Bayrağının bu gün artıq işğaldan azad olunmuş ərazilərdə dalğalanması Azərbaycan Prezidenti İlham Əliyevin gələcək nəsillərə unudulmaz dövlətçilik əmanətidir.

Qazanılmış uğurlar əminliklə söyləməyə əsas verir ki, Azərbaycanın müstəqilliyi əbədidir, dönməzdir və sarsılmazdır. Artıq altı ildir ki, Müstəqillik Gününü qalib ölkənin vətəndaşları kimi qeyd edirik. Bundan böyük səadət, xoşbəxtlik ola bilməz. Ali Baş Komandanımızın uzaqgörən və cəsarətli siyasəti, şəhidlərimizin qanı hesabına suverenliyini bərpa etdiyimiz Azərbaycan daim yaşayacaq, inkişaf edəcək!

Müstəqillik Günümüz mübarək!

***Fəzail İBRAHİMLİ,***
***Milli Məclisin deputatı, professor***

# Pekində Müstəqillik Günü mərasimi

**Pekində 28 May Müstəqillik Günü münasibətilə rəsmi qəbul təşkil olunub. Azərbaycanın Çindəki səfirliyinin təşkilatçılığı və Heydər Əliyev Fondunun dəstəyi ilə keçirilən mərasimdə Çin rəsmiləri, Pekindəki diplomatik missiyaların rəhbərləri, ictimaiyyət nümayəndələri iştirak ediblər.**

Ölkəmizin Çindəki səfiri Bünyad Hüseynov çıxış edərək, Asiya ilə Avropanın kəsişməsində, əlverişli coğrafi mövqedə yerləşən Azərbaycanın Şərqlə Qərb arasında körpü rolunu oynadığını vurğulayıb. Diplomat 1994-cü ildə xalqımızın ümummilli lideri Heydər Əliyevin Çinə rəsmi səfəri ilə əsası qoyulan yüksəksəviyyəli siyasi dialoqun Prezident İlham Əliyev tərəfindən uğurla inkişaf etdirildiyini və ikitərəfli əlaqələrimizin hərtərəfli strateji tərəfdaşlıq səviyyəsinə yüksəldiyini diqqətə çatdırıb.



Səfir dövlət başçıları İlham Əliyev və Si Cinpin arasında təşəkkül tapmış qarşılıqlı etimad və dostluq münasibətlərinin siyasi, iqtisadi, hərbi, humanitar, mədəni və digər sahələrdəki hazırkı yüksək inkişaf dinamikasının əsasını təşkil etdiyini bildirib: "Azərbaycan Çin texnologiyalarını özünün enerji keçidini sürətləndirməkdə mühüm element kimi görür. Ölkələrimizin strateji yaxınlaşması, həmçinin Cənubi Qafqaz regionunda davamlı inkişafın, innovasiya və infrastruktur bağlantısının yeni və keyfiyyətli tərəfdaşlığın təməlini təşkil edir". "Kəmər və yol" təşəbbüsü çərçivəsində əməkdaşlıqdan danışan diplomat Azərbaycanın Çindən sonra həm ölkə daxilində, həm də xaricdə bu qlobal təşəbbüsün həyata keçirilməsinə ən çox vəsait yatıran ikinci ölkə olduğunu diqqətə çatdırıb. Bildirib ki, Şərq-Qərb və Şimal-Cənub nəqliyyat dəhlizlərinin üzərində yerləşən Azərbaycan Çin ilə Avropa arasında ticarət və iqtisadi əlaqələrin genişləndirilməsi üçün etibarlı logistika mərkəzinə çevrilir. Azərbaycan Prezidenti tərəfindən Zəngəzur dəhlizinin uzun illər sonra yenidən açılması təşəbbüsü gələcəkdə "Kəmər və yol" layihəsinə ölkəmizin növbəti töhfəsi olacaq.

Çin hökumətinin Avrasiya məsələləri üzrə xüsusi nümayəndəsi Sun Lincian çıxışında Çin Xarici İşlər Nazirliyinin təbriklərini çatdırıb: "Prezident İlham Əliyevin rəhbərliyi altında Azərbaycan öz milli xüsusiyyətlərinə uyğun inkişaf yolu ilə ardıcıl irəliləyiş əldə edib, ölkədə iqtisadi sabitlik, sosial dinamizm və xalqın rifahı təmin olunub, eyni zamanda, onun beynəlxalq nüfuzu sürətlə artmaqda davam edir. Yaxşı dost və tərəfdaş kimi Çin bundan məmnundur". Xüsusi nümayəndə əmin olduğunu bildirib ki, zəhmətkeş Azərbaycan xalqı milli inkişaf yolunda daha böyük uğurlar qazanacaq.

Çin və Azərbaycan arasında qədim ənənələrə malik və daim inkişaf edən dostluq münasibətlərinin mövcud olduğunu vurğulayan Sun Lincian son illər dövlət başçıları İlham Əliyevin və Si Cinpinin strateji baxışları ilə istiqamətləndirilən ikitərəfli münasibətlərimizin sürətlə inkişaf edərək, hərtərəfli strateji tərəfdaşlıq səviyyəsinə yüksəldiyini deyib.

Çin hökumətinin Avrasiya məsələləri üzrə xüsusi nümayəndəsi Sun Lincian "Kəmər və yol" təşəbbüsü çərçivəsində əməkdaşlığın səmərəli nəticələr verdiyini vurğulayıb, ilin birinci rübündə ikitərəfli ticarət dövriyyəsinin 30 faizdən çox artdığını deyib.

Sonra Azərbaycan musiqiçilərinin çıxışları olub.

*XQ*

# Ceyhun Bayramov kubalı həmkarı ilə görüşüb

**Mayın 26-da Azərbaycanın xarici işlər naziri Ceyhun Bayramov Nyu-York şəhərinə işgüzar səfəri çərçivəsində Kuba Respublikasının xarici işlər naziri Bruno Eduardo Rodrigez Parrilya ilə görüşüb.**



Görüş zamanı münasibətlərin inkişafından məmnunluq ifadə olunaraq, son illər ölkələrimiz arasındakı əlaqələrdə müşahidə olunan müsbət dinamika ətrafında müzakirələr aparılıb. Ölkələrimiz arasında tarixi və mədəni əlaqələrin mövcud olduğu qeyd edilib, təhsil və səhiyyə sahələrində əməkdaşlığın daha da genişləndirilməsinin vacibliyi vurğulanıb.

Bununla yanaşı, iki ölkə arasında çoxtərəfli platformalarda, o cümlədən BMT, Qoşulmama Hərəkatı və Karib Hövzəsi Birliyi çərçivəsində əməkdaşlıq perspektivləri və Azərbaycanın inkişaf etməkdə olan kiçik ada dövlətlərinə göstərdiyi humanitar və inkişafa yardım dəstəyi barədə müzakirələr aparılıb. Ölkəmiz tərəfindən Kubaya edilən humanitar yardıma və təhsil təqaüdlərinə görə təşəkkür ifadə olunub.

*XQ*

# Ballıcanın bal kimi şirin günləri...

## *Kənd sakinləri arıçılığın inkişafına böyük maraq göstərirlər*

**Prezident İlham Əliyevin erməni işğalından azad edilib yenidən qurulmuş Xocalı şəhərinə səfərindən 2 il keçir. 28 May Müstəqillik Günündə şəhərə ilk köçmüş xocalılarla görüşmüş dövlət başçısı 32 illik köçkünlüyünə son qoyulmuş sakinləri təbrik etmiş, bu hadisəni böyük qayıdışın ən önəmli səhifələrindən biri kimi dəyərləndirmişdi.**



Ötən 2 ildə Xocalı rayonunun bərpa edilmiş məntəqələrində minlərlə ailə məskunlaşıb. Onlardan biri də rayonun böyük kəndlərindən olan Ballıcadır.

Cənnət Qarabağın füsunkar təbiətinə gözəllik qatan baharın gəlişi Xocalı rayonu Ballıca kəndinin sakinlərinin gündəlik qayğılarını da artırıb. Böyük Qayıdışın ilk ünvanlarından olan bu kənddə həyat gündən-günə canlanır, illər sonra yenidən əsl sahiblərinin əməyi, zəhməti sayəsində hər yerdə dirçəlişin, inkişafın təzahürləri göz oxşayır.

Ballıcalıların əksəriyyəti böyük həvəslə əkinçiliklə, heyvandarlıqla məşğul olur, təsərrüfatlarını böyüdürlər. Kənddə ən geniş yayılmış fəaliyyət istiqamətlərdindən biri isə arıçılıqdır. Deməkolar, Ballıcanın əksər sakinləri həyətlərində arı saxlayır, arı ailələrinin sayını artırır, ətirli çiçəklərdən can dərmanı olan bal toplamaları üçün onların qulluğunda dururlar. Bu da səbəbsiz deyil. Prezident İlham Əliyevin 2025-ci il fevralın 19-da fərdi evlərin və infrastrukturun bərpası sahəsində görülən işlərlə tanış olmaq məqsədilə bu kəndə səfəri zamanı Məhəmməd Quliyevin evində Ballıca balı ilə çay içməsi, "bu balın dadına baxmamaq olmaz" deməsi ballıcalıları arıçılıqla məşğul olmağa daha da həvəsləndirib.

**Xeyli müddətdir məcburi köçkünlük həyatı ilə vidalaşaraq Ballıcaya köçmüş Eyvaz Əliyev ömrünün 50 ildən çoxunu arıçılığa həsr edib. Bizimlə söhbətində, el arasında deyilən kimi, gözünü açandan qapılarında arı gördüyünü, ağlı kəsəndən arı saxladığını dedi:**

– Bu gün doğma Qarabağımızda keçirdiyim hər dəqiqə mənim üçün böyük xoşbəxtlikdir. Elə bil dünyaya yenidən gəlmişəm, ürəyim fəxrlə, qürurla doludur. Şəhid qanı ilə suvarılmış bu müqəddəs torpaqlarda yaşamağımız, bizim olana sahib çıxmağımız Vətənimizin azadlığı uğrunda canlarından keçmiş qəhrəman oğullarımızın müqəddəs ruhlarını da şad edir. Allah şəhidlərimizə rəhmət eləsin, Müzəffər Ali Baş Komandanımızı qorusun!

Mən 7-8 yaşımdan arıçılıqla məşğul oluram. Tanrının bu möcüzəli canlılarının dilini bilməsən, onların nə istədiklərini, vəziyyətlərinin necə olduğunu anlamasan nə yaxşı məhsul götürmək mümkün olar, nə də arı ailələinin sayını artırmaq. Məcburi köçkün kimi Oğuz rayonunda məskunlaşmışdıq. Orada da arımız vardı. Təəssüf ki, son vaxtlar işimlə əlaqədar arı saxlaya bilmədim. Ancaq indi Ballıcada sanki yenidən yaşamağa başladığım kimi, arı təsərrüfatımı da yenidən qurmağa başlayıram. Dövlətimiz var olsun, bizim üçün hər çür şərait yaradılıb. Yeni təmirli ev verilib. Qazımız, suyumuz, işığımız daimidir. İnternet çəkilib, yollar asfaltlanıb. Üstəlik, məşğulluğumuz da diqqətdə saxlanılır. Mənim arı ailələri ilə təmin olunmaqla bağlı müraciətim dövlət tərəfindən müsbət həll olunmaqdadır. İnşallah, tezliklə indi qulluq etdiyim, qardaşıma və oğluma məxsus bu arı pətəklərinin sırasında öz arılarım da olacaq.

**Eyvaz kişi Ballıcanın arıçılıq üçün çox münasib yer olduğunu bildirərək, burada təmiz və müalicəvi bal əldə etmək imkanları haqqında fikirlərini bölüşdü, işğaldan əvvəlki dövr təcrübələrini xatırladı:**

– Nəinki Ballıca, Qarabağın hər bir guşəsi arıların yaşaması, məhsul toplaması üçün ideal relyefə və iqlimə malikdir. Yaz fəsli gələndən ta ki, yayın sonlarına qədər ardıcıllıqla müxtəlif güllər, çiçəklər açır. Hamısı da bir-birindən ətirli. Odur ki, şirə dalınca gedən arılar yuvaya əliboş dönmürlər.

Yadımdadır, işğaldan əvvəl qış yemini saxlamaq şərtilə hər arı pətəyindən ildə ortalama 30 kiloqrama qədər bal götürürdük. Hətta mövsümün yaxşı keçməsi səbəbindən bu göstəricinin 2 dəfəyə qədər artdığı vaxtlar da olub. İndi Ballıcada Qarabağ arıçılıq ənənələrini yenidən yaşatmağa başlamışıq. Ən əsası isə möhtərəm Prezidentimizin tərfilədiyi Ballıca balını kəndimizin brendinə çevirməyə çalışacağıq.

***Mahir RƏSULOĞLU,***
***XQ-nin Qarabağ müxbiri***

**Xocalı**

# Ermənistan vətəndaşlarının apellyasiya şikayətinə məhkəmə baxışı

**Mayın 26-da Bakı Apellyasiya Məhkəməsində Ermənistanın Azərbaycana qarşı hərbi təcavüzü nəticəsində sülh və insanlıq əleyhinə cinayətlər, müharibə cinayətləri və digər çoxsaylı cinayətlərə görə Bakı Hərbi Məhkəməsi tərəfindən barələrində ittiham hökmü çıxarılmış Ermənistan Respublikası vətəndaşları Arayik Harutyunyan, Arkadi Qukasyan, Bako Sahakyan, Davit İşxanyan, David Babayan, Levon Mnatsakanyan və digərlərinin apellyasiya şikayətlərinə baxılmasına dair ilkin baxış iclası başlayıb.**





Bakı Apellyasiya Məhkəməsində hakimlər Elmar Rəhimovun sədrliyi, Emin Mehdiyev və Mehriban Qarayevanın iştirakı ilə keçirilən məhkəmə iclasında barələrində cinayət işi üzrə apellyasiya icraatı aparılan şəxslərin hər biri bildikləri dillərdə – erməni və rus dillərində tərcüməçi, habelə müdafiələrinin təmin olunması məqsədilə vəkillərlə təmin edilib.

Məhkəmə iclasında zərərçəkmiş şəxslərin nümayəndələri, dövlət ittihamını müdafiə edən prokurorlar - Baş Prokurorluğunun Dövlət ittihamının müdafiəsi üzrə idarəsinin şöbə rəisi Abbas Abbaslı, həmin idarənin prokurorları Anar Ələkbərov və Sevinc Qasımova, habelə Azərbaycan dövləti adından zərərçəkmiş qismində Nazirlər Kabineti Aparatının rəhbəri Rüfət Məmmədov iştirak ediblər.

Dövlət ittihamını müdafiə edən prokuror Anar Ələkbərov bildirib ki, apellyasiya şikayətləri verilərkən cinayət-prosessual qanunvericiliyin tələblərinə əməl olunub. O qeyd edib ki, hazırkı mərhələdə məhkəmə baxışına hazırlıq iclasının predmetini işin apellyasiya baxışına təyin edilməsinin mümkünlüyü məsələsi təşkil edir. İttiham tərəfi hesab edir ki, apellyasiya icraatının başlanılması üçün qanunvericiliklə müəyyən edilmiş prosessual şərtlərə əməl olunub və iş əlavə sübutlar tələb edilmədən məhkəmə baxışına təyin edilə bilər.

Məhkəmə tərəflərin mövqelərini və verilmiş vəsatətləri müzakirə etdikdən, həmçinin tərəflərin verilən vəsatətlərə münasibətini öyrəndikdən sonra müşavirəyə gedib.

Müşavirədən sonra qəbul edilmiş qərarlar elan olunub və cinayət işi apellyasiya baxışına təyin edilib. Bildirilib ki, məhkəmə baxışı istintaq aparılmadan və əlavə sübutlar tədqiq edilmədən iyunun 2-də keçiriləcək.

Xatırladaq ki, Bakı Hərbi Məhkəməsinin 5 fevral 2026-cı il tarixli hökmünə əsasən, Arayik Harutyunyan, Levon Mnatsakanyan, David Manukyan, Davit İşxanyan və David Babayan ömürlük azadlıqdan məhrumetmə cəzasına məhkum ediliblər. Arkadi Qukasyan və Bako Sahakyan 20 il, Madat Babayan və Melikset Paşayan 19 il, Qarik Martirosyan 18 il, Davit Allahverdiyan və Levon Balayan 16 il, Vasili Beqlaryan, Qurgen Stepanyan və Erik Qazaryan isə 15 il müddətinə azadlıqdan məhrum ediliblər.

***XQ***

# Koçaryan "inqilab" kartını açır

## *Gözdən düşmüş "eks"in "küçədə fırtına" oyunbazlığı*

**Ermənistanda seçkiqabağı siyasi gərginlik artdıqca, hakimiyyət uğrunda mübarizə təhlükəli ritorika ilə müşayiət olunur. Tərəflər bir-birini ittiham edir, "inqilab" çağırışları isə siyasi qarşıdurmanın miqyasını genişləndirir. İkinci prezident Robert Koçaryanın Sisian şəhəri sakinləri ilə görüşdə səsləndirdiyi fikirlər vəziyyətin nə qədər həssas və riskli olduğunu göstərir.**

"Ermənistan" blokundan baş nazirliyə namizəd Robert Koçaryan yerli sakinlərdən birinin "seçki saxtakarlıqlarına bulaşmış və cəmi 10–12 faiz dəstək qazanan hakim qüvvənin, hətta məğlub olsa belə hakimiyyəti verməyəcəyi barədə cəmiyyətdə fikir formalaşdırmağa çalışdığı" ilə bağlı sualını cavablandırarkən bildirib ki, hakimiyyətin xalqın iradəsinə qarşı çıxmaq cəhdləri onlar üçün iflasla nəticələnəcək. Onun sözlərinə görə, müxalifət ölkədəki 2 min seçki məntəqəsində ciddi nəzarət mexanizmi qurmağa hazırlaşır. R.Koçaryan çıxışında daha sərt mesaj da səsləndirib: "Əgər hakim komanda saxtakarlıq yolu ilə qələbəmizi əlimizdən almağa çalışsa, cavab olaraq əsl xalq inqilabı ilə qarşılaşacaq".

Onun "əsl xalq inqilabı" ilə bağlı çağırışları artıq təkcə emosional siyasi ritorika kimi deyil, həm də köhnə siyasi elitanın revanş planlarının açıq mesajıdır. Vaxtilə seçki saxtakarlıqları, avtoritar idarəetmə və siyasi təzyiqlərlə adı hallanan keçmiş prezidentin bu gün "xalq iradəsi" anlayışına istinad etməsi Ermənistan siyasətində həm ironik, həm də narahatedici mənzərə yaradır. Diqqəti artıq seçkinin nəticələrindən daha çox, seçkidən sonrakı küçə ssenarilərinə yönəldir.

Əslində, Koçaryanın Sisianda səsləndirdiyi "əsl xalq inqilabı" ilə bağlı bəyanatı Ermənistanın daxili siyasi gündəminin ən həssas nöqtələrindən birinə toxunur. Bu çıxış yalnız seçkiqabağı ritorika deyil, həm də illərlə hakimiyyət uğrunda mübarizə aparmış köhnə siyasi sistemin yenidən səhnəyə qayıtmaq cəhdidir. Paradoks ondadır ki, vaxtilə hakimiyyətin bütün inzibati resurslarını əlində cəmləyən və seçkilərin legitimliyi ilə bağlı çoxsaylı ittihamların mərkəzində dayanan Koçaryan indi "xalq iradəsi" və "inqilab" anlayışlarından istifadə edir. Onun "saxtakarlığa qarşı mübarizə"



və "xalqın seçimi" kimi mesajlar verməsi cəmiyyətin müəyyən hissəsində siyasi kinayə doğurur. Ermənistanda bir çoxları yaxşı xatırlayır ki, məhz onun hakimiyyəti dövrü seçki manipulyasiyaları, güc strukturlarının siyasətə müdaxiləsi və müxalifətin sərt şəkildə susdurulması ilə yadda qalıb. Bu baxımdan Koçaryanın baş nazir Nikol Paşinyanı "siyasi dələduz" adlandırması keçmişlə bu gün arasında sərt siyasi paralel yaradır.

R.Koçaryanın çıxışında diqqətçəkən əsas məqamlardan ən önəmlisi seçki nəticələrinin əvvəlcədən şübhə altına alınmasıdır. O, hakimiyyətin "xalqın qələbəsini oğurlamağa çalışacağını" iddia edir və bunun cavabında "inqilab" mesajını verir. Bu isə klassik postsovet siyasi texnologiyasını xatırladır: seçkidən əvvəl legitimlik böhranı yaratmaq və nəticələr arzuolunan kimi olmadığı təqdirdə kütləvi etiraz ssenarisinə zəmin hazırlamaq.

Onun "2000 seçki məntəqəsində ciddi nəzarət" barədə dedikləri ilk baxışda demokratik proseslərə nəzarət kimi təqdim olunsa da, əslində tərəfdarlarına "mübarizə seçki günü bitməyəcək" mesajıdır. Başqa sözlə, Koçaryan seçkiləri yalnız səsvermə prosesi kimi deyil, siyasi qarşıdurmanın başlanğıcı sayır.

Anklavdakı Kərkinin (Tiqranaşenin) Azərbaycana verilməsini istisna etdiyini deyən Koçaryan bununla şovinist ritorikaya üstünlük verdiyini nümayiş etdirib. O,



seçicilərlə görüşündə Ermənistanın artıq "xeyli" güzəşt etdiyini deyib: "daha güzəşt etməyə heç nə qalmayıb".

Maraqlıdır ki, Koçaryan bir tərəfdən Kərkinin verilməyəcəyini iddia edib, digər tərəfdən isə qaz kəmərinin və Gürcüstana gedən yolun müəyyən hissələrinin Azərbaycanın nəzarətinə keçəcəyi təqdirdə buna təəccüblənməyəcəyini deyib. Bu isə göstərir ki, Ermənistan daxilində reallıq hissi ilə populist siyasət arasında ciddi ziddiyyət yaranıb. Köhnə siyasi elita cəmiyyətə emosional müqavimət mesajları verir, eyni zamanda, regional reallıqların dəyişdiyini də anlayır. Bu ritorika Ermənistanda müharibədən sonra formalaşmış psixoloji travmanı siyasi dividendlərə çevirmək cəhdidir. Çünki məğlubiyyətdən sonra Ermənistan cəmiyyətində "xəyanət", "təslimçilik" və "satqınlıq" ittihamları daxili siyasi mübarizənin əsas alətlərindən birinə çevrilib.

Koçaryanın çıxışında ən sərt məqamlardan biri isə dolayısı ilə xarici faktor mesajı verməsidir. Ermənistan daxilində artıq belə bir fikir formalaşıb ki, köhnə siyasi elitanın bir hissəsi Moskvanın siyasi dəstəyinə arxalanaraq revanş götürməyə çalışır. Bu baxımdan Koçaryanın sərt ritorikası təkcə daxili auditoriyaya deyil, həm də müəyyən geosiyasi dairələrə ünvanlanan "mən hələ oyundayam" mesajıdır.

Ən maraqlısı isə onun seçicilərlə görüşdə xatırlatdığı ingilis atalar sözüdür: "Əgər kimsə səni bir dəfə aldadıbsa, ayıb onadır, iki dəfə aldadıbsa, ayıb sənədir". Bununla o, cəmiyyəti Paşinyana ikinci dəfə səs verməməyə çağırır. Bunlardan aydın olur ki, Koçaryanın əsas problemi ondan ibarətdir ki, o, keçmişin siyasi yükündən tam şəkildə uzaqlaşa bilməyib. Bu səbəbdən onun bu gün "xalq inqilabı"ndan danışması cəmiyyətin bir hissəsi üçün səmimi çağırışdan daha çox, siyasi manipulyasiyadır.

**Mövzu ilə bağlı Beynəlxalq Münasibətlərin Təhlili Mərkəzinin şöbə müdiri Mətin Məmmədli XQ-yə bildirdi ki,** Koçaryanın açıqlaması Ermənistan müxalifətinin seçkilərə ciddi şəkildə hazırlaşdığını



və vəziyyəti gərginləşdirməyə cəhd göstərə biləcəyini göstərir: "Onlar bu gərgin vəziyyətdən öz siyasi məqsədlərini reallaşdırmaq üçün istifadə etməyi planlaşdırırlar. Son zamanlar Ermənistanda keçirilən rəy sorğuları göstərir ki, hakimiyyətin reytinqi müxalifətdən xeyli öndədir. Görünür, demokratik yolla öz məqsədlərinə çata bilməyən revanşist qüvvələr vəziyyəti gərginləşdirməyə, qarşıdurma mühiti yaratmağa və prosesləri qeyri-konstitusion müstəviyə keçirməyə, bu yolla da məqsədlərinə çatmağa çalışacaqlar. Amma məqsədlərinə çatacaqlarmı? Sual budur. Təbii ki, bu, Ermənistan cəmiyyətinin və hakimiyyətinin davranışından və mövqeyindən asılı olacaq".

**Milli Məclisin deputatı Arzu Nağıyev isə bildirdi ki,** Koçaryanın bu açıqlaması Ermənistanda seçkiqabağı siyasi gərginliyin artıq pik həddə çatdığını göstərir: "O, hakimiyyətin mümkün seçki saxtakarlığına gedə biləcəyi barədə xəbərdarlıq etməklə yanaşı, tərəfdarlarını səfərbər etməyə çalışır. Koçaryan yaxşı anlayır ki, onun arxasında Rusiyadakı müəyyən siyasi dairələrin dəstəyi dayanır. Son dövrlərdə Rusiyanın xarici işlər naziri Sergey Lavrovun, eləcə də Təhlükəsizlik Şurasının sədr müavini



Dmitri Medvedevin Ermənistanla bağlı açıqlamaları da revanşist düşərgəni ruhlandıran amillər kimi qiymətləndirilir. Bununla yanaşı, Nikol Paşinyan da öz siyasi xəttini davam etdirməkdə qərarlıdır. O, uzun müddət hakimiyyət üçün ciddi təsir vasitəsi sayılan kilsənin və "Qarabağ klanı"nın imkanlarını zəiflədib. Paşinyan çıxışlarında revanşist qüvvələrin yenidən müharibə ritorikasını gündəmə gətirdiyini bildirir və vurğulayır ki, Ermənistan cəmiyyəti yeni qarşıdurma deyil, sabitlik və dinc həyat istəyir. Baş nazirin fikrincə, ölkənin gələcəyi Azərbaycanla sülh müqaviləsinin imzalanmasından keçir".

Beləliklə, mövcud mənzərə göstərir ki, Koçaryanın "inqilab" ritorikası daha çox siyasi çıxılmazlığın əlamətidir. Çünki seçkidə qələbəyə inam zəiflədikcə, küçə ssenarilərindən danışılması halları artır. Koçaryanın siyasətdə ən zəif tərəfi keçmişin siyasi alətləri ilə gələcəyin seçicisini inandırmağa çalışmasıdır. Bu baxımdan "xalq inqilabı" şüarı Koçaryan üçün siyasi dirçəliş vasitəsindən çox çıxılmazlığın etirafıdır. Əsas sual isə dəyişməz qalır: xalq doğrudanmı Koçaryanın arxasınca yeni bir inqilaba hazırdır, yoxsa bu çağırış, sadəcə, seçkiöncəsi psixoloji təzyiq elementidir? Ermənistanın mövcud reallığında ikinci ehtimal daha inandırıcı görünür.

***Pünhan ƏFƏNDİYEV***
***XQ***

# Müstəqil dövlətimiz AXC-nin demokratik ənənələrinin varisidir

**Azərbaycan Xalq Cümhuriyyətinin yaranması çoxəsrlik tarixi olan dövlətçiliyimizin ən parlaq səhifələrdən biri kimi XX əsrin əvvəllərində dünyada baş verən ictimai-siyasi proseslərin nəticəsi idi. Rusiyada çarizmin devrilməsi, milli azadlıq hərəkatının güclənməsi Azərbaycan Xalq Cümhuriyyətinin yaranması üçün əlverişli şərait yaratdı.**

Bu dövrdə Azərbaycanın ictimai-siyasi həyatında fəal iştirak edən qabaqcıl ziyalılarımız xalqımızın intellektual potensialına arxalanaraq itirilmiş dövlətçiliyimizi bərpa etdilər. AXC yeni tariximizə Şərqin ilk demokratik dövləti kimi qədəm qoydu.

1918-ci il may ayının 28-də qəbul edilmiş "İstiqlal Bəyannaməsi" ilə Şərqdə ilk dəfə olaraq Azərbaycanda demokratik respublika idarə üsulu – parlamentli dövlətin yaradıldığı elan edildi. Dövlətçilik tariximizdə yeni bir dövrə qapı açan bu sənəd müstəqil Azərbaycan dövlətinin yaradılması ilə yanaşı, onun prioritetlərini və məqsədlərini də bəyan etdi.

1918-ci il iyun ayının 17-də Gəncədə öz fəaliyyətini dayandırmış Azərbaycan Milli Şurası həmin il noyabrın 16-da Bakıda yenidən fəaliyyətə başladı. Hökumətin sədri Fətəli xan Xoyski şuranın iclasında bildirdi ki, parlament formalaşdırmaq üçün hazırlıq tələb olunduğundan hökumət bu işi öz öhdəsinə götürməyi Milli Şuradan xahiş edir. Milli Şuranın 1918-ci il noyabrın 19-da Məhəmməd Əmin Rəsulzadənin sədrliyi ilə keçən iclasında "Azərbaycanın Məclisi-Məbusanın təsisi haqqında" qanun layihəsi müzakirə olundu.

Milli Şuranın müzakirələr nəticəsində qəbul edildiyi qanunda göstərilirdi ki, hələ 1917-ci ilin sonlarında Cənubi Qafqazın müsəlman partiyalarından ümumi səsvermə yolu ilə Rusiya Məclisi-Müəssisanına seçilmiş 14 nəfər nümayəndənin siyahısı seçkilərdə iştirak etmiş partiyaların qazandıqları səslərə müvafiq olaraq genişləndirmiş 44 nəfərə çatdırdı. Cənubi Qafqaz Mərkəzi Müsəlman Komitəsi Azərbaycan Məclisi-Müəssisanını toplamağın mümkün olmadığını nəzərə alaraq, bu məsələnin həllini Zaqafqaziya Seymində Azərbaycanı təmsil etməkdə görmüşdü.

Zaqafqaziya Seymi və Zaqafqaziya Cümhuriyyəti Hökuməti öz fəaliyyətinə xitam verdikdə Seymdəki 44 nəfər müsəlman deputat Azərbaycan Milli Şurasının yaradıldığını elan etmiş və Azərbaycanın idarəçiliyini öhdəsinə götürmüşdü.

Yeni Şuranın qəbul etdiyi "Azərbaycan Məclisi-Məbusanının (parlamentinin) təsisi haqqında" qanunda göstərilirdi ki, Milli Şura ölkədə yaşayan bütün millətləri təmsil edir. Digər tərəfdən, müxtəlif siyasi partiyaların nümayəndələri ilə bərabər, Azərbaycan xalqının müxtəlif təbəqələrinin də parlamentdə təmsil olunmalarına böyük ehtiyac var.

Milli Şura Azərbaycan parlamentini 120 nəfərdən ibarət formalaşdırmağı qərara aldı. Göstərilən qanuna əsasən, parlamentə Azərbaycan Xalq Cümurhiyyəti ərazisində yaşayan xalqların sayı nəzərə alınaraq, azərbaycanlılardan 89, ermənilərdən 21, ruslardan 10, yəhudilərdən 1, almanlardan isə 1 nəfər nümayəndə göndərilməli idi. Milli Şuranın qəbul etdiyi qanunda göstərilirdi ki, azlıq təşkil edən millətlərin bütün nümayəndələri yeni təmsilçilər olacaqdır.

Azərbaycanlılardan isə 44 nəfər Milli Şura üzvü ümumi səsvermə yolu ilə seçildiklərindən yeni parlamentin tərkibinə üzv daxil edildilər. Qalan 36 nəfər isə əlavə nümayəndələr kimi Azərbaycanın ayrı-ayrı şəhər və qəzalarından göndərilməli idilər. Qanunda sayları az olduğuna görə nümayəndə seçmək səlahiyyətləri olmayan, lakin ölkə ərazisindəki digər azsaylı xalqlar arasında nisbətən çoxluq təşkil edən gürcü və polyak milli komitələrinin hərəsindən 1 nümayəndə göndərmələrinə razılıq verildi. Bundan əlavə, parlamentə Bakı Həmkarlar Təşkilatları tərəfindən 3 nəfər, Bakı Neft Sənayeçiləri İttifaqından 3 nəfər nümayəndənin göndərilməsi də nəzərdə tutulurdu.

Qanuna edilən qeydlərdə Cümhuriyyət Parlamentində təmsil olunacaq üzvlərin müəyyən edilməsi qaydaları da əksini tapmışdı. Qeydlərə əsasən, parlamentə daxil olan 44 nəfər Milli Şura üzvündən ölən, istefa verən və ya başqa səbəbdən məclisdən çıxan nümayəndənin yerinə onun mənsub olduğu partiyanın digər nümayəndəsi daxil edilirdi. Bələdiyyəsi və milli komitəsi olmayan qəzalardan parlamentə nümayəndə kənd şuralarının göndərdiyi nümayəndələrin ümumi iclasında seçildi.

Erməni, rus və azlıqda qalan digər millətlərdən parlamentə nümayəndələr həmin millətlərin milli şuraları və ya komitələri tərəfindən göstərilirdi. Şəhər nümayəndələrinin sənədləri bələdiyyə rəisi, qəzalardan göndərilənlərinki barışıq məhkəmələrinin sədri və ya onun müavini, azlıqda qalan millətlərdən isə onların milli şuralarının sədrləri tərəfindən şəxsən imzalanmış, müvafiq seçki protokolları və imza-möhürlə təsdiq olunmuş mandatla təmin edilməli idi.

Parlamentin çağırılması ilə əlaqədar Azərbaycan Milli Şurası adından onun sədri Məhəmməd Əmin Rəsulzadənin imzası ilə 1918-ci il noyabrın 29-da Azərbaycan və rus dillərində "Bütün Azərbaycan əhalisinə!" müraciətnaməsi dərc olunmuşdu.

1998-ci ildə Azərbaycan Xalq Cümhuriyyətinin 80 illiyinin təntənəli sürətdə qeyd edilməsi barədə sərəncam imzalamış ulu öndər Heydər Əliyev bununla milli dövlətçilik məfkurəsinin və tarixinin araşdırılması üçün ciddi hüquqi baza yaratmış oldu. AMEA-nın Tatix İnstitutunda yaradılmış AXC tarixi şöbəsində əhatəli elmi tədqiqatlar aparıldı. Cümhuriyyətin ikicildlik ensiklopediyası hazırlanaraq nəşr olundu. Beynəlxalq və respublika səviyyəli konfranslar keçirildi, sənədli filmlər çəkildi.

Ümummilli lider Heydər Əliyev AXC-nin tarixi rolunu yüksək qiymətləndirərək demişdir: "Müsəlman Şərqində ilk demokratik Cümhuriyyətin məhz Azərbaycanda yaranması xalqımızın o dövrdə milli müstəqillik, azadlıq duyğuları ilə yaşaması ilə bağlıdır. O illərdə xalqımızın qabaqcıl şəxsiyyətləri, mütəfəkkir adamları, ziyalıları xalqımızda milli azadlıq, milli müstəqillik duyğularını gücləndirmiş, milli dirçəliş, milli oyanış əhval-ruhiyyəsi yaymış və bunların hamısı məntiqi olaraq Azərbaycan Xalq Cümhuriyyətinin yaranmasına gətirib çıxarmışdır".

2007-ci ilin mayında Bakıda Azərbaycan Xalq Cümhuriyyətinin şərəfinə ucaldılmış "İstiqlaliyyət" abidəsinin açılışı oldu. Mərasimdə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev xalqımızın tarixində ilk demokratik dövlətin rolunu yüksək qiymətləndirmişdir. Qranitdən və ağ mərmərdən yonulmuş abidənin üzərində 1918-ci il mayın 28-də Tiflisdə qəbul olunmuş "İstiqlal Bəyannaməsi"nin mətni həm əski, həm də latın qrafikalı Azərbaycan əlifbası ilə həkk olunmuşdur. "İstiqlaliyyət" küçəsində qoyulan bu abidə adları Azərbaycan dövlətçiliyi ilə birgə tarixə düşən istiqlal mücadiləsi iştirakçılarının xatirəsinə də ən böyük ehtiramdır.

XX əsrin sonlarında Azərbaycan dövlət müstəqilliyini bərpa etdikdən sonra hər il mayın 28-i ölkəmizdə təntənəli şəkildə qeyd olunur. Keçirilən tədbirlərdə cümhuriyyət dövrünə bir daha nəzər salınır, bu tarix ətraflı təhlil edilir, milli dövlət quruculuğu təcrübəsi öyrənilir.

Azərbaycan Xalq Cümhuriyyətinin yaranması XIX əsrin sonu və XX əsrin əvvəllərində Azərbaycan ictimai-siyasi, ədəbi, fəlsəfi mühitində cərəyan edən müsbət hadisələrlə sıx bağlıdır. Bu dövrdə artıq Azərbaycanda böyük bir ziyalı dəstəsi meydana gəlmişdi. Onlar Avropa və dünya mədəniyyəti ilə yaxından tanış idilər, öz intellektual potensiallarından millətin maariflənməsi üçün maksimum istifadə edirdilər.

Cəmi 23 ay yaşamasına baxmayaraq, cümhuriyyət dövründə həyata keçirilən mühüm tədbirlər müstəqil dövlətçiliyimizin əsaslarının yaradılması baxımından çox böyük əhəmiyyət kəsb edib. Demokratik prinsiplərin bərqərar olması, etnik və dini mənsubiyyətindən asılı olmayaraq, bütün insanlara bərabər hüquqların verilməsi, Azərbaycan dilinin dövlət dili elan edilməsi, nizami Milli Ordunun yaradılması və görülən digər vacib işlər hökumətin həmin dövrdə apardığı siyasətin miqyasını, mahiyyət və əhəmiyyətini əyani şəkildə səciyyələndirir.

Parlamentin açılışı 1918-ci il dekabrın 3-nə təyin olunsa da, 7-də baş tutmuşdur. Həmin gün böyük xeyriyyəçi H.Z.Tağıyevin Nikolayev küçəsindəki (indiki "İstiqlaliyyət" küçəsi) yerləşən keçmiş qız məktəbinin binasında müsəlman Şərqində ilk parlamentin birinci iclası təntənəli şəraitdə açıldı. Əlimərdan bəy Topçubaşov parlamentin sədri, doktor Həsən bəy Ağayev sədrin birinci müavini seçildilər. Ə.Topçubaşov bu vaxt İstanbulda olduğu üçün parlamentə H.Ağayev sədrlik edirdi. 1919-cu ilin yanvarında Ə.Topçubaşov Paris Sülh Konfransında Azərbaycan nümayəndə heyətinin başçısı təyin olunaraq Parisə gedir. O, 1920-ci ilin yanvarında yenidən parlament sədri seçilir.

Cəmi 17 ay fəaliyyət göstərməsinə baxmayaraq, Azərbaycan Xalq Cümhuriyyətinin Parlamenti demokratik dəyərləri özündə ehtiva edən yüzdən artıq sənəd qəbul etmişdir. Bu misilsiz fəaliyyət göstərdi ki, Azərbaycan xalqı həqiqətən parlament idarəçiliyi səviyyəsinə yüksəlmişdir. O vaxt Azərbaycan Xalq Cümhuriyyəti bütün müsəlman Şərqində yeganə parlamentli respublika idi. Özünün 17 aylıq fəaliyyəti dövründə parlamentin 145 iclası keçirilmişdir.

Parlamentin ilk tədbirlərindən biri Paris Sülh Konfransına səlahiyyətli nümayəndə heyəti göndərməkdən ibarət idi. Bu nümayəndə heyətinin qarşısında Azərbaycan istiqlaliyyətinin Avropa ölkələrində tanıdılması kimi tarixi vəzifə dururdu. Nümayəndə heyətinə parlamentin sədri və üzvləri Ə.Topçubaşov (bitərəf), M.H.Hacınski (Müsavat), Ə.Ağaoğlu (bitərəf), Ə.Şeyxülağaoğlu (Hümət), eləcə də müşavirlər M.Məhərrəmov (Sosialist), M.Y.Mirmehdiyev (İtddihad), C.Hacıbəyli (Müsavat), əməkdaşlar Ə.Hüseynzadə (bitərəf), V.Malçevski (bitərəf) və başqaları daxil idilər.

Azərbaycan Parlamenti ölkədə müvəqqəti qanunvericilik orqanı hesab edildiyindən bir sıra məsələlər Müəssislər Məclisində həll edilməli və Azərbaycan Xalq Cümhuriyyətinin Konstitusiyası da burada təsdiq olunmalı idi. Müəssislər Məclisinə seçkilərin əsaslarını hazırlamaq üçün parlamentdə böyük bir komissiya yaradılmışdı. Bu komissiya çoxsaylı olub bütün fraksiyaların nümayəndələrindən təşkil olunmuşdu.1919-cu il iyulun 21-də Müəssislər Məclisinə seçkilər haqqında Əsasnamə qəbul edildi. Əsasnamə 4 fəsil 116 bənddən ibarət idi. Əsasnaməyə görə, Müəssislər Məclisində seçkilərdə cinsindən, dinindən, milliyyətindən asılı olmayaraq 20 yaşına çatmış bütün Azərbaycan vətəndaşları iştirak edə bilərdilər.

Seçkilər bərabər keçirilməli və 120 nəfər üzv seçilməli idi. Siyasi partiyalar və təşkilatların namizəd siyahıları tərtib edilib seçkilərdən, ən azı, 30 gün qabaq mərkəzi seçki komissiyasına təqdim edilməli idi. Seçkilər 1920-ci il aprelin 20-nə kimi təyin edilmişdi. 1918–1920-ci illərdə mövcud olmuş Azərbaycan Xalq Cümhuriyyətinin varisi olan Azərbaycan Respublikası Milli Məclisi 1918-ci il may ayının 28-də Milli Şura tərəfindən qəbul edilmiş "İstiqlal Bəyannaməsi"nə və 1991-ci ildə "Azərbaycan Respublikasının müstəqilliyinin bərpa edilməsi haqqında bəyannamə"yə əsaslanaraq, 18 oktyabr 1991-ci il "Azərbaycan Respublikasının dövlət müstəqilliyi haqqında Konstitusiya Aktı"nı qəbul etdi.bu sənəd müstəqil ölkəmizin siyasi-iqtisadi və dövlət quruluşunun əsaslarına təsir etdi.

Müsəlman Şərqinin ilk demokratiya quruluşu dövləti xarici hərbi müdaxilə nəticəsində süquta uğrasa da, tarixi fakt, çağdaş prinsiplərə söykənən milli dövlətçilik ənənələrinin başlanğıc nöqtəsi kimi Azərbaycan xalqının yaddaşından heç zaman silinməmişdir. Cümhuriyyətin süqutundan sonrakı onilliklər ərzində həyata keçirilən repressiyalar, təzyiqlər insanlarımızın milli istiqlal duyğularına xələl gətirməmişdi. İmperiyanın antimilli, şovinist siyasəti ilə barışmayan xalqımız şərait yetişdikcə, milli haqlarımız uğrunda mücadilə aparmışdır.

Son nəticədə, SSRİ kimi nəhəng bir imperiyanın süqutuna, Azərbaycan dövlət müstəqilliyinin bərpasına gətirib çıxaran keşməkeşli və uzun mübarizə tarixinin ötən əsrin 70-ci illərin əvvəllərindən başlaması isə fenomen şəxsiyyət, ümummilli lider Heydər Əliyevin xidmətləri ilə bilavasitə bağlıdır.

XX əsrdə Azərbaycan xalqının yetirdiyi nadir şəxsiyyət olan Heydər Əliyev xalqımızın milli dövlətçilik düşüncəsini əsrin 70-ci illərinin sonlarına doğru müstəqil Azərbaycan dövlətinin timsalında əzəmətli bir reallığa qovuşdurmuşdu. O, böyük fədakarlıqlar hesabına qurub-yaratdığı bu dövlətin sarsılmazlığını, demokratik yüksəlişini, Azərbaycanın müstəqilliyinin əbədiliyini, dönməzliyini təmin etmişdir.

Ümummilli lider həmin illərdə müstəqil Azərbaycan üçün möhkəm siyasi və iqtisadi təməl yaratmaqla yanaşı, mütərəqqi parlamentarizm ənənələrinin də əsasını qoymuş, yüksək siyasi iradə göstərərək qanunverici orqanın xalqın milli maraqlarına uyğun çevik və işlək fəaliyyətini təmin etmişdir. Ötən əsrin 50–60-cı illərində respublikada milli-mənəvi dirçəliş istiqamətində müəyyən ehtiyatlı addımlar atılsa da, bu sahədə kompleks tədbirlər məhz Heydər Əliyevin Azərbaycana rəhbər seçildiyi vaxtdan başlamışdır.

Ümummilli lider böyük hakimiyyət ustası kimi bütün dövlət hakimiyyəti orqanlarının o cümlədən parlamentin işini xalqın iqtisadi və sosial-mədəni tərəqqisinə, milli dirçəliş siyasətinin reallaşmasına yönəltmişdir. Azərbaycan məhz bu möhkəm bünövrə üzərində 1991-ci ilin 18 oktyabrında yeni istiqlaliyyətini bütün dünyaya bəyan etsə də, xalqımız öz suveren hüquqlarını tam gücü ilə reallaşdıra bilməmişdir. 1993-cü ilin iyununda ümummilli lider Heydər Əliyevin xalqın təkidli tələbi ilə hakimiyyətə gəlişi isə Azərbaycan cəmiyyətində müstəqil dövlətçilik ideyalarının bərqərar olmasına fundamental əsaslar yaratmışdır. Ölkə xaosdan, vətəndaş müharibəsindən, hərc-mərclikdən, dövlətçiliyi yenidən itirmək təhlükəsindən qurtulmuşdur. Ümummilli lider Heydər Əliyevin 1993-cü il iyunun 15-də Azərbaycan Ali Sovetinin sədri seçilməsi isə ölkədə qanunverici orqanın cəmiyyətdəki nüfuzunu qaldırmış, onun təşəkkülünə, ölkənin ictimai-siyasi həyatının sabitləşməsinə, habelə milli parlamentarizm ənənələrinin inkişafına böyük zəmin yaratmışdır.

Ulu öndər Heydər Əliyev ona göstərilən bu taleyüklü etimadı doğrultmağa çalışacağı ilə bağlı vurğulamışdır: "Azərbaycan Respublikasının dövlət müstəqilliyi 1918-ci ildə yaranmış ilk Azərbaycan Demokratik Respublikasının ənənələri əsasında müasir tələblərlə, dünyada gedən proseslərlə bağlı olaraq təmin olunmalıdır. Bu sahədə mən daim çalışacağam və heç kəsin şübhəsi olmasın ki, ömrümün bundan sonrakı hissəsini harada olursa-olsun, yalnız və yalnız Azərbaycan Respublikasının müstəqil dövlət kimi inkişafına həsr edəcəyəm. Azərbaycan Respublikası, bundan sonra onun başına nə gəlirsə-gəlsin, müstəqilliyini itirməyəcək, yenidən heç bir dövlətin tərkibinə daxil olmayacaq, heç bir başqa dövlətin əsarəti altına düşməyəcəkdir".

Bu gün Azərbaycan ən müxtəlif sahələrdə qazandığı uğurlar, həm də Ulu öndərin yaratdığı əsaslar üzərində ötən illərdə qəbul edilən fundamental qərarların, imzalanan fərman və sərəncamların, dövlət proqramlarının müstəsna əhəmiyyət daşıdığını təsdiqləyir. Prezident İlham Əliyevin novator liderliyi ilə ulu öndər Heydər Əliyev siyasi kursunun davam etdirilməsində yeni bir mərhələnin başlanğıcı qoyulmuşdur. Dövlət başçısı hər addımında milli maraq və mənafeləri uca tutur, ölkə və vətəndaşlarının arzu və istəyini reallaşdırmaq üçün böyük əzmkarlıqla çalışır.

Bu gün Azərbaycan öz siyasi və iqtisadi qüdrətini daim artırır. Azərbaycan Xalq Cümhuriyyətinin siyasi varisi müstəqil Azərbaycan dövləti regionunun və dünyanın inkişaf etmiş dövlətlərindən birinə çevrilib.

***Elman MİRZƏYEV,***
***tarix üzrə fəlsəfə doktoru***

**Ümummilli lider Heydər Əliyevin 1998-ci il 30 yanvarında "Azərbaycan Xalq Cümhuriyyətinin 80 illiyinin keçirilməsi haqqında" sərəncamı milli hökumətin çoxsahəli fəaliyyətinə verilən yüksək tarixi qiymətdir.**

# Azərbaycan Xalq Cümhuriyyətinin milli təhsil quruculuğu



Ulu öndər milli dövlətçiliyimizin bərpa edilməsində və yaşadılmasında AXC-nin tarixi fəaliyyəti barədə demişdir: "Azərbaycan Xalq Cümhuriyyəti cəmi 23 ay fəaliyyət göstərsə də, az yaşasa da, xalqımızda azadlıq, müstəqillik fikirlərini daha da gücləndirmiş oldu. Müsəlman Şərqində ilk demokratik cümhuriyyətin məhz Azərbaycan torpağında yaranması xalqımızın XIX əsrin sonu XX əsrin əvvəllərində milli müstəqillik və azadlıq duyğulan ilə yaşaması ilə bağlıdır. O illərdə xalqımızın qabaqcıl şəxsiyyətləri, ziyalıları, xalqımızda milli azadlıq, milli müstəqillik duyğularını gücləndirmiş, milli dirçəliş əhval-ruhiyyəsini yaymışdır. Bunların hamısı məntiqi olaraq Azərbaycan Xalq Cümhuriyyətinin yaranmasına gətirib çıxarmışdır".

Prezident İlham Əliyev də Azərbaycan Xalq Cümhuriyyəti tarixinin, ədəbiyyatının, mədəniyyətinin araşdırılmasının vacibliyini çıxış və nitqlərində, müvafiq sərəncamlarda dönə-dönə vurğulamışdır. Dövlət başçısının AXC-nin 90 və 100 illik yubileyləri haqqında sərəncamları ilə yanaşı, Bakıda "İstiqlal bəyannaməsi" abidəsinin ucaldılması, Dövlət Bayraq Meydanının və dünyanın ən uca bayraq qülləsinin insa olunması, 2018-ci ilin ölkəmizdə "Azərbaycan Xalq Cümhuriyyəti İli" elan edilməsi bu şanlı tarixə ümumxalq sevgisinin və ehtiramının parlaq ifadəsi olmuşdur.

Tbilisidə fəaliyyət göstərən Zaqafqaziya Seyminin dağılmasından sonra Azərbaycan deputatlarının 1918-ci il mayın 27-də Azərbaycanın istiqlalını elan etmələri ilə dünyada ilk demokratik türk dövləti tarix səhnəsinə qədəm qoydu. Həmin il may ayının 30-da Tiflis şəhərində ilk respublikanın ilk hökuməti - Fətəli Xan Xoyskinin başçılığı altında Kabinet yaradıldı. Azərbaycan hökuməti ilk gündən geniş tədbirlər həyata keçirməyə başladı.

Azərbaycan Xalq Cümhuriyyəti hökumətinin 30 iyun 1918-ci il tarixli qərarına əsasən, Gəncədə Xalq Maarif Nazirliyinin dəftərxanası təşkil edildi. Milli təhsilin inkişafına yol açan ilk tədbirlərdən biri AXC hökumətinin 27 iyun 1918-ci il tarixli qərarı ilə türk dilinin ölkədə dövlət dili elan edilməsi oldu. Baş nazir Fətəli Xan Xoyskinin imzaladığı həmin qərarla bütün dövlət orqanları, məhkəmə, təhsil müəssisələri və digər inzibati qurumlarda ana dilindən istifadə olunması tələb edildi. Parlamentin dəftərxanası bütün dövlət və ictimai təşkilatlara, ayrı-ayrı şəxslərə bildirdi ki, parlamentə, onun dəftərxanasına hər cür yazılı müraciət ancaq dövlət dilində olmalıdır.

AXC dövründə məktəblər milliləşdirildi. Azərbaycan Hökumətinin 28 avqust 1918-ci il tarixli qərarına əsasən, bütün ibtidai təhsil müəssisələrində təhsil ana dilində aparıldı. Kəndlərdə, şəhərlərdə yeni məktəblər açıldı.

AXC hökuməti məktəb dərsliklərinin hazırlanması və nəşri məqsədi ilə Maarif Nazirliyində xüsusi komissiya təşkil edildi. 1919-cu ildə "Türk əlifbası", "Təzə elmi-hesab", "İkinci il", "Yeni məktəb", "Ədəbiyyat dərsləri", "Müntəxəbat", "Türk çələngi", "Tarixi-təbii", "Rəhbər cəbr" kimi milli dərslikləri nəşr olundu. Azərbaycan parlamenti 1919-cu il 18 sentyabr tarixli qərarı ilə türk dilində yeni kitablar almaq üçün Xalq Maarifi Nazirliyinin sərəncamına 1 milyon manat vəsait ayrıldı.

Bununla yanaşı, Türkiyədən dərsliklərin alınıb gətirilməsi barədə hökumətin 1918-ci ilin payızında belə bir qətnaməsi də oldu: "Azərbaycandakı təhsil müəssisələrinin milliləşdirilməsi üçün mütləq Türkiyədən dərs kitabları gətirilməli, bir qisim müəllimlər də dəvət edilməli və bu məqsədlə növbəti şəxs Konstantinopola (İstanbula) ezam olunmalıdır". Bu dövrdə məktəblərdə çalışan məşhur müəllimlərin dərs kitablarından da istifadə edilirdi. A.Şaiq, A.Səhhət, H.Cavid, M.Mahmudbəyov, S.S.Axundov, F.Ağazadə belə müəllimlərdən idilər.

Dövlət dili olan Azərbaycan dilinin tədrisi icbarı surətdə həyata keçirilməli idi. Təhsilin, maarif sisteminin milliləşməsi müəllim kadrlarının çatışmaması çətinlik yaradırdı. Müəllimlərə olan ehtiyacı ödəmək üçün 1918-ci ildə Gəncə, Şəki, Zaqatalada qısamüddətli pedaqoji kurslar təşkil edildi. Xalq Maarif Nazirliyi Qori Müəllimlər Seminariyasının Azərbaycan şöbəsinin müstəqil Qazaxa köçürülməsi haqqında qərar qəbul etdi. Qazax Seminariyası müstəqil təhsil ocağı kimi Firudin Bəy Köçərlinin rəhbərliyi ilə 1918-ci ilin 10 noyabrında fəaliyyətə başladı.

Orta və ali məktəblərdə dərs demək üçün Türkiyədən və Rusiyadan yüksək dərəcəli müəllimlər dəvət olundu. "Nina" rus qız məktəbləri milli qadın gimnaziyalarına çevrildi. Yaşlı vətəndaşlar üçün axşam savad kursları təşkil edildi. Şərqdə ilk dünyəvi ali təhsil verən Bakı Dövlət Universiteti yaradıldı. 1 sentyabr 1919-cu ildə universitetin təsis edilməsi haqqında qərar qəbul edildi və onun nizamnaməsi təsdiq edildi. Ümummilli lider Heydər Əliyevin dediyi kimi, BDU-nun yaradılması ötən əsrin əvvəlindən bu günə kimi xalqımızın tarixində ən əlamətdar hadisələrdən biridir.

Uuniversitet ilk tədris ilinə tarix-filologiya və tibb fakültələri ilə fəaliyyətə başladı. Sonra fizika-riyaziyyat (1920), şərqşünaslıq (1922), hüquq (1928), kimya-biologiya (1934) fakültələri yaradıldı. İlk tədris ilində 44 müəllim var idi, ilk rektoru görkəmli rus alimi, Kazan Universitetinin professoru, məşhur cərrah V.İ.Razumovski oldu. 1926-1929-cu illərdə isə universitetin ilk azərbaycanlı rektoru Tağı Şahbazi idi.

Bakı Dövlət Universitetinin yaradılması heç də asanlıqla başa gəlmədi. Universitetin ilk rektoru Razumovski yazırdı: "1919-cu ilin əvvəllərində Azərbaycan Respublikasının xalq maarif naziri Həmid bəy Şahtaxtinski Tiflis şəhərinə gəldi. O, Qafqaz rus universitetini Bakıya köçürmək təklifi ilə gəlmişdi, yaxşı binalar, maddi təminat və s. vəd edirdi". Rektor universitet şurasının iclasında Bakıdan alınmış təkliflərin daha real, daha məqbul və daha sanballı olmasını əsas gətirərək, məhz universiteti Bakıda yaratmaq təklifini irəli sürdü və təklif qəbul edildi.

Bakı Dövlət Universitetinin yaranmasında Fətəli Xan Xoyskinin, Nəsib Bəy Yusifbəylinin, Həsən Bəy Ağayevin, Məhəmməd Əmin Rəsulzadənin, Rəşid Xan Kaplanovun, Sultan Məcid Qənizadənin, Həmid Bəy Şahtaxtlının və başqalarının çox böyük xidmətləri olmuşdur.

Dövrün ağır və mürəkkəb beynəlxalq şərtlərinə, xarici təhdidlərə, kəskin maliyyə və kadr çatışmazlığına baxmayaraq, milli hökumət ölkədə təhsil və mədəniyyətin inkişafına xüsusi diqqət yetirir, ciddi tədbirlər həyata keçirirdi. Universiteti professor-müəllim heyəti ilə təmin etmək məqsədilə 1918-ci il iyulun 23-də AXC hökumətinin qərarı ilə Türkiyədən 50 nəfər, Rusiyadan da 50 nəfər müəllim dəvət edildi. Onlar 1919-cu il oktyabr ayının əvvəllərində Bakı Dövlət Universitetində müəllimlik fəaliyyətinə başladılar. Onların arasında Rusiyadan Komarovski, Makovelski, Seredinski, Marr, Meşşaninov və başqaları var idi. Türkiyədən isə İsmayıl Hikmət, Xəlil Fikrət, Mühiddin Birgin, Mehmet Fuad Köprülüzadə, Bəkir Çobanzadə və başqaları universitetdə elmi-pedaqoji fəaliyyətlə məşğul oldular.

Bu böyük alimlər çox dəyərli elmi-pedaqoji tədqiqat işləri, dərslik və dərs vəsaitləri də yazmışlar. Məsələn, İsmayıl Hikmətin 4 cildlik "Türk ədəbiyyatı tarixi", 2 cildlik "Azərbaycan ədəbiyyatı tarixi", Mühiddin Birginin "Psixoloji", Fuad Köprülüzadənin "Azəri ədəbiyyatına dair tədqiqlər", Xəlil Fikrətin "Tədris və tərbiyə tarixi" əsərləri nəşr edilmişdir.

1929–1930-cu tədris ilində şərqşünaslıq fakültəsininn məzunu olmuş Lətif Hüseynzadə xatirələrində yazırdı ki, tələbələr təhsil illərində dərin və hərtərfəli bilik qazanmaqla bərabər, həm də ciddi elmi-tədqiqat işləri ilə də məşğul olur, ictimai işlərdə fəal iştirak edir, faydalı təşəbbüslər irəli sürürdülər. 1928-1929-cu tədris ilində Azərbaycan Dövlət Darülfünunun 10 illik yubileyi ərəfəsində şərq fakültəsi nəzdində jurnalistika şöbəsi yaradıldı. Mikayıl Müşfiq, Əhməd Cavad, Məmmədsəlim Tahirli, Əhməd Seyidov və digər fəal tələbələrlə bərabər, o da dərsdən sonra jurnalistika şöbəsinin məşğələlərində iştirak edirdi. Burada qəzetçilik, müxbirlik, mətbəə ləvazimatı, redaksiya işlərinə dair çox maraqlı dərslər keçilir, məqalələr yazılırdı.

Lətif müəllim xatırlayırdı ki, şöbənin rəhbəri professor S.Seredinski idi. Bir gün rektor Tağı Şahbazi məşğələyə gəldi və biz ona müraciət etdik ki, darülfünunda çoxtirajlı bir qəzet nəşr edək. Rektor da fikrimizi razılıqla qarşıladı. 1929-cu ilin iyun ayında Azərbaycan Dövlət Darülfünunda "Student jurnalist" adlı çoxtirajlı universitet qəzetinin ilk nömrəsi buraxıldı. Bu nömrədə Tağı Şahbazinin "Böyük yubiley qarşısında", Hadi Mirzəzadənin "Darülfununda jurnalizm kafedrası", M.Səlimxanlının "Bizdə qəzetçilik sənəti", Əbdüləziz Salamzadənin "Darülfünün bizə nə verdi", S.Aşurbəylinin "Pedaqoji fakültənin yeni quruluşu. Professor Fridonlu ilə müsahibə", Lətif Hüseynzadənin "Azərbaycan necə öyrənilir?", Tanabeylinin "Lisaniyyat kafedrası. Professor Bəkir Çobanzadə ilə müsahibə", Əhməd Seyidovun "Tibbi fakültədə yeni tədbirlər" adlı məqalələri dərc edilmişdi. Rəngli buraxılmış bu ilk qəzetin redaksiya heyətində Məmməd Arif, Adil Əfəndizadə, S.Aşurbəyli, Əhməd Seyidov və Lətif Hüseynzadənin adları verilmişdi.

1999-cu ildə Bakı Dövlət Universitetinin yaradılmasının 80 illiyi tamam oldu. Bu münasibətlə 1999-cu il dekabrın 28-də universitet kollektivinə göndərdiyi təbrik məktubunda Prezident Heydər Əliyev bildirirdi: "Diqqətəlayiqdir ki, Bakı Dövlət Universiteti öz fəaliyyətinin bütün dövrlərində elm və təhsil məbədi olmaqla yanaşı, həm də Azərbaycan dilinin inkişafında, milli şüurun, vətənpərvərlik ruhunun inkişafında xidmətlər göstərmiş bir mərkəz rolunu oynamışdır. Bakı Dövlət Universitetinin əsasını qoyanların, onun inkişafına təkan vermiş insanların əməyini daim yüksək qiymətləndirərək, onların xatirəsini böyük minnətdarlıq və ehtiram hissi ilə yad edirəm".

Bakı Dövlət Universitetinin ən böyük məzunu ümummilli lider Heydər Əliyevdir. Bakı Dövlət Universitetinin inkişafının yeni mərhələsi Prezident İlham Əliyevin adı ilə bağlıdır. Dövlət başçısının "Bakı Dövlət Universitetinin 100 illik yubileyinin keçirilməsi haqqında" 14 noyabr 2017-ci il tarixli sərəncamında deyilir: "2019-cu ildə Azərbaycanın nüfuzlu elm və təhsil ocağı Bakı Dövlət Universitetinin təsis edilməsinin 100 illiyi tamam olur. Azərbaycan Xalq Cümhuriyyətinin yadigarı Bakı Dövlət Universiteti müsəlman Şərqində yeni tipli ali məktəb kimi yarandığı vaxtdan etibarən nailiyyətlərlə zəngin şərəfli bir yol keçmişdir... Bakı Dövlət Universiteti tarixən vətənpərvər ziyalıların fədakar əməyi sayəsində yetirdiyi ictimai-siyasi, elm və mədəniyyət xadimləri ilə Azərbaycanın mövcud simasının təşəkkülünə böyük töhfələr vermişdir".

Göründüyü kimi, Azərbaycan Xalq Cümhuriyyətinin mədəni-maarif, milli təhsil sahəsindəki qısa müddətdə həyata keçirdiyi tədbirlər xalqımızın tarixində silinməz izlər buraxmışdır.

***Rüfət HÜSEYNZADƏ,***
***ADPU-nun professoru,***
***Əməkdar müəllim***
***Soltanəli QURBANOV,***
***ADPU-nun dosenti,***
***YAP ərazi təşkilatının sədri***

**Prezidentin verdiyi mesajlar göstərdi ki, Azərbaycan hakimiyyəti yaxın mərhələdə iqtisadi siyasətin mərkəzinə “insan amili”ni yerləşdirən yeni sosial inkişaf modelini daha açıq şəkildə formalaşdırmağa başlayır. Belə bir model regional balans, sosial sabitlik, milli təhlükəsizlik, urbanizasiya böhranı və insan kapitalının qorunması kimi çoxşaxəli strateji hədəfləri özündə birləşdirir. Qlobal siyasi sistem sürətlə dəyişir və bu dəyişikliklər fonunda insan kapitalı, sosial dayanıqlılıq, regionların yaşaya bilmə qabiliyyəti və daxili sosial harmoniya əsas geosiyasi amillər sırasına yüksəlir. Prezident İlham Əliyevin çıxışında məhz bu yeni beynəlxalq reallığın siyasi izləri aydın görünürdü.**

# Sosialyönümlü iqtisadiyyat strategiyası

## *Prezident İlham Əliyevin sədrliyi ilə keçirilən aqrar müşavirənin siyasi mahiyyəti*



Dövlət başçısının kənd təsərrüfatı məsələlərinə həsr olunmuş müşavirədə səsləndirdiyi fikirlər bir daha göstərdi ki, Azərbaycan hakimiyyətinin siyasi idarəetmə modeli uzunmüddətli strateji planlaşdırmaya əsaslanır. Çıxışda 2004-cü ildən etibarən həyata keçirilən regional inkişaf proqramlarının xüsusi vurğulanması əslində, dövlətin inkişaf siyasətinin ardıcıllığını nümayiş etdirən siyasi mesaj idi. Prezident göstərməyə çalışırdı ki, Azərbaycanın region siyasəti mərhələli şəkildə qurulmuş dövlət strategiyasıdır və bu strategiyanın mərkəzində insan amili dayanır. İlham Əliyevin idarəetmə modelində diqqət çəkən əsas məqamlardan biri də iqtisadi inkişafla sosial legitimliyi paralel şəkildə möhkəmləndirmək bacarığıdır. Çünki müasir dövrdə siyasi legitimlik yalnız seçki institutları və ya formal idarəetmə mexanizmləri ilə müəyyən olunmur. Dövlətin sosial sabitliyi qorumaq, regionlararası fərqləri azaltmaq və vətəndaşın gündəlik həyat keyfiyyətini yüksəltmək imkanları da hakimiyyətin dayanıqlılığını müəyyən edən əsas amillərdən birinə çevrilib. Prezidentin çıxışında regionların inkişafına xüsusi diqqət ayrılması da məhz bu siyasi məntiqdən qaynaqlanır.

Postmünaqişə mərhələsinə daxil olan Azərbaycan üçün regionlarla mərkəz arasında sosial və iqtisadi fərqlərin minimuma endirilməsi artıq milli təhlükəsizlik məsələsi kimi qiymətləndirilir. Çünki sosial disbalans uzunmüddətli perspektivdə daxili miqrasiya proseslərini sürətləndirir, urbanistik təzyiqləri artırır və nəticədə sosial narazılıq riskini yüksəldir. Prezident İlham Əliyevin “şəhərlərdən kəndlərə qayıdış” ideyasını ön plana çıxarması bu baxımdan xüsusi siyasi əhəmiyyət daşıyır.

Əslində, bu yanaşma klassik aqrar siyasətdən daha geniş məna kəsb edir. Burada hədəf regionların sosial yaşama qabiliyyətini qorumaq, insanları öz doğma yaşayış məkanlarında saxlamaq və ölkə daxilində balanslı demoqrafik struktur yaratmaqdır. Prezidentin kəndlə bağlı ritorikasında “torpağa bağlılıq”, “dədə-baba torpaqları”, “ənənəvi fəaliyyət” kimi anlayışların ön plana çıxması da göstərir ki, hakimiyyət kənd məsələsinə həm də sosial-mədəni identikliyin daşıyıcısı kimi baxır.

Azərbaycan hakimiyyəti kəndi milli identikliyin, sosial sabitliyin və demoqrafik davamlılığın əsas dayaqlarından biri kimi təqdim edir. Xüsusilə postmüharibə dövründə bu yanaşmanın əhəmiyyəti daha da artır. Çünki işğaldan azad olunmuş ərazilərin bərpası da məhz insan faktoruna əsaslanır – torpağa qayıdan insan, məskunlaşan ailə və yenidən formalaşan sosial həyat. Məhz bu baxımdan Prezidentin kənd təsərrüfatı ilə bağlı müşavirəsi, əslində, daha geniş “məskunlaşma və sosial dayanıqlılıq strategiyası”nın tərkib hissəsi kimi görünür.

Prezident İlham Əliyevin siyasi xarizmasının əsas xüsusiyyətlərindən biri dəyişiklikləri idarə olunan transformasiya modeli ilə həyata keçirməsidir. Çıxışda 2026–2030-cu illəri əhatə edən Dövlət Proqramının davamlılığı, həm özəl sektorun məsuliyyəti, həm də xarici investorların prosesə cəlbi paralel şəkildə vurğulandı. Deməli, hakimiyyət yaxın illərdə sosial siyasəti dövlət–biznes–cəmiyyət tərəfdaşlığı üzərində qurmağa çalışacaq.

Geosiyasi gərginliklər, ərzaq təhlükəsizliyi problemi, enerji transformasiyası və logistika böhranları dövlətləri daxili dayanıqlılığa daha çox diqqət ayırmağa məcbur edir. Azərbaycan hakimiyyətinin insan amilinə əsaslanan sosial siyasəti məhz bu beynəlxalq çağırışların fonunda formalaşır.

Son illər Azərbaycanda müşahidə olunan proseslər göstərir ki, hakimiyyət tədricən klassik infrastruktur dövlətindən sosial keyfiyyət dövlətinə keçid etməyə çalışır. Əvvəlki mərhələdə əsas prioritet yol, qaz, elektrik və kommunikasiya infrastrukturu idisə, yeni mərhələdə əsas diqqət insanın həyat keyfiyyətinə yönəlir. Prezidentin məktəblər, xəstəxanalar və xidmət sektoru ilə bağlı vurğuları bu baxımdan əhəmiyyətlidir. Çünki müasir dövrdə regionların inkişafı insanın yaşamaq istədiyi sosial mühitin formalaşdırılması ilə ölçülür. Bütün bu amillər Azərbaycan hakimiyyətinin yaxın gələcəkdə sosial siyasətdə üç əsas istiqamətə üstünlük verəcəyini təsdiq edir: regionlarda həyat keyfiyyətinin yüksəldilməsi, insan kapitalına investisiyanın artırılması və sosial balans və demoqrafik dayanıqlılığın qorunması.

Azərbaycanın postmünaqişə mərhələsinə daxil olması ölkənin siyasi idarəetmə fəlsəfəsində də yeni prioritetlərin formalaşmasına səbəb olur. Hazırkı mərhələdə hakimiyyət tədricən sosial legitimliyin yeni modelini qurmağa çalışır. Həmin modelin əsas ideoloji xətti “güclü dövlət – sosial rifah – insan kapitalı” balansı üzərində formalaşır. Prezident İlham Əliyevin son çıxışlarında insan amili, regionların inkişafı, məşğulluq, kəndlərin dirçəldilməsi və həyat keyfiyyəti məsələlərinin daha intensiv vurğulanması məhz bu transformasiyanın siyasi əlaməti kimi qiymətləndirilə bilər.

Müharibədən sonrakı dövrdə istənilən siyasi hakimiyyət üçün əsas məsələ qələbə psixologiyasını davamlı sosial sabitliyə çevirməkdir. Çünki hərbi uğur siyasi legitimliyi gücləndirsə də, uzunmüddətli dövrdə cəmiyyətin hakimiyyətə münasibətini müəyyən edən əsas faktor gündəlik sosial rifah, iqtisadi imkanlar və həyat keyfiyyətidir. Azərbaycan cəmiyyətində artıq gözləntilərin xarakteri dəyişir.

Müasir siyasi idarəetmədə dövlətin gücü vətəndaşa təqdim etdiyi sosial imkanlarla, insan kapitalına yatırdığı investisiya və regionlararası balansı qorumaq qabiliyyəti ilə ölçülür. Prezident İlham Əliyevin çıxışlarında tez-tez müşahidə olunan “insanı mərkəzə qoyan inkişaf modeli” ritorikası yeni idarəetmə fəlsəfəsinin göstəricisidir.

Xüsusilə regionların inkişafına verilən diqqət yaxın illərdə hakimiyyətin sosial siyasətində əsas istiqamətlərdən biri olacaq. Çünki urbanizasiya prosesinin sürətlənməsi siyasi və sosial risk faktorudur. Böyük şəhərlərdə əhalinin həddindən artıq cəmləşməsi sosial infrastruktur üzərində təzyiq yaradır, mənzil problemini dərinləşdirir, sosial təbəqələşməni artırır və nəticədə sosial narazılıq potensialını genişləndirir. Digər mühüm məsələ insan kapitalı anlayışının dövlət strategiyasında mərkəzi yer tutmağa başlamasıdır. Texnologiya, təhsil, peşə hazırlığı və sosial adaptasiya imkanları dövlətlərin strateji güc göstəricilərinə çevrilir. Azərbaycan hakimiyyətinin təhsil, səhiyyə, peşə hazırlığı və sosial infrastruktur layihələrinə artan diqqəti də bu kontekstdə dəyərləndirilə bilər.

Son olaraq qeyd edək ki, İlham Əliyevin sədrliyi ilə keçirilən kənd təsərrüfatı məsələlərinə həsr olunmuş müşavirə Azərbaycanın yaxın illərdə hansı sosial-siyasi model üzərində inkişaf edəcəyinə dair mühüm siyasi mesajların verildiyi platformaya çevrildi.

***Şəbnəm ZEYNALOVA,***
***XQ-nin siyasi analitiki,***
***siyasi elmlər üzrə fəlsəfə doktoru***

# Su torpağı cana gətirən həyat iksiridir

## *Aqrar inkişafın yeni mərhələsinin hədəfi kənddə məskunlaşma, ərzaq təhlükəsizliyi və regional yüksəlişdir*

**Azərbaycan Prezidenti İlham Əliyevin sədrliyi ilə mayın 25-də keçirilən kənd təsərrüfatı məsələlərinə həsr olunan müşavirə ölkənin aqrar siyasətində yeni mərhələnin başlanğıcı kimi diqqət çəkir. Ölkə başçısının müşavirədə səsləndirdiyi fikirlər göstərdi ki, dövlət artıq kənd təsərrüfatına ənənəvi iqtisadi sahə olmaqla bərabər, həm də milli təhlükəsizlik, ərzaq təminatı, regional inkişaf və sosial sabitliyin əsas sütunlarından biri kimi yanaşır. Xüsusilə son illərdə dünyada baş verən geosiyasi böhranlar, iqlim dəyişiklikləri, nəqliyyat zəncirlərinin qırılması və enerji bazarındakı qeyri-sabitlik fonunda aqrar sektorun strateji əhəmiyyəti bunu zəruri edir.**



Prezident İlham Əliyevin müşavirədə səsləndirdiyi əsas məqamlardan biri kənd təsərrüfatının inkişafında əldə edilmiş uğurların təsadüfi deyil, uzunmüddətli dövlət siyasətinin məntiqi nəticəsi olması ilə bağlı idi. Dövlət başçısı bununla bağlı hələ 2004-cü ildə qəbul edilmiş ilk regional inkişaf proqramı ilə respublikanın aqrar yüksəlişinin təməlinin qoyulduğunu xatırlatdı.

Eyni zamanda, həmin dövrdə regionlarda mövcud olan ağır infrastruktur problemləri – qazlaşdırmanın zəifliyi, elektrik enerjisinin çatışmazlığı, yolların yararsız vəziyyətdə olması, eləcə də içməli və suvarma suyu təminatındakı çətinliklərin kənd təsərrüfatının inkişafını, demək olar ki, məhdudlaşdırdığını diqqətə çatdırdı.

Sonrakı illərdə həyata keçirilən genişmiqyaslı proqramlar nəticəsində isə regionların siması bütünlüklə dəyişdi. Yeni avtomobil yolları çəkildi, kəndlər qazlaşdırıldı, enerji infrastrukturu yenidən quruldu, su təminatı layihələri reallaşdırıldı. Bütün bunların sayəsində kənd təsərrüfatının inkişafı üçün fundamental baza yaradıldı.

Əslində, aqrar inkişafın əsas şərtlərindən biri olan infrastruktur təminatı gerçəkləşdirilmədən məhsuldarlıqdan və rəqabət qabiliyyətindən danışmaq mümkün deyildi. Bu baxımdan müşavirədə xüsusi vurğulanan məsələlərdən biri də su təsərrüfatı infrastrukturunun inkişafının zəruriliyi oldu. Prezident İlham Əliyev Taxtakörpü, Şəmkirçay, Göytəpə və digər su anbarlarının tikintisinin kənd təsərrüfatının sürətli inkişafında mühüm rol oynadığını qeyd etdi.

Həqiqətən, son illər ölkədə həyata keçirilən su layihələri texniki infrastruktur xarakteri daşımaqla yanaşı, həm də strateji iqtisadi investisiya önəmi ilə diqqətdə saxlanılıb. Çünki Azərbaycan su ehtiyatları baxımından zəngin ölkələr sırasında deyil və mövcud resurslardan səmərəli istifadə məsələsi artıq milli prioritetə çevrilib.

Müşavirədə diqqətçəkən əsas məqamlardan biri dövlət başçısının kənd təsərrüfatı istehsalının mövcud dinamika səviyyəsindən narazılığını açıq şəkildə ifadə etməsi oldu. Bu yanaşma qazanılan müsbət nəticələrə baxmayaraq, dövlətin daha yüksək məhsuldarlıq və daha dayanıqlı aqrar model formalaşdırmaq niyyətində olduğunu göstərdi. Ölkə rəhbəri məhz bu məqsədlə konkret, qısamüddətli və nəticəyönümlü yeni Dövlət Proqramının hazırlandığını diqqətə çatdırdı.

Ekspertlər aqrar siyasətdə müasir mərhələnin artıq müəyyənləşdirilən əsas prioritetlərindən bəhs edərkən bildirirlər ki, əgər əvvəlki dövrdə əsas diqqət infrastrukturun qurulmasına yönəldilmişdisə, indiki şəraitdə isə bu istiqamət səmərəliliyin artırılması, məhsuldarlığın yüksəldilməsi və müasir texnologiyaların tətbiqidir. Belə bir yanaşma isə kənd təsərrüfatının ekstensiv inkişaf modelindən intensiv və innovativ modelə keçidinin zəruriliyindən xəbər verir.

Dünyada baş verən proseslər də bu keçidi zəruri edir. Prezident İlham Əliyevin qeyd etdiyi kimi, müharibələr, qlobal logistika problemləri, enerji böhranı və iqlim dəyişiklikləri artıq ənənəvi ərzaq istehsalçılarını ciddi çətinliklərlə üz-üzə qoyur. Son illərdə dünyada taxıl, bitki yağları və digər strateji məhsulların qiymətində baş verən dalğalanmalar da ərzaq təhlükəsizliyinin artıq hər bir dövlət üçün milli təhlükəsizlik məsələsinə çevrildiyini göstər.

Azərbaycan da bu reallığı nəzərə alaraq daxili istehsal imkanlarını artırmağa xüsusi diqqət yetirir. Məhz buna görə, kənd təsərrüfatının inkişafı təkcə iqtisadi məsələ deyil, həm də strateji dövlət siyasətidir. Xüsusilə su ehtiyatlarının idarə olunması burada həlledici rol oynayır. Bu baxımdan dövlət başçısının iqlim dəyişikliklərinə xüsusi diqqət ayırması da təsadüfi deyil. Çünki son illərdə respublikada müşahidə olunan qeyri-adi hava hadisələri, intensiv yağıntılar, temperatur dəyişiklikləri və quraqlıqla bağlı narahatlıqlar aqrar sektora birbaşa təsir göstərir.

Müşavirədə Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarının su potensialı ilə bağlı səsləndirilən fikirlər də xüsusi əhəmiyyət daşıyır. Prezident İlham Əliyev qeyd etdi ki, Azərbaycanın su ehtiyatlarının, təxminən, 25 faizi məhz bu bölgələrdə formalaşır. İşğal dövründə həmin resurslardan istifadə imkanlarının məhdudlaşdırılması ilə bağlı Azərbaycanın kənd təsərrüfatına ciddi zərbə vurulması bu gün də yaxşı xatırlanır. Hazırda isə azad edilmiş ərazilərdə həyata keçirilən su layihələri həm regionun dirçəldilməsi, həm də, ümumilikdə, ölkənin ərzaq təhlükəsizliyi baxımından böyük strateji əhəmiyyət daşıyır.

Suqovuşan, Sərsəng, Xaçınçay, Zabuxçay və Köndələnçay su anbarlarının yenidən qurulması, Bərgüşad və Həkəri su anbarlarının tikintisi Qarabağ və Şərqi Zəngəzurun aqrar potensialının reallaşdırılmasına xidmət edir. Eyni zamanda, bu layihələr həmin bölgələrlə yanaşı, digər rayonların da su ilə təminatına mühüm təsir göstərmək gücünə malikdir. Xüsusilə 8 rayona, eləcə də təxminən, 100 min hektar torpaq sahəsinə su verilməsi planı kənd təsərrüfatı istehsalının genişlənməsi baxımından mühüm perspektivlər açır.

Dövlət başçısının qeyd etdiyi kimi, strateji layihələr sırasında yer alan Şirvan və Qarabağ kanalları yenidən qurularaq tam istifadəyə veriləndən sonra yüz minlərlə hektar torpaq sahəsinin su ilə təmin olunacağı gözlənilir. Lakin burada əsas məsələ təkcə suyun gətirilməsi deyil, həm də onun səmərəli istifadəsidir. Məhz buna görə də müasir suvarma sistemlərinin tətbiqi yeni dövlət proqramının əsas istiqamətlərindən biri olacaq.

Hazırda Azərbaycanda müasir suvarma sistemləri, təxminən, 130 min hektar ərazidə tətbiq edilir. Məqsəd isə bu göstəricini damcı və pilot suvarma texnologiyalarının daha geniş tətbiqi ilə 300 min hektara çatdırmaqdır. Müasir suvarma sistemləri həm su itkilərini minimuma endirir, həm torpağın şoranlaşmasının qarşısını alır, həm də məhsuldarlığı ciddi şəkildə artırır.

Azərbaycan Dövlət Su Ehtiyatları Agentliyinin sədri Zaur Mikayılovun müşavirədə səsləndirdiyi rəqəmlər də görülən işlərin miqyasını aydın şəkildə canlandırır. Təkcə 2025-ci ildə 1 milyon 485 min hektar sahənin suvarma suyu ilə təmin edilməsi, milyonlarla kubmetr həcmində təmizləmə işlərinin aparılması, minlərlə hidrotexniki qurğunun təmiri dövlətin bu sahəyə nə qədər böyük resurs ayırdığını nümayiş etdirir.

Bununla yanaşı, müşavirədə vurğulanan ən vacib məsələlərdən biri də mövcud su ehtiyatlarına uyğun əkin strukturunun formalaşdırılmasıdır. Ekspertlərin fikrincə, bu, son dərəcə aktual və strateji yanaşmadır. Çünki iqlim dəyişiklikləri fonunda su ehtiyatlarının azalması bəzi ənənəvi əkin modellərinin yenidən nəzərdən keçirilməsini zəruri edir. Gələcəkdə hansı bölgədə hansı məhsulun yetişdirilməsinin daha məqsədəuyğun olması isə torpaq amili ilə yanaşı, həm də su balansının müəyyənləşdirilməsi ilə bağlıdır.

Bu baxımdan pambıqçılıq, taxılçılıq, intensiv bağçılıq və istixana təsərrüfatlarının inkişafı ilə əlaqədar nəzərdə tutulan yeni hədəflər də diqqət çəkir. Pambıq əkini sahələrinin optimallaşdırılması fonunda məhsuldarlığın artırılması, intensiv bağların genişləndirilməsi və istixana təsərrüfatlarının böyüdülməsi daha səmərəli aqrar modelin formalaşdırıldığını göstərir.

Bu gün Azərbaycan postneft dövrünün iqtisadi modelini formalaşdırır. Bu modeldə kənd təsərrüfatı xüsusi yer tutur. Çünki aqrar sektor həm məşğulluğun təmin edilməsində, həm regionların sosial inkişafında, həm də ixrac potensialının artırılmasında mühüm rol oynayır. Eyni zamanda, kənd təsərrüfatı sosial sabitliyin və kənd yerlərində yaşayışın qorunmasının əsas təminatçılarından biridir.

Prezident İlham Əliyevin sədrliyi ilə keçirilən müşavirə göstərdi ki, dövlət aqrar sahənin problemlərini real şəkildə qiymətləndirir və yeni çağırışlara uyğun çevik siyasət həyata keçirir. Bu mərhələnin əsas məqsədi isə təkcə daha çox məhsul istehsal etmək deyil, daha dayanıqlı, daha rəqabətqabiliyyətli və müasir aqrar sistem qurmaqdan ibarətdir. Mövcud qlobal çağırışlar fonunda isə bu, Azərbaycanın iqtisadi təhlükəsizliyi və milli inkişaf strategiyası baxımından həyati əhəmiyyət daşıyır.

***Vaqif BAYRAMOV***
***XQ***

### *Ekspert rəyi*

**Əbdülrəhim DADAŞOV,**
**İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzinin monitorinq və qiymətləndirmə şöbəsinin müdir müavini**

Prezident İlham Əliyevin sədrliyi ilə kənd təsərrüfatı məsələlərinə həsr olunan müşavirənin keçirilməsi aqrar sektorun ölkənin sosial-iqtisadi inkişaf gündəliyində strateji mövqeyini bir daha göstərir. Müşavirədə dövlət başçısı kənd təsərrüfatının inkişafına dair hazırlanan yeni Dövlət Proqramını hərtərəfli, konkret, qısamüddətli və həm dövlət, həm də özəl sektor investisiyalarını əhatə edən sənəd kimi yüksək dəyərləndirərək bildirib ki, belə bir yanaşma sözügedən sahədə növbəti mərhələnin daha çox məhsuldarlıq, səmərəlilik, özünütəminetmə və investisiya fəallığı üzərində qurulacağını göstərir.

Toplantıda aqrar sektorda “keyfiyyət və məhsuldarlıq artımı” mərhələsinə keçidin zəruriliyi əsas mesajlardan biri kimi daha çox diqqət çəkib. Çünki son 20 ildə regionlarda reallaşdırılan infrastruktur layihələri kənd təsərrüfatı üçün mühüm baza formalaşdırıb. Qazlaşma, elektrik təchizatı, avtomobil yolları, su anbarları və kanalların inşası kənd yerlərində iqtisadi fəaliyyətin genişlənməsinə, fermerlərin istehsal imkanlarının artmasına və bölgələrdə məşğulluğun dəstəklənməsinə əlverişli şərait yaradıb.

2025-ci ildə kənd təsərrüfatının ümumi məhsulunun faktiki qiymətlərlə dəyəri 14 milyard 189,5 milyon manat təşkil edib. Bunun 6 milyard 748,5 milyon manatı bitkiçilik, 7 milyard 441 milyon manatı isə heyvandarlıq məhsullarının payına düşüb. 2025-ci ildə əvvəlki illə müqayisədə kənd təsərrüfatı istehsalı 0,9 faiz artıb. Kənd təsərrüfatı məhsulunun strukturunda bitkiçiliyin payı 47,6 faiz, heyvandarlığın payı isə 52,4 faiz təşkil edib.

Aqrar sektorun makroiqtisadi və sosial əhəmiyyəti onun ÜDM və məşğulluqdakı payında da müşahidə edilib. 2025-ci ildə kənd və meşə təsərrüfatlarında, eləcə də balıqçılıqda yaradılan əlavə dəyərin ölkənin ümumi daxili məhsulunda payı 5,9 faiz olub. Eyni zamanda, Azərbaycan əhalisinin 45,6 faizinin kənd yerlərində yaşaması, kənd və meşə təsərrüfatlarının, eyni zamanda, balıqçılığın ümumi məşğulluqda payının 35 faizə çatması aqrar sektorun regionların inkişafı və sosial rifah baxımından xüsusi çəkisini yüksəldib.

Müşavirədə qeyd edilib ki, ölkənin pambıqçılıq, meyvəçilik, tərəvəzçilik, fındıqçılıq, üzümçülük, heyvandarlıq və balıqçılıq kimi sahələrində emal güclərinin artırılması qeyri-neft ixracının genişləndirilməsi üçün mühüm istiqamətlərdən biridir. Bu yanaşma, eyni zamanda, aqrar siyasətdə intensiv artıma keçidin əsas göstəricisidir.

Əgər əvvəlki mərhələlərdə əsas məsələ əkin sahələrinin genişləndirilməsi və istehsalın bərpası idisə, indiki şəraitdə əsas prioritet eyni torpaq, su və əmək resursları ilə daha çox məhsul əldə etməkdir. Bu isə dəqiq əkinçilik, torpaq analizləri, peyk məlumatları, süni intellekt, müasir suvarma sistemləri, keyfiyyətli toxum və gübrə təminatı kimi amillərin daha çox diqqətdə saxlanılmasını tələb edir.

# Leyla Əliyeva və Arzu Əliyeva Lənkəranda

## Uşaq evində görüş

**Heydər Əliyev Fondunun vitse-prezidenti, IDEA İctimai Birliyinin təsisçisi və rəhbəri Leyla Əliyeva və Bakı Media Mərkəzinin rəhbəri Arzu Əliyeva Lənkəran şəhərində Osman Mirzəyev adına 5 saylı Uşaq evi sosial xidmət müəssisəsini ziyarət ediblər.**



Onlar müəssisədə tərbiyə alan uşaqlarla görüşüb, səmimi söhbət edib və gündəlik məşğuliyyətləri ilə maraqlanıblar. Görüş çərçivəsində uşaqlarla birlikdə dulusçuluq nümunələri hazırlanıb. Onlar uşaqların yaradıcılıq prosesini izləyib, onlarla xoş vaxt keçirib və hədiyyələr təqdim ediblər.

Daha sonra uşaqlar üçün animasiya filmləri nümayiş olunub. Leyla Əliyeva və Arzu Əliyeva uşaqlarla birlikdə filmləri izləyiblər.

"Azərbaycan Animasiya Assosiasiyası" İctimai Birliyinin təşkilatçılığı ilə keçirilən tədbirdə uşaqlara "İsi və Piti" animasiya serialının bölümləri, eləcə də müxtəlif maarifləndirici və əyləncəli animasiya filmləri təqdim olunub. Nümayiş olunan filmlər uşaqlar tərəfindən maraqla qarşılanıb.

Tədbir uşaqların asudə vaxtının səmərəli təşkili, onların yaradıcılıq qabiliyyətlərinin inkişafı və milli animasiya filmlərinə marağın artırılması baxımından mühüm əhəmiyyət daşıyır.

*XQ*




## Şəhid ailəsini ziyarət



**Heydər Əliyev Fondunun vitse-prezidenti, IDEA İctimai Birliyinin təsisçisi və rəhbəri Leyla Əliyeva və Bakı Media Mərkəzinin rəhbəri Arzu Əliyeva Lənkərana səfəri zamanı şəhid Ülfət Babazadənin ailəsini ziyarət ediblər.**

Onlar Vətən müharibəsi şəhidi Ülfət Babazadənin xatirəsini ehtiramla yad edib, qəhrəmanımızın həyatı, döyüş yolu, eləcə də ailənin qayğı və ehtiyacları ilə maraqlanıblar.

Qeyd edək ki, Ülfət Qabil oğlu Babazadə Lənkəran rayonunun Daştatük kəndində anadan olub. O, Vətən müharibəsi zamanı Xüsusi Təyinatlı Qüvvələrin sıralarında torpaqlarımızın işğaldan azad olunması uğrunda gedən döyüşlərdə iştirak edib. Ülfət Babazadə Xocavənd, Kəlbəcər və Şuşa istiqamətlərində aparılan döyüşlərdə igidlik göstərib. 2020-ci il noyabrın 8-də Şuşa döyüşləri zamanı şəhidlik zirvəsinə ucalıb.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin sərəncamlarına əsasən "Azərbaycan Bayrağı" ordeni və "Vətən uğrunda", "Cəsur döyüşçü", "Şuşanın azad olunmasına görə", "Xocavəndin azad olunmasına görə", "Kəlbəcərin azad olunmasına görə" medalları ilə təltif edilib.

## "Yaşıl çay" fermer təsərrüfatında

**Heydər Əliyev Fondunun vitse-prezidenti, IDEA İctimai Birliyinin təsisçisi və rəhbəri Leyla Əliyevanın Lənkərana səfəri çərçivəsində İstisu qəsəbəsində yerləşən "Yaşıl çay" fermer təsərrüfatında olub.**



Leyla Əliyeva təsərrüfatın fəaliyyəti, burada yetişdirilən çay sortları və istehsal olunan məhsullarla yaxından tanış olub. Bildirilib ki, təsərrüfat Lənkəranın ənənəvi çayçılıq mədəniyyətinin yaşadılması, yerli istehsalın inkişafı və ekoloji kənd təsərrüfatının təşviqi baxımından mühüm əhəmiyyət daşıyır.

Çay plantasiyasında çalışan işçilərlə birlikdə çay yığımında iştirak edən Leyla Əliyeva onlarla səmimi söhbət edib, gündəlik iş prosesi və təsərrüfatdakı fəaliyyətləri ilə maraqlanıb. Görüş zamanı xatirə şəkilləri çəkdirilib.

Fermer təsərrüfatının sahibi Araz Yağubov bildirib ki, 2006-cı ildə yaradılmış təsərrüfat 100 hektardan çox ümumi torpaq sahəsini əhatə edir. Bunun 55 hektarında çay plantasiyası salınıb. Ekoloji kənd təsərrüfatının ətraf mühitin qorunmasına, yerli istehsalın inkişafına və regionda məşğulluğun artırılmasına töhfə verdiyi vurğulanıb, təsərrüfatın aqroturizm məkanı kimi potensialı xüsusi qeyd olunub.

*XQ*



## Yerli sənətkarın yaradıcılığı ilə tanışlıq



**Heydər Əliyev Fondunun vitse-prezidenti, IDEA İctimai Birliyinin təsisçisi və rəhbəri Leyla Əliyeva və Bakı Media Mərkəzinin rəhbəri Arzu Əliyeva Lənkəran şəhərində dekorativ-tətbiqi sənət ustası Samir Həbibovun yaradıcılıq fəaliyyəti ilə tanış olublar.**

Onlar sənətkarın evində yerləşən emalatxanasında olub, onun hazırladığı dekorativ əl işlərinə baxıblar.

Görüş zamanı Samir Həbibov bədii oyma sənətinin incəlikləri, istifadə etdiyi materiallar və hazırladığı dekorativ nümunələr barədə məlumat verib. Leyla Əliyeva və Arzu Əliyeva oyma prosesi ilə tanış olub, sənətkarla birlikdə əl işləri hazırlayıblar.

Qeyd edək ki, Samir Həbibov bu qədim sənətin incəliklərini hələ uşaq yaşlarından atasından öyrənib. O, əsasən müxtəlif növ ağac materiallarından milli ornamentlərlə bəzədilmiş suvenirlər, dekorativ əşyalar və məişət üçün nəzərdə tutulan əl işləri hazırlayır. Sənətkarın hazırladığı suvenirlər Ailə Biznesinə Asan Dəstək Mərkəzinin satış şəbəkəsi vasitəsilə istehlakçılara təqdim olunur.

*XQ*



## Maqsud İbrahimbəyov Yaradıcılıq Mərkəzində ustad dərsi

**Maqsud İbrahimbəyov Yaradıcılıq Mərkəzində bəstəkar və pianoçu Sevda Rəhimovanın iştirakı ilə uşaqlar üçün ustad dərsi keçirilib. Xeyriyyə konsertini "Qüsursuz nitq" Nitq və Psixologiya İnkişafı Mərkəzi təşkil edib. Tədbirdə Alona Əliyeva iştirak edib.**



Ustad dərsi çərçivəsində gənc iştirakçılar valehedici musiqi, səs və ritm dünyası ilə tanış olublar, müxtəlif musiqi alətlərinin xüsusiyyətləri haqqında məlumat əldə ediblər və yaradıcı və interaktiv məşğələlərə qatılıblar.

"Ümidlə gəl" xeyriyyə layihəsinin rəhbəri Hacı Quliyev deyib ki, Heydər Əliyev Fondu, xüsusən də Leyla Əliyevanın sağlamlıq imkanları məhdud uşaqlara dəstək göstərilməsi həmişə xüsusi əhəmiyyət kəsb edir. O, göstərdiyi daimi diqqət və qayğıya görə Leyla Əliyevaya minnətdarlığını bildirib.



Sevda Rəhimovanın rəhbərliyi ilə keçirilən məşğələdə uşaqlar yeni biliklərin əldə edilməsi ilə yanaşı, həm də yaradıcı və ilhamverici bir atmosferdə vaxt keçirdilər. Proqramda Rəşid Behbudov adına 2 nömrəli Bakı Musiqi Məktəbinin şagirdlərinin ifasında musiqi nömrələri də səsləndirilib.

*XQ*

*28 May Müstəqillik Günüdür*

# Onlar istiqlalçılar nəslinin varisləridirlər

**28 May 1918-ci ildə bütün Şərq dünyasının ilk demokratik cümhuriyyətini bizim babalarımızın yaratması çoxəsrlik tariximizin yeni və çox şərəfli səhifəsi oldu. Bu öyünclü tarixin 108-ci il dönümündə müsahiblərimiz AXC liderlərinin və onların silahdaşlarının varisləridir.**



***Məhəmməd Əmin Rəsulzadə "Bir kərə yüksələn bayraq bir daha enməz!" nidası ilə istiqlal ruhunu yaddaşlara həkk edən dahi şəxsiyyətdir.***

**Rais RƏSULZADƏ,**
**Məhəmməd Əmin Rəsulzadənin nəvəsi,**
**Əməkdar rəssam:**



– 1946-cı il noyabrın 1-də doğma yurddan uzaqda – Qazaxıstanın Taldı-Kurqan bölgəsində, sürgün günlərində dünyaya göz açmışam. Hələ 3 yaşım olanda anam Şölə xanımı itirdim. Sonradan anamın məzarını nə qədər axtarsam da, tapa bilmədim. Həyatı, ətrafımı dərk etməyə başladığım ilk andan sovet rejiminin Rəsulzadə soyadına, ailəmizə rəva gördüyü amansız əzabları, bitmək bilməyən təqibləri hər addımda hiss edərək böyüdüm.

Orta məktəb illərində mühitin bütün qorxularına rəğmən, çox vacib bir qərar verdim: nəyin bahasına olursa-olsun, Vətənə dönəcəyəm. Dövlət məmuru olmaq istəmirdim, amma çox gözəl anlayırdım ki, həmişə Azərbaycanın milli maraqlarını düşünməli, bu məqsədlə yaşamalıyam.

Məhəmməd Əmin Rəsulzadə 1949-cu ildə Milli Kültür Dərnəyi yaratmışdı. Həmin dərnəyin rəhbərləri Azərbaycana gəlib-gedirdilər. Mən Ankaraya getməyə can atırdım, amma imkanım yox idi. Elə oldu ki, bizi Rəssamlar İttifaqından İstanbula ezamiyyətə göndərdilər. Oraya getdiyim günün axşamı Ankaraya yollandım. Həmin dərnəyi tapdım, nümayəndələri ilə tanış oldum. Məni Rəsulzadənin dəfn olunduğu məzarlığa apardılar, babamın məzarı üstündə gözlərimdən yaş töküldü. Onunla xeyli söhbətləşdim. Qəlbimlə, göz yaşlarımla danışdım. Ona anamın qürbətdə itən məzarından, atamın çəkdiyi iztirablardan, sovet rejiminin bizə verdiyi əzablı günlərdən bəhs etdim. Dedim ki, baba, sən o uca bayrağı qaldıranda mən hələ bu dünyaya gəlməmişdim, amma o bayrağın kölgəsi bizi həmişə qoruyub.

***Görkəmli yazıçı, ədəbiyyatşünas və diplomat Yusif Vəzir Çəmənzəminli son nəfəsinə qədər xalqına sədaqətlə xidmət etməyə çalışmış, əqidəsindən bir an belə dönməmişdir.***

**Leyla VƏZİROVA,**
**Yusif Vəzir Çəmənzəminlinin nəvəsi, professsor,**
**filologiya elmləri doktoru:**

– Yusif Vəzirin təxəllüsünün maraqlı tarixçəsi var. 1906-cı ildə Yusif Vəzirin atası Məşədi Mirbaba müəllim qəfildən vəfat edir. Bu ağır itkinin ardınca gənc Yusif amansız xəstəliyə düçar olur. Xəstəlik elə uzun çəkir, bədəni elə zəifləyir ki, artıq doğmaları onun yenidən ayağa qalxacağına, sağalacağına ümidlərini tamamilə üzürlər. Anası Seyid Əziz xanım gənc oğlunu ölümün pəncəsindən qurtarmaq üçün əlindən gələni edir, gecəni gündüzə qatıb çalışır. Lakin o çətin günlərdə qohum-əqrəba da bu ağır dərdli ocağa yaxın düşmürlər. Ailə böyük dərdi ilə tək-tənha, çarəsiz mübarizə aparırdı.

Çox keçmədən iş axtarmaq məqsədilə Cənubi Azərbaycandan Şuşaya üz tutan 3 qardaş onların ocağına pənah gətirir və ailənin ikimərtəbəli, geniş həyətli mülkünün alt mərtəbəsində onlar üçün yer ayrılır. Bu qərib qardaşlar ev sahiblərinin dərdinə şərik olub, canla-başla gənc Yusifin qulluğunda dururlar. Ümidsiz xəstəni ayağa qaldırmaq üçün böyük fədakarlıq göstərir, ona dayaq olurlar. Qardaşların son dərəcə səmimiyyəti və təmənnasız köməyi sayəsində gənc Yusif möcüzəvi şəkildə ölümün pəncəsindən qurtulur.

Həmin vaxt fitri istedadını hiss etməyə başlayan gənc Yusif bu qərib insanların təmənnasız yaxşılığı müqabilində qəlbində böyük minnətdarlıq hissi, vəfa andı yaşadır, öz-özünə söz verir ki, "əgər gələcəkdə məşhur insan, tanınmış yazıçı olsam, məni həyata qaytaran bu insanların İrandakı doğma kəndlərinin adını özümə təxəllüs götürəcəyəm". O qardaşlar isə İranın "Çəmənzəmin" kəndindən gəlmişdilər. Yusif Vəzir sonralar bütün ömrü boyu daşıyacağı və tarixə həkk edəcəyi "Çəmənzəminli" təxəllüsünü məhz dar gündə ona əl tutan qərib insanlara olan sonsuz minnətdarlığının və vəfadarlığının rəmzi olaraq seçmişdi.



Atam da, əmim də körpə ikən atalarını itirdiklərindən ürəklərindəki bu həsrət heç vaxt sönməmişdi. Yaşa dolub, saç-saqqalı ağarsa da, atalarını xatırlayanda uşaq kimi kövrələr, dərin fikrə dalardılar. Rəhmətlik nənəm, onun ömür-gün yoldaşı danışardı ki, bir də görərdin gecənin bir aləmində yuxudan oyanıb masanın arxasına keçdi. Bəzən də nənəmə deyərmiş ki, "yaxşı olar uşaqları götürüb bir neçə günlük anangilə gedəsən, mən bir az tam sakitlikdə qalıb yazı yazmalıyam".

Böyük yazıçının əsərlərini sovet senzurasının ən sərt dövrlərində qoruyub saxlamaqda babamın qayınanası Kiçikxanım Acalovanın misilsiz rolu olub. O qanlı-qadalı illərdə çox böyük cəsarət göstərərək Yusif Vəzirin əlyazmalarını gizlətmişdi. Bu gün Azərbaycan Respublikası Nazirlər Kabinetinin 7 may 2019-cu il tarixli 211 nömrəli Qərarı ilə Yusif Vəzir Çəmənzəminli Azərbaycan Respublikasında əsərləri dövlət varidatı elan edilən müəlliflərin siyahısına daxil edilib.

Həyatda tək qayəm o uca adı qorumaq və onun təmizliyinə, şərəfinə əsla xələl gətirməməkdir.

**Bolşevik zülmü Səməd bəy Mehmandarovun Azərbaycan sevgisini zərrə qədər də sarsıda bilməyib.**

**Mustafa MEHMANDAROV,**
**Mehmandarovlar nəslinin davamçısı, Üzeyir Hacıbəyov adına Azərbaycan Dövlət Simfonik Orkestrinin dirijoru:**

– Atamın anası, əziz nənəm Leyla xanım Mehmandarova xeyriyyəçi Hacı Zeynalabdin Tağıyevin ilk nikahından olan oğlu Ağa Sadıq bəyin nəvəsi, Zeynal bəyin qızı idi. Qürurla deyə bilərəm ki, kökü tarixin dərinliklərinə gedən bu böyük nəsildə yeganə peşəkar musiqiçi mən olmuşam.

Nəsil şəcərəmizin necə sınaqlardan keçdiyini göstərən elə maraqlı, elə heyrətamiz hadisələr var ki... XX əsrin əvvəllərində Rəşid bəy Mehmandarov Dövlət Bankının direktoru vəzifəsində çalışırdı. 1918-ci ilin qanlı-qadalı Mart hadisələri baş verəndə onlar Hacı Zeynalabdinin mülkündə – indiki Milli Tarix Muzeyinin binasında yaşayırdılar. Ailəmizin böyükləri balkondan öz gözləri ilə görüblər ki, Rəşid bəy üzərində rusca "Bank" yazılmış qapının ağzında təkbaşına dayanıb, ermənilər içəri girib dövlət xəzinəsini yarmasınlar deyə onlara qarşı son gülləsinə qədər vuruşmuşdu.

Bu nəslin böyükləri həm də milli dövlətçiliyimizin memarları olublar. Səməd bəy Mehmandarov dahi sərkərdə Əliağa Şıxlinski ilə bərabər Azərbaycanın Milli Ordusunu yaradan, ölkəni qoruyan dövlət xadimlərindən idilər. 1920-ci ilin aprel çevrilişindən sonra evdəkilər ölkədən qaçıb canını qurtarmağa hazırlaşanda Səməd bəy Biləcəri stansiyasında qatarı gözləməkdən imtina edərək, "Mən bu məqamda millətimi qoyub hara gedəcəyəm? Vətənim haradırsa, taleyim də oradadır!" deyib geri dönmüşdü. Çox keçmədən həm Əliağanı, həm də Səməd bəyi bolşeviklər həbs etdilər. Onları Moskvanın dəhşətli Butırka həbsxanasına apardılar, min bir əzab-əziyyət verdilər. Sonradan Nəriman Nərimanov onları xilas etdi.



Səməd bəy Mehmandarov dünyasını dəyişəndə bir çoxları onun güllələndiyini zənn edirdi, amma o, öz əcəli ilə rəhmətə getmiş, indiki Fəxri Xiyabanda dəfn olunmuşdu. Sonradan oranı xiyabana çevirəndə qəbirlərin köçürülməsi məsələsi ortaya çıxdı. Lakin həmin dövrdə bizim bütün nəsil sovet hökuməti tərəfindən "vətən xaini" elan olunduğu üçün kəşfiyyatçılar qəbrin başında pusqu qurmuşdular ki, Mehmandarovlardan kim gəlib qəbri köçürmək istəsə, onu dərhal həbs etsinlər. Qohumlar da can qorxusundan, həbs olunmaq vahiməsindən qəbrin ardınca gedə bilmədilər. Beləcə, dahi sərkərdənin məzarı itib getdi.

Səməd bəyin çar dövründə II Nikolayın şəxsən ona bağışladığı, qızıldan düzəldilmiş, üstü brilyant qaşlarla bəzədilmiş məşhur xəncəri, saysız-hesabsız mükafatları və ən əsası zəngin, nadir elmi kitabxanası var idi. Çox təəssüf ki, bolşevik ordusu hər şeyi talayıb apardı. Bu qorxu, bu damğa bizim ailənin üzərindən düz 1953-cü ilə – Stalinin ölümünə qədər əskik olmadı. Hətta , vaxtilə ailəmizi şəxsi mülklərindən, evlərindən vəhşicəsinə qovmuşdular.

Mən hər addımımda, hər hərəkətimdə çalışıram ki, əsla bir səhvə yol verməyim, babalarımın adına xələl gəlməsin.

***Fidan ƏLİYEVA***
***XQ***

*Səməd Vurğun – 120*

**Xalq şairi Süleyman Rüstəm özündən sonrakı nəslin istedadlı şair-ədəbiyyatşünası Bəxtiyar Vahabzadənin poetik portretini belə yaratmışdı: "Qatlayıb dizinin altına qoyar – Alim Bəxtiyarı şair Bəxtiyar".**

# Milli poeziyamızın qoşa zirvəsi

## *Xalq şairi, akademik Səməd Vurğunun irsi Xalq şairi, akademik Bəxtiyar Vahabzadənin yaradıcılığında*





Doğrudan da, Bəxtiyar Vahabzadə şair kimi daha üstün mərtəbəyə yüksəlib – Xalq şairi adı qazanıb, istiqlal nəğməkarı kimi tanınıb. Lakin onun alimlik dərəcəsi də şairliyindən geri qalmayıb.

Filologiya elmləri doktoru, professor və akademik Bəxtiyar Vahabzadə şifahi və yazılı ədəbiyyatımız, milli kimlik və soykökümüz, dilimiz, görkəmli ədəbiyyat xadimlərimiz haqqında davamlı elmi araşdırmalar aparmış, maraqlı fikirlər söyləmişdir. Onun elmi araşdırmaları "Səməd Vurğun" (1968), "Sənətkar və zaman" (1976), "Sadəlikdə böyüklük" (1978),"Vətən ocağının istisi" (1982), "Şənbə gecəsinə gedən yol" (1991) və 2005-2007-ci illərdə nəşr olunmuş 12 cildlik əsərlərində işıq üzü görmüşdür.

1947-ci ildə Azərbaycan Dövlət Universitetinin ədəbiyyat fakültəsini bitirdikdən sonra aspiranturaya daxil olan Bəxtiyar Vahabzadə (1925-2008) 1951-ci ildə filologiya elmləri namizədi olmuş və 1964-cü ildə "Səməd Vurğunun həyat və yaradıcılığı" haqqında doktorluq dissertasiyası müdafiə edərək, filologiya elmləri doktoru, professor, sonralar Azərbaycan Elmlər Akademiyasının akademiki səviyyəsinə yüksəlmişdir.

Bəxtiyar Vahabzadənin "Səməd Vurğun" adlı monoqrafiyası ciddi elmi araşdırmalar üçün zəngin material vermişdir. Bu qiymətli monoqrafiyada B.Vahabzadə "Səməd Vurğun yaradıcılığı küll haqqında dünya görmüş, sinəsi xəzinə, ağsaqqal bir qocaya bənzəyir. Bu qocanın sinəsində xalqın nağıl və dastanları, atalar sözləri və məsəlləri, muğamı, aşıq mahnıları, üzərində iztirablı günlərin kədəri, xoşbəxt günlərin sevinci, fərəhi naxış bağlamışdır. Bu qoca ağsaçlı Azərbaycan xalqının simvoludur" – deməklə şairin yaradıcılığındakı xəlqiliyi ifadə etmişdir.

Sovet hökumətinin sərt qadağaları illərində Səməd Vurğun yaradıcılığı ilə bağlı xəlqi və milli ifadələri dilə gətirmək böyük cəsarət tələb edirdi. Bəxtiyar Vahabzadənin "Səməd Vurğunun həyat və yaradıcılığı" mövzusunda yazdığı dissertasiyanın müdafiə zamanı nə qədər mübahisələrə səbəb olduğunun şahidlərindən biri də bu məqalənin müəllifidir.

Bəxtiyar Vahabzadə 1965-ci ildə 39 yaşında Bakı Dövlət Universitetinin böyük akt salonunda doktorluq dissertasiyası müdafiə edirdi. Mövzusu "Səməd Vurğunun yaradıcılıq yolu" idi. Zalda elmi şuranın üzvləri və şura üzvü olmayanlar var idi. B.Vahabzadə hələ 20 yaşında belə bir şeir yazmışdı: "Sarılığın xisləti". Şeirdəki sarılıq sözü birbaşa ruslara ünvanlanmışdı. Şeiri o zaman Səməd Vurğuna təqdim edən Bəxtiyar müəllim şairdən müsbət cavab ala bilmədiyi üçün bədxahlar bunu mövzu edib Bəxtiyar Vahabzadənin müdafiəsinə mane olmaq, buna siyasi don geydirmək istəyirdilər. Çünki dissertasiyada bu şeirdən söhbət açılmırdı.

Bəxtiyar Vahabzadə elmi-tədqiqat əsərində böyük Səməd Vurğunun yalnız şeirlərində deyil, tarixi mövzuda olan əsərlərində də müasir məsələləri qələmə alaraq xalqın ictimai fikrini istiqamətləndirdiyini yazırdı: "S.Vurğun nədən danışır-danışsın, istər romantizimdən, xəyaldan, istər həyatdan, realizmdən, müsbət qəhrəmandan, mənfi qəhrəmandan, istər faciədən və məzhəkədən, istər sənətdən və elmdən, onun bütün mülahizələrinin mərkəzində bunlar dayanır: böyük idrak, böyük ürək, uzaqgörən göz! Dərinlik və genişlik! Qanad və vüsət!..

Bəxtiyar Vahabzadənin cəsarətlə qələmə aldığı "Səməd Vurğunun həyat və yaradıcılığı" adlı tədqiqat əsəri bu gün də tarixiliyini və müasirliyini saxlayır. O, ilk əsərlərindən olan rus şovinizminə işarə ilə yazdığı "Sarılığın xisləti" şeirini Səməd Vurğuna təqdim etmiş, onun fikrini bilmək istəmişdir. Bəxtiyar Vahabzadənin "Yaşıl çəmən, ağac altı, bir də ki, tünd çay" şeirinə Səməd Vurğun yüksək qiymət vermişdir.

Səməd Vurğunun həyat və yaradıcılığını elmi-tədqiqat mövzusu kimi qələmə alan B.Vahabzadə şairin həyatını və sənətdə ilk addımlarını, 1932-1941-ci illərdəki yaradıcılığını tədqiq etmiş, 1941-1945-ci illərdə yazdığı Vətən müharibəsi və vətənpərvərlik şeirlərinin, dramaturgiyasının və bitməmiş əsərlərinin təhlilini etmiş, "Vüsət, hikmət və cəsarət" adlanan fəsildə isə ədəbi-tənqidi görüşlərindən bəhs etmişdir.

Monoqrafiyada şairin əlyazmalarından, S.Vurğuna ünvanlanan məktublardan nümunələr verilmiş, Cənubi Azərbaycan mövzusunun şairin yaradıcılığındakı yeri ayrıca təhlil edilmişdir. Səməd Vurğunun dramaturgiyasının Azərbaycan ədəbiyyatındakı yeri, dili və tarixi mövzusu da ətraflı təhlil olunmuş, şairin "Böyük dostluq", "Şairin həyatı", "İki sevgi" kimi bitməmiş pyesləri haqqında maraqlı mülahizələr verilmişdir.

Bəxtiyar Vahabzadənin "Səməd Vurğunun dramatik poeziyası dramaturgiyamızı yeni insan xarakteri ilə zənginləşdirmiş, yeni fikir vüsəti, məna təravəti, əlvanlıq gətirmişdir" qənaəti bu gün də öz fikir yükünü saxlamaqdadır. Səməd Vurğun haqqında yazdığı tədqiqat əsərindəki düşüncə və mülahizələr, incələmələr, xırda məsələlər deyil, xalqın ağlı, düşünən qəlbi ilə görən, elmiliklə bədiiliyi paralelləşdirən bir təfəkkürün ifadəsi idi.

Bəxtiyar Vahabzadə "Xalqın oğlu dünyanın oğludur", "Folklor və Səməd Vurğun", "Vaqif" və başqa məqalələrində də Səməd Vurğun yaradıcılığından söz açaraq, onun şeirləri ilə böyüdüyünü etiraf edirdi. "S.Vurğun və folklor", "Folklor və S.Vurğun poeziyası" məqalələrində "Xalqın yaratdığı folklor ayrı-ayrı adamlar tərəfindən uydurulmuş fantaziya deyildir. Bunların hamısının elmi əsası var" deyən Bəxtiyar Vahabzadə Səməd Vurğunun xalq ədəbiyyatına, xalqın milli-mənəvi dəyərlərinə, milli düşüncəsinə verdiyi önəmi xüsusi vurğulayırdı.

Bəxtiyar Vahabzadə Səməd Vurğun poeziyasının tükənməz çeşmə olan folklordan bəhrələndiyini, böyük sənətkarın öz sənət incilərini bu çeşmədən götürərərk zamanın tələbləri baxımından onu əsrə uyğun şəkildə cilalayıb yenidən xalqa qaytardığını, şairin yaradıcılığındakı milliliyi və xəlqiliyi elmi araşdırmaları ilə bir daha təsdiq etdi.

***Maarifə HACIYEVA ,***
***filologiya elmləri doktoru,***
***professor***

Azərbaycan Respublikası Prezidentinin 2026-cı il 26 may tarixli Sərəncamı ilə təsdiq edilmişdir

# Azərbaycan Respublikasında maliyyə inklüzivliyinin genişləndirilməsinə dair 2027–2030-cu illər üçün Dövlət Proqramı

## 1. QISA XÜLASƏ

Azərbaycan Respublikası Prezidentinin 2021-ci il 2 fevral tarixli 2469 nömrəli Sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər" çərçivəsində ölkənin iqtisadi suverenliyinin möhkəmləndirilməsi və vətəndaşlar üçün yüksək rifah cəmiyyətinə çevrilməsi məqsədilə beş milli prioritet müəyyən edilmişdir. Azərbaycan Respublikası Prezidentinin 2022-ci il 22 iyul tarixli 3378 nömrəli Sərəncamı ilə təsdiq edilmiş və milli prioritetlərin həyata keçirilməsinə yönəlmiş "Azərbaycan Respublikasının 2022–2026-cı illərdə sosial-iqtisadi inkişaf Strategiyası" ölkə iqtisadiyyatının, o cümlədən maliyyə sektorunun transformasiyası üzrə strateji hədəfləri müəyyən edir.

Maliyyə sektoru üzrə strateji hədəflər mütərəqqi beynəlxalq standartlara uyğun olaraq, maliyyə sabitliyi arxitekturasının yaradılmasını və maliyyə institutlarının risklərə qarşı dayanıqlılığının təmin edilməsini, eləcə də əhalinin və real sektorun ehtiyaclarına dərindən fokuslanmış və dayanıqlı iqtisadi inkişafı dəstəkləyən maliyyə sektorunun formalaşdırılmasını ehtiva edir. Bu hədəfləri reallaşdıraraq ölkədə inklüziv, sabit və rəqabətədavamlı maliyyə sektorunun inkişafı prosesini sürətləndirmək üçün Azərbaycan Respublikası Prezidentinin 2022-ci il 22 iyul tarixli 3378 nömrəli Sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının 2022–2026-cı illərdə sosial-iqtisadi inkişaf Strategiyası"nın Tədbirlər Planında "Maliyyə inklüzivliyinin genişləndirilməsi üzrə Dövlət Proqramının həyata keçirilməsi" üzrə tədbir müəyyən edilmişdir.

Azərbaycan Respublikasında son onillikdə maliyyə inklüzivliyi əhəmiyyətli dərəcədə yaxşılaşmışdır, ölkə iqtisadiyyatının dinamik inkişafı maliyyə inklüzivliyinə müsbət təsir etmişdir. Azərbaycan aşağı gəlirli ölkədən yuxarı orta gəlirli ölkələr qrupuna daxil olmuşdur. Dünya Bankının məlumatına əsasən, ölkədə işsizlik 2000-ci ildəki 11,8 faiz səviyyəsindən 2023-cü ildə 5,3 faiz səviyyəsinə enmişdir. 2025-ci il üzrə yetkinlik yaşına çatmış əhalinin 70,7 faizinin bank hesabı vardır.

Əvvəlki dövrlərdə aparılmış islahatlar maliyyə sektoru üzrə yeni strateji baxışın gerçəkləşdirilməsi üçün əlverişli zəmin yaratmışdır. Maliyyə sistemində hüquqi çərçivə formalaşdırılmış, maliyyə infrastrukturu müasirləşdirilmiş və institusional quruculuq işləri həyata keçirilmişdir. 2014-cü və 2015-ci illərdə dünya enerji bazarlarında baş vermiş çoxşaxəli təsirlərin ölkənin maliyyə sisteminə təsiri neytrallaşdırılmış, maliyyə və sosial sabitliyin qorunmasına nail olunmuşdur. Bank sektorunun restrukturizasiyası və sağlamlaşdırılması, korporativ idarəetmə və risklərin idarəetməsinin yaxşılaşdırılması təmin edilmiş və maliyyə sektorunda artım dinamikası bərpa olunaraq böhrandan əvvəlki səviyyəni keçmişdir.

Əldə edilmiş nailiyyətlərlə yanaşı, maliyyə inklüzivliyinin genişləndirilməsi üzrə əhəmiyyətli imkanlar mövcuddur. Vətəndaşların və sahibkarlıq subyektlərinin müəyyən seqmentləri formal maliyyə sistemindən kənarda qalır. Kreditə çıxış bir çox mikro, kiçik sahibkarlar və fermerlər üçün nisbətən çətindir və sığortanın əhatə dairəsi aşağıdır, həmçinin fərdi investorlar üçün maliyyə alətləri məhduddur və rəqəmsal maliyyə texnologiyaları əsasən ödəniş xidmətlərini əhatə edir.

Azərbaycan Respublikasında maliyyə inklüzivliyinin genişləndirilməsinə dair 2027–2030-cu illər üçün Dövlət Proqramı (bundan sonra – Dövlət Proqramı) bütün vətəndaşların və sahibkarlıq subyektlərinin müasir texnologiyaya malik maliyyə sistemi vasitəsilə əlçatan və faydalı maliyyə xidmətlərinə məhdudiyyətsiz və bərabər şərtlərlə çıxış əldə etməsinin təmin olunmasına yönəlmişdir. Beləliklə, Dövlət Proqramı müvafiq tədbirləri vahid fəaliyyət planı ətrafında birləşdirərək dövlət və özəl sektor iştirakçıları ilə birgə tərəfdaşlıq şəraitində icra olunacaqdır. Dövlət Proqramının icrasına başlanılması ilə Azərbaycan Respublikası bütün vətəndaşlara və sahibkarlıq subyektlərinə xidmət edəcək müasir, universal maliyyə sisteminin formalaşması istiqamətində yeni strateji dövrə daxil olur.

## 2. QLOBAL TRENDLƏR

Maliyyə inklüzivliyi qlobal inkişaf prioritetlərindən birinə çevrilmişdir və bütün fiziki və hüquqi şəxslərin maliyyə xidmətlərinə çıxışının artırılması yolu ilə iqtisadi artımı dəstəkləməklə Birləşmiş Millətlər Təşkilatının müəyyən etdiyi Dayanıqlı İnkişaf Məqsədləri üzrə hədəflərə çatmaq üçün əsas vasitələrdən biri kimi müəyyən edilmişdir.

Dünya Bankının Fintex (yeni maliyyə texnologiyaları) hesabatına əsasən, 2025-ci ildə dünyada 1,3 milyard yetkinlik yaşına çatmış şəxs formal maliyyə xidmətlərindən kənarda qalmışdır ki, bunun da əsas hissəsi qadınlar, yoxsul əhali, aşağı təhsil səviyyəsinə malik olan və ya kənd yerlərində yaşayan şəxslərdir. İnkişaf etməkdə olan ölkələrdə bank sektorundan kənarda qalan əhalinin ümumi əhalidə payı daha yüksəkdir ki, bunun da səbəbi yoxsulluqla yanaşı, maliyyə xidmətlərinin xərcli olması, nəqliyyat xərcləri və maliyyəyə çıxış üzrə şərtlərin əlverişsiz olmasıdır.

Maliyyə İnklüzivliyi Birliyi qlobal səviyyədə tənzimləmə qurumlarının iştirak etdiyi əsas platformalardan biridir. Hazırda təşkilata 84 ölkə üzv olmuşdur. Təşkilatın əsas məqsədi maliyyə inklüzivliyinin artırılması üzrə yüksək təsirə malik siyasət tədbirlərinin hazırlanmasıdır. Təşkilata üzv olan 63 ölkə tərəfindən milli maliyyə inklüzivliyi strategiyası hazırlanmışdır, həmçinin 16 ölkədə isə mövcud strategiyalar yenilənməkdədir. Maliyyə inklüzivliyi strategiyalarında maliyyə xidmətləri istehlakçılarının hüquqlarının qorunması, rəqəmsal maliyyə xidmətləri və maliyyə savadlılığı prioritet istiqamət kimi müəyyən edilmişdir. Bundan başqa, gender bərabərliyi, mikro, kiçik və orta sahibkarlıq subyektlərinin maliyyələşməsi, mikrosığorta və gənclərin maliyyə inklüzivliyi də əsas diqqət mərkəzində olan sahələrdəndir.

Fintexlər maliyyə xidmətlərindən kənarda qalan əhalinin maliyyə inklüzivliyinin artırılması üçün əsas amillərdən birinə çevrilmişdir. Rəqəmsal texnologiyaların maliyyə xidmətlərində tətbiqi maliyyə inklüzivliyinin artmasına əhəmiyyətli dərəcədə müsbət təsir etmişdir. Bir sıra yoxsul ölkələrdə əhalinin bir qismi maliyyə xidmətlərinə ilk dəfə elektron pullar vasitəsilə çıxış əldə etmişdir.

Rəqəmsal identifikasiya sistemi rəqəmsal kanallar vasitəsilə maliyyə xidmətlərinə çıxış üçün zərurətə çevrilmişdir. Maliyyə inklüzivliyinin artırılması məqsədilə Dünya Bankının da dəstəyi ilə bir sıra ölkələrdə rəqəmsal identifikasiya sistemi qurulmuşdur.

Maliyyə inklüzivliyi üzrə ümumi tendensiya qlobal səviyyədə müsbətə doğru dəyişməkdədir. Dünya Bankının Fintex hesabatına əsasən, Azərbaycanda, eləcə də digər bir sıra region ölkələrində maliyyə inklüzivliyi 2017–2024-cü illər arasında əhəmiyyətli dərəcədə yaxşılaşmışdır. Bununla yanaşı, müvafiq hesabatda Azərbaycan Respublikasında maliyyə inklüzivliyinin cari vəziyyəti real səviyyədən aşağı qiymətləndirilmişdir.

## 3.MÖVCUD VƏZİYYƏTİN TƏHLİLİ

Azərbaycan Respublikasında əhali və sahibkarlıq subyektlərinin maliyyə inklüzivliyi genişlənmişdir. 2011-ci ildə yetkinlik yaşına çatmış əhalinin yalnız 14,9 faizinin bank hesabı olduğu halda, 2025-ci ildə bu göstərici 70,7 faiz təşkil etmişdir. Bununla yanaşı, yetkinlik yaşına çatmış əhalinin 70 faizi azı bir maliyyə institutunun xidmətlərindən istifadə edir. Maliyyə xidmətlərinə çıxış səviyyəsi seçilmiş ölkələrə (Türkiyə, Polşa, Gürcüstan, Qazaxıstan və Rusiya) yaxın olduğu halda, maliyyə xidmətlərindən istifadə və maliyyə xidmətlərinin keyfiyyət göstəriciləri təkmilləşmə potensialının yüksək olduğunu göstərir. Bu, xüsusilə, kreditə çıxış səviyyəsi, yığım və investisiya alətləri, sığorta məhsullarının əhatə dairəsi, maliyyə texnologiyalarının tətbiqi, regional paylanma və digər məsələlər üzrə xarakterikdir.

**Cədvəl 1. Maliyyə inklüzivliyi indikatorlarının seçilmiş ölkələrlə müqayisəsi**

| Kateqoriya | İndikator | Azərbaycan | Seçilmiş ölkələr üzrə orta göstərici[**] |
|---|---|---|---|
| **Xidmət nöqtələri** | Hər 100.000 yetkin (15+) nəfərə düşən bank filiallarının sayı | 6,7[a] | 21,1[2] |
| **Bankomatlar** | Hər 100.000 yetkin nəfərə düşən bankomatların sayı | 43,9[a] | 97,2[2] |
| | Hər 1.000 $km^2$-ə düşən bankomatların sayı | 41,2[a] | 39,1[2] |
| **Bank hesabları** | Hesablar (yaş 15+) | 70,7 faiz[a] | 82,6 faiz[1] |
| **Bankda əmanətlər** | Bir il ərzində depozit qoyuluşları edən şəxslərin bank hesabı olan şəxslərə nisbəti | 77 faiz[1] | 74 faiz[1] |
| | Əmanət hesabı olan yetkinlik yaşına çatmış şəxslər | 17 faiz[1] | 28,4 faiz[1] |
| **Yetkinlik yaşına çatmış şəxslərin kreditləşməsi** | Hər hansı borc alan yetkinlik yaşına çatmış şəxslər | 63 faiz[1] | 53,6 faiz[1] |
| **Pul köçürmələri** | Ölkədaxili və ölkəxarici pul baratları qəbul edən və göndərən yetkinlik yaşına çatmış şəxslərin sayının yetkin əhalinin sayında payı | 22 faiz[1] | 32,4 faiz[1] |
| | Pul baratları qəbul edən yetkinlik yaşına çatmış şəxslərin sayının yetkin əhalinin sayında payı | 16 faiz[1] | 22,4 faiz[1] |
| | Pul baratları göndərən yetkinlik yaşına çatmış şəxslərin sayının yetkin əhalinin sayında payı | 11 faiz[1] | 23,7 faiz[1] |
| **Tənzimlənən maliyyə institutlarında cari krediti və ya kredit xətti olan emal sənayesi müəssisələri** | Cari krediti və ya kredit xətti olan emal sənayesi müəssisələri | 36,4 faiz[3] | 33,5 faiz[3] |
| **Dövriyyə kapitalını maliyyələşdirmək üçün ticarət/təchizat kreditindən istifadə edən emal sənayesi müəssisələri** | Dövriyyə kapitalını maliyyələşdirmək üçün ticarət/təchizat kreditindən istifadə edən emal sənayesi müəssisələri | 30,1 faiz[3] | 27,5 faiz[3] |
| **Mobil əməliyyatlardan istifadə** | Ödəniş üçün mobil cihazlardan istifadə edən unikal istifadəçilərin sayının yetkin əhalinin sayında payı | 52 faiz[1] | 78,8 faiz[1] |

[**] Daxil edilən ölkələr: Türkiyə, Polşa, Gürcüstan, Qazaxıstan və Rusiya (2024)
[1] Dünya Bankı Fintex hesabatı, 2024
[2] BVF Maliyyəyə Çıxış hesabatı, 2024
[3] Dünya Müəssisələr Sorğusu hesabatı, 2024
[a] Mərkəzi Bankın hesablaması

Maliyyə inklüzivliyinin əsas komponentləri üzrə cari vəziyyətin daha təfsilatlı təhlili və inkişaf perspektivləri aşağıda təqdim olunur:

**3.1. Maliyyə xidmətlərinə çıxış üzrə:**

**3.1.1. maliyyə institutlarının filial və digər fiziki xidmət şəbəkəsi genişlənmişdir.** 2025-ci ilin III rübünün sonunda bank və bank olmayan kredit təşkilatlarının (bundan sonra – BOKT) ümumilikdə 799 filialı mövcud olmuşdur (bank filialı – 499, BOKT filialı – 300) və onların 50 faizdən çoxu regionların payına düşmüşdür. Bununla yanaşı, POS-terminalların sayı 2018–2025-ci illər ərzində 2,6 dəfə artaraq 172,9 min ədədə çatmış, o cümlədən təmassız ödənişləri qəbul edən POS-terminalların sayı analoji dövr ərzində 7,8 dəfə artaraq 171,1 min ədəd olmuşdur. Poçt rabitəsinin milli operatorunun filial və poçt şöbəsi şəbəkəsindən maliyyə xidmətlərinin göstərilməsi məqsədilə istifadə ucqar bölgələrdə maliyyə xidmətlərinə əlçatanlığı artırır;

**3.1.2. bankomatlar və POS-terminalların əhatə dairəsi və istifadə səviyyəsi seçilmiş ölkələrlə müqayisədə aşağıdır.** Pərakəndə ticarət müəssisələrində quraşdırılmış POS-terminalların orta hesabla 50 faizi aktiv istifadə olunur. Aktiv istifadə dedikdə bir ay ərzində POS-terminal vasitəsilə 4-dən çox sayda tranzaksiyanın həyata keçirilməsi nəzərdə tutulur. Azərbaycan Respublikasında hər 1000 nəfərə düşən POS-terminal sayı 17 olduğu halda, bu göstərici Qazaxıstanda 68, Türkiyədə 54, Gürcüstanda 32-dir. Müasir maliyyə texnologiyalarının tətbiqi, o cümlədən AZQR kod (Azərbaycan Respublikasının ərazisində malların, işlərin və xidmətlərin dəyərinin ödənilməsi üçün formalaşdırılan QR kod) vasitəsilə ödənişlərin aparılması bu istiqamətdə irəliləyiş üçün yeni perspektivlər yaradır;

**3.1.3. ödəniş terminallarının pərakəndə ödənişlərdə rolu artmışdır.** Kredit təşkilatları, sığorta şirkətləri, kommunal xidmət göstərən qurumlar və digər xidmət təchizatçıları ödəniş terminalları təchizatçıları ilə əməkdaşlıq etməklə müştərilərin ödənişlərini qəbul edir. Bu, bir tərəfdən maliyyə xidmətlərinə rahat çıxışı təmin edir, digər tərəfdən isə maliyyə institutlarının xərclərinin optimallaşdırılmasına xidmət edir. Ödəniş terminallarının imkanlarından istifadənin daha da genişləndirilməsi potensialı mövcuddur;

**3.1.4. rəqəmsal texnologiyaların tətbiqinin genişləndirilməsi maliyyə inklüzivliyinin artırılmasını dəstəkləyir.** Maliyyə xidmətlərinin, o cümlədən kredit müraciətlərinin qəbulu, qiymətləndirilməsi və təsdiqi prosesləri əhəmiyyətli dərəcədə rəqəmsallaşdırılmışdır. Rəqəmsal texnologiyaların ödəniş xidmətlərində tətbiqi əhali və sahibkarlıq subyektlərinin ödənişlərini rahat, təhlükəsiz və daha aşağı xərclə aparmasına şərait yaratmaqla yanaşı, maliyyə institutları tərəfindən təklif olunan xidmət kanallarının genişləndirilməsinə və son nəticədə maliyyə vasitəçiliyinin artırılmasına imkan verir. Alternativ xidmət kanalları (internet bankçılıq, mobil bankçılıq və s.), müştəri ehtiyaclarına uyğunlaşdırılmış və sadələşmiş xidmət üsulları xərclərin azaldılmasına və müştəri məmnuniyyətinin artırılmasına şərait yaradır;

**3.1.5. regionlar, kənd və qəsəbələrdə maliyyə əlçatanlığı şəhər yerlərinə nisbətən aşağıdır.** Yetərli biznes həcminin formalaşmaması səbəbindən, maliyyə institutları müəyyən coğrafi ərazilərdə maliyyə xidmətləri göstərməkdə maraqlı olmur, bununla da kənd və ucqar yerlərdə maliyyə əlçatanlığında problemlər yaranır. Bəzi bölgələrdə isə internetə çıxışda çətinliklər mövcuddur və ya virtual xidmətlərdən istifadə üzrə savadlılıq səviyyəsi aşağıdır. Nəticədə, vətəndaşlar onlayn edə biləcəkləri əməliyyatlar üçün maliyyə qurumlarının ofislərinə gəlmək ehtiyacı duyurlar ki, bu da bəzən uzaq yol və nəqliyyat xərcləri baxımından maneələr yaradır.

**3.2. Maliyyə məhsulları və xidmətləri üzrə:**

**3.2.1. təhlükəsiz və keyfiyyətli ödəniş xidmətləri maliyyə inklüzivliyinin əsas sütunlarından biridir.** Son illərdə çoxsaylı təşəbbüslərin həyata keçirilməsinə baxmayaraq, istehlak xərclərinin dəyərinin ödənilməsi üzrə nağdsız ödənişlərin payı (2025-ci ilin II rübünün sonuna 45 faiz) seçilmiş ölkələrlə müqayisədə aşağı hesab olunur. Nağdsız ödənişlər əsasən kartlar vasitəsilə aparılır və hesab əsaslı ödənişlərin payı məhduddur. 2025-ci ilin yanvar–oktyabr ayları üzrə təmassız ödənişlərin sayı və həcmi isə əvvəlki ilin müvafiq dövrünə nəzərən müvafiq olaraq 21 faiz və 5 faiz artmışdır;

**3.2.2. maliyyə infrastrukturunun gücləndirilməsi, eləcə də pandemiya dövründə müştərilərin davranışlarında baş vermiş dəyişikliklərin nəticəsi olaraq, Azərbaycan Respublikasında rəqəmsal ödənişlərin həcmi sürətlə artmaqda davam etməkdədir**. 2025-ci ilin yanvar–oktyabr ayları üzrə ölkə daxilində debet və kredit kartları vasitəsilə aparılmış elektron ticarət əməliyyatlarının həcmi 70,6 milyard manat olmuşdur ki, bu da əvvəlki illə müqayisədə 32,7 faiz artım deməkdir. Qeyd edilən dövrdə POS-terminallar vasitəsilə aparılan əməliyyatların həcmi isə 2,3 faiz artmışdır. POS-terminal vasitəsilə edilmiş ödənişlərin 97 faizi təmassız formada aparılmışdır ki, bu da bank müştərilərinin təmassız ödənişləri dəstəkləyən hallərə keçid sürətinin yüksək olduğunun göstəricisidir. Əməliyyat sayının sürətli artımı isə, öz növbəsində, rəqəmsal dələduzluq risklərini artırır ki, bu da müştəri məlumatlılığının artırılması üzrə bütün bazar iştirakçıları tərəfindən koordinasiya edilmiş şəkildə tədbirlərin icrasını aktuallaşdırır;

**3.2.3. ölkədə maliyyələşmə sistemi bank əsaslı olub kapital bazarları vasitəsilə maliyyələşmə məhduddur.** Son 5 ildə kredit portfelinin həcminin 17 faizi illik mürəkkəb artım tempi ilə artmasına baxmayaraq, Dünya Bankının məlumatına görə Azərbaycanda özəl sektora verilmiş kreditlərin ümumi daxili məhsulda (bundan sonra – ÜDM) pay göstəricisi 2024-cü ilin sonuna 26,4 faiz olmaqla seçilmiş ölkələrdən geri qalır (Gürcüstan – 68,1 faiz, Qazaxıstan – 27,3 faiz, Türkiyə – 43 faiz). Əsas çağırışlar sahibkarlıq subyektlərinin borc alətləri, kapital (səhm, vençur kapitalı) və alternativ maliyyələşmə mənbələrinə çıxışının məhdudluğu ilə xarakterizə olunur. Məhdudiyyətlər xüsusilə fəaliyyətin ilkin mərhələsində olan və inkişafyönümlü bizneslər üzrə daha aktualdır. İstehlak kreditləşməsi əlçatan olsa da, onun dayanıqlı çərçivəsinin təmin edilməsi istiqamətində işlər davam etdirilir. İpoteka kreditləri və digər spesifik maliyyələşmə növləri üzrə maliyyələşmə mənbələri uyğun deyildir. İnformasiya asimmetriyasının azaldılması məqsədilə daşınar əmlakın yüklülüyünün dövlət reyestrindən daha səmərəli istifadə, eləcə də əhali və sahibkarlıq subyektlərinin maliyyə əlçatanlığının artırılması üçün məlumat əsaslı maliyyələşmə məhsullarının tətbiqi üzrə daha əhatəli və səmərəli təşəbbüslərin icrasına ehtiyac vardır.

BOKT sektoru maliyyə xidməti məhsullarının diversifikasiyası və maliyyə inklüzivliyinin təşviqi üçün əhəmiyyətli potensiala malikdir. 2025-ci ilin III rübünün sonunda ölkədə 90 BOKT, o cümlədən 36 kredit ittifaqı fəaliyyət göstərsə də, onların ümumi aktivləri maliyyə sektorunun ümumi aktivlərinin payının 1,8 faizidir ("Aqrarkredit" QSC-nin aktivləri nəzərə alınmadan). Maliyyə inklüzivliyinin genişləndirilməsində BOKT-ların potensialının reallaşdırılması əsas prioritetlərdən biridir. "Bank olmayan kredit təşkilatları haqqında" Azərbaycan Respublikasının Qanununda edilmiş son dəyişikliklərə əsasən BOKT-ların kredit verilməsi məqsədilə ödəniş hesabları açmasına və aparmasına, kredit kartları emissiya etməsinə imkan yaradılmışdır. Bununla yanaşı, BOKT sektoru üzrə bir sıra əhəmiyyətli çağırışlar qalmaqdadır. Belə çağırışlara məhsulların məhdud şaxələndirilməsi, BOKT-ların məhsulları haqqında məlumatlılığın aşağı olması və BOKT-ların maliyyələşmə mənbələrinə çıxışının məhdudluğu daxildir. Yeni strateji dövrdə BOKT sektorunun rolunun artırılması, BOKT-ların strukturunun və məhsullarının diversifikasiyası ölkədə maliyyə inklüzivliyini artırmaq, o cümlədən bank xidmətləri ilə əhatə olunmayan və ya zəif əhatə olunan şəxslərin maliyyə xidmətlərinə çıxışı üzrə geniş imkanlar yarada bilər.

Maliyyə icarəsi əməliyyatlarının inkişafı üçün geniş potensial mövcuddur. 2026-cı il martın sonuna banklar və BOKT-lar tərəfindən təqdim edilmiş maliyyə icarəsi xidmətlərinin həcmi 46 mln. manat olmuşdur. Maliyyə icarəsi fəaliyyəti üzrə potensialın reallaşdırılması məqsədilə hüquqi və tənzimləmə sahəsində islahatların aparılması və maliyyə icarəsi sektorunun inkişafı üçün daha əlverişli mühitin yaradılması zəruri hesab edilir.

Mikro, kiçik və orta biznes (bundan sonra – MKOB) sektorunda sağlam kredit tələbinin genişlənməsi əsas fundamental məsələlərdən biridir. 2024-cü il üzrə MKOB-ların ÜDM-in formalaşmasında payı cəmi 16,3 faiz təşkil etmişdir (qeyri-neft-qaz sektoru üzrə 28,9 faiz) ki, bu göstərici seçilmiş ölkələrdə (məsələn, Gürcüstan, Qazaxıstan, Rusiya və Türkiyə) 22–61 faiz aralığındadır. MKOB-ların şəffaflığının aşağı olması, məlumat asimmetriyası və biznesin idarə edilməsi səriştəsində zəifliklər onların kredit və digər maliyyə resurslarına çıxışını məhdudlaşdırır. Kənd təsərrüfatı və regionlarda maliyyələşmə ehtiyacı daha yüksəkdir. Dövlət fondları tərəfindən sahibkarlığa dəstək məqsədilə ayrılan maliyyə vəsaitləri əsasən MKOB-lara yönəlmişdir. Belə ki, Azərbaycan Biznesinin İnkişafı Fondu tərəfindən 2025-ci ilin 11 ayı ərzində 5812 layihənin maliyyələşdirilməsinə 341,8 mln. manat güzəştli kredit verilmişdir. Güzəştli kreditlərin layihə sayı üzrə 99,7 faizi, kredit məbləği üzrə isə 89,9 faizi MKOB subyektlərinə verilmişdir. Bununla yanaşı, dövlət fondları tərəfindən sahibkarlığa dəstək məqsədilə ayrılan maliyyə vəsaitlərinin (kreditlər, zəmanətlər və subsidiyalar daxil olmaqla) həcmi cəmi biznes kreditlərinin 7,6 faizini təşkil etməklə yetərli təsir yarada bilmir. Normativ hüquqi aktların tələbi olaraq kreditlərin yalnız nağdsız qaydada verilməsi mikro və kiçik sahibkarların kreditə çıxışını çətinləşdirir;

**3.2.4. kənd təsərrüfatı ilə məşğul olan, eləcə də kənd yerlərində fəaliyyət göstərən sahibkarların maliyyə mənbələrinə çıxışının məhdud olması onların məhsuldarlığını və investisiya imkanlarını azaldır.** 2025-ci il oktyabrın sonunda kənd təsərrüfatı ilə məşğul olan şəxslərə (fiziki şəxslər, ailə kəndli təsərrüfatları, fermerlər və s.) ayrılan kənd təsərrüfatı kreditlərinin həcmi ümumi kredit portfelinin 7 faizini təşkil etmişdir. 2025-ci ilin 11 ayı ərzində Azərbaycan Biznesinin İnkişafı Fondu tərəfindən kənd təsərrüfatı istehsalı sahəsinə orta kredit məbləği 27,7 min manat olmaqla ümumilikdə 5184 layihəyə 143,5 mln. manat ayrılmışdır. Fond tərəfindən iqtisadiyyatın sahələri üzrə verilmiş kreditlərin layihə sayı üzrə 89,2 faizi (5184 layihə), kredit məbləği üzrə isə 42 faizi (143,5 mln. manat) kənd təsərrüfatı məhsulları istehsalının payına düşür. 2024-cü ildə Aqrar Kredit və İnkişaf Agentliyi tərəfindən ortalama məbləğ 11,62 min manat olmaqla, aqrar sahədə çalışan 1791 hüquqi və fiziki şəxsə mikrokredit ayrılmışdır. Kənd təsərrüfatı istehsal vasitələrinin alışının maliyyələşdirilməsi məqsədilə ayrılan güzəştlərin və ödənilmiş ümumi subsidiyanın həcmi bu istiqamətdə ayrılan kredit (maliyyə icarəsi) məbləğlərindən təqribən 6 dəfə çox olmuşdur. Məhdud dövlət resurslarından daha strateji istifadə edilməklə miqyas effektinə nail olunması vacib məsələlərdəndir. Ümumilikdə, kənd təsərrüfatı ilə məşğul olanların maliyyə əlçatanlığı ilə bağlı əsas problem onların ehtiyaclarına cavab verən məhsul növlərinin məhdud olmasıdır;

**3.2.5. fiziki şəxslərin yığıma meyilliyi yüksəkdir.** Maliyyə savadlılığı üzrə sorğu nəticələri respondentlərin 41 faizinin yığıma meyilli olduqlarını göstərmişdir. Dünya Bankının Fintex hesabatına əsasən, yetkinlik yaşına çatmış əhalinin 4,5 faizinin əmanət hesabı vardır. Bununla yanaşı, Azərbaycan Respublikası Mərkəzi Bankının məlumatına əsasən, banklarda müddətli depozitə malik şəxslərin sayı aşağıdır (yetkinlik yaşına çatmış əhalinin 2,4 faizi). Maliyyə institutlarında yığımların aşağı mobilizasiyası tələb və təklif yönümlü amillərlə xarakterizə olunur. Tələbyönümlü amillərə ev təsərrüfatlarının yığım səviyyəsinin aşağı olması, kiçik və orta bizneslərin (bundan sonra – KOB) yığımlarını banklarda saxlamaqda maraqlı olmaması, mikro sahibkarların nağd vəsaitlə əməliyyatlara üstünlük verməsi və KOB-ların cari hesablarının əmanətlərin sığortalanması mexanizmi ilə əhatə olunmaması daxildir. Yalnız fiziki şəxslərin sahibkarlıq məqsədilə açdığı bank hesablarındakı 20 min manatadək pul vəsaiti sığortalanır. Qeyd edilənlər bir tərəfdən banklarda kiçik və orta həcmli yığımların artırılması üzrə potensialın olduğunu göstərir, digər tərəfdən isə çoxşaxəli fundamental islahatların həyata keçirilməsi zərurətini şərtləndirir. Təklifyönümlü amillərə sektorda yüksək likvidlik səbəbindən (xüsusilə iri dövlət neft-qaz şirkətlərinin korporativ depozitləri üzrə) sistem əhəmiyyətli bankların pərakəndə depozitlərin cəlb edilməsinə marağının aşağı olması, innovativ yığım məhsullarının məhdudluğu (məsələn, qızıl əmanət hesabları), hüquqi çərçivənin kiçik əmanətlərin stimullaşdırılması baxımından diferensial olmaması və s. aid edilə bilər.

*(ardı 16-cı səhifədə)*

# Azərbaycan Respublikasında maliyyə inklüzivliyinin genişləndirilməsinə dair 2027–2030-cu illər üçün Dövlət Proqramı

*(əvvəli 15-ci səhifədə)*

Xüsusilə, kiçik depozitlərin maliyyə sisteminə daxil edilməsi vacibdir. Hazırda bir çox banklar xərc baxımından effektiv olmadığı üçün əmanətlərin minimum məbləğinə limit müəyyən edir. Bu isə aşağı məbləğli əmanətlərin sektora cəlb edilməsinə və maliyyə inklüzivliyinə mənfi təsir edir;

**[illegible] fərdi investorlar üçün maliyyə alətləri məhduddur.** Cari vəziyyət bir neçə amil ilə xarakterizə olunur. İlk növbədə, investisiya qoyuluşları üçün maliyyə alətləri məhduddur. Kapital bazarlarında əsas institusional investor kimi maliyyə institutları çıxış edir, fərdi investorların aktivliyi, eyni zamanda kapital bazarında investisiya imkanları barədə fərdi investorlar arasında məlumatlılıq səviyyəsi aşağıdır. Digər tərəfdən, tələb əsasən kredit məhsulları üzrə olub, kapital bazarı alətləri üzrə aşağıdır. Kapital bazarının maliyyələşmə mənbəyi olması ilə bağlı sahibkarlıq subyektlərinin məlumatlılığı aşağıdır. Fərdi investorların kapital bazarlarına çıxış kanalları məhduddur. Nəticədə, həm borc, həm də kapital bazarı üzrə ticarət dövriyyəsi aşağıdır. Ümumilikdə, fərdi investorlar üzrə kapital bazarında əsas çağırışlar alətlərin məhdudluğu, aşağı məlumatlılıq, investisiya alətlərinə çıxış kanallarının məhdudluğu və aşağı ticarət dövriyyəsi ilə xarakterizə olunur. Başlıca olaraq mobil platformalardan istifadə funksionallığının artırılması, ənənəvi bank məhsul və xidmətləri ilə yanaşı, qiymətli kağızlar bazarında kotirovka olunan maliyyə alətlərinə investisiya imkanının yaradılması zəruridir ki, bunun üçün kapital bazarının formalaşdırılması, həmçinin investisiya olunan alətlərin sadə və rahat şəkildə ilkin və təkrar bazarlarda alış və satışına şərait yaradılması vacibdir;

**3.2.7. sığorta bazarının genişlənməsi maliyyə xidmətlərinə çıxış imkanlarının artmasına zəmin yaradır.** Son illərdə sığorta bazarının həcmi genişlənmiş, sığorta haqlarının sabit inkişaf dinamikası davam etmiş və sığorta xidmətlərinin çeşidi artmışdır. Sığorta haqlarının həcmi 2025-ci ilin doqquz ayının nəticələrinə görə 1157,25 mln. manata yüksəlmişdir. 2017-ci ilin müvafiq dövrü ilə müqayisədə sığorta haqlarının həcmi 743 mln. manat və ya 179 faiz artmışdır. Bununla yanaşı, sığorta xidmətlərinin inklüzivliyi ilə bağlı bir sıra çağırışlar mövcuddur. Belə çağırışlara sığorta xidmətlərinin çatdırılmasının effektivliyi, icbari və könüllü sığorta növlərinin inkişafını ləngidən amillər, habelə sığorta üzrə məlumat bazası sistemində məhdud inteqrasiyalarla bağlı məsələlər daxildir.

Sığorta xidmətlərinin çatdırılma kanalları üzrə əsas amillərdən biri sığorta agenti şəbəkəsinin effektivliyi, o cümlədən lisenziyalaşdırma prosedurları, sığorta agentlərinin ixtisas səviyyəsi ilə bağlıdır. Digər ölkələrlə müqayisədə sektorda agentlərin sayının aşağı olmasının (məsələn, hər 1000 sakinə 0,05, Türkiyədə isə 0,2) səbəblərindən biri bu sahədə biznesə başlamağın cəlbedici olmamasıdır. Hazırda agentlər daha çox icbari sığorta məhsullarının satışına fokuslanır (ümumi agent şəbəkəsi üzrə satışın 56 faizi, fiziki agentlər üzrə isə 72 faizi), könüllü sığorta məhsullarının satışı isə (məsələn, həyat sığortası, tibbi sığorta) əsasən sığortaçılar tərəfindən birbaşa həyata keçirilir. Sığortaçılar birbaşa satış kanallarına üstünlük verməklə (həyat sığortası üzrə 71 faizi, qeyri-həyat sığortası üzrə isə 58 faizi) agent şəbəkələrini genişləndirməkdə maraqlı olmurlar. Bu göstərici Türkiyədə müvafiq olaraq 12 faiz və 8 faiz təşkil edir. Digər tərəfdən banklar sığorta məhsullarının satışı üçün özlərinin geniş müştəri şəbəkələrindən effektiv istifadə etmirlər. Banklarda sığorta məhsullarının satışı üzrə bacarıqların və çarpaz satış potensialının aşağı olması sığorta məhsullarının satışlarını məhdudlaşdırır. Bununla yanaşı, sığorta müqavilələrinin birbaşa rəqəmsal satışı, habelə sığorta tələbi üzrə proseslərin rəqəmsal kanallar vasitəsilə aparılması səviyyəsi aşağıdır.

Tibbi sığorta sisteminin təkmilləşdirilməsi üçün imkanlar mövcuddur. Belə ki, həm icbari, həm də könüllü tibbi sığorta sistemində çətinliklər mövcuddur. İcbari sığorta sistemində xidmətlərin əhatə dairəsi, gözləmə müddətləri və müştəri məmnuniyyəti ilə bağlı təkmilləşdirmə imkanları mövcuddur. Digər tərəfdən isə könüllü tibbi sığorta, əsasən təşkilatların, o cümlədən kommersiya təşkilatlarının əməkdaşlarına fokuslanıbdır. Fərdi qaydada könüllü tibbi sığorta mexanizmi inkişaf etməmişdir. Könüllü tibbi sığorta qiymətləri seçilmiş ölkələrə nisbətən əhəmiyyətli dərəcədə yuxarıdır (fiziki şəxslər üçün ortalama 1900 manat, hüquqi şəxslərin işçiləri üçün isə 630 manat). Qeyd edək ki, könüllü tibbi sığortanın qiyməti Türkiyədə təqribən 500 ABŞ dolları təşkil edir. Bir sıra ölkələrdə tibbi sığorta qiymətləri Azərbaycan Respublikası ilə müqayisədə ucuz olmaqla yanaşı, orta əməkhaqqı daha yüksəkdir. Beləliklə, fiziki şəxslər üçün könüllü tibbi sığortanın baha olması vətəndaşların tibbi sığorta əldə etməsini çətinləşdirir. Könüllü tibbi sığorta növləri üzrə qiymətlərin hesablanması üzrə hüquqi çərçivə müəyyən olunmamışdır. Sığortaçılar tərəfindən innovativ və əlavə dəyər yaradan könüllü tibbi sığorta məhsullarının yaradılması bazarın inkişafına müsbət təsir edə bilər.

**3.3. Maliyyə infrastrukturu və rəqəmsallaşma üzrə:**

**3.3.1. maliyyə infrastrukturunun əhatə dairəsi artırılmışdır.** Geniş maliyyə infrastrukturu risklərin azalmasını və xidmətlərin keyfiyyətinin yüksəlməsini şərtləndirmişdir. Xüsusilə Elektron Hökumət İnformasiya Sistemindən fiziki şəxslərin identifikasiyası üçün lazımi məlumatların (iş yeri, gəlir və s. barədə) əldə olunması, eləcə də onlar üçün məsafədən hesabların açılması təcrübəsinin tətbiqinə başlanılması maliyyə xidmətlərinin rahatlığını artırır. Azərbaycan Respublikasında bank və bank olmayan ödəniş xidməti təchizatçılarının müştəriləri olan fiziki və hüquqi şəxslər arasında, həmçinin bu şəxslərlə dövlət orqanları arasında hesablaşmaların 24/7,365 rejimində aparıla bilməsinin təmin edilməsi məqsədilə Ani Ödənişlər Sistemi (bundan sonra – AÖS) yaradılmışdır. AÖS-ün imkanlarının tam reallaşdırılması maliyyə inklüzivliyinin artırılmasının vacib komponentlərindən biri hesab olunur;

**3.3.2. maliyyə xidmətlərinin rəqəmsallaşması müştəri identifikasiya infrastrukturunun yeni keyfiyyət müstəvisinə qaldırılmasını zəruri edir.** Maliyyə xidmətlərinin rəqəmsallaşmasının daha yuxarı müstəviyə çatdırılması üçün rəqəmsal identifikasiya sisteminin təkmilləşdirilməsi və paylanılmış "Öz müştərini tanı" yanaşmasının tətbiqi əsas amillərdən biridir. Rəqəmsal identifikasiya şəxsiyyəti müəyyənləşdirməyə imkan verən elektron məlumatları ehtiva edir və bu sahədə universal həllərin yaradılması qlobal trendlərdən biri kimi çıxış edir. Bir sıra ölkələr artıq rəqəmsal identifikasiya sistemlərini formalaşdırmış, eyni zamanda müştəri məlumatlarının təhlükəsiz mübadiləsi və təkrar istifadəsinə imkan verən yanaşmaları tətbiq etmişdir. Bir çox ölkələr isə bu istiqamətdə müvafiq infrastrukturun yaradılmasına və tətbiqinə hazırlıq mərhələsindədir. Eyni zamanda, biometrik identifikasiya alətlərinin (üz cizgilərinin tanınması və s.) geniş tətbiqi müştəri identifikasiyasının daha etibarlı və əlçatan olmasına imkan yaradır. Göstərilən qlobal trendlərin ölkəmizdə tətbiqi Dövlət Proqramının əsas hədəflərindən biri olacaqdır;

**3.3.3. ölkədə hərtərəfli ödəniş sistemi infrastrukturu formalaşdırılmışdır.** Milli Ödəniş Sistemi infrastrukturu real vaxt rejimində Banklararası Milli Hesablaşmalar Sistemi, Xırda Ödənişlər üzrə Hesablaşma-Klirinq Sistemi, Hökumət Ödəniş Portalı, AÖS və Banklararası Kart Mərkəzindən ibarətdir. Ödəniş sistemləri üzrə əsas qlobal trendlərdən biri real vaxt rejimində fəaliyyət göstərən AÖS-ün yaradılmasıdır. Azərbaycan Respublikası AÖS-ü tətbiq edən ilk ölkələr sırasındadır. Bununla yanaşı, ölkədə müasir ödəniş sistemi infrastrukturunun mövcudluğuna baxmayaraq, ondan istifadə səviyyəsi, xüsusilə AÖS üzrə aşağıdır. 2025-ci ilin oktyabrın sonunda AÖS üzrə ödənişlər nağdsız ödənişlərin say üzrə cəmi 4,8 faizini təşkil etmişdir. 2025-ci ilin əvvəli ilə müqayisədə AÖS əməliyyat sayı 35 dəfədən çox artaraq noyabr ayında 2,5 milyona çatmışdır. Bununla yanaşı, AÖS vasitəsilə ödənişlərin genişləndirilməsi üçün əhəmiyyətli inkişaf potensialı mövcuddur. Hazırda Hökumət Ödəniş Portalı ödənişlərinin AÖS üzərindən inteqrasiyası mərhələli şəkildə həyata keçirilir. Bununla yanaşı, fiziki şəxsdən fiziki şəxsə ödənişlər artıq AÖS vasitəsilə icra olunur. Əsas prioritetlərdən biri AZQR kod ödənişlərinin genişləndirilməsidir. Bu istiqamətdə bankların sistemə həm emitent, həm də ekvayer qismində qoşulması tələb olunur. AZQR kod ödənişlərinin geniş tətbiqi pərakəndə ödənişlərdə, dövlət və özəl sektor üzrə müxtəlif istifadə ssenarilərinin formalaşdırılmasına imkan yaradır. Bununla yanaşı, AÖS üzərindən biznes subyektləri arasında ödənişlərin genişləndirilməsi üçün əhəmiyyətli potensial mövcuddur. Beləliklə, AZQR kod ödənişlərinin istifadə sahələrinin genişləndirilməsi müxtəlif sektorlar və ödəniş ssenariləri üzrə tətbiqinin artırılması mümkündür. Bu potensialın tam reallaşdırılması üçün bankların texniki inteqrasiyalarının tamamlanması, eləcə də istehlakçıların və biznes subyektlərinin AÖS və AZQR kod ödəniş imkanları barədə məlumatlılıq səviyyəsinin artırılması vacibdir;

**3.3.4. maliyyə infrastrukturunun təkmilləşdirilməsi və rəqəmsallaşmanın sürətləndirilməsi imkanları mövcuddur.** Məsafədən eyniləşdirmə üzrə ilkin hüquqi çərçivə artıq formalaşdırılmışdır. Son dövrlərdə geniş əhali kütləsi üçün əlçatan, istifadə baxımından rahat və rəqəmsal xidmətlərə inteqrasiya oluna bilən elektron imza həllərinin mövcudluğu bu sahədə əhəmiyyətli inkişaf yaratmışdır. Bununla belə, təcrübədə maliyyə institutları tərəfindən müştərinin eyniləşdirilməsi məqsədilə müxtəlif metodlardan (birdəfəlik məxfi söz), videozəng və s.) paralel şəkildə istifadə olunmaqdadır. Bu isə müəyyən pərakəndəlik və qeyri-bərabər rəqabət şərtlərini formalaşdırır, vahid standartın tətbiqini çətinləşdirir və müvafiq riskləri artırır. Məsafədən hesabların açılması və müştərinin eyniləşdirilməsi proseslərinin daha da təkmilləşdirilməsi, xüsusilə fərdi sahibkarlar üzrə rəqəmsal identifikasiya və elektron imzadan istifadə prosedurlarının optimallaşdırılması aktual olaraq qalır;

**3.3.5. qlobal trendlər ölkənin maliyyə sektorunda innovasiyaların tətbiqinin sürətləndirilməsini zəruri edir.** Bu xüsusda mövcud hüquqi çərçivənin təkmilləşdirilməsi və innovasiyaları həyata keçirmək üçün investisiya kapitalının mövcudluğu fintex sektorunun inkişafı üçün önəmli amillərdəndir. Fintex və digər maliyyə innovasiyalarının maliyyə inklüzivliyinin genişləndirilməsi üzrə yaratdığı imkanları nəzərə alaraq, texnologiyanın hər kəs üçün faydalılığını təmin etmək məqsədilə özəl sektor tərəfindən təklif edilən innovasiyaların dövlət siyasəti ilə dəstəklənməsi vacibdir. AÖS-ün potensialının tam realizasiyası rəqəmsal maliyyə üzrə geniş perspektivlər vəd edir.

Azərbaycan Respublikasında bank müştərilərinin yeniliyə açıq olması, eyni zamanda, ölkədə mobil və internet əhatə dairəsinin yüksək olması maliyyə sektorunda innovasiyaların tətbiqi üçün əlverişli şərait yaradır. Azərbaycan Respublikası Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyinin məlumatına əsasən, 2024-cü ilin sonunda Azərbaycan Respublikasında hər 100 nəfərə düşən internet istifadəçisinin sayı 91 nəfər olmuşdur. Dünya üzrə orta göstərici 63, o cümlədən Avropa üzrə orta göstərici 83 nəfərdir. "Go - gle Pay" və "Apple Pay" kimi innovativ ödəniş həllərinin ölkədə tətbiq edilməsi və kütləviləşməsi istehlakçıların yeniliklərə açıq olmasının göstəricisidir. Qeyd edilənlər maliyyə xidmətlərinin tam rəqəmsallaşdırılması üçün aşağıdakı iki istiqamət üzrə işlərin görülməsini zəruri edir:

3.3.5.1. müştərilərin eyniləşdirilməsi və verifikasiyası zamanı rəqəmsal paylanılmış "Öz müştərini tanı" sisteminin tətbiqi;

3.3.5.2. yeni müştərilərin qəbulu və işgüzar münasibətlərin rəqəmsal qaydada qurulması.

**3.4. Tənzimləmə və nəzarət sahəsində dövlət siyasəti üzrə:**

**3.4.1. inklüziv maliyyə sisteminin yaradılması müxtəlif maliyyə xidməti təminatçıları, yeni çatdırılma kanalları, maliyyə məhsulları və xidmətləri üzrə proporsional tənzimləmə yanaşmasını zəruri edir.** Hüquqi çərçivə maliyyə inklüzivliyinin genişləndirilməsi və maliyyə sabitliyinin qorunması hədəflərini balanslaşdırmalıdır. Əks halda, bu maliyyə institutları tərəfindən real sektorun kreditləşməsində daralma və ya aşağı gəlirli əhalinin izafi borclanması ilə nəticələnə bilər. Əlverişli hüquqi çərçivə prudensial siyasətin effektivliyini və səmərəliliyini artırmaqla ölkədə maliyyə inklüzivliyinin genişləndirilməsi baxımından vacibdir;

**3.4.2. rəqəmsal maliyyə xidmətləri üzrə hüquqi çərçivənin gücləndirilməsi zəruridir.** Açıq bankçılıq, rəqəmsal identifikasiya və paylanılmış "Öz müştərini tanı" sistemi, elektron imza, elektron müqavilə üzrə hüquqi çərçivənin yaradılması və ya təkmilləşdirilməsi tam maliyyə əlçatanlığının təmin edilməsi üçün vacib şərtlərdəndir. Bu istiqamətdə hüquqi və əməliyyat çərçivəsinin təkmilləşdirilməsi potensialı mövcuddur;

**3.4.3. maliyyə sabitliyi və maliyyə inklüzivliyi siyasətlərinin effektiv balanslaşdırılması vacibdir.** Makroprudensial siyasət bir tərəfdən maliyyə sabitliyinin, həmçinin məsuliyyətli kreditləşmə və məsuliyyətli borclanmanın təmin edilməsi, digər tərəfdən isə maliyyə inklüzivliyinin artırılması hədəflərinin təmin edilməsinə yönəlmişdir. Bununla yanaşı, makroprudensial siyasət istehlak kreditləşməsinin dayanıqlı və sağlam müstəviyə keçirilməsinə hədəflənmişdir. Bu tədbirlər istehlakçıların izafi borclanmasının qarşısını almaqla yanaşı, rəsmi gəliri olmayan şəxslərin maliyyə inklüzivliyinə mənfi təsir göstərir, onların maliyyə sektorundan kənar mənbələrdən yuxarı xərclə borclanmasına səbəb olur. Bu məsələ üzrə düzgün siyasətin formalaşdırılması çox sayda ölkələr, xüsusilə inkişaf etməkdə olan ölkələr üçün xarakterikdir;

**3.4.4. dövlət siyasəti maliyyə inklüzivliyinin və şəffaflığının artırılmasına istiqamətlənmişdir.** Ölkədə nağdsız ödənişlərin inkişafı, rəqəmsal kanallar vasitəsilə maliyyə xidmətlərinə çıxış imkanlarının artırılması, prudensial qaydalarla MKOB-ların maliyyələşməsinin təşviqi, habelə biznesin şəffaflaşması tədbirləri və dövlət dəstək mexanizmləri, ümumilikdə maliyyə inklüzivliyinin artımını şərtləndirir. Bununla yanaşı, mövcud siyasət çərçivəsinin bəzi aspektlərinin maliyyə inklüzivliyi kontekstində nəzərdən keçirilməsinə ehtiyac vardır. Pul və maliyyə sabitliyi siyasəti, habelə hüquqi çərçivə və digər əlaqəli istiqamətlər üzrə siyasət çərçivəsi maliyyə institutlarının dayanıqlılığına və maliyyə vasitəçiliyi funksiyasına təsir göstərir. Problemli aktivlərlə iş ek[illegible]sisteminin təkmilləşdirilməsi kreditorların və debitorların hüquqlarının müdafiəsini təmin etməklə yanaşı, uzunmüddətli maliyyələşmə ehtiyacı olan və böyümə mərhələsində olan sahibkarlıq subyektləri üçün əlavə kapitala çıxış imkanı yarada bilər. Dövlət dəstək mexanizmləri (xüsusi maliyyələşmə proqramları və faiz subsidiyaları) vasitəsilə MKOB-ların, o cümlədən fərdi sahibkarların maliyyəyə çıxışını artırmaq üçün qeyri-bank maliyyə institutlarının imkanlarından daha səmərəli istifadə edilməsi imkanları vardır;

**3.4.5. sahibkarlığın inkişafına yönəlmiş geniş spektrli dövlət dəstək proqramları formalaşdırılmışdır.** Dəstək proqramları çoxsaylı dövlət təşkilatları, o cümlədən Azərbaycan Biznesinin İnkişafı Fondu, Azərbaycan İnvestisiya Şirkəti, Aqrar Kredit və İnkişaf Agentliyi, İpoteka və Kredit Zəmanət Fondu, Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi yanında Azərbaycan Respublikasında Kiçik və Orta Biznesin İnkişafı, İnvestisiyaların və İxracın Təşviqi Agentliyi, habelə Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi (özünüməşğulluq proqramı üzrə) tərəfindən həyata keçirilir. Bu proqramlar iqtisadiyyatın maliyyələşdirilməsində və risklərin bölüşdürülməsində mühüm rol oynayır. Bununla yanaşı, mövcud mexanizmlərin təkmilləşdirilməsi perspektivləri mövcuddur. İlk növbədə, bu mexanizmlərin konsolidasiyası məhdud dövlət vəsaitlərindən səmərəli istifadə baxımından əhəmiyyətli hesab olunur. Sektorlar üzrə və regional diversifikasiyanın isə daha da artırılmasına ehtiyac vardır. Bu mexanizmlərdən istifadə istiqamətləri ilə milli iqtisadi hədəflərin uzlaşdırılması vacibdir, eyni zamanda dövlət dəstək mexanizmlərinin institusional çərçivəsinin, o cümlədən daxili proseslərin səmərəliliyinin və effektivliyinin artırılması imkanları mövcuddur. Qeyri-kommersiya məqsədli kapital investisiyaları və vençur maliyyələşməsi kimi ixtisaslaşdırılmış mexanizmlər də daxil olmaqla MKOB-ların bütün inkişaf tsiklini əhatə edən mexanizmlərə ehtiyac vardır.

MKOB seqmenti üzrə məlumat əlçatanlığı aşağı səviyyədə olmaqla bizneslərin kreditə çıxışına təsir göstərir. Əsas məsələlərdən biri MKOB-ların kredit qabiliyyətini qiymətləndirmək üçün maliyyə institutlarına xidmət edən əlçatan mərkəzləşdirilmiş məlumat bazasının olmamasıdır. Hazırda maliyyə institutları yalnız kredit tarixçəsi məlumatlarını əldə edirlər ki, bu da sahibkarlıq subyektlərinin ümumi maliyyə sağlamlığı və fəaliyyəti haqqında məhdud məlumat verir. Geniş çeşiddə məlumatın olmaması səbəbindən banklar daxili məlumat mənbələrinə və MKOB-lar tərəfindən təqdim olunan sənədlərə əsaslanmalı olur, halbuki MKOB-ların yalnız 64 faizi banklar tərəfindən tələb olunan maliyyə hesabatlarını hazırlamağı bacarır ki, bu da maliyyə institutları üçün məlumatların əldə edilməsində əlavə məhdudiyyətlərlə nəticələnir. Etibarlı maliyyə məlumatlarının məhdudluğu bankların bu sahibkarlıq subyektlərinin kredit qabiliyyəti və risk profillərini düzgün qiymətləndirməsinə mane olur. Bu isə girovdan asılılığın artması və maliyyə institutları tərəfindən daha yüksək risk premiyalarının tətbiq edilməsi ilə nəticələnir. Sadalanan çatışmazlıqların həll edilməsi və MKOB seqmentinin kreditə çıxışının asanlaşdırılması üçün maliyyə institutlarına MKOB-lar haqqında əhatəli və ən son maliyyə və qeyri-maliyyə məlumatlarını əldə etməyə imkan verən mərkəzləşdirilmiş məlumat bazasının yaradılmasına ehtiyac vardır. Məlumatların əlçatanlığını artırmaqla maliyyə institutları daha dəqiq kredit qərarları qəbul edə, girovdan asılılığı azalda və aşağı faiz dərəcələri təklif edərək iqtisadiyyat üçün əhəmiyyət kəsb edən MKOB sektorunun böyüməsinə töhfə verə bilərlər.

Maliyyə institutları tərəfindən müştərilərinin yerinə yetirilməyən öhdəlikləri müqabilində girovun reallaşdırılmasının həm xərc, həm də müd ət baxımından optimallaşdırılması imkanları mövcuddur. Bununla əlaqədar əsas amillərə aşağıdakılar aiddir:

3.4.5.1. məhkəmə qərarlarının icrasına nəzarət prosedurlarının təkmilləşdirilməsi imkanları mövcuddur. Belə ki, icra sənədlərinin məhkəməyə qaytarılması və ona nəzarət mexanizmləri, habelə işin yenidən icraya göndərilməsi məsələləri üzrə qeyri-müəyyənliklər və çətinliklər qalmaqdadır;

3.4.5.2. girovun satışı üzrə hərrac prosedurlarında zəifliklər banklar tərəfindən ipotekanın balansa götürülməsini şərtləndirir, eyni zamanda bu prosesin izafi dərəcədə xərcli və vaxttutumlu olması maliyyə xidmətlərinin xərcinin artmasına və maliyyə əlçatanlığının zəifləməsinə səbəb olur. Bu istiqamətdə beynəlxalq təcrübə nəzərə alınmaqla müasir və effektiv mexanizmlərin tətbiqi imkanlarının nəzərdən keçirilməsinə ehtiyac vardır;

**[illegible] [illegible] –2016-cı illərin iqtisadi və maliyyə böhranı istehlakçıların maliyyə institutlarına inamını azaltmışdır. Hazırda sektora inam bərpa olunmaqdadır.** Maliyyə sabitliyi və maliyyə sisteminin vasitəçilik funksiyasını effektiv yerinə yetirməsi üçün maliyyə institutlarına və bütövlükdə maliyyə sisteminə inam xüsu[illegible]i əhəmiyyət kəsb edir. Son illərdə müşahidə edilən qlobal, regional və yerli səviyyədə maliyyə böhranları bank sisteminə olan inama mənfi təsir etmişdir. Ötən dövr ərzində banklara və digər maliyyə vasitəçilərinə inamın bərpası istiqamətində əhəmiyyətli tədbirlər görülmüşdür və bu tədbirlərin davam etdirilməsinə ehtiyac vardır. Maliyyə institutlarına inama bir çox amillər təsir edir ki, onlardan yalnız bir qismi maliyyə sektoruna nəzarət orqanının və maliyyə institutlarının mandatına daxildir.

"Azərbaycan Respublikasında fiziki şəxslərin problemli kreditlərinin həlli ilə bağlı əlavə tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin 2019-cu il 28 fevral tarixli 551 nömrəli Fərmanının tələblərinə uyğun olaraq, fiziki şəxslərin xarici valyutada olan əsas kredit borclarının devalvasiya ilə bağlı manatla artmış hissəsinə hesablanmış kompensasiyaların ödənilməsinə 2019-cu il aprel ayından etibarən başlanılmışdır və həmin Fərmanın icrası aşağıdakı iki istiqamət üzrə aparılmışdır:

3.4.6.1. məzənnə korreksiyası nəticəsində korreksiya tarixlərinə kredit təşkilatları qarşısında 10 min ABŞ dollarına qədər qalıq borc üzrə kompensasiya ödənişləri (borcalanın sərəncamına veriləcək və 10 gündən artıq vaxtı keçmiş kreditin ödənişinə yönəldilən);

3.4.6.2. Fərmanın qüvvəyə mindiyi tarixə fiziki şəxslərin xarici valyutada əsas borc üzrə məbləği 10 min ABŞ dollarınadək, milli valyutada isə 17 min manatadək və gecikmə müddəti 1 ildən yuxarı olan borcların güzəştli şərtlərlə restrukturizasiyası (1 faizlə 5 il müddətinə 1 il əsas borc üzrə güzəşt müddəti verilməklə). Fərmanın icrası ilə bağlı ümumilikdə vətəndaşların fəaliyyətdə olan banklar, ləğv prosesində olan banklar və BOKT-larda xarici valyutada kreditlərinə görə 644,5 mln. manat kompensasiya ödənilmiş, 242,3 mln. manat kredit isə güzəştli şərtlərlə restrukturizasiya edilmişdir. Fərmanın icrası istehlak kreditlərinin keyfiyyətinə müsbət təsir göstərmişdir;

**3.4.7. Azərbaycan Respublikasında maliyyə inklüzivliyi üzrə məlumatların toplanması sisteminin təkmilləşdirilməsinə ehtiyac vardır.** Maliyyə inklüzivliyi üzrə müəyyən edilmiş strateji baxış və hədəflərin reallaşdırılması üçün MKOB-lar, o cümlədən fərdi sahibkarların maliyyə xidmətlərindən istifadə vəziyyətinə dair müfəssəl məlumatlara çıxışın olması vacibdir. Hazırda maliyyə inklüzivliyinin cari vəziyyəti, o cümlədən maliyyə xidmətlərinə tələbat, istehlakçıların seçimlərini və ehtiyaclarını diaqnostika etməyə imkan verən məlumat bazası məhduddur. Belə ki, maliyyə xidmətlərindən faktiki istifadə ilə bağlı statistik məlumatlar tam və əhatəli deyil, habelə bu istiqamətdə müvafiq sorğular mütəmadi əsasda aparılmır. Bundan əlavə, hazırda mövcud olan məlumatlar cins, yaş, iqtisadi fəaliyyət növü və yaşayış yeri kimi əsas maliyyə inklüzivliyi meyarları üzrə əhatəli və dəqiq təhlillərin aparılmasına imkan vermir.

**3.5. Maliyyə xidmətləri istifadəçilərinin potensialının artırılması və hüquqlarının müdafiəsi üzrə:**

**3.5.1. istehlakçıların maliyyə savadlılığı və hüquqlarının müdafiəsi sistemi formalaşdırılmışdır.** Əhali və sahibkarlıq subyektlərinin maliyyə savadlılığının artırılması istiqamətində tədbirlər həyata keçirilmiş və nailiyyətlər əldə edilmişdir. Bununla yanaşı, maliyyə xidmətlərinin rəqəmsallaşması fonunda əhali və sahibkarlıq subyektlərinin bu istiqamətdə savadlılığının artırılması ilə bağlı işlərin davam etdirilməsi zəruridir. Maliyyə savadlılığı aşağı olan və müasir texnoloji yenilikləri tam olaraq mənimsəməmiş müəyyən yaş qrupu müştərilər üzrə bank xidmətlərinə çıxış əsasən fiziki xidmət nöqtələrində (filial, şöbə) mümkündür. Bu qəbildən olan müştərilərin bankomatlardan, pul qəbulu terminallarından və digər oxşar infrastruktur elementlərindən istifadəsində çətinlikləri mövcuddur ki, bu da fırıldaqçılıq risklərini artıra bilər;

**3.5.2. ümumilikdə, Azərbaycan Respublikasında maliyyə üzrə bilik, davranış və bacarıq göstəriciləri nisbətən aşağıdır.** Belə ki, 2021-ci ilin məlumatına əsasən, Azərbaycan Respublikasında orta savadlılıq balı 9,6 olmuşdur ki, bu da Müstəqil Dövlətlər Birliyi ölkələrinin orta göstəricisindən (11,7 bal) aşağıdır. İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatının metodologiyasına əsasən, minimum bal 1, maksimum 21 bal təşkil edir. Maliyyə savadlılığı göstəricisinin altgöstəriciləri olan maliyyə biliyi, maliyyə davranışı və maliyyə bacarığı üzrə nəticələr müvafiq olaraq 2,4, 4,8 və 2,4 bal təşkil etmişdir ki, bu göstəricilərin hər biri Müstəqil Dövlətlər Birliyi ölkələri üzrə orta ballardan aşağıdır (müvafiq olaraq 3,6, 5,6 və 2,5);

**3.5.3. maliyyə xidmətləri istehlakçılarının hüquqlarının müdafiəsi sisteminin əsasları formalaşdırılmışdır.** Son dövrlərdə müvafiq sahədə normativ hüquqi bazanın yenilənməsi ilə istehlakçıların maliyyə xidmətləri barədə əvvəlcədən məlumatlandırılmasına dair tələblər gücləndirilmiş, rəqəmsal ödəniş xidmətləri zamanı zərərin həddi istehlakçıların xeyrinə tənzimlənmişdir. Bu yeniliklər istehlakçıların maliyyə xidmətlərindən istifadə zamanı qərar verməsi və bununla da maliyyə xidmətlərinə çıxış və istifadə səviyyəsinin artırılması, həmçinin rəqəmsal xidmətlərdən yararlanarkən istifadəçilərin əmlak mənafelərinin müdafiəsi üçün vacibdir.

Belə ki, maliyyə xidmətlərinin rəqəmsallaşması yeni imkanlarla yanaşı, maliyyə xidməti təchizatçıları və kənar şəxslər tərəfindən qeyri-şəffaf davranışlar üçün də imkanlar yaradır. Bu da rəqəmsallaşma maliyyə xidmətlərinin genişlənməsi ilə yanaşı, əlaqəli risklərin, habelə fırıldaqçılıq hallarının, izafi borclanmanın artması ilə nəticələnə bilər. Bu isə maliyyə inklüzivliyinin mahiyyəti ilə ziddiyyət təşkil edir. Bundan başqa, maliyyə institutlarının qeyri-sağlam davranışı maliyyə vasitəçilərinə inamın azalmasına və maliyyə sabitliyinə mənfi təsir göstərə bilər.

Ölkədə istehlakçıların hüquqlarının müdafiəsi üzrə mövcud sistem istehlakçıların üzləşdiyi əsas məsələləri əhatə etsə də, riskləri kompleks şəkildə həll etmək üçün təkmilləşdirilməsinə ehtiyac vardır. Bunun üçün hüquqi çərçivənin daha da təkmilləşdirilməsi, xüsusilə rəqəmsal maliyyə tətbiqləri ilə bağlı yaranan risklərin tənzimlənməsi məqsədilə alətlərin, habelə müştəriləri maddi zərərdən və sui-istifadə hallarından qoruyan mexanizmlərin yaradılması zəruri hesab olunur;

**3.5.4. əhalinin həssas qrupları üzrə maliyyə inklüzivliyi aktual məsələlərdən biridir.** Əlilliyi olan şəxslərin, yaşlı əhalinin, gənclərin, əcnəbilərin və qaçqınların maliyyə xidmətlərinə çıxışındakı çətinlikləri aradan qaldırmaq, müvafiq əhali qrupları üzrə maliyyə xidmətlərinə çıxışın artırılması imkanları araşdırılmalıdır. Aşağıdakı seqmentlər həssas qruplar kimi təsnifləşdirilmişdir:

3.5.4.1. əlilliyi olan şəxslər. Əlilliyi olan şəxslərin maliyyə xidmətlərindən istifadə imkanlarının artırılması istiqamətində bütün əlaqəli tərəflərin iştirakı ilə yeni təşəbbüslərin həyata keçirilməsinə ehtiyac vardır;

3.5.4.2. yaşlı əhali və təqaüdçülər. Özünəməxsus xüsusiyyətləri və maliyyə savadlılığı səviyyəsinin aşağı olması səbəbindən, yaşlı əhali qrupunun maliyyəyə çıxış imkanları ənənəvi maliyyə xidmət kanalları ilə məhdudlaşır. Sözügedən müştəri seqmenti maliyyə xidmətlərindən istifadə zamanı bir çox hallarda kənar şəxslərin köməyinə ehtiyac duyur ki, bu da bəzən onların fırıldaqçılıq halları ilə üzləşmələri ilə nəticələnir;

3.5.4.3. əcnəbilər, vətəndaşlığı olmayan şəxslər və qaçqınlar. Əcnəbilər, vətəndaşlığı olmayan şəxslər, qaçqınlar və qaçqın statusunun əldə edilməsi üçün müraciət etmiş şəxslərin ölkədə yaşadıqları müddətdə maliyyə xidmətlərindən istifadəsi zəruri əhəmiyyət kəsb edir. Son qlobal trendlər fonunda bu kateqoriyadan olan şəxslərin maliyyə xidmətlərindən istifadəsi ilə bağlı yaranan məsələlərin diaqnostikasına və təkmilləşdirilməsinə ehtiyac vardır.

*(ardı 17-ci səhifədə)*

# Azərbaycan Respublikasında maliyyə inklüzivliyinin genişləndirilməsinə dair 2027–2030-cu illər üçün Dövlət Proqramı

*(əvvəli 16-cı səhifədə)*

## 4. DÖVLƏT PROQRAMININ HƏDƏF GÖSTƏRİCİLƏRİ

4.1. Dövlət Proqramının icrası nəticəsində aşağıdakı hədəflərə nail olunması nəzərdə tutulur:

4.1.1. maliyyə xidməti kanallarının bütün iqtisadi rayonlarda mövcudluğunun təmin edilməsi sahəsində:

4 hər 100.000 yetkin (15+) nəfərə düşən POS-terminalların sayının 2400-ə çatdırılması (2025-ci ildə 2262);

4.1.1.2. hər 100.000 yetkin (15+) nəfərə düşən bankomatların sayının 46-ya çatdırılması (2025-ci ildə 43,9);

4.1.2. maliyyə məhsul və xidmətlərinin genişləndirilməsi sahəsində:

4.1.2.1. müddətli əmanət hesabı olan unikal yetkinlik yaşına çatmış əhalinin (15+) payının 2,8 faizə çatdırılması (2025-ci ildə 2,4 faiz);

4.1.2.2. tam və qismən təminatlı kreditlərin cəmi kreditlərdə payının 72 faizə endirilməsi (2025-ci ildə 75 faiz);

4.1.2.3. adambaşına düşən sığorta haqqının 220 manata çatdırılması (2025-ci ildə 147 manat);

4.1.2.4. paylanılmış "Öz müştərini tanı" sisteminə qoşulan maliyyə institutlarının payının 30 faizə çatdırılması (2025-ci ildə 0 faiz);

4.1.2.5. açıq bankçılıq modelini tətbiq edən bank olmayan ödəniş xidməti təchizatçılarının payının 10 faizə çatdırılması (2025-ci ildə 0 faiz);

4.1.2.6. adambaşına düşən nağdsız ödənişlərin sayının 250-ə çatdırılması (2025-ci ildə 228);

4.1.3. inklüziv siyasətlər və tənzimləmə sahəsində:

4.1.3.1. bank hesabı olan istifadəçilərin sayının yetkinlik yaşına çatmış bütün əhalinin sayına nisbətinin 85 faizə çatdırılması (2025-ci ildə 70,7 faiz);

4.1.3.2. maliyyə institutundan ən azı bir cari krediti və ya kredit xətti olan MKOB-ların bütün MKOB-ların sayına nisbətinin 36 faizə çatdırılması (2025-ci ildə 25 faiz);

4.1.3.3. unikal sığorta müqaviləsi sahiblərinin ümumi sayının (həyat və qeyri-həyat üzrə) yetkin əhalinin sayında payının 32 faizə çatdırılması (2025-ci ildə 25 faiz);

4.1.3.4. BOKT-lar üzrə aktivlərin həcminin, "Aqrarkredit" QSC və kredit ittifaqları istisna olmaqla, 1,5 milyard manata çatdırılması (2025-ci ildə 1 milyard manat);

4.1.4. məlumatlı istifadəçilər və maliyyə istehlakçılarının hüquqlarının qorunması sahəsində:

4.1.4.1. maliyyə savadlılığı balının 11,7-yə çatdırılması (2021-ci ildə 9,6);

4.1.4.2. kredit təşkilatlarına və sığorta şirkətlərinə müraciətlərin sayının bu xidmətlər üzrə istifadəçilərin sayına nisbətinin 0,46 faizə endirilməsi (2025-ci ildə 0,66 faiz).

## 5. DÖVLƏT PROQRAMININ MƏQSƏDLƏRİ

5.1. Dövlət Proqramının əsas məqsədləri aşağıdakılardır:

5.1.1. maliyyə xidmətlərinə rahat çıxışın təmin edilməsi, həmçinin əhali və MKOB-ların maliyyə sektorunda geniş iştirakının təmin edilməsi;

5.1.2. maliyyə xidmətləri haqqında məlumatlılıq səviyyəsinin artırılması;

5.1.3. maliyyə məhsullarının keyfiyyətinin və müştəri məmnuniyyətinin artırılması;

5.1.4. fiziki şəxslərin və sahibkarlıq subyektlərinin maliyyə xidmətlərindən bərabər və şəffaf şəkildə istifadə edə bilməsinin təmin edilməsi.

## 6. DÖVLƏT PROQRAMININ PRİORİTET İSTİQAMƏTLƏRİ

6.1. Dövlət Proqramı çərçivəsində aşağıdakı prioritet istiqamətlər üzrə işlər həyata keçiriləcəkdir:

6.1.1. maliyyə xidməti kanallarının bütün iqtisadi rayonlarda mövcudluğunun təmin edilməsi:

- **əsaslandırma:** birinci prioritetin zərurəti bir sıra amillərlə şərtlənir. İlk növbədə, maliyyə inklüzivliyinin genişləndirilməsi məqsədilə maliyyə xidmətlərinin çatdırılma kanallarına çıxışın gücləndirilməsi istiqamətində Azərbaycan Respublikasında təqdirəlayiq irəliləyişlər əldə edilsə də, təkmilləşdirmə üçün əhəmiyyətli imkanlar qalmaqdadır. Bu, xüsusilə fiziki maliyyə infrastrukturunun daha aşağı əhatə dairəsinin olduğu regionlar və ucqar bölgələr üçün faydalı olacaqdır. Rəqəmsallaşma dövrü ənənəvi bank filial və şöbə şəbəkəsi modelindən kənar maliyyə xidmətlərinin çatdırılması üçün alternativ mexanizmlərin yaradılmasını şərtləndirir. Alternativ çatdırılma kanalları çoxfunksiyalı bankomatlar, maliyyə agentləri, mobil bankçılıq, internet bankçılıq, zəng mərkəzləri və digər alternativ kanalları ehtiva etməklə, müştərilər üçün daha çox əlçatanlıq və rahatlıq təqdim edir. Alternativ çatdırılma kanalları ənənəvi kanalları (bank filialları, şöbələri) tamamlamaqla müştəri məmnuniyyətini artırır, tranzaksiya xərclərini aşağı salır və daha çox istifadəni təşviq edir. Bununla yanaşı, təhlükəsiz və səmərəli ödəniş sisteminin mövcudluğu təkcə maliyyə inklüzivliyinin deyil, həm də maliyyə sabitliyinin əsasını təşkil edir. Ölkədə iri və pərakəndə ödənişlər üçün klirinq sistemləri, ani ödəniş kimi sistemlərdən ibarət əhatəli milli ödəniş infrastrukturunun əsasları formalaşdırılıb. Qeyd edilən irəliləyişlərə baxmayaraq, nağdsız ödənişlərin payı seçilmiş hesab olunan ölkələrin göstəricilərindən və ölkənin siyasət hədəflərindən (65–70 faiz) geri qalır. Beləliklə, birinci prioritet çoxsaylı qarşılıqlı fəaliyyət göstərən kanalların harmoniyada işləməsinə, əlçatanlığın təmin edilməsi yolunda çatışmazlıqların aradan qaldırılmasına və maliyyə inklüzivliyi hədəflərinin gerçəkləşdirilməsinə və son nəticədə, ölkənin sosial-iqtisadi tərəqqisinə töhfə verən maliyyə xidmətləri ekosisteminin inkişaf etdirilməsini hədəfləyir;
- **görüləcək tədbirlər:**

6.1.1.2.1. maliyyə xidmətləri üzrə çeşidli çatdırılma kanallarının optimal səviyyəsinə dair metodologiyanın müəyyən edilməsi;

6.1.1.2.2. AÖS-ün əhatə dairəsinin genişləndirilməsi;

6.1.1.2.3. təsərrüfat subyektləri tərəfindən nağdsız ödənişlərin qəbulu imkanlarının genişləndirilməsi;

- **gözlənilən nəticə və nəticə indikatorları:**

6.1.1.3.1. maliyyə xidmətlərinin çatdırılma kanallarının optimal səviyyəsinə dair meyarların müəyyən edilməsi və alternativ xidmət kanallarının yaradılması;

6.1.1.3.2. bankların AÖS-ə tam inteqrasiya olunması;

- **gözlənilən risklər və onların neytrallaşdırılması tədbirləri:**

6.1.1.4.1. maliyyə xidmətlərinin rəqəmsallaşması fonunda bank və qeyri-bank maliyyə təşkilatları tərəfindən fiziki maliyyə infrastrukturu şəbəkəsinin azaldılması baş verə bilər. Bu riskin azaldılması məqsədilə fiziki maliyyə kanallarının paylanmasının mütəmadi monitorinqinin aparılması və tənzimləmə, nəzarət və dialoq mexanizmləri vasitəsilə maliyyə xidmətləri şəbəkəsinin optimal səviyyəsi təmin ediləcəkdir;

6.1.1.4.2. istehlakçıların rəqəmsal kanallar və rəqəmsal maliyyə xidmətlərindən istifadəyə yönəlməsi daha aşağı templə baş verə bilər. Bu baxımdan rəqəmsal maliyyə sisteminin etibarlılığı və təhlükəsizliyi təmin edilməklə rəqəmsal maliyyə infrastrukturundan istifadə üzrə inamın artırılması, əhali və kiçik biznes sahibləri arasında maliyyə savadlılığını yüksəltməklə potensial maneələrin azaldılması təmin ediləcəkdir;

6.1.1.4.3. ödəniş xidməti təchizatçıları AÖS ilə müqayisədə ənənəvi ödəniş sistemindən istifadəyə üstünlük verə bilər. Bu səbəbdən ödəniş xidməti təchizatçılarının bərabər şərtlərlə AÖS-ə qoşulmasının təmin edilməsi, AÖS-dən istifadənin faydaları haqqında maarifləndirmə və təşviqedici tədbirlərin həyata keçirilməsi nəzərdə tutulur;

6.1.2. fiziki şəxslərin və MKOB-ların ehtiyaclarına cavab verən maliyyə məhsul və xidmətlərinin genişləndirilməsi:

- **əsaslandırma:** Keyfiyyətli maliyyə məhsulları və xidmətləri maliyyə inklüzivliyi məqsədlərinə nail olmaq üçün təməl sütunlardan biridir. Bu, təkcə dar çərçivədə maliyyə xidmətlərinə çıxışı deyil, bütün fiziki şəxslər və sahibkarlıq subyektlərinin maliyyə rifahını şərtləndirən müfəssəl layihələndirilmiş, sərfəli və əlçatan maliyyə xidmətlərini ehtiva edir. Hazırda fiziki şəxslərin və MKOB-ların kreditə çıxışı ilə bağlı bir sıra çağırışlar mövcuddur. MKOB-ların kreditlə yanaşı, kapitalın digər formalarına çıxışı məhduddur. Maliyyə məhsulu və xidmətlərinin çeşidi, xüsusilə, məlumat əsaslı maliyyələşmə məhsulları məhduddur və mövcud infrastrukturun imkanlarından yetərincə istifadə edilmir. İpoteka, kənd təsərrüfatı, turizm kimi digər spesifik sahələrə, habelə ilkin inkişaf mərhələsində olan və ya inkişafyönümlü şirkətlərə istiqamətlənmiş xüsusi maliyyələşmə mexanizmləri azdır. Ümumilikdə, əhalinin yığıma meyilliyi yüksək olsa da, maliyyə institutları və ya maliyyə alətləri üzrə yığım aşağı səviyyədədir. Bu səbəbdən, daha cəlbedici maliyyə məhsullarının və investisiya alətlərinin inkişaf etdirilməsinə ehtiyac vardır. Bundan əlavə, fiziki və hüquqi şəxslər üzrə sığorta xidmətlərinin əhatə dairəsinin genişləndirilməsi üçün ardıcıl və əhatəli tədbirlərə, innovativ məhsullara zərurət vardır. Ümumilikdə, MKOB-ların potensialını reallaşdıra bilməsi və ÜDM-in formalaşmasında payının artırılması üçün kredit və digər maliyyələşmə mənbələrinə çıxışın optimallaşdırılması zəruri hesab olunur. Nəhayət, kənd təsərrüfatı sektorunda maliyyə məhdudiyyətinin aradan qaldırılması olduqca aktualdır. Beləliklə, bu tədbir yuxarıda göstərilən çoxşaxəli çətinliklərin hərtərəfli həllinə dair kompleks islahatları formalaşdırır. Əsas məqsəd fiziki şəxslərin və sahibkarlıq subyektlərinin maliyyə xidməti ehtiyaclarına dərindən fokuslanmış, iqtisadi artımı stimullaşdıran və ölkənin milli prioritetlərinə söykənən firavan cəmiyyətin formalaşdırılması yolunda heç kəsi kənarda qoymayan maliyyə ekosistemini yaratmaqdır;
- **görüləcək tədbirlər:**

6.1.2.2.1. ölkədaxili və xarici pul köçürmələri üzrə imkanların genişləndirilməsi;

6.1.2.2.2. kiçik və orta həcmli yığımların maliyyə sektoruna cəlb edilməsi üçün əlverişli mühitin yaradılması;

6.1.2.2.3. xüsusi investisiya alətlərinin yaradılması yolu ilə kiçik miqyaslı investisiya imkanlarının inkişaf etdirilməsi;

6.1.2.2.4. rəqəmsal broker platformalarının tətbiqinin təşviq edilməsi;

6.1.2.2.5. bankların kapital bazarlarında birbaşa iştirakının təşviq edilməsi;

6.1.2.2.6. sığorta xidmətlərinin çatdırılması üzrə sığorta agentləri şəbəkəsinin keyfiyyətinin və effektivliyinin artırılması;

6.1.2.2.7. bank–sığorta tərəfdaşlığı modelinin inkişaf etdirilməsi;

6.1.2.2.8. sığorta məhsullarının çatdırılma kanallarının rəqəmsallaşdırılması;

6.1.2.2.9. açıq sığorta modelinin tətbiq edilməsi;

6.1.2.2.10. mikrosığorta bazarının yaradılması və inkişaf etdirilməsi;

6.1.2.2.11. könüllü sığorta növləri üzrə yığımların artırılması;

6.1.2.2.12. tamamlayıcı könüllü tibbi sığorta mexanizminin yaradılması;

6.1.2.2.13. icbari sığorta növləri üzrə şəhadətnamə buraxılışının tam elektronlaşdırılmasının tamamlanması;

6.1.2.2.14. kənd təsərrüfatı sığortasının əhatə dairəsinin sığorta predmetləri və risklər üzrə genişləndirilməsi, həmçinin yeni sığorta predmetləri və risklər üzrə təkrarsığorta təminatının alınması imkanlarının dəyərləndirilməsi;

6.1.2.2.15. kənd təsərrüfatı sığortası sahəsində innovativ yeniliklərin tətbiqi imkanlarını dəyərləndirməklə institusional potensialın gücləndirilməsi;

6.1.2.2.16. kənd təsərrüfatı kreditləşməsi üzrə alternativ girov mexanizmlərinin tətbiqi;

6.1.2.2.17. maliyyə institutları tərəfindən anbar və məhsul şəhadətnaməsindən alternativ girov aləti kimi istifadənin təmin edilməsi;

6.1.2.2.18. fermerlərin maliyyələşmə mexanizmlərinin təkmilləşdirilməsi;

6.1.2.2.19. mikrokreditlərin nağd şəkildə verilməsi imkanının yaradılması;

6.1.2.2.20. maliyyə institutlarının və sahibkarların kənd təsərrüfatı məhsullarının real bazar qiymətləri barədə məlumatlarla təmin olunması;

6.1.2.2.21. kənd təsərrüfatı məhsullarının istehsalı üzrə aqrotexniki xəritələrə və xərclərə dair məlumat bazasının hazırlanması, mütəmadi yenilənməsi və həmin bazaya onlayn çıxış imkanının təmin edilməsi;

6.1.2.2.22. "Mühasibat uçotu haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq, MKOB-lar tərəfindən tətbiq olunan standartlar, uçotun aparılması qaydaları və qəbul edilən uçot siyasəti əsasında onlarda mühasibat uçotunun aparılmasının, hesabatlılığın, habelə maliyyə şəffaflığının təmin edilməsi;

6.1.2.2.23. informasiya asimmetriyasını aradan qaldırmaq və pul axınları əsaslı kreditləşməni artırmaq məqsədilə Azərbaycan Respublikasının Maliyyə Nazirliyi yanında Maliyyə Elm-Tədris Mərkəzinin, peşəkar mühasib təşkilatlarının və sahibkarlıq subyektlərinin MKOB-lara mühasibat uçotu xidmətləri göstərməyə həvəsləndirilməsi;

6.1.2.2.24. elektron qaimələr və digər təşəbbüslər vasitəsilə aktiv əsaslı maliyyələşdirmənin təşviqi (maliyyə icarəsi, faktorinq, invoys maliyyələşməsi);

6.1.2.2.25. kənd təsərrüfatı müəssisələri üçün spesifik maliyyələşmə məhsullarının yaradılmasının dəstəklənməsi;

6.1.2.2.26. kredit resurslarına çıxışı məhdud olan, lakin perspektivli layihələrə malik MKOB-ların kreditə çıxışını təmin etmək üçün kredit zəmanəti mexanizmlərinin effektivliyinin araşdırılması və təkmilləşdirilməsi;

6.1.2.2.27. yerli alternativ maliyyə institutlarının inkişafının təşviq edilməsi;

6.1.2.2.28. sahibkarlığın inkişafını dəstəkləmək məqsədilə startaplar, ilkin inkişaf mərhələsində olan sahibkarlıq subyektləri və böyümə hədəfli MKOB-lar üçün maliyyə mənbələrinə (borc və kapital) çıxış imkanının artırılması;

6.1.2.2.29. borcalanların kreditə çıxışının asanlaşdırılması məqsədilə kreditə müraciət və kreditin əldə edilməsi prosesinin təhlili və optimallaşdırılması üzrə təkliflərin hazırlanması;

6.1.2.2.30. kənd təsərrüfatı sahəsində fəaliyyət göstərən sahibkarların kreditləşməsi üzrə maliyyə institutları əməkdaşlarının, sahibkarların və sahibkarlıq subyektlərini özündə birləşdirən assosiasiyaların elmi və texniki biliklərinin, habelə praktiki bacarıqlarının artırılması;

6.1.2.2.31. ipoteka kreditlərinə çıxış və ipoteka kreditlərindən istifadənin genişləndirilməsi;

6.1.2.2.32. az miqdarda nağd pula ehtiyacı olan fiziki şəxslər üçün qısamüddətli təcili kreditləşmə alətlərinin təşviq edilməsi;

6.1.2.2.33. qadınlar üçün maliyyə məhsullarının təqdim edilməsinin və bu istiqamətdə bazar təhlilləri aparılmasının təşviq edilməsi;

- **gözlənilən nəticə və nəticə indikatorları:**

6.1.2.3.1. maliyyə xidməti təminatçıları tərəfindən əlverişli şərtlərlə rəqəmsal ödəniş və pul köçürmə xidmətlərinin xüsusi tənzimləmə rejimində test olunması;

6.1.2.3.2. kiçik və orta həcmli yığımların artırılması ilə bağlı təkliflər paketinin hazırlanması;

6.1.2.3.3. icbari və könüllü sığortanın əhali və bizneslərin yeni risk və istifadəçi qrupları üzrə əhatə dairəsinin artması;

6.1.2.3.4. kənd təsərrüfatı sığortası sisteminin təkmilləşdirilməsi, fermerlər və kənd təsərrüfatı məhsulu istehsalçıları tərəfindən kənd təsərrüfatı sığortasından istifadənin artması;

6.1.2.3.5. MKOB və kənd təsərrüfatı üzrə maliyyə məhsullarının çeşidliliyinin artması (o cümlədən diversifikasiya edilmiş borclanma alətləri, maliyyə icarəsi və faktorinq);

6.1.2.3.6. əhali üçün sərfəli istehlak və ipoteka kreditləri imkanlarının genişləndirilməsi;

6.1.2.3.7. qadınlara yönəlmiş maliyyə məhsulları təklifinin artması;

- **gözlənilən risklər və onların neytrallaşdırılması tədbirləri:**

6.1.2.4.1. müştərilərin mal və xidmətlərin rəqəmsal vasitələrlə ödənişinə hazır olmaması riski mövcuddur. Bununla əlaqədar, aidiyyəti dövlət orqanları (qurumları) tərəfindən rəqəmsal ödənişlərdən istifadənin artırılması məqsədilə pərakəndə ticarət obyektlərində həm nağd, həm də nağdsız ödənişlərin qəbul edilməsi üzrə normativ hüquqi aktların tələblərinə riayət olunmasına nəzarətin gücləndirilməsi nəzərdə tutulur;

6.1.2.4.2. yığımların maliyyə institutlarında və maliyyə alətlərində saxlanılmasının riskli olmasına dair təsəvvürlərin davam etməsi riski mövcuddur. Bununla əlaqədar, bank sektoruna inamın gücləndirilməsi üzrə çoxşaxəli və ardıcıl tədbirlərin həyata keçirilməsi nəzərdə tutulur;

6.1.2.4.3. könüllü sığortanın dəyəri və faydaları haqqında yanlış təsəvvürlər onun geniş mənimsənilməsini məhdudlaşdıra bilər. Sığorta sektorunun maraqlı tərəfləri arasında əməkdaşlıq vasitəsilə sığortanın faydasının yüksəldilməsi və ondan istifadənin artırılması üçün əlavə stimulların təqdim edilməsi nəzərdə tutulur;

6.1.2.4.4. qeyri-müəyyənliklər və innovativ xassəli olması səbəbindən, MKOB-ların alternativ maliyyələşmə mənbələrindən istifadə səviyyəsinin aşağı qalması riski mövcuddur. MKOB-ların alternativ maliyyələşmə alətləri (maliyyə icarəsi, faktorinq, TZM və s.) ilə əlverişli şərtlərlə təmin edilməsi üçün tənzimləmə sahəsində stimullarının nəzərdən keçirilməsi, alternativ maliyyələşmə mexanizmlərinin dövlət dəstək fondlarının proqramlarına inteqrasiya edilməsi vasitəsilə bu risklər azaldılacaqdır;

6.1.2.4.5. özünüməşğul əhalinin və MKOB-ların kreditə çıxışının girov tələbləri və zəif kredit qabiliyyətinin qiymətləndirilməsi praktikasındakı zəifliklər səbəbindən məhdud olaraq qalması riski mövcuddur. Maliyyə institutlarına MKOB-lar və özünüməşğul əhali üzrə girov tələblərinə dair çətinliklərin cavablandırılması üçün alternativ maliyyə qiymətləndirmə üsulları üzrə təlimlər keçiriləcəkdir;

6.1.2.4.6. maliyyə sektorunda kadr potensialı nəzərdə tutulan tədbirlərin reallaşdırılmasını məhdudlaşdıra bilər. Bununla əlaqədar, maliyyə sektorunda işləyən kadrlar üçün təlim proqramlarının tətbiqi nəzərdə tutulur;

6.1.3. müxtəlif maliyyə xidmətləri təchizatçılarının dəstəklənməsi və müasir maliyyə infrastrukturunun qurulması vasitəsilə maliyyə sektorunda effektivliyin və inklüzivliyin artırılması;

- **əsaslandırma:** maliyyə xidmətlərinin rəqəmsal transformasiyası maliyyə xidmətləri landşaftının yenidən qurulmasını şərtləndirir. Bununla yanaşı, Azərbaycan Respublikasının maliyyə sektorunun qlobal transformasiya proseslərinə inteqrasiyası nisbətən ləng baş verir. Yeni formalaşmaqda olan fintex sektoru geniş perspektivlərə malik olmasına baxmayaraq, dəstəkləyici hüquqi çərçivənin olmaması və innovasiyaları təşviq etmək üçün tələb olunan investisiya kapitalının məhdudluğu səbəbindən inkişaf problemləri ilə üzləşir. Fintex və digər maliyyə innovasiyalarının maliyyə inklüzivliyinin artırılmasında böyük potensialını nəzərə alaraq, texnologiyanın hər kəsə fayda verməsini təmin etmək üçün dövlət siyasətinin özəl sektor innovasiyaları ilə uzlaşdırılması vacibdir. Bundan əlavə, məlumatlar (verilənlər bazası) maliyyə xidmətlərinin layihələndirilməsində və çatdırılmasında, xüsusən də maliyyə xidmətləri ilə kifayət qədər əhatə olunmayan fiziki və hüquqi şəxslər üçün həlledici rola malikdir. Hazırda maliyyə institutları özünüməşğul əhali, MKOB-lar haqqında məlumatların toplanmasında böyük çətinliklərlə qarşılaşır. Bu problemlərin bir qismi qeyd edilən seqmentlər üzrə hüquqi anlayışların mürəkkəb və bəzi hallarda ziddiyyətli olmasından, "Öz müştərini tanı" proseslərini asanlaşdıra biləcək mərkəzləşdirilmiş verilənlər bazalarının olmamasından və digər amillərdən irəli gəlir. Beləliklə, üçüncü prioritet rəqəmsal innovasiyaları əhatə edən, maliyyə xidmətləri təminatçıları arasında müxtəlifliyi təşviq edən və maliyyə xidmətləri ilə zəif əhatə olunan təbəqələrə daha yaxşı xidmət göstərmək üçün məlumat potensialından səmərəli istifadə edən dinamik maliyyə ekosisteminin yaradılmasına hədəflənmişdir;
- **görüləcək tədbirlər:**

6.1.3.2.1. rəqəmsal identifikasiya və rəqəmsal profilin yaradılması;

6.1.3.2.2. paylanılmış elektron "Öz müştərini tanı" sisteminin tətbiq edilməsi;

6.1.3.2.3. fintexlər üçün hüquqi çərçivənin inkişaf etdirilməsi;

6.1.3.2.4. MKOB-ların, ailə kəndli təsərrüfatlarının və fermerlərin identifikasiyası üzrə hüquqi çərçivənin təkmilləşdirilməsi və mərkəzləşdirilmiş məlumat bazasının yaradılması;

6.1.3.2.5. yerli kredit reytinqi mexanizminin yaradılması;

- **gözlənilən nəticə və nəticə indikatorları:**

6.1.3.3.1. bütün maliyyə xidmətləri təminatçıları tərəfindən tətbiq olunan universal identifikasiya sistemi və elektron "Öz müştərini tanı" sisteminin yaradılması;

6.1.3.3.2. fintexlərin maliyyə bazarlarına çıxışı üçün əlverişli şərait yaradılması və səmərəli texnoloji həllərin tətbiqinin genişləndirilməsi;

6.1.3.3.3. maliyyə sektorunu dəstəkləyən informasiya infrastrukturunun təkmilləşdirilməsi və gücləndirilməsi;

6.1.3.4. gözlənilən risklər və onların neytrallaşdırılması tədbirləri:

6.1.3.4.1. universal identifikasiya sisteminin daha mürəkkəb olması və tətbiqinin daha uzun müddət tələb etməsi səbəbindən maliyyə institutları tərəfindən universal elektron "Öz müştərini tanı" sisteminin tətbiqi ləngiyə bilər. Qabaqcıl beynəlxalq təcrübələrin öyrənilməsi və daha sürətlə tətbiq oluna bilən özünü doğrultmuş həllər tətbiq ediləcəkdir;

6.1.3.4.2. MKOB-lar üzrə mərkəzləşdirilmiş məlumat bazalarının aidiyyəti dövlət orqanlarının məlumat bazaları ilə inteqrasiyasında çətinliklər və ya ləngimələr baş verə bilər. Sahibkarlıq subyektləri haqqında məlumatların düzgün və vaxtında toplanılmasını təmin etmək üçün müvafiq maraqlı tərəflər arasında əməkdaşlıq gücləndiriləcək, o cümlədən birgə işçi qruplar yaradılacaq;

6.1.4. hüquqi və digər dövlət siyasətləri çərçivəsinin əhalinin və MKOB-ların maliyyə inklüzivliyinin artırılması məqsədləri ilə uzlaşdırılması;

- **əsaslandırma:** inklüziv siyasətin və hüquqi çərçivənin mövcudluğu maliyyə sabitliyinə və istehlakçıların hüquqlarının qorunmasına xidmət edən maliyyə sektoru landşaftının əsas sütunlarından biridir. Bu istiqamətdə tənzimləmə mühitinin inklüziv olması olduqca əhəmiyyətlidir. Belə ki, inklüziv tənzimləmə mühiti maliyyə xidməti təchizatçıları üçün inkişafyönümlü fəaliyyət mühitini təmin edir və yeni innovativ çatdırılma kanallarının yaradılmasını təşviq edir. Bununla yanaşı, hüquqi çərçivə maliyyə sabitliyi və maliyyə inklüzivliyi məqsədləri arasında həssas tarazlığı təmin etməlidir. Qeyd edilənlər nəzərə alınaraq, proporsional tənzimləmə yanaşmasının qəbulu inklüziv tənzimləmənin təmin edilməsi üçün vacib amildir. Bu yanaşma e-müqavilədən və e-imzadan istifadə, informasiya sistemlərinin qarşılıqlı əlaqəsi və elektron "Öz müştərini tanı" protokolları kimi məsələləri əhatə edir. Beləliklə, dördüncü prioritet siyasət və hüquqi çərçivənin yenidən kalibrasiyasını və maliyyə inklüzivliyi siyasətinin maliyyə sabitliyi ilə həmahəng şəkildə inkişaf etdirmək hədəflərini ehtiva edir. Proporsional tənzimləməni təmin etmək və dövlət dəstək proqramlarının effektivliyini və miqyasını artırmaqla real sektorun ehtiyaclarına istiqamətlənmiş maliyyə sektoru ekosistemi formalaşdırılacaqdır;
- **görüləcək tədbirlər:**

6.1.4.2.1. MKOB-lar, o cümlədən fərdi sahibkarlar üçün hesabların (yerində və məsafədən) açılması ilə bağlı qaydaların optimallaşdırılması;

6.1.4.2.2. rəqabəti stimullaşdırmaq və fintex təşkilatları tərəfindən yeni maliyyə xidmətlərinin inkişafına imkan yaratmaq məqsədilə açıq bankçılığın funksionallığının genişləndirilməsi;

6.1.4.2.3. fiziki və hüquqi şəxslər tərəfindən valyuta köçürmələrinin aparılması qaydalarının **və** prosedurlarının optimallaşdırılması;

6.1.4.2.4. faktorinq və invoys maliyyələşməsinin inkişafının stimullaşdırılması məqsədilə hüquqi çərçivənin təkmilləşdirilməsi;

6.1.4.2.5. girovun realizasiyası mexanizmləri üzrə hüquqi çərçivənin təkmilləşdirilməsi;

6.1.4.2.6. problemli aktivlərin satışı üzrə əlverişli ekosistemin formalaşdırılması;

6.1.4.2.7. alternativ maliyyə məhsullarının və xidmətlərinin təhlili və seçilmiş istiqamətlər üzrə hüquqi çərçivənin formalaşdırılması;

6.1.4.2.8. maliyyə sektorunun tənzimlənməsi üzrə normativ xarakterli aktların maliyyə inklüzivliyinə təsirinin qiymətləndirilməsi mexanizminin yaradılması;

6.1.4.2.9. istehlakçılara əməkhaqlarının ödənilməsində banklar arasından seçim etmək imkanının təmin olunması;

6.1.4.2.10. Milli Ödəniş Sistemi komponentlərinin funksional imkanlarının genişləndirilməsi yolu ilə əlçatanlığın artırılması;

6.1.4.2.11. mövcud dövlət dəstək mexanizmlərinin effektivliyinin qiymətləndirilməsi və konsolidasiyası üzrə təkliflərin hazırlanması;

6.1.4.2.12. aidiyyəti dövlət fondlarının (Azərbaycan Biznesinin İnkişafı Fondu, İpoteka və Kredit Zəmanət Fondu), Aqrar Kredit və İnkişaf Agentliyinin və müvəkkil kredit təşkilatlarının fəaliyyətində təkrarçılığın aradan qaldırılması və digər təkmilləşdirmələr vasitəsilə MKOB-ların maliyyələşməsi müddəti və xərcinin azaldılması;

6.1.4.2.13. MKOB-ların bütün seqmentlərinin maliyyəyə bərabər çıxışının təmin edilməsi, həmçinin potensial bazar uğursuzluqlarının və maliyyə resurslarının təklifi ilə bağlı məhdudiyyətlərin aradan qaldırılması üçün mexanizmlərin müəyyənləşdirilməsi;

6.1.4.2.14. MKOB-ların maliyyəyə çıxışının yaxşılaşdırılması məqsədilə faiz subsidiyalarından effektiv istifadə edilməsi;

6.1.4.2.15. MKOB-ların müvəkkil kredit təşkilatları ilə əlaqə yaratması və güzəştli mexanizmlərə müraciət etməsinə imkan verən platformanın yaradılması;

6.1.4.2.16. dayanıqlı mikromaliyyə modelinin müəyyən edilməsi və həyata keçirilməsi;

6.1.4.2.17. mikromaliyyə kreditlərinin sekyuritizasiyası və milli valyutada istiqraz kimi buraxılmasının mümkünlüyünün araşdırılması;

6.1.4.2.18. mikromaliyyə təşkilatlarının yerli maliyyə resurslarına çıxışının artırılması məqsədilə effektiv kredit zəmanəti sisteminin yaradılması;

- **gözlənilən nəticə və nəticə indikatorları:**

6.1.4.3.1. maliyyə inklüzivliyi amillərinin maliyyə sektorunun hüquqi çərçivəsinə və dövlət siyasətinə tam inteqrasiya olunması;

***(ardı 18-ci səhifədə)***

# Azərbaycan Respublikasında maliyyə inklüzivliyinin genişləndirilməsinə dair 2027–2030-cu illər üçün Dövlət Proqramı

*(əvvəli 17-ci səhifədə)*

6.1.4.3.2. banklar, fintexlər və BOKT-lar üçün bərabər şəraitin təmin olunması, innovasiyaya əsaslanan dinamik maliyyə sektorunun formalaşdırılması və yeni iştirakçıların, eləcə də biznes modellərinin tətbiqinin dəstəklənməsi;

6.1.4.3.3. maliyyə sisteminə etimadı gücləndirən güclü hüquqi və institusional infrastrukturun formalaşdırılması, kreditor hüquqları, müqavilələrin icrası və məlumat mübadiləsi çərçivələri vasitəsilə məsuliyyətli kreditləşmənin və borclanmanın təşviq edilməsi;

6.1.4.3.4. sahibkarlıq və maliyyə inklüzivliyi üzrə koordinasiyalı və yüksək təsirli dövlət dəstək mexanizmləri arxitekturasının qurulması, dövlət resurslarından səmərəli və strateji istifadənin təmin olunması;

6.1.4.3.5. həssas qruplara yönəlmiş dayanıqlı mikromaliyyə sektorunun inkişaf etdirilməsi, qeyri-formal və aşağı gəlirli iqtisadi subyektlərin formal maliyyə sisteminə inteqrasiyası;

**6 gözlənilən risklər və onların neytrallaşdırılması tədbirləri:**

6 dövlət dəstək mexanizmlərinin maliyyə sektorunun inkişafı və bizneslərin maliyyə inklüzivliyinin təmin olunması siyasəti ilə adekvat səviyyədə uzlaşdırılmaması riski mövcuddur. Bununla əlaqədar, MKOB-ların maliyyələşdirilməsi ilə bağlı siyasət və hüquqi çərçivə üzrə tədbirlər baxımından aidiyyəti qurumlar arasında koordinasiyanın gücləndirilməsi nəzərdə tutulur;

6 . fiziki şəxslərin və MKOB-ların maliyyə xidmətlərindən məlumatlı və təhlükəsiz şəkildə istifadəsi üçün imkanlar yaradılması;

**6 əsaslandırma:** maliyyə inklüzivliyi məqsədlərinireallaşdırmaqüçüntəkcəmaliyyəxidmətlərinə çıxışı genişləndirmək kifayət deyil, həmçinin bunun şəffaf və məsuliyyətli şəkildə edilməsi vacibdir. Maliyyə sektoru landşaftı inkişaf etdikcə, xüsusən də rəqəmsal maliyyə xidmətlərinin sürətli genişlənməsi ilə maliyyəyə çıxışın genişləndirilməsinə paralel risklər artır. Rəqəmsallaşma dövrü bir tərəfdən məsuliyyətli innovasiyalar üçün imkanlar, digər tərəfdən isə maliyyə xidməti təminatçıları tərəfindən potensial pozuntular üçün imkanlar yaradır. Bu isə fırıldaqçılıq hallarının artmasını və həddindən artıq borclanmanı şərtləndirə bilər. Yuxarıda göstərilən amillər istehlakçıların hüquqlarının qorunması üçün işlək mexanizmlərin yaradılmasını şərtləndirir. Ölkədə mövcud maliyyə xidməti istehlakçılarının hüquqlarının müdafiəsi sistemi əsas çağırışlara cavab versə də, yaranan risklərin, xüsusən də rəqəmsal maliyyə sahəsində yaranan risklərin kompleks həlli üçün kifayət etmir. Hüquqi çərçivənin gücləndirilməsi, yaranan risklərin monitorinqi üçün alətlərin yaradılması və maliyyə institutlarının öz davranışlarına görə məsuliyyət daşıması üçün mexanizmlərin işlənib hazırlanması istehlakçıların zərərdən və sui-istifadədən qorunması istiqamətində mühüm addımlardır. Bununla yanaşı, istehlakçıların maliyyə savadlılığı sahəsində ümumi təkmilləşdirmələrə baxmayaraq, təkmilləşmə imkanları genişdir. Hazırda Azərbaycan Respublikasının orta maliyyə savadlılığı balı beynəlxalq meyarlardan aşağıdır. Maliyyə savadlılığının aşağı olması istehlakçılar tərəfindən yanlış qərarlar verilməsi və dolayısı ilə izafi borclanma və s. kimi digər problemlərin yaranmasına səbəb olmaqla maliyyə sektorunun sağlam böyüməsinə mane ola bilər. Beləliklə, beşinci prioritet maliyyə xidməti istehlakçılarını məlumatlı maliyyə seçimləri etmək üçün lazım olan bilik, alətlər və çıxış imkanları ilə təmin etməyə yönəlmişdir. Həyata keçiriləcək təşəbbüslər maliyyə sisteminə inamı qorumaqla bərabər, maliyyə inklüzivliyinin maliyyə rifahına və iqtisadi artıma çevrilməsini təmin etmək məqsədinə xidmət edəcəkdir. Tam maliyyə inklüzivliyinin təmin olunması məqsədilə xüsusi həssas qrupların ehtiyaclarının öyrənilməsi və müvafiq tədbirlər görülməsi zəruridir. Fiziki maliyyə infrastrukturunun əlilliyi olan şəxslərin ehtiyaclarına uyğunlaşdırılması, yaşlı əhalinin yeni rəqəmsal texnologiyalardan istifadə bacarıqlarının artırılması, gənclərdə erkən yaşdan baza maliyyə bacarıqlarının formalaşdırılması, habelə miqrantların və qaçqınların maliyyə xidmətlərinə çıxışla bağlı üzləşdikləri çətinliklərin aradan qaldırılması ölkədə tam maliyyə inklüzivliyinə nail olunmasına imkan verə bilər;

**6g örüləcək tədbirlər:**

6.1.5.2.1. maliyyə savadlılığı təşəbbüslərinin effektiv koordinasiya sisteminin yaradılması;

6.1.5.2.2. fiziki şəxslər və MKOB-lar üçün əsas maliyyə kompetensiyalarının müəyyənləşdirilməsi və təlim materiallarının hazırlanması;

6.1.5.2.3. maliyyə savadlılığının ümumi təhsil müəssisələrində dərsdənkənar məşğələlər, ali təhsil müəssisələrində seçmə fənlər çərçivəsində tədrisinin təşkil edilməsi;

6.1.5.2.4. işəgötürənlər tərəfindən işçilərin yerində maliyyə təhsili proqramları ilə təmin edilməsi və onların maliyyə xidmətlərindən istifadəyə təşviq edilməsi;

6.1.5.2.5. maliyyə institutlarının müştərilərlə kommunikasiya zamanı onların maarifləndirilməsinin (satışyönümlü olmayan maliyyə məhsulları və xidmətləri haqqında qərəzsiz şəkildə müvafiq məlumatların təqdim olunması) təşviq edilməsi;

6.1.5.2.6. sığorta ilə bağlı maarifləndirmə tədbirlərinin həyata keçirilməsi;

6.1.5.2.7. MKOB-ların sığorta ehtiyaclarının müəyyən edilməsinə kömək məqsədilə risklərin qiymətləndirilməsi üçün müvafiq alətin hazırlanmasının təşviq olunması;

6.1.5.2.8. ictimaiyyət üçün effektiv maliyyə savadlılığı təcrübələrinin müəyyənləşdirilməsi;

6.1.5.2.9. maliyyə bazarlarında istehlakçıların hüquqlarının qorunması qaydalarının hazırlanması;

6.1.5.2.10. maliyyə bazarlarında istehlakçıların hüquqlarının qorunması üzrə nəzarət mexanizminin qurulması;

6.1.5.2.11. maliyyə institutlarında şikayətlərin idarə olunması üzrə effektiv daxili elektron sistemin qurulmasının təşviq edilməsi;

6.1.5.2.12. maliyyə xidmətlərində mübahisələrin alternativ (məhkəməyədək) həlli imkanlarının genişləndirilməsi;

6.1.5.2.13. maliyyə institutları üçün məsuliyyətli kreditləşmə proqramının tətbiq edilməsi;

6.1.5.2.14. istehlakçılara maliyyə xidmətlərindən istifadə ilə bağlı potensial riskləri müəyyən etməkdə və yanlış qərarların (koqnitiv qərəz, irrasional qərar və s.) nəticələrinin aradan qaldırılmasında dəstək göstərilməsi;

6.1.5.2.15. maliyyə institutlarının yanlış davranışlarının potensial riskləri və mənfi nəticələrinin aradan qaldırılması məqsədilə maraqlı tərəflərlə əməkdaşlığın genişləndirilməsi;

6 əlilliyi olan şəxslərə ehtiyaclarına uyğun maliyyə xidmətlərindən istifadə etməyə imkan verən müvafiq texnoloji həllərin hazırlanması;

6 əlilliyi olan şəxslərin maliyyə institutlarında lazımi səviyyədə xidmətlə təmin edilməsi üçün işçi heyətinə zəruri olan bacarıqların inkişaf etdirilməsi istiqamətində təlimlər keçirilməsi;

6.1.5.2.18. əlilliyi olan şəxslərin hüquqi çərçivədə hüquqlarının tanınmasının və lazımi şəkildə qorunmasının təmin edilməsi;

6.1.5.2.19. yaşlı əhalinin maliyyə savadlılığının və rəqəmsal bacarıqlarının artırılması istiqamətində işlər görülməsi;

6.1.5.2.20. yaşlı əhalinin ehtiyaclarına uyğunlaşdırılmış məhsul və xidmətlərin yaradılmasının təşviq edilməsi;

6.1.5.2.21. yaşlı əhalinin maliyyə xidmətlərindən istifadə zamanı sui-istifadə və fırıldaqçılıq hallarından qorunması;

6 əcnəbilərin, vətəndaşlığı olmayan şəxslərin, qaçqınların və qaçqın statusunun əldə olunması üçün müraciət etmiş şəxslərin müvafiq maliyyə xidmətlərinə çıxışlarının optimallaşdırılması və bu istiqamətdə məlumatlandırma tədbirlərinin icra edilməsi;

**6g özlənilən nəticə və nəticə indikatorları:**

6.1.5.3.1. fiziki şəxslərin və MKOB-ların maliyyə idarəetməsi səriştəsinin yaxşılaşması, maliyyə savadlılığı səviyyəsinin orta statistik İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatı ölkələri səviyyəsinə yüksəldilməsi;

6.1.5.3.2. maliyyə xidməti istehlakçılarının hüquqlarının müdafiəsi sisteminin maliyyə sektorunun yeni ekosisteminə, o cümlədən maliyyə xidmətlərinin çeşidli kanallar və institutlar tərəfindən göstərilməsinə uyğun təkmilləşdirilməsi;

6.1.5.3.3. maliyyə xidməti ilə əhatə olunmayan fiziki şəxslərin və MKOB-ların sayının azaldılması və maliyyə xidmətləri ilə aşağı səviyyədə əhatə olunan qruplara, o cümlədən qadınlar, yaşlılar, gənclər, miqrantlar və azad edilmiş ərazilərə qayıdan şəxslərə münasibətdə maliyyə xidmətlərinə çıxış imkanlarının genişləndirilməsi;

**6 gözlənilən risklər və neytrallaşdırılma tədbirləri:**

6.1.5.4.1. maliyyə savadlılığı təşəbbüslərinin həyata keçirilməsinin daha mürəkkəb olması və maraqlı tərəflərin zəif əməkdaşlığı müəyyən edilmiş hədəflərə nail olunmanı çətinləşdirə bilər. Bu baxımdan, maliyyə savadlılığı ilə bağlı təşəbbüs və proqramların həyata keçirilməsi üçün maraqlı tərəflərlə fəaliyyətin hərtərəfli əlaqələndirilməsi təmin ediləcəkdir;

6.1.5.4.2. maliyyə xidməti istehlakçılarının onların hüquqlarının müdafiəsi haqqında yetərli qədər məlumatlı olmaması gözlənilən nəticələrə nail olunma üçün maneə yarada bilər. Maliyyə xidməti istehlakçılarının hüquqlarına dair məlumatların açıqlanması və istehlakçı hüquqları üzrə potensial sui-istifadə hallarını aradan qaldırmaq üçün maliyyə xidmətləri təminatçılarının davranışları mütəmadi olaraq nəzarət tədbirləri ilə əhatə ediləcəkdir;

6.1.5.4.3. maliyyə institutları tərəfindən maliyyə xidmətlərinin xüsusi həssas qrupların ehtiyaclarına uyğunlaşdırılmasında ləngimələrin olması riski mövcuddur. Bu səbəbdən, maliyyə xidmətləri təminatçıları tərəfindən xüsusi həssas qruplara aid fiziki şəxslərin və bizneslərin maliyyə xidmətlərinə spesifik ehtiyaclarının effektiv şəkildə təmin edilə bilməsinin monitorinqinin həyata keçirilməsi nəzərdə tutulur.

## 7. DÖVLƏT PROQRAMININ MALİYYƏLƏŞDİRİLMƏSİ

Dövlət Proqramında qeyd edilən tədbirlərin icrası ilə bağlı xərclər müvafiq illər üzrə Azərbaycan Respublikasının dövlət büdcəsində aidiyyəti icraçı dövlət orqanları (qurumları) üçün nəzərdə tutulmuş vəsait, dövlət orqanlarının (qurumlarının) büdcədənkənar vəsaiti, Azərbaycan Respublikası Mərkəzi Bankının vəsaiti, yerli və xarici investisiyalar, kredit və qrantlar, hüquqi və fiziki şəxslərin ianələri, eləcə də qanunla nəzərdə tutulan digər mənbələr hesabına, habelə özəl sektorun vəsaiti və dövlət–özəl tərəfdaşlığı layihələri vasitəsilə maliyyələşdirilir.

## 8. DÖVLƏT PROQRAMININ HƏYATA KEÇİRİLMƏSİNƏ DAİR TƏDBİRLƏR PLANI

| Sıra №-si | Tədbirin adı | Əsas icraçı orqanlar (qurumlar) (fəaliyyət istiqamətlərinə uyğun olaraq) | Digər icraçılar | İcra müddəti | Nəticə indikatorları | | |
|---|---|---|---|---|---|---|---|
| | | | | | ilkin nəticələr | aralıq nəticələr | yekun nəticələr |
| **8.1. Maliyyə xidməti kanallarının bütün iqtisadi rayonlarda mövcudluğunun təmin edilməsi** | | | | | | | |
| 81 | Maliyyə xidmətləri üzrə çeşidli çatdırılma kanallarının optimal səviyyəsinə dair metodologiyanın müəyyən edilməsi | Tövsiyə edilir: AMB | RİNN | 2027–2028 | Maliyyə məhsul və xidmətləri üzrə çatdırılma kanallarının optimal səviyyəsinə (əhalinin sıxlığı və coğrafi amillər nəzərə alınmaqla) dair beynəlxalq təcrübənin öyrənilməsi | Araşdırma nəticələrinin sektor nümayəndələri ilə müzakirə edilməsi | Maliyyə xidməti üzrə fiziki çatdırılma kanallarının optimal səviyyəsinin ölçülməsi və monitorinqinə dair metodologiyanın təsdiq edilməsi və metodologiya əsasında maliyyə institutlarına tövsiyələrin hazırlanması |
| 82 . | AÖS-ü əhatə dairəsinin genişləndirilməsi | Tövsiyə edilir: AMB | İN | 2027–2029 | Ödəniş xidməti təchizatçılarının rəqəmsal kanallarının AÖS-ə inteqrasiyası, habelə AÖS-dən istifadə üzrə optimal qiymət siyasətinin müəyyən olunması və AZQR kod ödənişləri üzrə qeydiyyat prosedurlarının təkmilləşdirilməsi | AÖS ilə bağlı məlumatlılığın artırılması, AÖS-dən istifadənin genişləndirilməsi | Ani ödənişlərin Milli Ödəniş Sisteminin əməliyyatlarında say çəkisinin 80 faizə çatdırılması (baza ili – 6,4 faiz) |
| 83 | Təsərrüfat subyektləri tərəfindən nağdsız ödənişlərin qəbulu imkanlarının genişləndirilməsi | İN | Tövsiyə edilir: AMB, maliyyə institutları cəlb edilməklə | 2027–2030 | POS-terminalların qeydiyyat prosedurlarının təkmilləşdirilməsi | Nağdsız ödənişlərin stimullaşdırılması və regionlarda nağdsız ödəniş imkanlarının genişləndirilməsi | Aktiv istifadə edilən POS-terminalların payının 80 faizə çatdırılması, müştəriyə maneəsiz ödəniş seçiminin təqdim edilməsinə nəzarət çərçivəsinin formalaşdırılması |
| **8.2. Fiziki şəxslərin və MKOB-ların ehtiyaclarına cavab verən maliyyə məhsul və xidmətlərinin genişləndirilməsi** | | | | | | | |
| 82 | Ölkədaxili və xarici pul köçürmələri üzrə imkanların genişləndirilməsi | Tövsiyə edilir: AMB | Ödəniş xidməti təchizatçıları cəlb edilməklə | 2027–2030 | Bazar potensialının reallaşdırılmasını məhdudlaşdıran amillərin müəyyən edilməsi | Pul köçürmələri üzrə bazar potensialının reallaşdırılması və xərclərin azaldılması məqsədilə hüquqi və əməliyyat çərçivəsinin təkmilləşdirilməsi | Azı bir məhsulun xüsusi tənzimləmə rejimində test edilməsi |
| 82 . | Kiçik və orta həcmli yığımların maliyyə sektoruna cəlb edilməsi üçün əlverişli mühitin yaradılması | Tövsiyə edilir: AMB | İN, MN, ABA cəlb edilməklə | 2027–2028 | Yığımların artmasını məhdudlaşdıran faktorların müəyyən edilməsi | Kiçik və orta həcmli yığımların artırılması üçün qabaqcıl yanaşmaların öyrənilməsi | Kiçik və orta həcmli yığımların artımını məhdudlaşdıran hüquqi çərçivə ilə bağlı amillərin aradan qaldırılması |
| 83 | Xüsusi investisiya alətlərinin yaradılması yolu ilə kiçik miqyaslı investisiya imkanlarının inkişaf etdirilməsi | Tövsiyə edilir: AMB | BFB, İnvestisiya şirkətləri cəlb edilməklə | 2027–2030 | Hüquqi çərçivənin müəyyən edilməsi | İnvestisiya fondlarının yaradılması imkanlarının qiymətləndirilməsi | Fərdi investorlara yönəlmiş azı 1 investisiya fondunun fəaliyyətə başlaması |
| 84 | Rəqəmsal broker platformalarının tətbiqinin təşviq edilməsi | Tövsiyə edilir: AMB | İnvestisiya şirkətləri cəlb edilməklə | 2027–2029 | Qabaqcıl Rəqəmsal Onlayn Broker Hesabları və Ticarət Platformalarının qiymətləndirilməsi və müvafiq strateji yanaşmanın təklif edilməsi | İnvestisiya şirkətləri tərəfindən platformaların qarşılıqlı inteqrasiya edilməsi | İnvestisiya şirkətlərinin 50 faizində investisiya alətlərinə rəqəmsal çıxışın mövcudluğu |
| 85 | Bankların kapital bazarlarında birbaşa iştirakının təşviq edilməsi | Tövsiyə edilir: AMB | ABA və AKBA cəlb edilməklə | 2027–2028 | Bankların müştərilərinə investisiya hesabları açmaq üçün hazırlıq səviyyəsinin qiymətləndirilməsi | Bankların müştərilərinə investisiya xidmətləri göstərmək üçün potensialının formalaşdırılması | Azı 3 bank tərəfindən investisiya xidmətlərinin göstərilməsi |
| 86 . | Sığorta xidmətlərinin çatdırılması üzrə sığorta agentləri şəbəkəsinin keyfiyyətinin və effektivliyinin artırılması | Tövsiyə edilir: AMB | ASA cəlb edilməklə | 2027–2028 | Sığorta agentləri üzrə yenilənmiş lisenziyalaşdırma tələblərinin tətbiq edilməsi | Sığorta agentlərinin peşəkar bacarıqlarının gücləndirilməsi | Sığorta agentləri vasitəsilə satılan könüllü məhsulların həcminin illik 10 faiz artırılması |
| 87 | Bank–sığorta tərəfdaşlığı modelinin inkişaf etdirilməsi | Tövsiyə edilir: AMB | KTN, ASF, ABA və ASA cəlb edilməklə | 2027–2029 | İstehlak kreditlərinin işsizlikdən sığortalanması ilə bağlı imkanların araşdırılması, kənd təsərrüfatı sığortası məhsullarının digər maliyyə institutlarının məhsulları (bank və kredit təşkilatları) ilə əlaqələndirilməsi imkanlarının dəyərləndirilməsi | Bank–sığorta əməkdaşlığı modelinin iki və daha çox sığorta növü üzrə genişləndirilməsi üçün normativ hüquqi bazanın formalaşdırılması | Bank–sığorta kanalı vasitəsilə bağlanılan sığorta müqavilələrinin ümumi sayının illik 10 faiz artırılması |
| 88 . | Sığorta məhsullarının çatdırılma kanallarının rəqəmsallaşdırılması | Tövsiyə edilir: AMB | ASA cəlb edilməklə | 2027–2029 | Sığorta məhsullarının çatdırılma kanalları üzrə cari vəziyyətinin qiymətləndirilməsi, rəqəmsal çatdırma kanallarının istifadəsini məhdudlaşdıran amillərin müəyyən edilməsi | Sığorta xidmətlərinin rəqəmsal çatdırılması üzrə hüquqi çərçivənin təkmilləşdirilməsi, çoxkanallı satış kanallarının yaradılması və rəqəmsallaşmadan yaranan risklərin idarə edilməsi çərçivəsinin gücləndirilməsi | Çoxkanallı satış modelinin tətbiqinə başlanılması |

*(ardı 19-cu səhifədə)*

# Azərbaycan Respublikasında maliyyə inklüzivliyinin genişləndirilməsinə dair 2027–2030-cu illər üçün Dövlət Proqramı

*(əvvəli 19-cu səhifədə)*

| Sıra №-si | Tədbirin adı | Əsas icraçı orqanlar (qurumlar) (fəaliyyət istiqamətlərinə uyğun olaraq) | Digər icraçılar | İcra müddəti | Nəticə indikatorları | | |
|---|---|---|---|---|---|---|---|
| | | | | | ilkin nəticələr | aralıq nəticələr | yekun nəticələr |
| 8.2.31. | İpoteka kreditlərinə çıxış və ipoteka kreditlərindən istifadənin genişləndirilməsi | Tövsiyə edilir: AMB | İKZF, MN, ABA cəlb edilməklə | 2027–2029 | Mövcud ipoteka kreditləşməsi çərçivəsinin və alətlərinin qiymətləndirilməsi | Qiymətləndirmə nəticələri əsasında ipoteka alətlərinin effektivliyinin artırılması üzrə təkliflərin hazırlanması | İpoteka kreditləri portfelinin həcminin baza ilinə (2025) nisbətən 15 faiz artması |
| 8.2.32. | Az miqdarda nağd pula ehtiyacı olan fiziki şəxslər üçün qısamüddətli təcili kreditləşmə alətlərinin təşviq edilməsi | Tövsiyə edilir: AMB | ABA cəlb edilməklə | 2027–2029 | Qısamüddətli təcili kreditləşmə üzrə cari vəziyyətin təhlil edilməsi | Hüquqi çərçivənin nəzərdən keçirilməsi və ehtiyac olduqda, dəyişikliklərin hazırlanması | Kredit təşkilatları tərəfindən təcili maliyyə ehtiyacları üzrə məsuliyyətli kreditləşmə alətlərinin tətbiq edilməsi |
| 8.2.33. | Qadınlar üçün maliyyə məhsullarının təqdim edilməsinin və bu istiqamətdə bazar təhlilləri aparılmasının təşviq edilməsi | Tövsiyə edilir: AMB | ABA, BFB və AKBA cəlb edilməklə | 2027–2029 | Maliyyə məhsulları üzrə qadınların ehtiyaclarına dair bazar təhlilləri aparılması | Qadınlara yönəlmiş maliyyə alətlərinin təşviqi məqsədilə hüquqi bazanın nəzərdən keçirilməsi | Azı 2 kredit təşkilatı tərəfindən qadın sahibkarlara yönəlmiş kredit məhsullarının təklif edilməsi; ən azı 1 gender istiqrazının tədavülə buraxılması |
| **8.3. Müxtəlif maliyyə xidmətləri təchizatçılarının dəstəklənməsi və müasir maliyyə infrastrukturunun qurulması vasitəsilə maliyyə sektorunda effektivliyin və inklüzivliyin artırılması** | | | | | | | |
| 8.3.1. | Rəqəmsal identifikasiya və rəqəmsal profilin yaradılması | RİNN | Tövsiyə edilir: AMB | 2027–2028 | Mövcud rəqəmsal identifikasiya sisteminin diaqnostikası | Rəqəmsal profilin fəaliyyət çərçivəsinin müəyyən edilməsi, hüquqi çərçivənin formalaşdırılması | Bütün maliyyə təşkilatlarının (bank, BOKT, sığorta, investisiya şirkəti) daxili sistemlərini elektron imza ilə əqdləşmələrə əlverişli hala gətirməsi |
| 8.3.2. | Paylanılmış elektron “Öz müştərini tanı” sisteminin tətbiq edilməsi | Tövsiyə edilir: AMB | Maliyyə institutları cəlb edilməklə | 2027–2030 | Paylanılmış elektron “Öz müştərini tanı” sisteminin hüquqi çərçivəsinin formalaşdırılması | Paylanılmış elektron “Öz müştərini tanı” sisteminin tətbiqi və müvafiq maarifləndirmə işlərinin aparılması | İlkin mərhələdə ən azı 5 maliyyə institutunun əhatə olunması ilə maliyyə təşkilatlarının Paylanılmış elektron “Öz müştərini tanı” sisteminə sorğu əsasında mərhələli şəkildə qoşulması |
| 8.3.3. | Fintexlər üçün hüquqi çərçivənin inkişaf etdirilməsi | Tövsiyə edilir: AMB | | 2027–2029 | Rəqəmsal maliyyə xidmətlərindən istifadə üzrə hüquqi çərçivədə mövcud boşluqların və maneələrin müəyyən edilməsi | Maneələrin aradan qaldırılması məqsədilə qabaqcıl hüquqi çərçivənin formalaşdırılması | Ödəniş sektorunda fintex təşkilatlarının göstərə biləcəyi əlavə xidmətlərin sayının artırılması (baza ili – 5 xidmət) |
| 8.3.4. | MKOB-ların, ailə kəndli təsərrüfatlarının və fermerlərin identifikasiyası üzrə hüquqi çərçivənin təkmilləşdirilməsi və mərkəzləşdirilmiş məlumat bazasının yaradılması | İN | ƏƏSMN, KTN, RİNN, DSK Tövsiyə edilir: AMB | 2027–2030 | Müvafiq hüquqi çərçivənin nəzərdən keçirilməsi və beynəlxalq təcrübə əsasında yenilənməsi | Unikal identifikator sisteminin standartlaşdırılması və bütün maliyyə institutları tərəfindən istifadə edilməsi | MKOB-ların, ailə kəndli təsərrüfatlarının və fermerlərin mərkəzləşdirilmiş məlumat bazasının yaradılması (Elektron Hökumət İnformasiya Sistemi çərçivəsində), MKOB, ailə kəndli təsərrüfatı və fermer subyektlərinin azı 45 faizinə dair məlumatların mərkəzləşdirilmiş məlumat bazasında mövcudluğu |
| 8.3.5. | Yerli kredit reytinqi mexanizminin yaradılması | Tövsiyə edilir: AMB | ABA, AMFA, ASA və AKBA cəlb edilməklə | 2027–2030 | Yerli kredit reytinqi mexanizminin tətbiqi üzrə strateji yanaşmanın müəyyən edilməsi | Hüquqi çərçivənin yaradılması | Yerli kredit reytinqi mexanizminin kredit təşkilatlarının tənzimlənməsi üzrə normativ xarakterli aktlara inteqrasiya edilməsi |
| **8.4. Hüquqi və digər dövlət siyasətləri çərçivəsinin əhalinin və MKOB-ların maliyyə inklüzivliyinin artırılması məqsədləri ilə uzlaşdırılması** | | | | | | | |
| 8.4.1. | MKOB-lar, o cümlədən fərdi sahibkarlar üçün hesabların (yerində və məsafədən) açılması ilə bağlı qaydaların optimallaşdırılması | Tövsiyə edilir: AMB | | 2027–2028 | Hesabların açılması üzrə mövcud məhdudiyyətlərin müəyyən edilməsi | Ehtiyac olduqda, hüquqi aktlarda dəyişikliklər üzrə təkliflərin hazırlanması | Hesabların açılması üzrə sadələşdirilmiş qayda və prosedurların mövcudluğunun təmin edilməsi |
| 8.4.2. | Rəqabəti stimullaşdırmaq və fintex təşkilatları tərəfindən yeni maliyyə xidmətlərinin inkişafına imkan yaratmaq məqsədilə açıq bankçılığın funksionallığının genişləndirilməsi | Tövsiyə edilir: AMB | | 2027–2028 | Açıq bankçılıq ekosisteminə yeni iştirakçıların cəlb olunması ilə ekosistemin genişləndirilməsi | Açıq bankçılığın funksionallığının genişləndirilməsi | Bankların 70 faizinin funksionallığı genişləndirilmiş açıq bankçılığa qoşulması |
| 8.4.3. | Fiziki və hüquqi şəxslər tərəfindən valyuta köçürmələrinin aparılması qaydalarının və prosedurlarının optimallaşdırılması | Tövsiyə edilir: AMB | Sektor assosiasiyaları cəlb edilməklə | 2027–2029 | Mövcud çətinliklərin müəyyən edilməsi | Çətinliklərin aradan qaldırılması məqsədilə qabaqcıl təcrübələrin öyrənilməsi | Ehtiyac olarsa, çətinliklərin aradan qaldırılması məqsədilə qaydalarda və prosedurlarda dəyişikliklərin hazırlanması |
| 8.4.4. | Faktorinq və invoys maliyyələşməsinin inkişafının stimullaşdırılması məqsədilə hüquqi çərçivənin təkmilləşdirilməsi | Tövsiyə edilir: AMB İN | RİNN | 2027–2028 | Hüquqi çərçivənin diaqnostikası | Faktorinq və invoys maliyyələşməsinin inkişafını dəstəkləyən hüquqi çərçivənin yaradılması | Faktorinq və invoys maliyyələşməsi əməliyyatlarının ümumi həcminin illik 10 faiz artması |
| 8.4.5. | Girovun realizasiyası mexanizmləri üzrə hüquqi çərçivənin təkmilləşdirilməsi | ƏN Tövsiyə edilir: MHŞ | İN, MN Tövsiyə edilir: AMB, ABA cəlb edilməklə | 2027–2029 | Cari vəziyyətin diaqnostikası | Müvafiq təkliflərin hazırlanması | Girovun realizasiyası üzrə müddət və xərclərin optimal səviyyəsinin təmin edilməsi |
| 8.4.6. | Problemli aktivlərin satışı üzrə əlverişli ekosistemin formalaşdırılması | Tövsiyə edilir: AMB | RİNN | 2027–2028 | Problemli aktivlərin satışını məhdudlaşdıran amillərin nəzərdən keçirilməsi və onların təkmilləşdirilməsi üzrə, həbelə problemli aktivlərin idarə edilməsi üzrə ixtisaslaşmış maliyyə institutlarının yaradılmasına dair təkliflərin hazırlanması | Normativ hüquqi aktlarda dəyişiklik edilməsi | Problemli aktivlərin satışını məhdudlaşdıran fərdi məlumatların qorunması ilə bağlı amillərin aradan qaldırılması, problemli aktivlərin satışı üzrə effektiv mexanizmlərin tətbiqinə başlanılması |
| 8.4.7. | Alternativ maliyyə məhsullarının və xidmətlərinin təhlili və seçilmiş istiqamətlər üzrə hüquqi çərçivənin formalaşdırılması | Tövsiyə edilir: AMB | İN | 2027–2030 | Alternativ maliyyə üzrə texniki-iqtisadi əsaslandırmanın aparılması və konsepsiya sənədinin hazırlanması | Normativ hüquqi aktların təkmilləşdirilməsinə dair layihənin hazırlanması | Azı 2 bank tərəfindən alternativ bankçılıq pəncərəsi modeli əsasında maliyyə xidmətlərinin göstərilməsi |
| 8.4.8. | Maliyyə sektorunun tənzimlənməsi üzrə normativ xarakterli aktların maliyyə inklüzivliyinə təsirinin qiymətləndirilməsi mexanizminin yaradılması | Tövsiyə edilir: AMB | | 2027–2028 | Normativ xarakterli aktların maliyyə inklüzivliyinə təsirinin qiymətləndirilməsi üzrə metodologiyanın hazırlanması | Metodologiya əsasında normativ xarakterli aktların maliyyə inklüzivliyinə təsirinin qiymətləndirilməsi | Yeni normativ xarakterli aktların maliyyə inklüzivliyinə təsirinin qiymətləndirilməsi çərçivəsinin tətbiq edilməsi |
| 8.4.9. | İstehlakçılara əməkhaqlarının ödənilməsində banklar arasından seçim etmək imkanının təmin olunması | MN | AİBNDA | 2027–2030 | İstehlakçılara əməkhaqlarının ödənilməsi sahəsində mütərəqqi beynəlxalq təcrübələrin araşdırılması və məqbul yanaşmaların müəyyən edilməsi | İstehlakçılara əməkhaqlarının ödənilməsində banklar arasından seçim etmək imkanının yaradılması ilə bağlı normativ hüquqi aktların təkmilləşdirilməsi | İstehlakçılara əməkhaqları üzrə maliyyə xidməti təchizatçıları arasından seçim etmək hüququndan istifadənin təmin edilməsi |
| 8.4.10. | Milli Ödəniş Sistemi komponentlərinin funksional imkanlarının genişləndirilməsi yolu ilə əlçatanlığın artırılması | Tövsiyə edilir: AMB | ABA və AzFİNA cəlb edilməklə | 2027–2028 | Bazar tələblərinə uyğunluğun təhlil edilməsi | Ani ödənişlərin əhatə dairəsinin genişləndirilməsi üzrə tədbirlərin həyata keçirilməsi | Nağdsız əməliyyatların adambaşına düşən illik sayının 300 ədədə çatması (baza ili – 228 ədəd) |
| 8.4.11. | Mövcud dövlət dəstək mexanizmlərinin effektivliyinin qiymətləndirilməsi və konsolidasiyası üzrə təkliflərin hazırlanması | İN, MN | KTN, İKZF Tövsiyə edilir: AMB | 2027–2028 | Mövcud dövlət dəstək mexanizmlərinin effektivliyinin qiymətləndirilməsi | Dövlət dəstək mexanizmlərinin vahid institusional çətir altında birləşdirilməsi üzrə təkliflərin hazırlanması | Effektiv dövlət dəstək mexanizminin formalaşdırılması |
| 8.4.12. | Aidiyyəti dövlət fondlarının (Azərbaycan Biznesinin İnkişafı Fondu, İpoteka və Kredit Zəmanət Fondu), Aqrar Kredit və İnkişaf Agentliyinin və müvəkkil kredit təşkilatlarının fəaliyyətində təkrarçılığın aradan qaldırılması və digər təkmilləşdirmələr vasitəsilə MKOB-ların maliyyələşməsi müddəti və xərcinin azaldılması | İN | KTN, İKZF Tövsiyə edilir: AMB | 2028–2029 | Dövlət fondlarının (Azərbaycan Biznesinin İnkişafı Fondu, İpoteka və Kredit Zəmanət Fondu) və Aqrar Kredit və İnkişaf Agentliyinin cari kreditləşmə prosedurlarının təhlil edilməsi | Kreditləşmənin təkmilləşdirilməsi üzrə təkliflərin verilməsi | Kreditləşmə üzrə effektiv maliyyə dəstəyi mexanizminin formalaşdırılması |
| 8.4.13. | MKOB-ların bütün seqmentlərinin maliyyəyə bərabər çıxışının təmin edilməsi, həmçinin potensial bazar uğursuzluqlarının və maliyyə resurslarının təklifi ilə bağlı məhdudiyyətlərin aradan qaldırılması üçün mexanizmlərin müəyyənləşdirilməsi | İN | KTN, İKZF Tövsiyə edilir: AMB | 2027–2028 | Bazar uğursuzluqları və maliyyələşmədə boşluqların müəyyən edilməsi üzrə metodologiyanın hazırlanması | Metodologiya əsasında MKOB-ların bütün seqmentləri üzrə diaqnostikanın aparılması | MKOB-lar üzrə bazar uğursuzluqları və maliyyə çatışmazlığının aradan qaldırılması üzrə mexanizmlərin tətbiq edilməsi |

*(ardı 21-ci səhifədə)*

# Azərbaycan Respublikasında maliyyə inklüzivliyinin genişləndirilməsinə dair 2027–2030-cu illər üçün Dövlət Proqramı

*(əvvəli 20-ci səhifədə)*

| Sıra №-si | Tədbirin adı | Əsas icraçı orqanlar (qurumlar) (fəaliyyət istiqamətlərinə uyğun olaraq) | Digər icraçılar | İcra müddəti | Nəticə indikatorları | | |
|---|---|---|---|---|---|---|---|
| | | | | | ilkin nəticələr | aralıq nəticələr | yekun nəticələr |
| 84 | MKOB-ların maliyyəyə çıxışının yaxşılaşdırılması məqsədilə faiz subsidiyalarından effektiv istifadə edilməsi | İN | KTN, İKZF Tövsiyə edilir: AMB | 2027–2028 | Subsidiyaların kredit bazarına və maliyyə institutlarının fəaliyyətinə təsirlərinin təhlil edilməsi | Subsidiyaların effektivliyinin artırılması üzrə təkliflərin verilməsi | Faiz subsidiyaları ilə verilmiş kreditlərin məbləğinin illik 20 faiz artması |
| 84 . | MKOB-ların müvəkkil kredit təşkilatları ilə əlaqə yaratması və güzəştli mexanizmlərə müraciət etməsinə imkan verən platformanın yaradılması | İN | KTN, İKZF Tövsiyə edilir: AMB | 2027–2028 | Maliyyələşmənin çevikliyinin artırılması xidməti üzrə uğurlu modellərin öyrənilməsi | Vahid platformanın prototipinin hazırlanması | Bütün dövlət maliyyə dəstəyi proqramlarını birləşdirən platformanın istifadəyə verilməsi |
| 86 . | Dayanıqlı mikromaliyyə modelinin müəyyən edilməsi və həyata keçirilməsi | Tövsiyə edilir: AMB | AMFA və ABA cəlb edilməklə | 2027–2028 | Mikromaliyyə təşkilatları üzrə hüquqi infrastrukturun formalaşdırılması | Mikromaliyyə təşkilatlarının dövlət dəstək mexanizmlərində iştirakı ilə bağlı çərçivənin müəyyənləşdirilməsi | Mikromaliyyə təşkilatı meyarlarına uyğun ən azı 2 kredit təşkilatının fəaliyyət göstərməsi |
| 8.4.17. | Mikromaliyyə kreditlərinin sekyuritizasiyası və milli valyutada istiqraz kimi buraxılmasının mümkünlüyünün araşdırılması | Tövsiyə edilir: AMB | ABA və AMFA cəlb edilməklə | 2027–2029 | Sekyuritizasiya mexanizminin yaradılması imkanının öyrənilməsi | Sekyuritizasiya və milli valyutada istiqraz buraxılmasının mümkünlüyünə dair təkliflərin hazırlanması | Sekyuritizasiya və milli valyutada istiqraz buraxılmasının mümkünlüyünə dair strateji qərar qəbul edilməsi |
| 88 . | Mikromaliyyə təşkilatlarının yerli maliyyə resurslarına çıxışının artırılması məqsədilə effektiv kredit zəmanəti sisteminin yaradılması | İN | İKZF Tövsiyə edilir: AMB | 2028 | Mövcud sistemin təhlili | Effektiv kredit zəmanət mexanizminin hazırlanması | Mikromaliyyənin xüsusiyyətlərinə adaptasiya edilmiş kredit zəmanət mexanizminin tətbiq edilməsi |
| **8.5. Fiziki şəxslərin və MKOB-ların maliyyə xidmətlərindən məlumatlı və təhlükəsiz şəkildə istifadəsi üçün imkanlar yaradılması** | | | | | | | |
| 85 | Maliyyə savadlılığı təşəbbüslərinin effektiv koordinasiya sisteminin yaradılması | Tövsiyə edilir: AMB | ABA, ASA, AKBA və AMFA cəlb edilməklə | 2027–2030 | Maliyyə institutlarının arasında koordinasiya çərçivəsinin formalaşdırılması | Maliyyə savadlılığının artırılması ilə bağlı illik fəaliyyət planlarının hazırlanması | Fəaliyyət planlarının monitorinq çərçivəsinin formalaşdırılması |
| 8.5.2. | Fiziki şəxslər və MKOB-lar üçün əsas maliyyə kompetensiyalarının müəyyənləşdirilməsi və təlim materiallarının hazırlanması | Tövsiyə edilir: AMB | İN, Tədqiqat institutları cəlb edilməklə | 2027–2028 | Fiziki şəxslər və MKOB-lar üçün əsas maliyyə kompetensiyaların müəyyənləşdirilməsi | Müəyyən edilmiş kompetensiyalar üzrə təlim materiallarının hazırlanması | Hazırlanmış təlim materiallarının maarifləndirmə proqramlarına inteqrasiya edilməsi |
| 8.5.3. | Maliyyə savadlılığının ümumi təhsil müəssisələrində dərsdənkənar məşğələlər, ali təhsil müəssisələrində seçmə fənlər çərçivəsində tədrisinin təşkil edilməsi | ETN | Tabeliyində ali təhsil müəssisəsi olan dövlət orqanları (qurumları) | 2029 | Maliyyə savadlılığı üzrə əsas kompetensiyaların müəyyən edilməsi | Təhsil müəssisələrində pilot qaydada dərslərin təşkil edilməsi | Maliyyə təhsilinin təhsil müəssisələrində tədrisinin əhatə dairəsinin genişlənməsi |
| 84 | İşəgötürənlər tərəfindən işçilərin yerində maliyyə təhsili proqramları ilə təmin edilməsi və onların maliyyə xidmətlərindən istifadəyə təşviq edilməsi | Tövsiyə edilir: AMB ƏƏSMN | Sektor assosiasi-yaları və ASK cəlb edilməklə | 2028 | İşəgötürənlər vasitəsilə maliyyə təhsilinin verilməsi imkanlarının öyrənilməsi | İş yerində maliyyə təhsili proqramlarının hazırlanması | İşçilərin ən az 20 faizinin hazırlanmış təhsil proqramlarından yararlanması |
| 85 | Maliyyə institutlarının müştərilərlə kommunikasiya zamanı onların maarifləndirilməsinin (satışyönümlü olmayan maliyyə məhsulları və xidmətləri haqqında qərəzsiz şəkildə müvafiq məlumatların təqdim olunması) təşviq edilməsi | Tövsiyə edilir: AMB | Sektor assosiasi-yaları cəlb edilməklə | 2027–2028 | Müştərilərin maliyyə institutu ilə təması zamanı maarifləndirmə imkanlarının qiymətləndirilməsi | Maliyyə institutlarının müştərilərlə kommunikasiyaya məsul əməkdaşları üçün maliyyə savadlılığının artırılması üzrə təlim tələblərinin müəyyənləşdirilməsi | Ön ofis əməkdaşlarının ən az 50 faizinin təlimdən keçməsi və müştərilərlə maliyyə maarifləndirmə işinin aparılması |
| 86 | Sığorta ilə bağlı maarifləndirmə tədbirlərinin həyata keçirilməsi | Tövsiyə edilir: AMB | ETN, SN (sığorta məlumatlarının artırılması üzrə müştərək qaydada maarifləndirmə tədbirlərinin həyata keçirilməsinə münasibətdə), ASA cəlb edilməklə | 2027–2030 | Əhalinin sığorta məlumatlılığının və savadlılığının sorğu vasitəsilə qiymətləndirilməsi, sorğu nəticələrinə əsasən, maarifləndirmənin tələb olunduğu istiqamətlərin müəyyənləşdirilməsi | Müəyyənləşdirilmiş istiqamətlər üzrə maarifləndirmə proqramlarının hazırlanması | Əhalinin sığorta məlumatlılığının sorğu vasitəsilə qiymətləndirilməsi və bu istiqamətdə ən az 10 faiz artıma nail olunması |
| 8.5.7. | MKOB-ların sığorta ehtiyaclarının müəyyən edilməsinə kömək məqsədilə risklərin qiymətləndirilməsi üçün müvafiq alətin hazırlanmasının təşviq olunması | İN | Tövsiyə edilir: AMB, ASA və ABA cəlb edilməklə | 2027–2028 | MKOB-ların üzləşdiyi risklərin müəyyən edilməsi və ümumiləşdirilməsi | Risklərin qiymətləndirilməsi üzrə onlayn və mobil proqramların hazırlanması | MKOB-ların sığortanın faydaları haqqında məlumatlılığının artması |
| 88 | İctimaiyyət üçün effektiv maliyyə savadlılığı təcrübələrinin müəyyənləşdirilməsi | Tövsiyə edilir: AMB | Sektor assosiasi-yaları cəlb edilməklə | Mütəmadi | Mediada maliyyə savadlılığı ilə bağlı fəaliyyətin diaqnostikası | Media nümayəndələri üçün təlim proqramlarının təşkil edilməsi | Ən az 100 media nümayəndəsinin təlim proqramlarına cəlb edilməsi |
| 8.5.9. | Maliyyə bazarlarında istehlakçıların hüquqlarının qorunması qaydalarının hazırlanması | Tövsiyə edilir: AMB | AİBNDA | 2027–2028 | Qabaqcıl təcrübənin araşdırılması | Maliyyə bazarlarında istehlakçıların hüquqlarının qorunması üzrə diaqnostikanın aparılması | Maliyyə bazarlarında istehlakçıların hüquqlarının qorunması üzrə qaydaların hazırlanması |
| 8.5.10. | Maliyyə bazarlarında istehlakçıların hüquqlarının qorunması üzrə nəzarət mexanizminin qurulması | Tövsiyə edilir: AMB | | 2027–2028 | Beynəlxalq təcrübənin araşdırılması və təkliflərin hazırlanması | Maliyyə bazarlarında istehlakçıların hüquqlarının qorunması üzrə nəzarət sisteminin metodoloji çərçivəsinin hazırlanması | Nəzarət çərçivəsinin tətbiq edilməsi |
| 85 1 | Maliyyə institutlarında şikayətlərin idarə olunması üzrə effektiv daxili elektron sistemin qurulmasının təşviq edilməsi | Tövsiyə edilir: AMB | ABA və ASA cəlb edilməklə | 2027–2028 | Müvafiq beynəlxalq təcrübənin öyrənilməsi | Maliyyə institutlarında müvafiq sistemin qurulması üzrə təkliflərin verilməsi | Maliyyə institutlarında şikayətlərin idarə olunması sisteminin mövcudluğunun təmin edilməsi |
| 8.5.12. | Maliyyə xidmətlərində mübahisələrin alternativ (məhkəməyədək) həlli imkanlarının genişləndirilməsi | Tövsiyə edilir: AMB | Tövsiyə edilir: MŞ | 2027–2029 | Mübahisələrin alternativ həlli üzrə mövcud vəziyyətin təhlili və çatışmazlıqların müəyyən edilməsi | Mübahisələrin alternativ həlli imkanlarının genişləndirilməsi üzrə təkliflərin hazırlanması | Alternativ həll mexanizmi vasitəsilə baxılan maliyyə mübahisələrinin sayının baza ilinə münasibətdə 20 faiz artırılması |
| 8.5.13. | Maliyyə institutları üçün məsuliyyətli kreditləşmə proqramının tətbiq edilməsi | Tövsiyə edilir: AMB | Sektor assosiasiyaları cəlb edilməklə | 2027–2028 | Məsuliyyətli kreditləşmə ilə bağlı beynəlxalq standartların öyrənilməsi | Ehtiyac olduqda, normativ xarakterli aktların təkmilləşdirilməsi | Məsuliyyətli kreditləşmə prinsiplərinə uyğunlaşdırılmış kreditləşmənin təmin edilməsi |
| 84 | İstehlakçılara maliyyə xidmətlərindən istifadə ilə bağlı potensial riskləri müəyyən etməkdə və yanlış qərarların (koqnitiv qərəz, irrasional qərar və s.) nəticələrinin aradan qaldırılmasında dəstək göstərilməsi | Tövsiyə edilir: AMB | | 2027–2028 | Maliyyə xidmətləri ilə bağlı risklər və təhlükələrin açıqlanması ilə bağlı qabaqcıl təcrübənin öyrənilməsi | Normativ xarakterli aktlarda dəyişikliklər edilməsi | İstehlakçılara maliyyə xidmətlərindən istifadə zamanı potensial risklərin açıqlanması |
| 85 | Maliyyə institutlarının yanlış davranışlarının potensial riskləri və mənfi nəticələrinin aradan qaldırılması məqsədilə maraqlı tərəflərlə əməkdaşlığın genişləndirilməsi | Tövsiyə edilir: AMB | İN, sektor assosiasiyaları və tədqiqat institutları cəlb edilməklə | 2028–2029 | Müvafiq assosiasiyalar tərəfindən yanlış davranışların potensial risklərinin qiymətləndirilməsi | Yanlış davranışların potensial risklərinin mitiqasiyası üzrə metodologiyanın hazırlanması | Maliyyə institutları tərəfindən yanlış davranışlara dair şikayətlərin 20 faiz azalması |
| 86 | Əlilliyi olan şəxslərə ehtiyaclarına uyğun maliyyə xidmətlərindən istifadə etməyə imkan verən müvafiq texnoloji həllərin hazırlanması | Tövsiyə edilir: AMB | ƏƏSMN, Maliyyə institutları cəlb edilməklə | 2027–2028 | Əlilliyi olan şəxslərin ehtiyaclarına uyğun maliyyə xidmətlərindən istifadədə çətinliklərin müəyyənləşdirilməsi | Normativ xarakterli aktların təkmilləşdirilməsi | Əlilliyi olan şəxslər üçün mobil və onlayn həllərin əlçatan olmasının təmin edilməsi |

*(ardı 22-ci səhifədə)*




# Qürurun və inancın qoşa bayramı – 28 May, Qurban

**Tariximizə və soykökümüzə bağlı milli-mənəvi dəyərlər arasında qırılmaz bağlılığı təcəssüm etdirən dini ayinlərimizdən biri də Qurban bayramıdır. Builki Qurban bayramının 28 May Müstəqillik Günü ilə üst-üstə düşməsi onu daha möhtəşəm və duyğusal edir.**

Tanrıya sonsuz sevginin, Onun qüdrətinə dərin inamın dayandığı Qurban möminləri halallığa, paklığa səsləyən Bayramdır. Allah öz sevimli peyğəmbəri İbrahimin (ə) sədaqətini sınamaq üçün onun duası, istəyi müqabilində peyğəmbərə nəsib etdiyi yeganə oğlu İsmayılı qurban kəsməyi əmr edir. Uca Yaradan qarşısında əhdinə sadiq qalan İbrahim peyğəmbər (ə) gözünü qırpmadan oğlunu yerə yıxıb başını kəsərkən, Allahın göndərdiyi mələk Cəbrayıl (ə) göydən enib onun əlini saxlayır, İsmayılın əvəzinə Tanrının göndərdiyi qoçu kəsməyi təklif edir. Buna görə xalq arasında Qurban bayramında kəsilən heyvanlara "İsmayıl qurbanı" da deyilir.

Qurban bayramı günü məscidlərdə bayram namazı qılınır, qurbanlar kəsilir, vəfat etmiş əzizlərin xatirəsi yad edilir, evlərdə və qəbiristanlıqlarda dualar oxunur, ehsanlar verilir.



**QEYD:** *Qurbanlıq heyvanın əti əsasən üç hissəyə bölünür: bir hissəni qurban sahibinin özünə götürməsi, ikinci hissənin fəqir və imkansız ailələrə, üçüncü hissəsinin isə hədiyyə kimi qohum-əqrəbaya paylanması tövsiyə olunur.*

Qurban şükranlıq, səmimiyyət və mərhəmət bayramı olduğundan bu mübarək günlərdə qocalara və yetimlərə qayğı göstərilməsi bəyənilən əməllərdəndir.

Milli qürur və dini inancın vəhdətini ehtiva edən 28 May və Qurban bayramları münasibətilə ilk növbədə canlarını Azərbaycanın müstəqilliyi və torpaqların azadlığı uğrunda döyüşlərdə canlarını fəda etmiş şəhidlərin analarını, qaziləri və müharibə veteranlarını təbrik edirik.

Barışıq, yardımlaşma və qüruru təlqin edən Qurban və 28 May Müstəqillik bayramları Azərbaycan və Türk dünyası üçün düşərli, qurbanlarınız qəbul, niyyətləriniz çin olsun – deyirik. Qoy bu bayramlar yurdumuza sülh və əmin-amanlıq, süfrələrinizə ruzi-bərəkət gətirsin!

***XQ***

# Laçın dağlarında səma qapısı

**Prezident İlham Əliyevin rəhbərliyi ilə bu gün işğaldan azad edilmiş ərazilərə Böyük Qayıdış proqramı uğurla həyata keçirilir. Azad olunmuş torpaqlarda həyata keçirilən mühüm layihələrdən biri də inşa edilmiş hava limanlarıdır.**

Cəmi 8 ayda hazır olan möhtəşəm Füzuli Beynəlxalq Hava Limanı 2021-ci il oktyabrın 26-da, 2022-ci il oktyabrın 20-də isə Zəngilan Beynəlxalq Hava Limanı istismara verildi. Daha sonra Laçın Beynəlxalq Hava Limanı Azərbaycan Prezidenti İlham Əliyev və Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın iştirakı ilə 28 may 2025-ci ildə keçirilən rəsmi açılışla Azərbaycan aviasiya xəritəsinə daxil oldu. Bu infrastruktur layihəsi Qarabağın bərpası strategiyasının hava nəqliyyatı sütununu tamamladı, çünki Füzuli və Zəngilan Beynəlxalq Hava Limanlarından sonra bölgənin üçüncü qlobal qovşağı kimi istismara verildi.

Təməli 2021-ci ilin avqust ayında Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva tərəfindən qoyulmuş Laçın Beynəlxalq Hava Limanının inşası ən yüksək texnoloji və mühəndislik standartlarına uyğun həyata keçirildi. Qorçu kəndində yerləşən hava limanının ümumi ərazisi 130 hektardan çoxdur. Bu aeroport dəniz səviyyəsindən 1700 metr hündürlükdə yerləşir. Laçın şəhərindən 30, Şuşadan 70, Kəlbəcərdən isə 60 kilometr məsafədə yaradılan hava limanı Qarabağ və Şərqi Zəngəzur regionlarının nəqliyyat əlaqələrinin gücləndirilməsinə bir töhfədir. Bundan başqa, bu mühüm nəqliyyat layihəsinin icrası ümumilikdə bölgənin turizm potensialının inkişafına da geniş imkanlar yaradır.

Hava limanında istənilən tip hava gəmisinin qəbuluna imkan verən, uzunluğu 3 min, eni isə 60 metr olan uçuş-enmə zolağı inşa edilib. Beş min kvadratmetrlik terminal binası saatda ən azı 200 sərnişinə xidmət göstərmək imkanına malikdir.

Laçın Hava Limanı həm də işğaldan azad edilmiş tarixi torpaqlarımızda aparılan abadlıq-quruculuq işlərinin miqyasını göstərdi. Olduqca mühüm strateji əhəmiyyətə malik olan Laçın aeroportu logistik mərkəzlərin yaradılmasına da töhfədir. Sovet dövründə bu ərazidə hava limanının tikilməsi mümkün olmasa da, bu gün müstəqil Azərbaycan bunu öz gücü hesabına həyata keçirib. Bu, ölkəmizin həm texniki və maliyyə imkanlarının, eləcə də güclü siyasi iradəsinin olduğunu sübut etdi.




Hava limanının bölgədə iqtisadi hərəkətliliyə də böyük rəvac verməsi şübhəsizdir. Xüsusilə istehsal olunan sənaye məhsullarının dünya bazarlarına daha sürətli şəkildə çatdırılmasına da imkan yaradacaq.

Hər zaman mümkünsüz hesab olunan bu layihənin reallaşması respublikamızın iqtisadi imkanlarının təzahürü kimi tarixə həkk olunub. Sözsüz ki, Laçın Beynəlxalq Hava Limanı istismarı ilə düşmənin göz dağına çevrilib.

***Müşfiq MİRZƏ***
***XQ***

*31 May Ümumdünya Tütünlə Mübarizə Günüdür*

# Təmiz hava, yoxsa siqaret tüstüsü?

## *Hər il 8 milyon insan "tütün epidemiyası"nın qurbanı olur*

**Tütündən istifadənin insan sağlamlığı üçün zərəri dövrümüzün təhlükəli bəlaları sırasında yer alıb. Hər il milyonlarla insan tütünlə əlaqəli xəstəliklər səbəbindən həyatını itirir. 1988-ci ildən etibarən Ümumdünya Səhiyyə Təşkilatının (ÜST) təşəbbüsü ilə hər il mayın 31-i Ümumdünya Tütünlə Mübarizə Günü kimi qeyd olunur. Bu gün tütünün fəsadlarına diqqət çəkmək və insanları sağlam seçimlərə təşviq etmək üçün dövlətləri tütün istehlakının miqyasının azaldılması üzrə təsirli siyasət aparmağa çağırır.**

Azərbaycan 2005-ci il noyabrın 1-də ÜST-ün Tütünə qarşı mübarizə haqqında Çərçivə Konvensiyasına qoşulub. Konvensiya tütün istehlakı nəticəsində ölüm hallarının və bütün dünyada tütündən istifadənin azaldılmasına yönəldilən ilk beynəlxalq sənəddir. ÜST-ün məlumatına görə, yer üzündə hər il, təxminən, 8 milyon insan "tütün epidemiyası" səbəbindən həyatını itirir. Onlardan 800 mindən çoxu passiv siqaret istifadəçiləridir. Tibbi araşdırmalar göstərir ki, siqaret çəkənlərin yarısı 70 yaşına çatmadan vəfat edir. Tütün çəkmənin təsiri nəticəsində 25-dən çox xəstəlik, o cümlədən ürək-damar, ağciyər və onkoloji xəstəliklər ildən-ilə daha da ağırlaşır.

Ekspertlər hesab edirlər ki, tütünlə mübarizə yalnız qadağalarla məhdudlaşmamalıdır. Burada əsas amillərdən biri maarifləndirmə və ictimai məsuliyyətdir. İnsanların sağlam həyatın üstünlükləri barədə məlumatlandırılması, xüsusilə yeniyetmə və gənclərin düzgün istiqamətləndirilməsi mühüm əhəmiyyət daşıyır. Ölkəmizdə də tütünlə mübarizə istiqamətində mühüm addımlar atılır. İctimai yerlərdə siqaret çəkilməsinin qadağan olunması, maarifləndirmənin təşkili, sağlam həyat tərzinin təşviqi bu istiqamətdə həyata keçirilən tədbirlər sırasındadır. Səhiyyə Nazirliyinin İctimai Səhiyyə və İslahatlar Mərkəzi ölkədə tütünçəkmə və digər zərərli vərdişlərlə mübarizə aparır.

**Mövzu ilə bağlı XQ-yə açıqlamasında qurumun ictimai sağlamlıq şöbəsinin müdiri Tofiq Musayev bildirdi ki,** builki aksiyanın şüarı belədir:



– "Cazibənin pərdəsini qaldıraq: nikotin və tütün asılılığına qarşı mübarizə". Əsas məqsəd xüsusilə gənc nəsli tütün və nikotin asılılığından qorumaq, güclü asılılıq yaradan real təhlükəni ortaya qoymaqdır.

Tütün insan orqanizmində hər bir orqana ciddi və bərpası çətin olan zərərlər vurur. Tütün tüstüsünün tərkibində, təxminən, 7 mindən çox kimyəvi maddə, 70-dən artıq birbaşa xərçəng yaradan kanserogen birləşmə var. Ağciyərlər tütün tüstüsünün birbaşa zərərinə məruz qalan ilk orqandır. Bu tüstü ağciyərlərdəki hava kisəciklərini (alveolları) məhv edir. Nəticədə, insan xroniki öskürək, bəlğəm və şiddətli təngnəfəslikdən əziyyət çəkir. Ağciyər xərçəngindən ölüm hallarının, təxminən, 80-90 faizi birbaşa siqaretlə bağlıdır. Siqaret çəkənlərdə bronxit, pnevmoniya (sətəlcəm) və qripə yoluxma riski qat-qat yüksək olur.

Müsahibimiz qeyd etdi ki, nikotin qan damarlarını daraldır, oksigenin miqdarını azaldır və ürəyin daha sürətlə işləməsinə səbəb olur. Damarların daxili divarında piy təbəqəsi yığılır, laxtalanma artır. Bu da ürəktutmalarına və beyin qansızmalarına yol açır. Damarlar elastikliyini itirdiyi üçün qan təzyiqi xroniki olaraq yüksəlir. Siqaret təkcə ağciyər deyil, bədənin digər nahiyələrində də xərçəng təhlükəsini artırır. Kişilərdə cinsi zəifliyə, qadınlarda sonsuzluğa yol açır.



Hamiləlik zamanı siqaret çəkmək və ya ətrafa yayılan tütün tüstüsünün təsirinə məruz qalmaq vaxtından əvvəl doğuşa, düşüklərə və körpənin az çəki ilə, yaxud anadangəlmə qüsurlarla doğulmasına səbəb ola bilər. Özü siqaret çəkməyən, lakin tüstüsünü udan şəxslər passiv çəkənlər hesab olunur. Bu hal siqaret çəkmək qədər təhlükəlidir. Siqareti tərgidən andan etibarən orqanizm sürətlə özünü bərpa etməyə başlayır. Cəmi 20 dəqiqə sonra nəbz və qan təzyiqi normalaşır, 1 il sonra isə ürək xəstəliyi təhlükəsi yarıbayarı azalır.

Bildirildi ki, İctimai Səhiyyə və İslahatlar Mərkəzi təkcə Ümumdünya Tütünlə Mübarizə Günü ərəfəsində deyil, il boyu kütləvi tədbirlər təşkil edir. Məktəblərdə və universitetlərdə görüşlər aparılır, gənclər və yeniyetmələr arasında tütün və digər zərərli vərdişlər barədə mühazirələr oxunur. İctimai səhiyyə mütəxəssisləri tütün asılılığı olan şəxslərə psixoloji dəstək verir, zərərli vərdişlərdən uzaqlaşma yolları barədə tövsiyələr diqqətə çatdırılır. Televiziya, radio və sosial şəbəkələr üçün zərərli vərdişlərin orqanizmə vurduğu fəsadları əks etdirən videoçarxlar, posterlər hazırlanır. Zərərli vərdişlərin gənclər arasında yayılma statistikasını öyrənmək üçün mütəmadi olaraq sosioloji sorğular həyata keçirilir.

Sağlam həyat tərzinin təbliği, zərərli vərdişlərə aludəçiliyin qarşısının alınması, tütün məmulatlarının istifadəsinin və tütün tüstüsünün ətraf mühitə ziyanlı təsirlərinin azaldılması istiqamətində dövlət proqramları çərçivəsində Mərkəzdə məqsədyönlü tədbirlər həyata keçirilir. İSİM-in keçirdiyi tədbirlərdə əsas məqsəd insanları tütün asılılığından çəkindirmək, sağlamlığa təhlükə yaratmadan qarşısını almaqdır.

***Mustafa KAMAL***
***XQ***


# "Bakıtikişsənaye" ASC-nin 2025-ci ilin maliyyə nəticələrinin mühasibat balansı

"Bakıtikişsənaye" ASC-nin 2025-ci ilin balans nəticələrinə əsasən cəmiyyətin 2025- ci ildə istehsalat fəaliyyəti olmayıb. Obyektin icarəyə verilməsindən 162710.41 manat ƏDV daxil olmaqla dövriyyə yaranmışdır. Bundan da 24820.23 manat ƏDV hesablanaraq büdcəyə ödənilmiş, qalan 137890.18 manatdan isə 2025-ci ilin xərcləri 63068.81 manat çıxıldıqdan sonra 74821.37 manat balans nəticəsi yaranmışdır ki, bundan da 20 faiz mənfəət vergisi 14964.27 manat vergiyə ödənilmişdir. Cəmiyyət 2025-ci ilin sonuna 59857.10 manat xalis mənfəətlə çıxmışdır.

**Xərclərin siyahısı aşağıdakı cədvəldə göstərilmişdir.**

| | |
|---|---|
| Əmək haqqı | 9,896.84 |
| DSMF-yə ödəniş 22-15% | 1,820.53 |
| DSMF-yə ödəniş 05% | 49.48 |
| Tibbi sığortaya ödəniş -2% | 197.94 |
| Bank xidməti | 456.79 |
| "AZƏRİŞIQ" ASC-yə ödəniş | 22,420.72 |
| "AZƏRİQAZ" İB-nə ödəniş | 16,305.20 |
| Telefon və internet abunə haqqı | 212.52 |
| "Azsığorta" ASC-yə ödəniş | 800.00 |
| "AZƏRPOÇT" MMC-yə ödəniş | 2,502.33 |
| MDM-yə ödəniş | 288.78 |
| Audit-poct xidmətinə ödəniş | 500.00 |
| "EKOMED SERVİS" MMC SİLGİ AKTINA ödəniş | 1,525.80 |
| Torpaq vergisi | 1,909.80 |
| Əmlak vergisi | 397.25 |
| Amortizasiya | 3,784.83 |
| Vergiyə daxil olan xərclər | 63,068.81 |
| Mənfəətin nəticələri | 74,821.37 |
| Mənfəət vergisi vergi-20% | 14,964.27 |
| Xalis mənfəət | 59,857.10 |

Xalq qəzeti
XQ
xalqqazeti.az
№ 93 (31062) 27 may 2026-cı il, çərşənbə

# Atəşkəs qüvvədə, sülh yaxındadır

## ABŞ Silahlı Qüvvələrinin raket zərbələri nəyi dəyişəcək?

**ABŞ–İran danışıqlarının sülh müqaviləsi ilə başa çatacağına ümidlərin günbəgün artdığı bir vaxtda ABŞ ordusunun İranın cənubunda raket buraxılış məntəqələrinə və mina yerləşdirməyə çalışan gəmilərə zərbələr endirməsi xəbəri beynəlxalq gündəmi yenidən zəbt edib. Media mənbələri ABŞ Silahlı Qüvvələrinin Mərkəzi Komandanlığının (CENTCOM) sözçüsü Tim Hokinsin açıqlamalarına istinad edirlər. İran mediası isə 3 liman şəhərində partlayışlar barədə məlumat yaymaqla bu xəbəri təsdiqləyib.**

ABŞ Silahlı Qüvvələrinin Mərkəzi Komandanlığı çərşənbə axşamı, mayın 26-na keçən gecə endirilən bu zərbələri "özünümüdafiə və ABŞ qüvvələrini İran qüvvələrinin yaratdığı təhdidlərdən qorumaq" məqsədilə edildiyini bildirir. "ABŞ Mərkəzi Komandanlığı davam edən atəşkəs dövründə təmkin nümayiş etdirərkən qüvvələrimizi qorumağa davam edir", – deyə Tim Hokins fikrini tamamlayıb.

Yüksək vəzifəli ABŞ rəsmiləri "Fox News"a bildiriblər ki, ABŞ-ın İrana gecə zərbələri atəşkəsə son qoymaq istəməsi demək deyil. ABŞ ordusunun Hörmüz boğazı yaxınlığında ölkənin cənub hissəsindəki raket buraxılış məntəqələrinə və qayıqlarına zərbələrinə baxmayaraq, ABŞ və İran arasında atəşkəs qüvvədədir.

Başqa bir mənbəyə görə, hücum zamanı ABŞ ordusu Hörmüz boğazında mina yerləşdirməyə çalışan İİKK-ya məxsus iki qayığı da məhv edib. O, həmçinin qeyd edib ki, raket buraxılış qurğusuna zərbə ABŞ hərbi təyyarələrini hədəf aldıqdan sonra endirilib.

CNN-in məlumatına görə, bu, İranla danışıqları əlaqələndirmək üçün Qətər vasitəçiləri ilə görüşdən bir neçə saat sonra baş verib. Ölkələr hazırda "anlaşma memorandumu" üzərində razılığa gəlməyə çalışırlar, lakin proses İranın nüvə proqramı və sanksiyaları ilə bağlı şifahi mübahisələri səbəbindən yubanır.

ABŞ-ın zərbələrindən qısa müddət sonra dövlət katibi Marko Rubio da İranla danışıqların mübahisələr səbəbindən uzandığını bildirib. "Bir söz, bir cümlə ilə bağlı mübahisələrin həlli bir neçə gün çəkəcək. Biz bundan keçməliyik", - deyə dövlət katibi zərbələr barədə şərh verərək "boğazın açılmasının lazım olduğunu" bildirib.

Mayın 26-da səhər İİKK rəsmiləri İranın əsas dəniz və hava qüvvələri bazalarının yerləşdiyi cənub liman şəhəri Bəndər Abbasda 3 partlayış baş verdiyini bildiriblər. Daha sonra İİKK komandanlığı partlayışın şəhərin hava limanı yaxınlığında baş verdiyini dəqiqləşdirib.

İRNA dövlət xəbər agentliyi də Bəndər Abbasdakı partlayışları təsdiqləyib. İİKK-nın nəzarətində olan Fars xəbər agentliyi isə Fars körfəzində Sirik və Cask şəhərləri yaxınlığında partlayışlar barədə məlumat verib.

Yeri gəlmişkən, bu, ABŞ Silahlı Qüvvələrinin atəşkəs dövründə İrana ilk hücumu deyil. Mayın əvvəlində ABŞ İranın Qeşm limanına və Bəndər Abbas şəhərinə zərbələr endirib. ABŞ rəsmiləri bildiriblər ki, zərbələr İranın hücumundan sonra baş verib.

Məlum olduğu kimi, ABŞ və İran arasında razılaşdırılmış atəşkəs aprelin 8-dən qüvvədədir. Mayın 25-də ABŞ Prezidenti Donald Tramp "Truth Social"da dərc olunan açıqlamasında "İslam Respublikası ilə sülh danışıqlarının əla getdiyini" bildirib: "Bu, ya hər kəs üçün əla bir razılaşma olacaq, ya da heç bir razılaşma olmadan - cəbhə xəttinə və atışmaya qayıdış olacaq. Amma bir atışma əvvəlkindən daha böyük və güclü olacaq, bunu isə heç kim istəmir!", – deyə Tramp paylaşımda özünəməxsus şəkildə İranı hədələyib.

Bu hədələrinə baxmayaraq, Tramp Yaxın Şərqdə müharibə yenidən alovlanmasın deyə, razılaşma imzalamağa tələsir. Amerikalı rəsmilərdən birinin sözlərinə görə, bu ərəfədə ABŞ və İranın artıq imzalamağa hazır olduğu razılaşma atəşkəsin 60 gün uzadılmasını nəzərdə tuturdu. Bu müddət ərzində Hörmüz boğazı gəmiçilik üçün yenidən açılacaq, Tehran öz neftini məhdudiyyətsiz sata biləcək və yaxın gələcəkdə İranın nüvə proqramı ilə bağlı yeni danışıqlar raundu planlaşdırılacaqdı.

"Axios"un verdiyi məlumatda deyilir ki, anlaşma memorandumunun layihəsində İranın heç vaxt nüvə silahı inkişaf etdirməməsi və uranı zənginləşdirmə proqramının dayandırılması barədə danışıqlar aparması öhdəliyi xüsusi yer alır. Bundan əlavə, nəşrin administrasiyadakı mənbəsinin məlumatına görə, ABŞ Tehranın bütün yüksək zənginləşdirilmiş nüvə yanacağı ehtiyatlarını öz ərazisindən çıxarmasında israr edir.



İki məlumatlı mənbəyə görə, İran nümayəndələri vasitəçilərin xəttilə ABŞ-a şifahi olaraq güzəştlərin miqyasını vəd ediblər. İddialara görə, ölkə uranın zənginləşdirilməsini dayandırmağa və nüvə yanacağından imtina etməyə hazırdır. Bəlkə də buna görədir ki, Donald Tramp mayın 25-də "Truth Social"dakı açıqlamasında yazır: "Tehranın zənginləşdirilmiş uran ehtiyatları ya dərhal ABŞ-a köçürüləcək və onun ərazisində məhv ediləcək, ya da İranla əlaqələndirilərək Beynəlxalq Atom Enerjisi Agentliyinin (MAQATE) nəzarəti altında hazırda saxlandığı yerdə və ya başqa uyğun bir yerdə məhv ediləcək".

Əslində, Ağ Ev İranın zənginləşdirilmiş uran ehtiyatlarının ABŞ-a daşınmasına ehtiyac olmadan İslam Respublikasında məhv edilməsini daha məqbul seçim hesab edir. O, həmçinin ABŞ-ın İranın nüvə infrastrukturunu bombalamasına istinad edərək zənginləşdirilmiş uranı "nüvə tozu" adlandırır.

Aydın məsələdir ki, İranın nüvə proqramının yaratdığı təhlükə, ABŞ və İsrailin 28 fevraldan bəri İslam Respublikasına qarşı apardığı müharibəyə görə Trampın özünü haqlı çıxarmaq üçün istifadə etdiyi səbəblərdən biridir. ABŞ əmindir ki, hazırda Tehranın əlində 440 kiloqramdan çox 60 faizə qədər zənginləşdirilmiş uran var və bu, mülki nüvə enerjisi üçün lazım olduğundan xeyli çoxdur.

Nəzəri olaraq, bu uran nisbətən qısa müddətdə 90 faizə qədər zənginləşdirilə və nüvə silahlarında istifadə üçün yararlı hala gətirə bilər. Tehran hakimiyyəti dəfələrlə atom bombası yaratmaq niyyətini təkzib edərək, nüvə proqramının yalnız dinc məqsədlər üçün istifadə olunacağını iddia etsə də, sonrakı vaxtlarda ona hücumlar olarsa, uranı daha da zənginləşdirməklə hədələyib.

Bir gerçəklik də ondan ibarətdir ki, Prezident Trampın açıqlamalarına baxmayaraq, hazırda ABŞ-ın Tehranın uran ehtiyatlarına əli çatmır. Çünki İranın uran ehtiyatlarının dəqiq yeri hələ də məlum deyil.

Ümumiyyətlə, İranın nüvə proqramı onilliklərdir ki, münaqişə mənbəyi olaraq qalır. Analitiklər hesab edirlər ki, yüksək dərəcədə zənginləşdirilmiş uran əldə etmək Tehrana qarşı ciddi sanksiyaların tətbiqinə səbəb olub və bəzi hesablamalara görə, bu sanksiyalar ölkəyə təxminən 3 trilyon avro məbləğində birbaşa iqtisadi ziyan vurub.

Tehran hələlik zənginləşdirilmiş uran ehtiyatlarının ABŞ-a və ya başqa bir ölkəyə köçürülməsi ilə bağlı hər hansı bir razılaşmanı rəsmi olaraq təsdiqləməyib. Hələ mart ayında xarici işlər naziri Abbas Əraqçi "CBS"ə verdiyi müsahibədə bildirmişdi ki, ötənilki Amerika hava hücumlarından sonra İranın uran ehtiyatları dağıntılar altında qalıb və Tehranın bu materialları çıxarmaq üçün "heç bir proqramı və ya planı yoxdur". Bununla belə, Əraqçi həmçinin ehtiyatla Vaşinqtonla mümkün gələcək razılaşmanın bir hissəsi olaraq yüksək zənginləşdirilmiş uranın konsentrasiyasını azaltmaq ehtimalını da istisna etməmişdi.

Buna baxmayaraq, Ağ Evin sahibi dəfələrlə ABŞ-ın onları nəzarətə götürəcəyinə söz verib və bunun necə həyata keçiriləcəyi barədə ziddiyyətli açıqlamalar verib. Tramp iddia edib ki, amerikalılar "onu (zənginləşdirilmiş uranı - İ.R.) İranla birlikdə dağıntıların altından, ehtimal ki, sülh razılaşması əldə edildikdən sonra çıxaracaqlar".

Kütləvi informasiya vasitələrində dərc edilən xəbərlərdə bildirilir ki, İran uran ehtiyatının bir hissəsini qarışdırıb zəiflətməyə və qalan hissəsini üçüncü ölkəyə ötürməyə hazırdır. Hətta Rusiya Prezidenti Vladimir Putin xarici işlər naziri Abbas Əraqçi ilə görüşdə Moskvanın İranın zənginləşdirilmiş uranını saxlamağa hazır olduğunu bildirmişdi. Lakin onun yeri və ona çıxış üçün tələb olunan texniki çətinliklər hələ də məlum deyil. İranın İsfahan, Fordo və Natanzadakıı üç ən böyük nüvə obyekti ötənilki ABŞ bombardmanları zamanı ciddi şəkildə zədələnib.

Ekspertlər bildirirlər ki, uranın İrandan çıxarılması texniki cəhətdən mümkündür, lakin bu, bir çox amillərdən asılıdır. Məsələn, uran MAQATE-nin ciddi nəzarəti altında xaricə daşına bilər, lakin bunun üçün xüsusi təhlükəsizlik tədbirləri görmək zəruridir. Tibbi fizika və radiasiya mühafizəsi üzrə mütəxəssis Roland Volff iddia edir ki, İran zənginləşdirilmiş uranı yeraltı Fordoda saxladığı üçün ona fiziki müdaxilə çətindir.

Trampın ilk prezidentlik müddətində ilyarım milli təhlükəsizlik müşaviri vəzifəsində çalışan Con Bolton, Liviyanın 2000-ci illərin əvvəllərində nüvə silahı proqramından imtina etməsini xatırladaraq bildirir ki, Liviya proqramı "daha az inkişaf etmişdi". 2003 və 2004-cü illərdə Tripolidən nüvə materiallarının çıxarılması təşəbbüsü münaqişənin ortasında deyil, "əlverişli şəraitdə" həyata keçirildi. "Amerika və Britaniya rəsmiləri onları sadəcə qablaşdırıb hazırda olduqları Tennessi ştatının Ok Ridc şəhərinə apardılar. Düşünürəm ki, əlverişli şəraitdə İran proqramı ilə də oxşar bir şey edə bilərdik. Amma bu, daha uzun çəkərdi, çünki o, artıq daha inkişaf etmişdi. Ən əsası, yüksək dərəcədə zənginləşdirilmiş uranın və ya proqramın digər elementlərinin terrorçuların və ya digər yaramaz dövlətlərin əlinə keçməsinin qarşısını almaqdır", - deyə Bolton müsahibəsində açıqlayıb.

ABŞ-ın çərşənbə axşamı İranın bir neçə obyektinə hava zərbələri endirməsinə baxmayaraq, sülh razılaşmasının əldə edilməsi istiqamətində danışıqlarda xeyli irəliləyişlər var və Vaşinqton bunu dayandırmaq fikrində deyil. Hətta amerikalı rəsmilərdən biri layihənin hazırkı vəziyyətinin ətraflı təsvirini "Axios" nəşrinə təqdim edib. Onun böyük hissəsi danışıqlarla tanış olan digər mənbələr tərəfindən belə təsdiqlənib. İran tərəfinin hələlik detalları təsdiqləmədiyinə baxmayaraq, Tehran da digər tərəfə razılaşmanın başa çatmaq üzrə olduğunu bildirib.

Razılaşmaya nələr daxildir?

Hər iki tərəf imzalayacağı, 60 gün müddətində qüvvədə olacaq və qarşılıqlı razılaşma ilə uzadılacaq anlaşma memorandumu qismən aşağıdakıları ehtiva edir:

– 60 gün ərzində Hörmüz boğazı rüsumsuz açıq olacaq. İran kommersiya gəmilərinin maneəsiz keçidini təmin etmək üçün sularda qoyulmuş minaları təmizləməyə razılaşacaq.

– Əvəzində ABŞ İran limanlarının blokadasını aradan qaldıracaq və ölkəyə sanksiyalardan bəzi güzəştlər verəcək, bu da Tehrana neftini sərbəst satmağa imkan verəcək.

Amerikalı rəsmi belə bir razılaşmanın İran iqtisadiyyatına böyük fayda verməklə yanaşı, bunun qlobal enerji bazarındakı vəziyyəti də əhəmiyyətli dərəcədə yüngülləşdirəcəyini etiraf edib.

Danışıqlar yekunlaşmağa yaxınlaşdığı bir vaxtda ABŞ Prezidenti Donald Tramp mayın 25-də özünün "Truth Social" media hesabında açıqlayıb ki, ABŞ-İsrail koalisiyasının İrana qarşı müharibəsində sülh sazişi əldə olunarsa, Səudiyyə Ərəbistanı, Qətər, Pakistan, Türkiyə, Misir və İordaniya Yaxın Şərqdə sülh və rifahı təmin etmək üçün İbrahim Sazişlərinə qoşulmalı olacaqlar. Tramp xatırladıb ki, BƏƏ və Bəhreyn artıq bu sazişlərin tərəfləridir.

Bu sazişlər Donald Trampın 2020-2021-ci illərdəki ilk prezidentlik müddəti ərzində Vaşinqtonun iştirakı ilə əldə edilən razılaşmaya bənzər şəkildə, əsasən müsəlman olan bir neçə ölkə ilə İsrail arasında münasibətlərin normallaşdırılması barədə razılığı nəzərdə tutur. Bura diplomatik münasibətlərin qurulması, səfirliklərin açılması, eləcə də iqtisadiyyat və digər sahələrdə əməkdaşlıq daxildir.

Trampın sözlərinə görə, o, artıq bazar ertəsi günü Səudiyyə Ərəbistanı, BƏƏ, Qətər, Pakistan, Türkiyə, Misir, İordaniya və Bəhreyn liderləri ilə digər ərəb ölkələrinin İbrahim Sazişlərinə qoşulmasının zəruriliyini müzakirə edib. "Bir və ya iki ölkənin buna getməmək üçün səbəbi ola bilər və bu, qəbul ediləcək, lakin əksər ölkələr İran sazişinin başqa cür ola biləcəyindən daha əhəmiyyətli bir tarixi hadisəyə çevirməyə istəkli, hazır və qadir olmalıdırlar", - deyə Ağ Evin rəhbəri vurğulayıb.

Tramp fikrinə davam edərək bildirib ki, "İbrahim Sazişləri iştirak edən ölkələrə – Birləşmiş Ərəb Əmirliklərinə, Bəhreynə, Mərakeşə, Sudan və Qazaxıstana, hətta bu münaqişə və müharibə dövründə belə, əsl maliyyə, iqtisadi və sosial tərəqqi gətirib. Ona görə də hazırkı iştirakçılar sazişlərdən çəkilməyi və ya hətta qısa bir fasilə verməyi belə düşünmürlər".

Onun açıqlamasına görə, Səudiyyə Ərəbistanı və Qətər ilk yeni iştirakçılar olmalıdırlar. Hər kəs onların ardınca getməlidir. Əgər digər ölkələr bunu etməsələr, İranla razılaşmanın bir hissəsi olmamalıdırlar, çünki bu, pis niyyətləri göstərir". Trampın fikrincə, İslam Respublikasının özü də nəticədə İbrahim Sazişlərinin üzvü olmalıdır. Amerika lideri əlavə edib ki, öz nümayəndələrinə digər ölkələrin sazişləri imzalaması üçün hazırlıqlara başlamağı tapşırıb.

İbrahim Sazişləri 2020-2021-ci illərdə ABŞ-ın vasitəçiliyi ilə İsrail və bir neçə ərəb ölkəsi tərəfindən əldə edilib. 2020-ci ildə Bəhreyn, Mərakeş və BƏƏ İsraillə münasibətləri normallaşdırıb. 2021-ci ildə Sudan İsrail ilə diplomatik münasibətlər qurduğunu elan edib. Bu sazişdən əvvəl İsrail yalnız Misir və İordaniya ilə diplomatik münasibətlər qurmuşdu.

Danışıqların ümidverici məcraya düşdüyü bir vaxtda, Tramp Administrasiyanın rəsmisi bildirib ki, ABŞ İranı nüvə danışıqlarına ciddi yanaşmadığı təqdirdə, razılaşma hətta 60 gün belə davam edə bilməz: "İranın həqiqətən nə qədər irəli getməyə hazır olduğunu görmək maraqlı olacaq. Lakin əgər onlar kursu dəyişdirə bilərlərsə və ya etməyə hazırdırlarsa, növbəti mərhələ onları hansı ölkə olmaq istədikləri barədə bəzi vacib qərarlar qəbul etməyə məcbur edəcək".

Şərhlər deməyə əsas verir ki, Trampın İranın nüvə proqramı ilə bağlı tələbləri yerinə yetirilərsə, prezident Tehranla münasibətləri yenidən qurmaq üçün çox ciddi səy göstərməyə hazırdır. İnanmaq istərdik ki, ABŞ ölkənin iqtisadi potensialını reallaşdırmasına imkan verəcək və bu da Ağ Ev rəhbərinin müşavirlərinin fikrincə, "böyük" bir irəliləyiş olacaq.

***İlqar RÜSTƏMOV,***
***XQ-nin siyasi eksperti***

# İDMAN

## Çimərlik güləşçilərimiz Xorvatiyada



**Azərbaycan Güləş Federasiyasına verilən məlumata görə, bu gün U-17 yaş qrupu üzrə Avropa çempionatı baş tutacaq.**

Qitə birinciliyində baş məşqçi Oyan Nəzərianinin rəhbərliyi altında Əlirza Heybətli, Elcan Həsənov (hər ikisi 60 kq), Rəşad Əliyev (70 kq), Elvin Hacıquliyev, Ruslan Vəliyev (hər ikisi 80 kq), Möhlət Qasımov və Tural Eynullayev (90 kq) uğur qazanmağa çalışacaqlar.

Mayın 30-31-də isə böyüklər qum üzərinə çıxacaqlar. Dünya Seriyasının II mərhələsində baş məşqçi Oyan Nəzəriani və məşqçi kimi yarışda debüt edəcək İbrahim Yusubovun rəhbərliyi altında Rübail İbrahimli (70 kq), Sahib Dadaşov (80 kq), Vüsal Əliyev (80 kq), Əşrəf Aşırov (90 kq) və İslam İlyasov (+90 kq) mübarizə aparacaqlar.

Hər iki yarışda I-S dərəcəli hakim Sədi Quliyev ədaləti qoruyacaq.

## AFFA 4 klubu cərimələyib



**AFFA Misli Premyer Liqasının XXXIII turundan sonra 4 klubu cərimələyib.**

Azərbaycan Futbol Federasiyaları Assosiasiyasının İntizam Komitəsinin iclasında bu barədə qərar qəbul olunub.

"Sumqayıt" – "Qarabağ" oyunu bitdikdən sonra meydana kənar şəxslər daxil olduğuna görə "Sumqayıt" komandası 2500 manat cərimə edilib.

Eyni matçda "Qarabağ" komandasının azarkeşləri tərəfindən pirotexniki vasitədən istifadə edildiyi üçün Ağdam klubu 8000 manat ziyana düşüb.

"Kəpəz" – "Neftçi" qarşılaşmasında isə "Kəpəz" komandasının 4 futbolçusu sarı vərəqə aldığı üçün klub 700 manat cərimələnib. Oyunun 65-ci dəqiqəsində "Neftçi"nin futbolçusu İfenayi Metyu ciddi qayda pozuntusuna görə birbaşa qırmızı vərəqə aldığı üçün 1-i şərti olmaqla 2 oyunluq cəzalandırılıb. Bu səbəbdən paytaxt təmsilçisi 1000 manat cərimə edilib və futbolçuya 6 ay sınaq müddəti təyin olunub.

## "Qarabağ" azarkeş sayına görə 1-cidir



**"Qarabağ" Misli Premyer Liqasının 2025/2026 mövsümündə ev oyunlarında azarkeş sayına görə lider olub.**

Peşəkar Futbol Liqasına yaydığı məlumata görə, son mövsümün oyunlarını ümumilikdə 285 min 778 tamaşaçı izləyib.

Ən çox seyrçi XXVIII turun "Qarabağ" – "Sabah" görüşündə qeydə alınıb. Aprelin 18-də Tofiq Bəhramov adına Respublika stadionunda keçirilən qarşılaşmada 17 min 338 izləyici olub. Bu komandaların eyni arenada baş tutan XXII turdakı matçı siyahıda ikincidir. Martın 1-də baş tutan oyunu 10 min 361 tamaşaçı seyr edib.

"Neftçi" tamaşaçı sayında 2-ci yeri tutub – 44 min 693 (orta göstərici – 2793). İlk "üçlüy"ü "Sumqayıt" qapayıb – 39 min 560 (orta göstərici – 2473).

***Qabil YUSİFOĞLU***
***XQ***

## Buludlu çərşənbə, qısamüddətli yağış və dolu...

**Ekologiya və Təbii Sərvətlər Nazirliyi Milli Hidrometeorologiya Xidmətindən verilən məlumata görə, bu gün Bakıda və Abşeron yarımadasında hava şəraitinin dəyişkən buludlu olacağı, arabir tutulacağı, əsasən yağmursuz keçəcəyi proqnozlaşdırılır.**

Lakin səhər bəzi yerlərdə qısamüddətli yağış yağacağı ehtimalı var. Şimal-qərb küləyi əsəcək, gündüz cənub-şərq küləyi ilə əvəzlənəcək. Havanın temperaturunun gecə 17-19, gündüz 23-28 dərəcə isti olacağı ehtimal edilir. Atmosfer təzyiqi 757 millimetr civə sütunundan 763 millimetr civə sütununa yüksələcək. Nisbi rütubət gecə 70-80, gündüz 50-55 faiz təşkil edəcək.

Azərbaycanın əksər rayonlarında havanın əsasən yağmursuz keçəcəyi, lakin gündüz bəzi şərq rayonlarında yağış yağacağı gözlənilir. Ayrı-ayrı yerlərdə qısamüddətli intensiv olacağı, şimşək çaxacağı, dolu düşəcəyi proqnozlaşdırılır. Gecə və səhər bəzi yerlərdə duman olacaq. Qərb küləyi əsəcək, ayrı-ayrı yerlərdə arabir güclənəcək. Havanın temperaturunun gecə 14-18, gündüz 25-30, dağlarda gecə 6-11, gündüz 17-22, bəzi yerlərdə 25 dərəcə isti olacağı bildirilir.



***Q.ƏLİYEV***
***XQ***

DİREKTOR – BAŞ REDAKTOR
ƏFLATUN AMAŞOV

TELEFONLAR:
Reklam və elanlar: 493-82-21
Qəbul şöbəsi: 493-24-75 Mühasibatlıq: 498-85-29
Məsul katib: 493-61-02 Email: xalqqazeti@gmail.com
Texniki şöbə: 493-59-64 info@xalqqazeti.az
+994 (51) 280-16-44

"Xalq" qəzeti redaksiyası" MMC-nin kompüter mərkəzində yığılıb və səhifələnib, "Azərbaycan" nəşriyyatında çap olunub.

ÜNVANIMIZ:
AZ-1000, Bakı şəhəri, Bülbül prospekti, 30.
Şəhadətnamə 022273

İNDEKS 0282
TİRAJ 3214
SİFARİŞ 684
QİYMƏTİ 60 qəpik

Növbətçi redaktor
İmran BƏDİRXANLI
Çapa imzalanmışdır 00:00